# YAZI

Üç aylıq ədəbiyyat dərgisi

№ 2-3 (18-19)

www.yazidergisi.com

**Yay-payız - 2016**

**Təsisçi və baş redaktor:**
**Azad Qaradərəli**

e-mail ünvanımız:
**azadqaradereli@yahoo.com**

Dərginin elektron ünvanı:
**www.yazidergisi.com**

Facebook ünvanımız:
**http://www.facebook.com/yazıdergisi.edebiyyatjurnalı**

**Dərgi ilə telefon əlaqəsi:**
050-3737121 və 055 -7173403

**BANK HESABIMIZ:**

**HESAB SAHİBİ:**
**VƏLİYEV AZAD VƏLİ OĞLU**
**Hesab nömrəsi: 382100000001713**
**VÖEN 1801515182**
**İBAN**
**AZ75JBBK00000382100000001713**
**BANKIN ADI:**
**Bank of Baku ASC Neftçilər filialı**
**VÖEN 1700038881**
**Kod: 507376**
**Müxbir hesab**
**AZ27NABZ01350100000000007944**
**S.W.I.F.T. JBBKAZ22**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin qeydiyyat reyestri №3467

***Dərginin qapaq hissəsində və içərisində verilmiş rəsm əsərləri ünlü türk rəssamı Abidin Dinonundur.***

# Yaradıcı qrup


Niyazi Mehdi


Araz Gündüz
*(Moskva)*


Cavidan


**Elşən Böyükvənd**
**(Güney Azərbaycan)**


İradə Aytel


Güntay
*(Finlandiya)*


Sevinc Elsevər


Ahmet Yıldız
*( Türkiyə)*


Həsən Səfəri
*(Təbriz)*


Namiq Şaman


Mübariz Örən
*(Baş redaktor müavini)*


Azad Qaradərəli
*(Baş redaktor)*

# BU SAYIMIZDA

**Baş redaktordan......................5**

**Ədəbiyyat xəbərləri...............6-7**

**Yazıçılarnın arxivindən**
Sabir Əhmədli "Yazılmayan yazı" roman, davamı......................**10-18**

**Poeziya, poeziya**
Sevinc Elsevər, Aqşin Evrən, Anar Həbiboğlu, Sara Selcan, Faiq Hüseynbəyli, İltimas Səmimi, Məhəmməd Tanhu, İbrahimxəlil, Xeyrulla Xəyalın şeirləri........**20-32**

**İlk addımlar**
Elmar Xəta və Aysel Abdullazadənin şeirləri.................................. **34-36**

**Nəsr. Hekayə, roman**
Ziyad Quluzadə, Vahid Qazi, Eldəniz Quliyev, Orxan İsmayıl, Çinarə Omray,Nicat Həşimzadə, Vüsal Oğuz, Azad Qaradərəlinin hekayələri ..............................................**37-86**
Yaşar Bünyad "İblis busəsi"( roman davamı) ................................**88-105**

**Güneyin səsi**
Kiyan Xiyavın şeirləri...............
Şirvani Ədilli "Müasir ədəbiyyatımızda güney mövzusu" .....**106-109**

**Çevirmə**
L.Tolstoy, Nazim Hikmət, İ.Brodski, A.Rembo, Fazil İskəndər, Berrin Taşın əsərləri və müasir İran şeirindən seçmələr................**111-132**

**Rezonans**
Ə.Əylislinin kitab yarmarkasına buraxılmaması......................**133-137**

**Ədəbiyyat tariximizdən**
Ə.Ağoğlu "Sərbəst insanlar ölkəsində..............................**138-161**

**ƏDƏBİYYAT TARİXİMİZİN AYIB YERİ**
M. Rahim "Kontrrevolüsioner, kontrabantçı, oğru"..................**161-164**

**Yaddaş**
Tofiq Qəhrəmanov – 70 (dəyirmi masa) ................................**165-169**

**Esseistika**
A.Pellegrini, Niyazi Mehdi, Azad Qaradərəlinin esseləri...........**171-194**

**Bloq Yazıları**
Fatimə Kərimlinin bloqundan seçmələr................................**196-197**

**Palitra**
Rəssam Abidin Dinonun əsərləri...............................**198-199**

**Yeni nəşrlər ...............................200**

# BAŞ REDAKTORDAN

"Yazı"nın 5 yaşı tamam oldu. Düz 18 nömrə, 3600 səhifə orjinal (tərcümələr də orjinal sayılmalı məncə) ədəbi material çap etmişik. Çap etdiyimiz gənclərin bir çoxu "Yazı"nın kəşfi idi. İndi adları ədəbi aləmdə yaxşı bəllidir. Çevrəmizdə adlar var ki, dərgimizin ətrafında bir halə kimidirlər. Yəni onlar artıq "Yazı"nın təkcə yaradıcı qrupunun üzvləri deyillər, həm də Azərbaycan ədəbi sferasında söz sahibidirlər.

Dərgimizdə çap olunmağın elə də çətinliyi yoxdur: yetər ki, istadadla yazılmış əsər olsun. Hətta bu cür əsərlərin pinti redəktəsini də boynumuza götürürük. Əlbəttə, buna qəti imkanımız olmaya-olmaya. Amma çiynini yük altına verəndə gərək təntiməyəsən. "Qazı olma, başın ağrımasın" deyiblər.

Ən böyük çətinliyimiz maliyə problemidir. Amma hələ ki, bunu önləyə bilmişik. Dostların, "Yazı"sevərlərin hesabına etmişik bunu. Hə, bir şeyi bilin: hər adamdan da yardım qəbul etmirik. Ya gərək ayrı tələbdə olmasın, ya da çap etdirmək istədiyi yazı (özünün, yaxud başqasının) istedadla olsun...

Bu beş ildə Yaradıcı qrupun tərkibi dəyişdi, yeniləndi. Çıxanlar da bizimdir, yeni gələnlər də. Əlbəttə, tamam üz döndərib gedənlər də oldu. Uğurlarına xeyir.

Ən böyük itkimiz Yaradıcı qrupun üzvü Rafiq Tağının qətli oldu. Ustad nasirin özündən sonra xatirəsini əziz tutduq, yazılar çap etdik haqqında, vəfatının ildönümlərini qeyd etdik. Amma bu boşluğu heç nə ilə doldura bilmədik.

Bu gün əsərləri dünyada yetərincə çap olunan Əkrəm Əylisli dərgimizçün xüsusi olaraq əsərlər yazdı. Bundan başqa bir dünya şöhrətli sənətkarımız Rüstəm İbrahimbəyovun da əsərini çap etdik. Mərhum sənətkarımız Sabir Əhmədlinin arxivindən verdiyimiz nəsr nümunələri oxucularımızın marağına səbəb oldu.

İlk nömrəmizdən bu yana Güney Azərbaycanın qələm sahiblərinin modern ədəbiyyat nümunələrinə yer ayırdıq. Türkiyədə, İranda, ABŞ-da, Finlandiyada, Norveçdə, Almaniyada başqa ölkələrdə yaşayan həmvətənlərimizin də yazılarına diqqət göstərdik, onların ən maraqlılarını oxucularımıza çatdırdıq.

Qardaş Türkiyə ədəbiyyatına xüsusi yer ayırmağımız təsadüfi deyil. Bu ölkənin ədəbi simalarının dünyaya açılması (Nazim Hikmət, Orxan Pamuk, Əlif Şəfəq və sair) onların daha özgür, daha modern ədəbiyyatın yanında olduğuna işarədir. Biz də buna söykənərək qardaş ölkənin həm klassik, həm müasir ədəbiyyat xadimlərinin əsərlərini dilimizə çevirib oxucularımıza çatdırmağı özümüzə borc bildik.

Dünya və rus ədəbiyyatının klassik və müasir ədəbi qüvvələrinin ən seçilən nümunələrini "Yazı"da vermək məramımıza da sonacan sadiqik.

Dəyərli oxucular! Bu gün Azərbaycan oxucusu (həm də yazıçısı), nə yazıqlar ki, çörəklə imtahana çəkilib. Bütün zamanlarda sözdən, ədəbiyyatdan qorxan iqtidar sahibləri onun çəmbərini daraldıblar. Heyhat! Söz aşiqləri nə yolla olur-olsun "Yazı"nı ayaqda tutmaqda qərarlıdırlar. Bildiririk: sonuncu "Yazı"sevər qalanacan dərgimizin nəşrini dayandırmayacağıq.

Bəsirət gözünüz bağlanmasaın!

# ƏDƏBİYYAT XƏBƏRLƏRİ

## Kanada İnsan Haqları Muzeyində Mirzə Fətəli Axundov




Muzeydəki ilk qalereya “İnsan haqları nədir?” adlanır. Burda “tarixin 100 mühüm anı” təqdim olunur; bəşəriyyətin insan haqları anlayışını qavramasında irəliyə doğru atdığı addımlar divarlarda asılmış lövhələrdə qısa mətnlərlə xatırladılıb. Bu qalereyada həmçinin ən qədim dövrlərdən üzü bəri insan haqları sahəsində müstəsna xidmətləri olan adamların şəkilləri (rəsmləri yaxud fotoları) asılıb. Filosoflar, dövlət adamları, ictimai hərəkatçılar, və s. təxminən 40-a yaxın şəkildir. 19-20-ci əsrlərdən də bir xeyli adamın şəkilləri var. Keçmiş SSRI coğrafiyasından isə Mirzə Fətəli Axundovun şəkli var! Azərbaycan yazıçısı və filosofu, Islam dünyasında qadın haqları məsələsini qabardan ilk fikir adamı kimi təqdim olunur.

Kanada İnsan Haqları Muzeyində çəkilmiş foto

Maraqlıdır ki, şəkli də SSRI zamanı, 1962-ci ildə 150 illik yubileyi zamanı çıxan bir poçt markasından götü-rüblər. Əslində şəkil markanın çox iri ölçüdə (asılmış digər şəkillərin ölçüsündə) böyüdül-müş formasıdır. (Xəbərdə xaricdə yaşayan soydaşımız Azər Əhmədovun yazısından istifadə olunub.)

## Man Booker Beynəlxalq mükafatı Koreyalı yazıçıya verildi



İnsan qəddarlığına etiraz olaraq ət yeməkdən imtina edən qadın haqda "Vegetarian" romanı 2016-cı ilin "Man Booker" Beynəlxalq Kitab Mükafatını qazandı.

50 min funt sterlinqlik (73 min ABŞ dolları) mükafatı romanın müəllifi koreyalı Han Kang qaydaya görə, kitabı ingilis dilinə çevirmiş britaniyalı tərcüməçiDeborah Smith ilə bölüşür.

Londonda təqdim olunan mükafatın münsiflərdən biri Boyd Tonkin deyib ki, Cənubi Koreyada doğulmuş müəllif Han Kang'ın romanı "unudulmaz və orijinal" idi.

Bu il mükafatın uzun siyahısında 12, qısa siyahısındaOrhan Pamuk, Elena Ferrante, Angolan Wordsmith Jose Eduardo Agualusa, Yan Lianke, Robert Seethaler kimi tanınmış müəlliflərin son romanları vardı.

Bədii tərcümə üzrə də ən böyük mükafat sayılan Man Booker-i qazanan "Vegetarian" romanının tərcüməçisi Deborah Smith isə deyib ki, Koreya dilini 21 yaşında öyrənməyə başlayıb, məhz bu dili ona görə seçib ki, ingilis-koreya dili tərcüməçisi qıtlığı varmış."O zamana qədər Koreya mədəniyyəti və

adamlarıyla heç bir kontaktım olmamışdı".

"Vegetarian" romanı Cənubi Koreyada bir universitetdə yazıçılıqdan (Creative Writing) dərs deyən Han Kang'ın ingilis dilinə tərcümə edilən ilk romanıdır. O, bundan əvvəl daha bir roman (Human Acts) yazıb. Xanım Kang nüfuzlu mükafatı alan ilk koreyalıdır.

## İran universitetlərində Azərbaycan dili və ədəbiyyatı fənni üzrə tədrisə başlanılır




İranın Təhsil və Qiymətləndirmə Təşkilatı Universitetlərin gələn il qəbul imtahan proqramına Azərbaycan dili və ədəbiyyatı fənnini də əlavə edib.

Humanitar fənlər üzrə tələbə qız və oğlanlar 2016-2017-ci il tədris ilində Azərbaycan dili fənni üzrə də təhsil ala biləcəklər. İranın Elm, Təhqiqat və Texnologiya Nazirliyinin icazəsi ilə Azərbaycan dili və ədəbiyyatı fənni universitetlərdə bakalavr pilləsi üzrə tədris olunacaq. Bu fənn ilk dəfə olaraq qəbul imtahanlarında ərəb, fars fənləri ilə yan-yana göstəriləcək.

Qeyd edək ki, İran Konstitusiyasının 15 və 19-cu maddələrində ana dilində tədris məsələsi göstərilib, lakin bu iki maddə uzun illər idi ki, icra olunmurdu. Prezident Həsən Ruhaninin hökuməti bu maddələrin icrasına başlayıb. Konstitusiyanın 15-ci maddəsində göstərilir ki, “İran xalqının rəsmi yazı və danışıq dili fars dilidir. Sənədlər, yazışmalar, rəsmi sənədlər və dərsliklər bu dildə olmalıdır. Lakin yerli danışıq dillərindən mətbuatda istifadəsi və məktəblərdə və universitetlərdə fars dili ilə yanaşı həmin dillərin tədrisi azaddır”. Prezident Ruhani hakimiyyətə gəldikdən sonra məktəb və universitetlərdə yerli dillərdə (Azərbaycanca, kürd, bəluç və türkmən) tədrisə icazə verib. (APA)

## Nobel laureatlı Orxan Pamuk məhkəməyə verilib



Yavuz Konuk adlı şəxs, yazıçı Orxan Pamukun "Qırmızı saçlı qadın" romanının 114-cü səhifəsində yazılanların türk əxlaqına zidd olduğunu əsas gətirərək məhkəməyə müraciət edib.

O, şikayətində kitabın nəşriyyatlardan, kitab mağazalarından yığılmasını və bu hissənin çıxarılmasını tələb edib.

Yavuz Konuk ərizəsində Orxan Pamukun türk xalqından üzr istəməli olduğunu da bildirib.

# "YAZI" DƏRGİSİNİN 5 YAŞI TAMAM OLUR: *TƏBRİKLƏR, ARZULAR, TƏKLİFLƏR*

İmzasını yaxşı tanıdığım bir neçə görkəmli yazıçının bir yerə toplaşıb "Yazı" adında dərgi yaratması, bu işdə böyük yazıçımız Rafiq Tağının xeyir-duasının olması, məndə ilk gündən bu dərginin ciddi bir ədəbi hadisəyə çevriləcəyinə ümid yaratmışdı. Ümidlərimdən doğrulanları da oldu, boşa çıxanları da. Ümidimin boşa çıxan kəsimi dərgini yaradanların ədəbiyyat uğrunda yaratdıqları birliyi qoruya bilməməkləri oldu. Ancaq məni heyrətə salan və ümidlərimi doğruldan cəhət görkəmli yazıçı Azad Qaradərəlinin, çox vaxt belə hallarda özünü göstərən küskünlüyə qapılmaması, bezib tutduğu yoldan çəkilməməsi oldu və "Yazı" dərgisi başqanının iç sözünü bilən birisi kimi deyə bilərəm ki, Azad bəyin bu dərgini indiyədək yaşada bilməsi, onu adi hadisə olmaqdan çıxarıb bir ədəbiyyat möcüzəsinə çevirdi.

"Yazı" dərgisi nəşrə başlayanda, ortalıqda hakimiyyətin qoltuğuna sığınan rəsmi statuslu ədəbi dərgilərdən başqa, hələ öz sözünü deməkdə olan "Alatoran" dərgisi də var idi və adama elə gəlirdi ki, bu iki müstəqil dərgi ədəbi cameənin müxtəlif təmayüllü, müstəqil yaradıcılarını birləşdirmək üçün yetərli olacaqdır. Ancaq çox keçmədən "Alatoran" da öz fəaliyyətini dayandırdı və Azad Qaradərəli heç bir maliyyə dəstəyi olmayan, müstəqil statuslu "Yazı" dərgisi ilə ədəbi mühitdə təkbaşına qalası oldu. Bax, burada Azad bəyin ədəbiyyat sevgisi özünün gücünü ortaya qoydu və onun "öldü var, döndü yox" iradəsi "Yazını" da tez açıb tez solan ötəri bir hadisəyə çevrilməkdən qurtara bildi.

Sözün düzü, Azərbaycandan uzaqlarda yaşadığım üçün "Yazı" dərgisinin ətrafında gedən prosesləri yetərincə izləmək imkanım yoxdur. Ancaq dərginin gec də olsa, əlimə gəlib çatan saylarına baxdıqca, – görülən işdən gül qoxusu gələr deyiminə uyğun olaraq, – sevinməmək olmur. Ən başlıcası "Yazı" dərgisi bu uzun illər ərzində onun başqanının çalışmaları ilə öz müstəqilliyini qoruyub saxlaya bildi və bildiyimə görə, ədəbiyyatın maraqlarını müxtəlif şirnikləndirici təkliflərin təhrikindən qoruya bildi. İllərlə oxucularla ünsiyyət qura bilməyən yazıçı və şairlərin "bir kitablıq" əsərlərinin "Yazı" dərgisində yayınlanması onlar üçün ədəbi mühitə qovuşa bilmək üçün bir körpü oldu, rəsmi saytların "qapıdan qovduğu" neçə-neçə gənclər "Yazı" dərgisinin umacaqsız yardımı ilə sözlərini bəlli bir auditoriyaya çatdıra bildilər.

Kitabın oxunmadığı, insanların gündəlik qayğılardan vaxt tapıb öz daxili aləmləri ilə məşğul ola bilmədikləri bir dönəmdə, “Yazı” dərgisi gündüz vaxtı əlində çıraqla insan axtarışına çıxan Diogensayağı, ədəbiyyata olan marağı sönməyə qoymamaqla yanaşı, həm də, ədəbi mühitin canlanmasında da özünün gərəkli və böyük işini görməkdədir.

İnanmaq istərdim ki, Azad bəyin başladığı və bütün ağırlığını çiynində daşıdığı bu böyük iş də boşuna getməyəcək, “Yazı” dərgisi tarixin sınağından uğurla çıxıb, “Əkinçi”, “Molla Nəsrəddin” kimi fundamental mətbuat abidələrimizin sırasında özünə layiq olan bir yer tuta biləcəkdir.



***Araz Gündüz (Moskva)***

Qırx il bundan əvvəl - 1976-cı ildə Bakıda, o vaxtkı APİ-nin - Pedoqoji İnstitutun yataqxanasında qeyri-formal da olsa, bir ədəbi dərnək fəaliyyət göstərirdi. Onun əsas təşkilatçılarından biri Azad idi. O vaxtlar bir şerimi, bir hekayəmi deməyə ürək eləməzdik, bir yazımı oxumaq istəyirəm deyirdik.

Zaman keçdi, Azad Qaradərəli təsis etdiyi və baş redaktoru olduğu jurnalı "Yazı" adlandırdı. Bu jurnalı oxuyan hər kəs müasir Azərbaycan ədəbi mühitini tanıdığı kimi dünya ədəbiyyatı və incəsənətinin sayılıb seçilən simalarından da xəbər tutur. Yazının 5 illik fəaliyyətində jurnalın əsas ağırlığını çiyinlərində daşıyan dostum Azad Qaradərəliyə və onunla əməkdaşlıq edən həmkarlarına daha böyük uğurlar arzulayıram.



***Arif Həkimoğlu kino işçisi***

“Yazı” jurnalını ilk çıxdığı gündən alıram. Gah dostum Azad Qaradərəli göndərib, gah da özüm köşklərdən almışam. Onu deyim ki, bu jurnal sözün yaxşı mənasında adamda bir asılılıq yaradır – kitab, jurnal, mütaliə asılılığı.

Belə çətin zamanda bu qalınlıqda jurnal buraxmaq hünər istər. O da ki, dostum Azad Qaradərəlidə və onun jurnalının redaksiya heyətinin üzvlərində. Maşallah, Türkiyə, İsveç, Finlandiyadan yazanlar var “Yazı”ya. İllah da Təbrizdən! “Yazı”nın bu amalı ürəyimizdən xəbər verir. Beş yaşı mübarək olsun!



***Ramazan Hüseynov***

# YAZIÇILARIN ARXİVİNDƏN

## SABİR ƏHMƏDLİ



## Yazılmayan yazı memuar roman

**(Əvvəli ötən saylarımızda)**

Əksəri onun dostları, oturub durduğu cavanlardı. Ağsaqqalları da qarasaqqalları da özləri idi. Köçəri Babayev, Yəhya Hüseynov, Əhməd Hüseynov – bu yaşlı idi, onlardan xeyli qabaq yuxarı vəzifələrdə olmuşdu, indi MTS-in direktoru idi.

Qonşu rayonların katibləri bir-biri ilə görüşür, işləriylə maraqlanırdılar. Katiblərin əksəri bir hökumətin rəmzi təki bir-birini qoruyur, çalışırdılar. Aralarında da əzazil, rüşvətxor, arvadbaz, acgöz də vardı. Amma qanacaqlı, xalqa yanan, mədəni, savadlı katiblər də vardı.

Başlıcası planların, daha artıq, pambıq əkən rayonlarda pambıq planının doldurulmasıydı. Bu pambıqla baş kəsmək təki bir əməldi. Pambıq yığımı planını ödəməyən katibin taleyi havadan asılı idi. İstəyirsən ağzınla quş tut, qur, yarat, pambıq planını doldurmamısansa, töhmətdən qurtula bilməyəcəksən. Elə ki, mövsüm gəldi, payızın ilkindən başlanırdı, hay-həşir. Məktəblər bağlanır, xəstəxanayacan bütün müəssisələrin işçiləri göndərilirdi aşağı, Arazqırağına pambıq yığmağa. Daha bu töycüyə öyrənmişdilər. Hətta bundan həvəsə gələn, qazananlar da olurdu.

Cəbrayıl elə iri rayon deyildi. Vaqif çəmini tapıb işləyirdi. Hadisələr də baş verirdi. Alıkeyxalı, Maşanlı, Hovuslu kəndlərində qiyama bənzər işlər baş vermişdi. Bir qismi deyirdi keçəcəyik İrana, bir qismi kolxoz sədri ilə tutaşırdı, bir yandan da Moskvanın başlanan “birləşdirmə”, “iriləşmə”, “ayrılma” tədbirləri aranı qarışdırırdı. Bu kəndi o biriynən, onu bir başqasıynan birləşdirir, guya, təsərrüfatı iriləşdirirdilər. Kəndlər, el obadı, bir-birilə yola gedəcəkdimi. Bəzən əzalı kəndçi qalxırdı ayağa, tökülüşüb gəlirdilər rayon mərkəzinə. Kənd kəndlə birləşmək istəmirdi. İndiyədək öz əlləri, öz başları olmuşdu. Öz məhsulları, öz ambarları. İndi mərkəz keçirdi qonşu kəndə. Kolxoz sədri kim olacaqdı, hansı kənddən, mühasib hardan, idarə işçiləri necə seçiləcək, məhsul, varlı-karlı vəzifələri kimə verəcəkdilər? El elə sığar, ev evə yox. Bu işlərin üstə ardı-arası kəsilməz çəkişmə, didişmə başlanırdı. Bir də görürdün, çətinliklə birləşdikləri yerdə, təzədən ayırır, başqa cür birləşdirirdilər. Bu dəyişmələr, yalnız bir rayonun, iki kəndin miqyasında yox, rayonlar arasında baş verir. İri, xırda rayonları görürdün

birləşdirir, ayırırdılar. Bunca idarə, müdir, rəis, necə olacaq? Bu rayon ləğv edildikdə bəs onca işçi, müdir, məmur haraya getsin, harada işləsin? Yenicə birləşdirdikləri yerdə görürdün təzədən ayrıldılar. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları arasında dönə-dönə ayrılma, birləşmə olmuşdu, gah bu ona, gah o buna…

Bir ara Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarını birləşdirdilər, Cəbrayıl oldu mərkəz. Onda istehsalat idarələri yaradıldı, bütün təsərrüfat işləri tapşırılırdı bu idarəyə. Moskva, MK-nın bir məşhur plenumunda məsələ belə qoyuldu ki, raykomlar əsla təsərrüfat işlərinə qarışa bilməz, onlara deyəsən indi heç iş də tapşırmırdılar, siyasi "qəzet oxumaq" və sairə olurdu raykomun sahəsi. Hətta, səhiyyə, maarif işləri də yerlərdə istehsalat idarələrinə tapşırılırdı. Partiya təlkilatları büsbütün gözdən düşdü. Devin canı şüşədə olan təki, Sovet hökumətinin də canı Kommunist partiyasında idi. Partiyanı gözdən salmaq, "hegemon"luğu əlindən almaqla necə böyük səhvə yol verdiklərini ölkə başçıları tezliklə anlayacaqdılar. Qayıdacaqdılar köhnə sınanmış partiya rəhbərliyi iş üsuluna.

Cəbrayıl, Zəngilan, Qubadlı bir ilə yaxın birlikdə oldu. İstehsalat idarəsinin rəisi Vaqif idi, indi əslində hər üç rayonun birinci katibləri də Vaqiflə hesablaşırdı. "Raykom öldü" deyirdilər, onların əlindən yanıqlı olanlar. Vaqifin Cəbrayıldan başqa, Qubadlı, Zəngilan arasında da nüfuzu vardı, xatirini istəyirdilər. O, əvvəldən yola gedən, düşüncəli adamdı və hər bir kəsə münasibətdə də haqqı, ədaləti gözləyəndi. Çox başına ip salmaz, açıb ağartmazdı. Bir ara mənimlə də yaxın olan bir cavan işçi onun barəsində gileylənir, bir az da ərköyünlük eləyirdi. Söhbət düşdü, Vaqif mənə üz tutdu, əlini qaldırıb çiyninə, sonra başına qoydu : "Mən adamı burayacan çıxmağa qoyaram – çiyinə – amma bura qoymaram – başını göstərdi". Az danışardı, tədbir tökərdi, ondan qədim kişilərin həniri duyulurdu. Sözündə-söhbətində bir müdriklik, ağıl, təmkin vardı. Gözütoxdu.

Yeni qərarla Zəngilan və Qubadlını bir istehsalatda birləşdirdilər, Füzuli ilə Cəbrayıl da ikisi birləşdi. Mərkəz oldu Füzuli və bu Cəbrayılın, cəbrayıllıların kəskin etirazına səbəb oldu. "Məhəmmədin oğlu rayonu satdı!" – deyirdilər. Füzuli əldən ağıza qalmış, xırım-xırda yer deyildi, böyük təsərrüfatdı, işçiləri, ziyalıları vardı. İndi qaldılar bu istehsalat idarəsində kimlər işləyəcək ,Füzulinin öz kənd təsərrüfat mütəxəssisləri necə olacaq.

İstehsalat idarəsi Füzulidə idi və işçilərin demək olar hamısını Vaqif Cəbrayıldan apardı. Füzulilər etiraz etdilər. "Bəs biz, ali təhsilli kənd təsərrüfatı mütəxəssisləri?" Əksəri aparatın özündə baş idarədə işləmək istəyirdi. Axı, az qabaq onlar istehsalat idarəsi plan şöbəsinin rəisi, mühasib, aqronom, veterinar, böyük , varlı, karlı işlərdə idilər, gedirlər, yoxlayırdılar. Bütün kolxozlar onların yoxlaması, qərarı, göstərişi üzrə tərpənirdi. İndi bu yüksək idarə, vəzifə əllərindən çıxmışdı. Hər gün neçəsi gəlirdi İstehsalat idarəsinə, Vaqif Əhmədovun qəbuluna. Ondan vəzifə istəyirdilər. Əksəriyyətinin də döşündə bir romb ali təhsil nişanı, universitet bitirmişdilər. Bunun qabağında Cəbrayıldan oraya Füzuliyə Vaqifin apardığı işçilərdən yalnız birinin ali təhsili vardı, bunca işçi arasında tək bircə də döş nişanı, ali təhsil göstəricisi. İşi belə görən cəbrayıllılar belə bir kələk qurdular. O bir nişan vardı, Yəhya Hüseynovun, onu Cəbrayıldan səhər-səhər Füzuliyə gələndə hər gün biri

döşünə sancdı. İçəri girən, füzulili tanış-bilişlər, vəzifə iddiaçıları, təhsilə görə üstünlüklərin sinələrindəki ali təhsil nişanı ilə gözə soxanlar, baxdılar gördülər, sən ölmə, cəbrayıllıların da hamısı ali təhsillidir, mütəxəssisdir, hamısının da döşündə ali təhsil nişanı, bir nişan bütün Cəbrayıldan gələn işçilərin döşündə gəzirmiş …

Füzuli bizə yaxındı, dayılarımız, xalalar, qohum-əqrəba orada idi. Hətta Cəbrayıldan çox, Füzulidə idi bizim qançəkərlərimiz. Buna görə də elə qiybət törənirdi, Vaqif üçün nə Cəbrayıl, nə Füzuli. Füzuli daha böyük, burada əksəri ona simsardı. O, Cəbrayılın təəssübünü çəkmədi, füzulilərə üstünlük verdi. Belə söz-sov törənirdi, amma xalalar, xala uşaqları, dayılar əlbəttə onların beləcə yaxın bir adamın bu rayona gəlişi, başçılığı ilə öyünürdülər. Ərkləri ötürdü, füzulilər indi də Vaqifin barəsində hörmətlə danışır, onu yaxşılığa xatırlayırlar.

Füzuli ilə Cəbrayıl birləşmədə çox qalmadı. Bütün respublika miqyasında birləşmiş rayonları yenidən ayırmağa başladılar, hər kəs qayıtdı özünə, Cəbrayılla Füzuli də ayrıldı, hər biri ayrıca rayon oldu, hər birinin də öz köhnə sərhəddi, kəndləri, təsərrüfatı qayıtdı özünə. Heç yapışmamış, yenidən sökdülər, bitməmiş, qopardılar. Belə ayrılma-birləşmələr təkcə rayonlar, respublika ərazisi boyu deyil, nəhəng bir ölkədə başdan-başa gedirdisə, gör onda nə qatma-qarışıqlıq düşür, keşməkeş qopurdu. Yerini isitməmiş, durğuzur, bunu ona, onu buna qarışdırırdılar. Bunlar hələ hakimiyyətinin ötkün-zodlu vaxtı Xruşşov barədə mənim Vaqifin yanında “Gic Fyodr” adlandırdığım Nikitanın törətdiyi əməllər, sınaqlardı.

Xruşşovu hamı gic sayırdı, bərk vurandı. Bakıya gəlib Neft daşlarına gedəndə, ordan motorlu qayıqda göyərtədə dolananda, başında nazik ağ şapqa təpəsinə atılmış halda o, əsil alkaşa oxşayırdı. Bununla belə Xruşşov tarixi iş görüb. Tarix böyük bir cinayətin faş edilməsini onun öhdəsinə qoymuşdu. Bizim nəsil göz açıb Lenin, Stalin eşitmişdik. Atadan-anadan artıq bilirdik onları. Allah, peyğəmbər qara sıx-qıvrım saçlı, bığlı kişi idi. Vaqif danışırdı, Moskvada oxuyarkən bir kərə restoranda oturubmuşlar. Bir az aralı masada dörd-beş nəfər gürcü əyləşibmiş. Oradan baxırmışlar bunlara. Vaqifin onda lap yaxşı vaxtı idi. Boylu-buxunlu idi, uşaqlardan boyu uzundu. Arıqdı, əsgərliyə gedəndə onun boyu məncə Cəmildən də uca idi. Əsgərlikdən amma büsbütün yara töküb gəlmişdi. Sonra vəzifə sahibi olandan, Moskvada oxumağa başlayandan paytaxt ona düşmüşdü. Moskvada yaxşı yeyir, içir, özlərinə qulaq asırdılar. Hündür, kürəkli, bizim nəslimiz təki beli azacıq əyilmiş olsa da, bunun özü də ona bir kişi cüssəsi verirdi. Bədəncə olduğu təki sifətcə də, kişi surətində idi. Qıvrım saçları alnından geri daranır, dik dayanırdı. Sifət əsl kişi görünüşündə idi, qaşlarının ucu əyilmiş təki, kipriklər tutaş, gözləri ciddi baxırdı, həm də insanlıq, ağıl, müdriklik sezilirdi. Bığ saxlayırdı, burnu azacıq uzun təhərdi, nə qədər ki, arıqdı, burnu uzun görünürdü. İba əmim danışırdı, bir kərə Vaqiflə Bakıda tramvayda gedirmişlər. Bir kişi baxıb Vaqifə və əlini dizinə çırpıb deyib: “Vay dədə buruna bax!” Amma kökəldikdən, ətləndikdən sonra burnu da sifətinə görə uyğunlaşmışdı.

Moskvada restoranda həmin dörd nəfər gürcüdən biri qalxıb gəlib onların yanına. Yerli yoldaşlar əyləşibmiş Vaqiflə. Gürcü Vaqifə çox istiqanlı tərzdə bildirib ki, o, büsbütün Stalinə oxşayır. Onları qonaq ediblər. Oxşayır, çox oxşayırdı. Amma boyca

ondan hündür olardı. Stalinə xidmət göstərən bir macar dərzi, bir kərə televiziyada söylədi, Stalinin boyunu qaldırmaqdan ötrü onun çəkmələrinin dabanını hündür qoyurmuşlar, şineli isə yerəcən uzunmuş çəkmənin dabanlarını örtürmüş, onların hündür qoyulduğunu gizlətsin: yəni onun boyunun dabandan qaldırıldığı bilinməsin.

Stalin öləndə bütün ölkə ağlamışdı, əlbəttə həbsdə olanlardan sürgündəkilərdən başqa. Bir xeyli də həkim həbs etdilər. Az vaxt içində Stalinə sədaqətli adamların axırına çıxdılar, Beriya, Bulqanin, Malenkov, Molotov, respublikalarda onun sədaqətli adamlarını, Azarbaycanda Mir Cəfər Bağırovu məhv etdilər. Bundan sonra Stalinin özünə girişmək elə bir çətinlik törətmədi. Xruşşovun fitnəsilə şəxsiyyətə pərəstiş çıxdı ortalığa. Partiyanın XX qurultayında şəxsiyyətə pərəstişin dəhşətləri açıldı. Aydın oldu ki, dünya proletariatının başçısı sayılan Stalin qarşı-qarşıya müharibədə – Böyük Vətən müharibəsində Hitlerin qırdığından çox sovet adamı məhv etmişdi. Bu doğrudan da olduqca ağır fakt idi. İctimai fikirdə, siyasət aləmində, təsərrüfatın özündə Stalin adı düşmən, cəllad, zülmkar kimi çəkilməyə başladı. Yüzlərlə kitab, məqalə yazıldı, filmlər çəkildi – bədii, sənədli Stalini büsbütün rüsvay etdilər. Özü də Stalinin əvvəlcə Leninə isnadla, ona arxalanmaqla ifşa etdilər. Az sonra, indinin özündə keçəcəkdilər Leninə sataşmağa.

Hadisə baş verəndə adamı düşündürür: bu, baş verməliydimi? Onsuz ötüşmək olardımı? Bu iş kiminsə iradəsilə oldu , ya ictimai-tarixi zərurətdi? Ən böyük hadisələri, qəzaları bu sualla araşdırırsan. Eləcə də Stalinin taleyi, Stalin imperiya başçısı idi, yoxsa yeni bir quruluşun yaradıcısı? Onun yazdıqları, söylədikləri həqiqətdi, yoxsa həqiqəti, gerçəyi pərdələmək üsuluydu. Bütün bunlar barədə onun başçılıq etdiyi cəmiyyətdə yetişmiş cavanlar düşünə bilməzdilər. Onlar Stalini sözsüz sevirdilər və rəhbəri, dünya proletariatının, dünya kommunist hərəkatının başçısını heç zaman belə sorğular, suallarla qarşılaşdırmazdılar. Amma ahıl, yaşlı nəsil, ağlı başında olan, ayıq insanlar vardı. Onlar görürdülər Leninin, Stalinin qurduğu yeni hökumət, fırıldaqdır, qondarmadır. Belə düşünənləri Stalin xalq düşməni, onları istəməyən sovetin ziddinə olan qüvvə kimi məhv etdi, aradan götürdü. Sibir, Maqadan, Kalıma. Sürgünlər, zindanlar, həbslər. Otuz milyon insan məhv edildi, onlar sovet quruluşunun saxtalığını, eybəcərliklərini görür, deyirdilər. Beləliklə sosializmin, kommunizmin yaradılmasına əngəl törədirdilər. Böyük ictimai-siyasi hadisələr tarixi zərurətdən, zamanın gedişindənmi doğulur, yoxsa şəxsi, bir nəfərin istəyi, iradəsiylə. Ya da hər ikisi, həm zərurət, hər bir adamın istəyi qovuşur, birlikdə gedişata təsir göstərir. Çarizmin sonu, Nikolayın taxt-tacdan yıxılması nədir? İctimai quruluşun dəyişməsimi, kommunistlərin, bolşeviklərin öyrətdiyi təki bir ictimai farmasiyanın-kapitalizmin başqa bir ictimai-tarixi formasiya-sosializmlə əvəz olunmağı zərurətinin nəticəsidirmi? Yoxsa, indi yozulduğu təki Vladimir İliç Lenin əziz qardaşının Aleksandrın hökmülə qətlə yetirilməsinin intiqamını almışdır? Həm də qardaşının əvəzinə Nikolayı bütün ailəsilə birlikdə məhv etmişdir? Belə çıxır ki, V.İ.Lenin qardaşının qısasını alamqdan ötrü tarix o sayaq ictimai şərait yaratmışdır, ya Lenin özü bu şəraiti yaratmışdır. Bütün xalqı ictimai qayə, amal altında elə

səfərbər etmiş, ayağa qaldırmışdır ki, qardaşının da qısasını almışdır.

Düşündürücü hal budur. Bu dəyişiklikdə ictimai səbəb başlıca rol oynamışdır, yoxsa Leninin şəxsi-qərəz qısası duyğusu? Əlbəttə, sonralar da, indi də bu yaxınlara qədər sovetlər, kommunistlər əsla belə düşünməyə yol verməzdilər: Lenin inqilabı qardaşının qısasını almaqdan ötrü törətmişdir. Heç inqilabi ədəbiyyatda buna işarə yoxdur. Şəxsi intiqam duyğusu, bəşəri hərəkat zamanın zərurəti olan inqilabı dəyərdən salar, daraldardı onun miqyasını. Adiləşir, cılızlaşardı. Dünyanın gedişini dəyişdirən inqilab. Tarixdə belə hadisələr çox olmuşdur. Mübahisəlidir. Bu hadisə kiminsə törətdiyi, yoxsa, zamanın gedişi, nəticəsi, ümumbəşəri işdir.

Hadisə nədən baş verir? Məni indi, bizim bunca keşməkeşli zamanımızda bu düşündürür. Necə oldu, dünyaya meydan oxuyan kommunizm məfkurəsi iflasa uğradı, fıs çıxdı? Necə oldu o boyda nəhəng dövlət dağıldı? Azərbaycanda, bütün respublikalarda milli hərəkatlar nədən baş verdi, nəhəng imperiya yıxıldı. Müstəqil respublikaların yaranmağı ayrı-ayrı fədakar insanların, şəxsiyyətin istəyi, təpəri ilə baş verdi, yoxsa bu da marksistlərin öyrətdiyi təki, tarixi zərurətin yetirməsi idi.

Bu sarıdan ən uyarlı V.İ.Leninlə İ.V.Stalinin tutaşdırılmasıdır. Lenin çar hökumətinin yıxılmağına başçılıq etdi. Bu yerdə onu işə qoşan onun şəxsi acığı, qəzəbi imiş? Yoxsa o başlıcası tarixi zərurətin ifaçısı olmuşdu? Məncə, hər ikisi vardı. Lenində qərəz, intiqam duyğusu güclüydü. Hadisə bizə o zaman yaxın, təsirli olur ki, o, şəxsən, bizə toxunmuş olur. Bunda hadisəyə bütün varlığınla qoşularsan. Lenin Romanovlar hökmünün məhv etdiyi, olduqca sevdiyi böyük qardaşını öldürməsini kimsəyə bağışlamazdı. Unutmazdı anasınınn, Aleksandrı qurtarmaqçün çar Aleksandrın ayağına getməsini. Bu, zəkalı bir gənc, heysiyyətcə həssas oğlanın qisas duyğusunu elə gücləndirmiş, alovlandırmışdı, o haqqın inqilabda tapıldığına büsbütün əmin olmuşdu. Var qüvvəsilə elə bir işə qoşulmuşdu, orada – bu böyük hadisənin içində onun sevimli qardaşının qısası da alınacaqdı. Bütün əzilənlərin, bütün məhv edilmişlərin intiqamı alınacaqdı. Nikolayın yalnız özünün deyil, doğma uşaqlarının, ailəsinin də məhv edilməyi, qısas duyğusundan törənmişdi. Şəxsi haqq-hesab bütünlükdə xalq çarpışması, inqilabın bəşəri çəkisinə bir qədər əsgiklik gətirdiyindən, inqilab rəhbərləri şəxsi istəyin üstündən keçir, qabartmırdılar. Əslinmdə Leninin başçılıq etdiyi dağıdıcı, yıxıcı inqilabda şəxsi istək heç də unudulmamışdı. Əksinə, intiqam duyğusu böyük ictimai qayə, bəşəri amalla çulğaşmışdı. Lenində şəxsi qərəz, intiqam hissi vardı. Bu mənada o diktatordan artıq, qısascı idi. Bizcə, bu duyğuya görə onunla Stalin bir-birindən xasiyyətcə, məsləkcə də ayrılırlar. Stalin hadisələrə əsla şəxsi münasibət üzündən yanaşmayıb. O nə edibsə dövləti, cəmiyyəti yaşatmaqdan ötrü etmişdir. Stalin Lenindən fərqli olaraq, intiqam, qərəz duyğularından azad insan idi. Lenin ondan da çox qırmış, qəzəbindən milyonları məhv etmişdi. Stalin öz şəxsiyyətini də yalnız və yalnız sovet quruluşunu, yeni quruluşu yaşatmaq, möhkəmləndirmək, yüksəltməkdən ötrü şişirtmişdir. O, ictimai, tarixi miqyasda düşünmüşdür. Ailəsinə, uşaqlarına, özünə və ətrafına da yalnız bütünlükdə ölkənin mənafeyi, hətta dünyanın istəyi, ictimai ideal mövqeyindən yanaşmışdır. O, diktatordan artıq imperatordu, dövlət

başçısı idi. Dövlətin, ölkənin taleyi, onun istədiyi yöndə aparılırdı. Stalin doğma övladını bu ideal üçün qurban verməkdən əsla çəkinməzdi. Elə bu sayaq da yaşayırdı. Oğlu Yakov almanlara əsir düşdü. Doğma övladın itgi, yanğısındansa, onun övladının əsir düşməyi qanını qaraltdı. Stalinqrad döyüşlərində əsir alınmış alman feldmarşalı Paulsla, əsir düşmüş oğlunu dəyişdirmək təklifinə də yenə ümumdövlət, ölkə mənafeyindən yanaşaraq "generalı, soldata dəyişmədi". Hadisəyə, macəraya yüksək amal mövqeyindən yanaşdı. Övrəti Əlilluyevaya, qızına, qohumlarına , anasına da münasibətində başlıca ölçü bəşəri ideal, sovet dövlətinin mənafeyi olmuşdur.

Lenin bizcə, Stalindən daha inadkar diktatordu, Stalinsə xalis imperatordu. Görəsən bu imperator kommunizmə inanırdımı? Büsbütün əminik, yox! Kommunizmin saxta, qeyri-həyatı olduğunu bəlkə, o, hamıdan dərindən duyurdu. Ancaq onun cavabdeh olduğu quruluşu yaşadan kommunizm ideyası fetişləşmiş, əfsanələşmişdi. İnsanları bu yalana səcdə qılmaqla saxlamaq, idarə etmək olardı. Baş aldatmaqdı, yalandı – bunu özləri də bildiyi halda, buna varırdılar. Quruluşu yaşatmaq üçün başqa bir inanc yoxdu. Allaha, peyğəmbərlərə, dinə qayıtmaqsa, yeni quruluşun mifləşmiş niyyətləri ilə əsla düz gəlməzdi. “Yalana bənzəyən doğrudansa, doğruya bənzər yalan yaxşıdır”. Böyük Şeyx Nizaminin sözüdür. Acı doğrudan, ətirli yalan xoşdur. İnsanlar onların ustalıqla, məharətlə aldadılmağından, xoş bir yuxunun verdiyincə həzz alırlar. Yalanın ləzzəti doğrununkundan şirin olur, tükənmir.

İnsanların xasiyyətini onların görünüşü ilə aydınlaşdırmaq olar. Hövsələsiz, şıltaq, şulux, coşğun, çılğın uşaqlar, böyüklər də sifətlərin quruluşu, görünüşləri, yerişləri ilə mənliklərini üzə verirlər. Yumrusifət, fındıqburun insanlar əksərən dəcəl, çılğın olur. Əksinə uzunsov sifətli, uzunburunlar əksərən sakit hövsələli, təmkinli olurlar. Bu üzdən Vaqif Stalinə bənzəyirdi, təkcə sifətdən, burnundan, bığından, gur, qıvrım saçından yox, xasiyyətcə də. Təmkinli idi, şit, yersiz davranmazdı, yüz ölçüb bir biçər, az danışar, bir kəlmə müdrik sözlə hər hansı öcəşə yekun vurardı. Onun Cəbrayılda birinci katib işlədiyi illərdə ağır hadisələr, münaqişələr olmuşdu. Bunları o, təmkinlə yoluna qoymuşdu. Maşanlı, Alıkeyxalı kəndlərinin birləşmək qərarı ortaya atılanda, əhali bundan narazı qalıb, Araz qırağına yığışıb, o taya-İrana keçmək qəsdinə durduqda, Vaqif bu hadisədən əsla təntiməmişdi. Bir kərə ondan soruşdum : “Bu hadisəni niyə yoluna qoymursan?” Demişdi: “Tüstülənib tüstülənib, oradaca sönəcək”. Nəyin yanğın törədəcəyini, nəyin tüstülənib sönəcəyini o duyurdu. Bu tüstünün kiminsə gözlərini acışdıracağına elə də bənd olmurdu.

Vaqifi katiblikdən azad etdilər, bir ara işsiz qaldı.Onu Nəzir Əhmədovla danışıb, Abşerona İstehsalat idarəsinin rəisi vəzifəsinə gətirəcəkdik. Özü də istəyirdi. Abşeron yaxşı yerdi. Nəzir müəllim ağsaqqal, görüb-götürmüş insandı. Lakin o məqamda bir hadisə baş verdi. Nəzir müəllimin özü işdən çıxdı və Vaqifin Abşerona gəlmək söhbəti də puç oldu. Az sonra onu Şəmkirə – istehsalat idarəsinin rəisi göndərdilər. Bu yaxşı işdi. Hörmətdi. Cəbrayıl kimi balaca bir rayondansa, bura daha samballıydı. Birinci katibsə vaxtilə Cəbrayılda MTS direktoru işləmiş, orada işlərkən Ağa bəyin xırda qızı Qunça ilə evlənmiş Məmməd Əsgərovdu.

Tələbkar, sərt, cod bir adamdı. Hələ Cəbrayılda MTS direktoru işləyəndən tanınırdı. Övrət sarıdan onun bizə, o cümlədən Vaqifə hər halda bir yaxınlığı çatırdı. Qunça bizim Cəmillə bir məktəbdə, bir sinifdə oxumuşdu. Ataları da atamla salam-kəlamlı idilər. Tanış-bilişlik vardı.

Vaqif, Məmməd Əsgərovun başçılıq etdiyi Şamxorda işləməkdə, çalışmaqda qalırdı. Arada bir mən də Şamxora – onda, indi Şəmkirə-gedirdim.

Vaqifgil dövlət binasında, şəhərin mərkəzində, kürsülü, altı zirzəmi olan sahmanlı bir evdə yaşayırdılar. Binanın başqa bir parçası, o üzündə Əli müəllimin ailəsi yaşayırdı. O Şamxorun İcraiyyə komitəsinin sədriydi, Vaqiflə yaxındılar, biri-birinin xatirini istəyirdilər. İndi Şəmkirin icra hakimiyyətinin başçısı Əli müəllimin oğludur, onda uşaqdı. Əli müəllimlə mən də tanışdım, Şəmkirin kəndlərini birlikdə gəzmişdik. Bir kərə o, məni Ceyrançölə, qış yataqlarına aparmışdı. Kür bərəçisi Qərib adlı oğlan da yadımdadır. Ceyrançöldə dizəcən qardı. Orada bir çoban dəyəsində bişirdikləri kalafır-əmlik buğlamasının dadı hələ damağımdadır.

Vaqif Şamxorda on ilə yaxın işlədi. Mən onun orada çalışdığı müddətdə bir neçə kərə Şamxora getdim. Anam Cəbrayılda tək qalırdı. Mən Şamxora gedərkən Vaqif süfrə açırdı. Dolanışıqları yaxşı keçirdi. Onda bacanaq Fərrux Gəncədə şəhər daxili işlər idarəsində rəis müavini işləyirdi, Şamxor Gəncəyə yaxındı, Vaqiflə Fərrux görüşürdülər.

Əli müəllimlə birlikdə səfərlərə çıxırdıq. Bir kərə o, məni Çardaxlıya apardı, orada kolxoz hesabat yığıncağında oldum. Ermənilərdi, hələ düşmənçilik barədə heç bir əlamət yoxdu. Şamxorda olarkən, arabir könlümdən Məmməd Əsgərovla görüşmək keçsə də, onunla nə qarşılaşdım, nə görüşdük. Onun barəsində bir kərə Əkrəm Əylisli mənə danışdı: Onu göndərmişdilər Şamxora. Getsin, rayonun birinci katibi ilə görüşsün və onun barəsində bir kitab yazsın. Əkrəm Şamxora getmiş, Məmməd Əsgərovla görüşüb söhbət etmişdilər.

Əsgərovun vəzifəsini bir az da artırdılar. Onu respublika kənd təsərrüfatı naziri gətirdilər. Tələbkardı, çətinliyə baxmayaraq Vaqif onunla işləyirdi. Güman edirəm ki, onun Cəbrayıldan evlənməyi də özünü göstərirdi, övrəti Qonça xanım bizə məhrəm, yaxındı – ata-babadan. O da görünür, tapşırırdı. Əsgərov gedəndən sonra oraya birisini katib göndərdilər. İlk günlərdən Vaqif hiss etmişdi , bununla yola getməyəcək. Bir kərə Vaqif sıxıntı içində bunu mənə söylədi. Dedi: Çapğınçıdır. İstəyir, nə var hamısını qarmalasın. Vaqifə deyib, fermadan yüz baş cins malı, düyəni satıb hamısının pulunu ona çatdırsın. “Bu xalis türməlik işdir!” – dedi Vaqif.

Əsgərovdan sonra Vaqif də Şamxorda çox qalmadı. Könlündən keçdi, doğma yurda – Cəbrayıla qayıtsın. Onda Cəbrayılda katib Kamal Ağayevdi : özü demiş “vağzal uşağı”ydı. O, vaxtilə bu rayonda, katib işləmiş adamı qısqanır, onun rayona qayıtmağını istəmirdi. Amma dil tapdılar, görünür Kamal Ağayev də düşündü, Vaqif Cəbrayıla gəldi. Burada o, rayon mərkəzindən aralı olmayan Minbaşılı kəndində sədr oldu.

Bir vaxt Karl Marksın adını daşıyan, ağsaqqal, abırlı və başarıqlı insan Həmid kişinin sədrlik etdiyi Minbaşılı kolxozu, sonra sovxoz oldu. Veysəlli, Sədi, daha bir neçə kənd

birləşmişdi. Vaxtilə böyük təsərrüfatlara başçılıq etmiş Vaqif üçün bir kolxozu idarə etmək çətinlik törətmədi.

Bir kərə həmin bu Kamal Ağayev böyük bir yığıncaqda, qızışıb demişdi : "Cəbrayılda kişi yoxdur. Varsa, çıxsın qabağa!". O, bu sözü deyəndə, bir oğul tapılsa, qabağa çıxsa və tapançanı tuşlayıb, düz onun təpəsindən vursa idi, o olardı iş. Amma belə olmamışdı və Cəbrayıl əhalisi yox, vəzifə yiyələri onun bu alçaq təhqirinə dözmüşdülər. Allah kəssin elə işi, çörəyi!… Amma Cəbrayılda onu əməllicə sarımışdılar. Mən bunları "Azığa doğru"da yazmışam.

Cəbrayıla Vəlixanov gəldi. Allah ona qəni-qəni rəhmət eləsin. İşcil, qurucu idi. Cəbrayılda batmış kəhrizləri çıxartdı. Məmməd bəy, Çinar kəhrizinin suyu daha gur gəldi. Hüseyn ağanın illərdən bəri batmış kəhrizinin də lağımlarını açdı, təmizlədilər. Bu kəhriz də işə düşdü. Ən heyrətlisi o oldu ki, katib Hüseynağa kəhrizinin suyunu dərədən, o üzdən yamacla qaldırıb yala çıxartdı. O, bu işi görmək istəyəndə, bir kimsə bunun baş tutacağına inanmadı. Halbuki bu kəhrizin suyu bir vaxt dərənin bəri üzü ilə yamaca qalxmış, Qalalı həyətləri həmin Hüseyn ağa kəhrizinin suyunu içmiş, onunla dirçəlmiş, becərilmişdi. Vəlixanov bunu bilirdi - bilmirdi, amma o, melioratordu və kəhrizi açıb, onun suyunu Dəyirman dərəsinin yalına çıxarmaqla qalmayıb, orada dikin başında bir gözəl bulaq da yaratdı. On altı şırnadan buz kimi, ağappaq, gümüş su töküldü. Hər respublikanın adına bir bulaq oldu. Elə ki, maşınlar Mahmudlu ilə Füzuli yol ayrıcına çatırdı, hamı düşür, səpsərin, gur kəhriz suyunda əl-üzünü yuyur, qablarını doldurur, dincəlir, yola düşürdülər. "Dostluq bulağı" – Hüseyn ağa kəhrizi yol ayrıcında bir tamaşa, möcüzə, dirilikdi. Aşağı aranlardan, İmişli, Beyləqan, əlli altmış kilometr uzaqlardan sürüb gəlir, bu kəhrizin misilsiz suyundan çənləri, çəlləkləri doldurub aparırdılar. Hüseyn ağa kəhrizinin suyu Vaqifin direktor olduğu sovxozun da xeyli torpağını tuturdu. Kələsər, taxıl, bağlar onun sayasına su içirdi. Vaqifin xatirini istəyirdi Vəlixanov. Mənimlə də mehribandı. Hərçəndi, bir dəfə pərtlik düşmüşdü. O da belə olmuşdu:

Cəbrayılda Aşıq Qurbani bayramı keçirirdilər. Belə şənlikləri başlıca olaraq Abdulla Qurbani yaradırdı. Rayona gəlir, həvəskarları toplayıb, tamaşa verir, bütün rayon, şəhər əhli qoşulurdu el şənliyinə. Çalmaq, oxumaq, xalq oyunları və başqa mədəni tədbirlər. Cəbrayılda da belə bir böyük yığıncaqdı, yadımda deyil, yenədəmi Abdulla Qurbani gəlmişdi. Bu mədəni tədbirin başında o dururdu, yoxsa yox? Məni də dəvət etmişdilər. Raykomun qabağında meydanda xitabət kürsüsü qurulmuşdu. Katib Vəlixanov da orada idi. Mədəni tədbir bitdikdən sonra ikimərtəbə restoranın üst qatında yemək- içmək başladı. Vəlixanov yeyəndi, yeməkdən çox, içəndi. O aparırdı məclisi. Hərdən əyləşənlərə müraciətlə nitq eləyir, bir əyləndirici tədbir atırdı ortaya. Bir də belə bir söz söyləyib, sual verdi : "Kim deyər Sovet İttifaqı Qəhrəmani Cəmil Əhmədov hansı ildə, hansı gündə cəbhədə həlak olmuşdur". Doğrusu, belə bir məclisdə, özü də içmiş halda onun Cəmili tapmaca yerinə çevirməyi mənim heç xoşuma gəlmədi. Toxundu mənə. "Başqa sual yoxdurmu?" deyib məclisi tərk etdim. Arxamca gəldilər, qayıtmadım.

Belə hal bir dəfə baş vermişdi, qalan, Vəlixanov mənimlə dostyana dolanırdı. Hamı ondan silir, qorxurdular. Bir də görürdün, bir hörgü qoydurdu.

Gəlib baxırdı. Elə ki, hörgüdə bir əyri görürdü : “Sok! Kopoy oğlu , sok!” deyib xeyli işlənmiş hörgünü əyri görüb sökdürür, yenidən tikdirirdi. O, Mahmudlu dəmir yol stansiyasında bir səki- platforma düzəltdirmişdi, bəlkə, şamdan oraya min maşın torpaq daşıtdırıb tökdürmüşdü. Yarım kilometrdən xeyli artıq bir səkiydi, qatarlar orada dayananda, sərnişinlərin minib-düşməsi üçün geniş, sahmanlı yer düzəldilmişdi, heç Bakıda , dəmir yol vağzalında da belə möhkəm, hamar platforma yox idi.

Cəbrayılda bir neçə il də qalsa idi, oranı büsbütün abadlaşdıracaqdı. Çıxdı, su təsərrüfatı, melioratsiya nazirliyinə gətirdilər, bir neçə il keçmiş rəhmətə getdi. Ondan yadigar qalan çaylaqdakı park, kəhrizlər, platforma idi. Onlar da indi ermənilərin əlindədir…

Vaqif Vəlixanovla da işlədi. Yola gedirdilər.

Qardaşımın da axırı yaxınlaşırdı. Ata-ana getmişdi, uşaqlar böyüməkdə idilər. Böyük oğlu Vidadi əsgərlik çəkmişdi, özü də Gürcüstanda. Vaqif onun ardınca gedəndə, infarkt keçirmişdi. Mədəsi yaxşı işləmirdi. Bir kərə xəstəxanada da yatdı, Bakıda, Semaşkoda. Sonra yenə kolxoz sədrliyində, sovxoz olmuş Minbaşılıda çalışmaqda idi. Bir gün Əjdəri Qurban təpəsində, heyvandarlıq idarəsindən götürüb restorana gəlir. Yeyirlər, içirlər. Oradan gəlir evə. Məleykə şəkərbura bişirirmiş. Ordaca Məleykənin balaca qardaşı İldırımla yenidən süfrədə oturub, içirlər. Məleykə mənə söylədi: “Səkkiz şəkərbura yeyib”. Onun mədəsi bu ağırlıqda qidanı həzm edə bilməzdi. Yatağına girir, gecə yarısı ürəyi sıxılır. Məleykə onun yastığının başını kəsdirir. Vaqif ona ürək-dirək verir : “Niyə qorxursan? Neçə kərə belə olmuşam. Keçib gedər”. Deyir. Məleykə qalxır, bu biri otağa keçir. Qayıtmağı heç iki dəqiqə çəkmir. Gəlib görür elə bil “quşdu, uçub”. Ağır xəbəri mənə Bakıya zəng vurub çatdırdılar. Getdim. El-oba bizim təzə yurda, həyətə, darvaza ağzına yığılmışdı. Qurban təpəsində, Qalalı qəbristanında, atası ilə anasının yanında dəfn etdik. Onun yas mərasimində, qəbir üstündə Köçəri Babayev səmimi çıxış etdi, yazmışdı, oxudu. Həmin çıxış qalır, saxlayırdım…

Bu da mənim ikinci qardaşım, Vaqifin taleyinin son nöqtəsi…

## B A C I

Məndən iki yaş balaca idi. Uşaqlığımız bir keçmişdi, onun qardaşı mən idim, o birilər böyükdü, mənimlə oynayır, bacılıqları da bizə qoşulurdu. Döyürdüm, incidirdim, ancaq yenə mən idim onun qardaşı. Universiteti bitirib qayıtdıqdan sonra, onu da göndərdim Vaqiflə birlikdə Gəncə Kənd Təsərrüfatı İnstitutunda oxudu. Baramaçılıq üzrə ixtisas aldı, gəldi Cəbrayıla, ixtisası üzrə də işləməyə başladı. İş-idarə təcrübəsi vardı, institutdan qabaq rayon komsomol komitəsində çalışırdı, ikinci katib oldu, bu tutuşla partiya işinə keçib, xeyli qalxa bilərdi. Amma istəmədi, biz də onu təhsilsiz qoymaq istəmədik.

Onu baramadan bir qədər uzaqlaşdırdılar. O illər rayonda ən qazanclı yerlərdən biri barama idi. Katiblər oraya “öz adamlarını” qoyur, onunla da hesab çəkirdilər. Görünür Ziba ilə bu alver tutmayacaqdı. Onu rayon toxumçuluq idarəsinə müdir qoydular.

**(davamı olacaq)**

# "YAZI" DƏRGİSİNİN 5 YAŞI TAMAM OLUR: TƏBRİKLƏR, ARZULAR, TƏKLİFLƏR

"Yazı" dərgisi çıxdığı 5 ildə çevrəsinə çox yaxşı kampaniya toplamışdır. Rəhim Əliyev, Tehran Əlışanoğlu, Rahid Ulusel həmin dəstədən bəzi adlardır, özü də nəzəriyyəçilərin adlarıdır, ancaq elə onlar da göstərir ki, "Yazı"nın başına topladığı dəstə son 10-15 ildə Azərbaycan intellektuallığının yetirdiyi parlaq düşüncə adamlarıdır. İndi elə bir durum yaranıb ki, bu kampaniyada bulunmaq hamımıza xoşdur. Azərbaycanda toplum üçün önəmli olan bir çox strukturlar ya yaranmayıb, ya dağılıb. Örnəyin, bizdə mənəvi avtoritetlər institutu dağılıb. Öncələr bu instituta dayaq nomenklatura sistemi idi, indi bu sistem ala-yarımçıq haldadır, ona görə də ürətmir. Azərbaycanda "düşüncə eliti" deyilən qat da ala-yarımçıq haldadır. "Yazı" dərgisinin bir görəvi bu elitanın formalaşmasına qatqıdır. Bax, bu qatqıda onun uğuru var. Ancaq intellektual elitanın tam yetişməsi üçün başqa şərtlər də var. Birincisi, yazı-pozu yaradıcılığı ilə babat dolanmaq. İkincisi, intellektualların məsləhəninə və tənqidinə sosial-siyasi qurumların həssaslığı – Azərbaycanda bu ikisi də yoxdur. Ona görə də intellektual elitin durumu ala-yarımçıqdır. "Yazı" kimi dərgilərin təşəbbüsü qarşısında, bax, belənçi əngəllər durur. Azərbaycan tarixində Zərdabi, Mirzə Cəlil kimi naşirlər çox parlaq səhifələr yazıb. Onların hamısı sanki irəlicədən uduzulmuş oyuna girişmişdilər. Ancaq indiki Azərbaycanda yaxşı nə varsa, onlarda böyük naşirlərin cücərtiıəri olub. Azad Qaradərəli bu çətin dünyamızdə "Yazı"nı çıxara-çıxara naşirlik gələnəyimizi ölməyə qoymur – buna görə də ona sağ ol düşür.



***Niyazi Mehdi***
***Professor***

"Yazı"nın ilk oxucularındanam.Üç ilə yaxın idi yazırdım, amma nə yazılarım çap olunmamışdı. "Yazı" jurnalını alıb oxudum. Tanımadığım imzalarla, yeni əsərlərlə tanış oldum. O vaxt balaca bir roman yazmışdım. Onu Azad müəllimə göndərdim. Əlbəttə ki, roman çap olunmadı (yaxşı ki!), olduqca zəif, bəsit, serial tipli bir şey idi. O vaxtdan Azad müəllimlə mütəmadi əlaqə saxlamağa başladım. Təzə yazılarım olduqca göndərirdim, Azad müəllim oxuyub rəy bildirirdi, məsləhətlər verirdi (o yazışmaları indi də saxlamışam, arada təkrar-təkrar göz gəzdirirəm). Dördüncü nömrədə "Küləklər" adlı şeirim çap olundu və o vaxtdan "Yazı" qapılarını üzümə açdı. Əksər hekayələrim birinci dəfə bu jurnalda çap olunub. Bundan əlavə, bu jurnal vasitəsiylə olduqca dəyərli yazıçıların dəyərli əsərləriylə tanış olmuşam, sonralar həmin yazıçılarla həyatda tanış olmaq şansım da olub. "Yazı" mənim üçün dəyərlidir, əzizdir. Həm də tək mənim üçün yox, "Yazı"nı sevən hamı üçün. Bütün maddi çətinliklərə baxmayaraq beş ildir ki, ayaq üstdədir "Yazı". "Yazı"ya nə arzu edə bilərəm? Uzunömürlü olsun, həmişə bizimlə olsun və həmişə bizim olsun!



***Həmid Piriyev***

# POEZİYA



SEVİNC ELSEVƏR

## Günvurma

qonşuluqda yasdı
dözmür ürəyim qadın ağlaşmasının səsinə
bağlamışam qapı-pəncərələri
düşmürəm həyətə də…

fəhlə imiş oğlan
günəşin altındaymış işi yay-qış
ürək qüsuru varmış
ona tapşırılan işi
vaxtında çatdırmalıymış…

üç gün əvvəl günvurmadan ölən
oğlanın yasında
ağlayanlara isti deyil heç olmasa
üç gündü sərin keçir havalar
bir cavanın ölümündə payı olduğundan
utanır günəş
girib buludların arxasına

həyətdə sərindi
yüngül yel də əsir
yarpaqlar yellənir
yayılır çiçəklərin qoxusu
mənimsə dözmür ürəyim
ağlayan qadınların səsinə
qapanmışam öz hücrəmə
sanki günəş kimi günahım var
mənim də
o oğlanın ölümündə…

***

sevərdik uşaqkən
yaralarımızın qaysağını qoparmağı
günəşdə yanan dərimizin
qabığını soymağı
qəribə həzz verərdi bu bizə
bir yaranı dəfələrcə
yenidən qanadardıq
qoymazdıq sağala
indi kədərlərimizi
dönə-dönə yada salmaqdan həzz alırıq
qopardaraq ürəyimizdəki qaysaqları…

***

qadının yuxuya getməzdən qabaq
yastığının kənarında
özüylə yatırtdığı kitabı
bir az da qısqanclıqla götürüb
kənara qoydu kişi
kitabın arxasında
gülümsəyən gənc kişinin üzünə
qaşlarını çataraq baxdı xeyli...
eyni şəhəri
eyni qadını
eyni yatağı paylaşırdılar indi...

## Şəhid əmisi olmaq

televizorda
şəhid atasından çox
şəhid əmisi qürurla danışırdı
yoxdu atanın gözlərindəki uçurum
əminin gözlərində
şəhid əmisi olmaq daha asandı
şəhid atası olmaqdan
ilk dəfə bu qədər diqqət yönəlmişdi
şəhid əmisi olan adamın üzərinə
qardaşoğlu ilə qürur duyacaqdı
hər yerdə və hər zaman
adamların arasında
başını daha dik tutacaqdı şəhid əmisi
gündən-günə beli əyiləcəkdi
şəhid atasının...

## Qəbirstanlıq

"qəbirstanlığın yanında saxla"

deyə səslənir
avtobus sürücüsünə
axşamüstü məktəbdən qayıdan
qəbirlərin qonşuluğunda yaşayan
balaca məktəbli oğlan
ölümdən qorxmur
məndən fərqli olaraq
indi avtobusdan düşəcək
qəbristanlığın yanından ötəcək
bir məzarın tuşundakı
dəmir darvazanı açıb evə gedəcək...
halbuki qəbirləri göstərib nə olduğunu soruşan
uşaqlarının başını qatır gənc analar...
şəhərlə-kənd arası işləyən
kəndin içindən keçən
bu avtobusda
nə vaxt ki uşaqdım
mən də soruşardım anamdan
məzarları göstərib barmağımla
“barmağını dişlə
ayaqqabının altına qoy” deyərdi anam...
indi də qəbirstanlığın yanından ötəndə
barmaqlarımı gizləyirəm arxamda
o cəsur uşaqsa
barmağını qəbirstanlığa tuşlayıb
“qəbirstanlığın yanında saxla” deyə
səslənir avtobus sürücüsünə...

## Gözəllik

cəbhədə öldürülən
kişilərin arasından
birinin şəkli üzərində
saxladı barmağını
dırnağı qırmızı boyalı qadın
“nə qəşəng oğlanı öldürüblər” dedi
gözəllik
ayrı-seçkilik salır
adamların arasına
ölümdən sonra da...

***
əziz ana, mən hər nə qədər
unutqan olsam da
gün boyu
göbəyimlə üz-üzə gəlirəm
bir neçə dəfə...
o mənə xatırladır səni
sənin bətnində keçən günlərimi...
sanki möhürlə vurmusan
bədənimin ortasına
dünyaya gəliş iznimi
o indi yeganə xatirədi
bətnində yaşadığım həyatdan

A Q Ş İ N



E V R E N

## Taxta ev, kamin və rus romanları

Hardasa çox uzaqlarda taxta evimiz olsun
Kamində maşa ilə közləri qarışdıraq
Tələsək zaman keçir... Nə qədər ki, gec deyil
Küsülü dodaqları gizlicə barışdıraq
Hardasa çox uzaqlarda taxta evimiz olsun
Sən yuxula skamyada... üstünə adyal örtüm
Heç Günəş də gəlməsin, işdir birdən üşüsən
Körpə məsumluğuyla səni alnından öpüm
Hardasa çox uzaqlarda taxta evimiz olsun
Hamıdan çıxıb gedək... hamıdan uzaqlaşaq
Gəl gizlən qollarımda... axı sən də bilirsən

Ən möhtəşəm ibadətdi sakitcə qucaqlaşmaq
Hardasa çox uzaqlarda taxta evimiz olsun
Uzaqdan tənha mayak tez-tez göz vursun bizə
və olub keçənləri... bu ölüb keçənləri...
Gedib bütün keçmişi tullayaq biz dənizə
Hardasa çox uzaqlarda taxta evimiz olsun
Bir noyabr axşamı rus romanı oxuyaq
...Kamində maşa ilə qarışdıraq közləri
Tənbəl pişiyimiz də gizlin keçsin yuxuya
Hardasa çox uzaqlarda taxta evimiz olsun:
Bir az ana qayğısı, bir az ata nəfəsi...
Elə taxta evimizdən musiqitək yüksəlsin
Göy qurşağı baxışlı körpəmizin ilk səsi.

## ANAR HƏBİBOĞLU



Nə ki,yapışmışdı ayağım yerdən
Bir ev tikəmmədim şəhərə yaxın.
Mən də oləcəyəm qaraciyərdən,
Mən də oləcəyəm səhərə yaxın.
Səsləyəcək məni bir sehirli səs,
Gedərəm səhərin ayazlığında.
Bir cüt qadın əli son nəfəsini
Dərəcək saçımın bəyazlığında.
Yolar saçlarını qız şeirlərim,
Anamın dumanlı gözləri-quyu.
Qəmli misralarım qərənfil kimi
Səpilər keçdiyim küçələr boyu.
Təması itəcək doğma əllərin,
Yaranar arada uçurum, dərə.
Səpilər qəlbimin bəmbəyaz nuru
Axşam fişəngi tək pəncərələrə.
...Anam ağı deyər:-Anar,ay Anar,
Bilməz ki,dünyada yoxdu son səfər.
Qonşuda bir gəlin ağrıdan yanar,
Yazıq doğar məni neçənci dəfə...

## SARA SELCAN



Qadın tarlasını şumlayır kişilər
Toxum səpərək .
Bu şumda adam becərir
əlləri-qolları palçıqlı Tanrı.
Qadını kişidən,
Kişini torpaqdan
Hazırlayan
ona
nəfəsindən üfləyib
can verir, ruh verir ,
Dilinə söz,
gözünə nur verir
Bacarıqlı Tanrı
yaratdıqlarının.
Olur ki
Yaratdıqları üz də çevirir ondan,
Səcdə də edirlər,
Hər şey istəyir.
Tövbə qapısı açıqdı həmişə,
Sevib bağışlayır yaratdıqlarının
Hər günahını

**Təkcə Şeytana acıqlı Tanrı.**

***

Mən sevən buılaqlar quruyub itdi,
Umuduna qaldığım çeşmə
Nəm damcılayır.

Yoxluğun
Dar biçilib əynimə
Uzun gecədən,
Mən sıxılacam ömür boyu
bu libasda.

Qumru son nəğməsini oxuyur
Quru budaqda asta-asta...

Sənə şeir yazıram,
Gecə saat neçədə,
Bütöv ömrümü qəm qayçılayır,
Qoluma toxunur
Yuxumdakı adam
-Xanım, səsinizdən qəm damcılayır.

***

Gəmisiz limanlarda
Yola çıxıb yosunlar
Dənizlərdə su hanı
Saçlarını yusunlar.

Yosunlar vəfalıdır
Vəfasız gəmilərə.
Çınqılsız sahillərdə
Kimə,kimə,kimlərə.

İtib-batır aylarla
Gəmilərin fit səsi,
O səsdə dincin alır
Yosunların nəfəsi.

***

Gedişini xatırladım
Uçuşunda quşların,
Süfrəmdə ayrılıq dadır
Xiffətin göz yaşları.

Ovucdakı sirr kimisən,
Yumulur,açmaq olmur.
Payızdan qaçan durnaya
Qoşulub qaçmaq olmur.

Saatları itirmişəm,
Vaxt da heçliyə döndü.
Üç zamanın üçü də Sən:
Əvvəl,Sonra və İndi.

***

Bilirəm izləyirsən
Səhər-axşam uzaqdan.
İstəsən də vermərəm
Mənim olan əzabdan.

Ruhumda gizləyirəm
Tənhalıq iniltisin.
Sındı bütün arzular
Eşitdin cingiltisin?

Demə kimsən,kiminsən,
Deyib qəlbimi oyma.
Gəl gor kimindi taxt-tac
Məndən yerini sorma.

***

Duyduğum bu kədərin
Qəribə qoxusu var,
Kim deyirsə yalandır
Quşun da yuxusu var.
Qağayının yuxusu
Dənizdəki ləpədir.
Göyərçinin yuxusu
Körpədən də körpədir.
Qaranquşun yuxusu
Saman çöpündə itir.
Sığırçının yuxusu
Gömgöy yemlikdə bitir.

Uyğusu sığal çəkir
Çöllərə küləklərin,
Yuxusundan tanıdım
Ən gözəl mələkləri.

**Yetim uşağın xəyalları**

Hamınıza verəcəm atam alan şirnidən
Görərsiniz necə dadlıdır,necə
rəngbərəng,
Kim hansından istədi götürər.
Ad günümə gələndə sizə göstərəcəm
Öz otağımı,
Bütün oyuncaqlarımı.
elə möhkəm səsi var ki,mənim
avtomatımın
İnanmırsınız atıb baxın,
Elə bil əsl avtomatdır .
Onu atanda qonşu itləri qorxar.
Mənim robotum bütün robotları yıxar.
Görsəniz baçımın gəlinciyini
Sarışın saçlı,gözləri yaşıl,
Adam kimi danışır.
nə boydadır boyu,
çoxdan istəyirdi bacım bunu.
Sizinkini ötəcək velosipedim
yarışsaq,
Təkərlərini muncuqlarla bəzədim,
Buludların üstüylə sürürəm lap onu,
Ötərəm,ötərəm hamını.
Bu xəyallarla yatır uşaq,
Gül yastığa batır uşaq.
Nə şirindir yuxusu,
Divardakı şəkil susur,
susur.
Uşaqsa
yuxusunda dostlarına
Bunların hamısını atam alıb deyir,
Öz Atam.
...Uşağın xəyallarını gerçəkləşdirə bilmir
Şəkildəki adam...

***

Kimin atdığı sözdən
Xatirən çiliklındi,
Qırıldın öz içində
Baxışın gileyləndi...

Gecə
Ucuz yuxunu
Sənə baha sırıyır,
Səni yarıtmayanlar
Səndən yaman yarıyır..

Heç bilmədiklərin
Xatırlayır adını..
Gələcək nə vəd edir,
Sənə,bədbəxt qadın...

***

Şeir-
Bu,bir tərcümədir,
Hisslərin orjinaldan tərcüməsi.
Öz dilimdə oxuya bilməmişdin məni,
Səninçündür...

Həyata üzüqoylu yıxılandan
Kədər buz kimi dodaqlarını
Alnıma dayayıb:
-Əmanətimsən.-dedi.

Varlığım
Yoxluğundakı boşluqda qeyb oldu.
Kim kimin ürəyində təzə-tərdi,
Kim kimin əllərində soldu,
Bilmədin...

Şeir-
Bu,bir tərcümədir,
Sənin oxuya biləcəyin dildə.
Fərqi yox nə cürədr.
Kiminin ömrü sərbəstdir,
Kiminin ömrü hecadır,
Sadəcə
sonda
qafiyəli,qafiyəsiz
Ölüm şansı var hamının....

F
A
İ
Q



HÜSEYNBƏYLİ

## DEVOLVASİYA

İngilis dilində oxudular
yasin surəsini
Manatın ölümünə.
Manatın göz yaşları
salamladı
ölümqabağı öz əcəlini.
Məzənnə adı sürüşüb düşdü
həqiqətin ayaqlarına.
Kredit ödənişləri
üsyana qalxdı
çarəsiz məhbus kimi.
Bank borcları üzüqara qarşıladı
gələn qonaqları.
Dükanların qapısındakı qıfıllar
yeni qiymətlərə ağı deyir.
Köhnə tariflərə əlvida dedi
vitrinlər.
Pozuldu Nyutonun üçüncü qanunu:
Təsir əks təsirə bərabər olmadı.
Ceyran belinə qalxdı
Məmulatlar...
Hələ də səngimək bilmir
Manatın ölümü haqqında məlumatlar.

***

Bu da haqq -
Dərisini soydular,
Ətini yedilər,
Sümüklərini tarix muzeyinə bağışladılar
Eksponat kimi.
Daha yuxulara da girmir Qarabağ,
Daha şəhidlər də üz çevirib vətəndən.
Sonuncu dünya müharibəsi gedir
Ruh ilə can arasında -
Qan su yerinə axır bədəndə.
Göz yaşları yağmır,
Vicdanın qara tablosunda.
Çıxış yolu yoxdur
Labirint düşüncələrdən.
Bu da haqq -
Şimaldan cənubacan,
Şərqdən qərbəcən,
Qələmdən sözəcən,
İnsandan Allahacan
yandırdılar imanını...

***

Ay işığında çimir
səhra fikirlər.
Dağ bildiyim adamlar
Dağ üstə dağ çəkdilər.
İllərlə kərpic-kərpic
hördüyüm xəyalları
bir göz qırpımında sökdülər,
yerində park tikdilər.
Daha ümidsiz günlərin
çırağı sönüb.
Daha möcüzəyə inam qalmayıb.
Ehey, cəllad, sən
edam kötüyünə qoymusan
Əlahəzrət Sözün başını.
Hələ də qanla yuyur
tarix öz yaddaşını.
Siyasət meydanında
can verir həqiqət.
Şam kimi yanır neft ölkəsində
ağzına daş basılan Söz.
Ayə-ayə günaha batır təriqət.
Neft kəmərini belinə dolayan vətən,
Nağıllarındakı quyularından qaz çıxır.
Səfalət utanır adından.
Od qiymətinin üzərinə
su çiləyir kasıb baxışlar.
Erməni kilsələrinə sığınır
ingilis atadan,

rus anadan
doğulan azadlıq.
...və bir daha boy atmayacaq
beşikdə boğulan azadlıq.

## THE END

Tanrı bir roman yazır,
Dərin-dərin dənizlərdən.
Tanrı bir roman yazır,
Qayım-qədim dərələrdən,
düzlərdən.
Bir əsər yaranır səslərdən,
Bir əsr yaranır sözlərdən,
Sirli-sirli gecələrdən, gündüzlərdən.

Tanrı bir roman yazır,
İnsanın taleyindən,
Musanın taleyindən,
İsanın taleyindən,
Olumundan, ölümündən...
Çarmıxa çəkilən,
Gözləri tökülən
həqiqətdən.

Tanrı bir roman yazır,
Günahları ucbatından
cənnətdən qovulandan,
Cəhənnəmi bu dünyada yaşayandan,
Tanrı bir roman yazır,
Çiyinlərində mələk yükü daşıyandan.

"Dünya" adlı romanına
Son cümləni yazır Tanrı:
"The end"...
Və qiyamət başlayır.

## NİDAYLA BASDIRIN

Torpaqla, suyla pak edin,
Odla, havayla basdırın -
Məni qədim şahlar kimi,
Qalxanla, yayla basdırın.

Ey gülab qatan, ətrimə -
Məst ol misrama, sətrimə.
Kimsə dəyməsin xətrimə,
Nazla, ədayla basdırın.

Aşkar olar nələr, nələr,
Qəmlə dolar piyalələr...
Ulduz-ulduz kəcavələr...
Günəşlə, Ayla basdırın.

Ruhumu sözdə axtarın,-
Bakirə qızda axtarın.
Kamanda, sazda axtarın,
Düyünlə, toyla basdırın.

Yar olmayan hər yar ilən,
Mənəm, gedən rüzgar ilən.
Bu əhd ilən, ilqar ilən,
Eşqə vəfayla basdırın.

Mən asiyəm sirr səsinə,
Titrəyir göy-yer səsinə.
Qulaq verin Sur səsinə,
Bu son nidayla basdırın!

## XƏBƏRİN GƏLMƏDİ

Xəbərin gəlmədi, zəng də etmədin,
Adın çiçəklədi solan günümdə.
Hansı həqiqətə əl açım ki, mən,
Bu fani günümdə, yalan günümdə.

Səndən sonra qaldı saylı gecələr,
Haraylı gecələr, haylı gecələr.
Yer ilə yeksandır aylı gecələr,
Günəş qürub edir talan günümdə.

Qəribə deyilmi zəmanə, bir bax,
Yerini təkəbbür, hiylə tutacaq.
Kimdi quyruğumu tapdayan axmaq?
Qoy küssün özündən ilan günümdə.

Ey ən ali varlıq, ey bəşər, adam,
Allahla arana söz düşər, adam.
Belə sənsizliyə öyrəşər adam,
Belə olmalıymış olan günümdə.

Hələ qurumayıb şeirin qanı,
Söz-söz, nəfəs-nəfəs gəzir dünyanı.
Allah, al geriyə verdiyin canı,
Sənin umuduna qalan günümdə.

Yenə də Cəbrayıl göylərdən enə,
Qayıdıb dünyaya doğulam yenə.
Ruhumu əmanət edirəm sənə,
Əzrayıl canımı alan günümdə.

İLTİMAS



SƏMİMİ

## TOXUNSUN BULUDLAR BARMAQLARINA

Bir dirsək əlləri qaldır göylər
Bir boy dua oxu eşitsin Xuda.
Ömür işığında axtardıqların,
Qəfil yaddan çıxar unudular da.

Bir çətir yağışa qalib gələnlər,
Bir fəzl ömründən həsrət azalar.
Bir payız ağrılar əriyib gedər,
Bir boy yüksəlməyi səadət olar.

Bir cümə axşamı yadına düşən,
Yaddaşda toz basmış xatirə kimi.
Bir ömür həsrətin çəkdiyin sevda,
Bir adım uzaqda yaxın deyilmi.

Uzatdı əllərini sönsuz göylərə,
Toxunsun buludlar barmaqlarına.
Ulduzlar üzünə baxsın diqqətlə,
Səmalar qoy səni bassın bağrına

Yer sənə dar gəlir səbrin hayqırır,
dözümün qaşları çatdıyıb daha.
Taleyin əlinə ağ bayraq tutmuş,
İntahar düşünən batır günaha.

Taley yazısıdır yaşadıqların,
Can verir içinde bir misra ömür.
Sən demə gözlərin bir çeşmə imiş,
Baxtıqca içində min dağ görünür.

Sən demə gözlərin bir çeşmə imiş,
Yaşlar o dağlardan süzülüb,axır.
Daha bu qismətə isinən deyil,
Taleyin saç yolur, bəxtin hayqırır.

Bəlkə də nə vaxtsa dumanlı fikir,
Qəlbində yer salıb, yeri göynəyir.
Gözündən yaş axır islanır üzün,
Bədöy atlar kimi ruhun kişnəyir.

## DAHA YER ÜZÜNDƏN BEZMİŞƏM DEYİR

Enmə səmalardan, dayan əbədi,
Gözəllik ordadır, sevgi ordadır.
Enmə, xəyanət var, bu yer üzündə,
Bahar da, payız da ayrılıq dadır.

Enmə səmalardan, enmə əbədi,
Bura yer üzüdür yalan ocağı.
Burda o əzəlki, gözəllik yoxdur,
Dillərin əzbəri yalandır axı.

Yerin yer dərdi var, yerin yer qəmi,
Sıxır ürəkləri daş qəfəs kimi.
Biz ki, Tanrımızdan ayrı düşmüşük,
Yer zillət ocağı, zülmət deyilmi?

Biri səmalara baxır həvəslə,
Quş olub göylərə uçmaq istəyir.
Birinin arzusu, diləyi nədir?
Daha yer üzündən bezmişəm deyir.

Enmə səmalardan, bu yer üzünə,
Burda nə gözəllik, nə sevgi vardır.
Burda insanların dövləti qəmdir,
Nə xoşbəxt taleyi, nə bəxti yardır...

**HƏLƏ ÇOX HARAY ÇƏKƏN, HAYQIRANLAR OLACAQ**

Haray çəkdim, hayqırdım yer titrədi,İlahi,
Tapılmadı bir kimsə harayıma hay verə.
Qəlblər daşamı döndu, insanlıq yoxmu oldu?!
Odmu ələndi yerə, daşmı töküldü yerə?
Tapılmadı bir kimsə harayıma hay verə...

Üzümə açılacaq sabahı istəmirəm,
Min il bundan əvvəlki, illərə qaytar məni.
Orda məsləkdaşımla söhbətləşim qoy br az,
İnsanlığı olmayan "insandan" qutar məni.
Min il bundan əvvəlki, illərə qaytar məni.

O səliqə, o səhman inanmıram qayıda,
Hələ çox haray çəkən, hayqıranlar olacaq
Yer titriyər, eşitməz bu harayı bir kimsə,
Ürəklər inildəyər, gözlər yaşla dolacaq.
Hələ çox haray çəkən hayqıranlar olacaq.

**DÜNYA MƏNƏ MAMIRLI BAŞDAŞIN KİMİ**

Ana, səndən ötrü,
İllərcə çəkdiyim həsrəti
Bitirməyə gəlirəm.
Taleyim soyuq məzarına bənzəyir,
Hər dəfə səni xatırlayanda.
Gecikməyimi anlayıram.
Dünya mənə mamırlı başdaşın kimi,
Alın yazım möhnətdən başqa
Mənə heç nə vermədi.
Ana, səndən ötrü,
İllərcə çəkdiyim həsrəti bitirməyə gəlirəm.

**KİM NƏ BİLİR, İNSAN NECƏ GÜNAHA BATIR**

Bəlkə də imanlıyla, imansızın,
Günahsızla, günahkarın
Eyni məkanda,
Eyni dövrdə yaşamağı,
Öləndə də, eyni qəbirstanlıqda
Hətta yan-yana dəfn olunması,
Şeytanın Tanrıya qələbəsidir.

Bəlkə, susanın günahı,
Danışanın günahından çoxdur.
Kim nə bilir, insan necə günaha batır,
Nəcə imansız olur.

Bəlkə də, yanlış düşünmək,
Və yalanlara özünü zorla inandırmaq
Ən böyük səadətdir.
Bəlkə də, günaha batmaq,
Tanrıya ən gözəl ibadətdir.
Bəlkə, Tanrı günahkarları sevir, qardaşım.
Sevirsə demək ən sevimlisi,
Mənəm, sənsən, odu və onlardır.

Ölüm haqqında çox düşünmə,
Ölüm hər saat, hər an olur.
Yaşamaq isə, təsadüfi şansdır,
Gəl, əlindən bu şansı qaçırma.

Ölsən xatirələrini ürəklərdən,
Yığışdırmaq çətin olar.
Dostlar hər dəfə səni,
Yada salıb xatırlayanda,
Kədərlənərlər.
Məzarını isə,
Qurşağacan ot basacaq.

İmanlı, imansız,
Günahlı, günahsız yaşayaq.

Bəlkə, susanın günahı,
Danışanın günahından çoxdur.
Kim nə bilir, insan necə günaha batır,
Necə imansız olur.

**KİM NECƏ**
**VƏ NƏ QƏDƏR**

Qardaşım,
Tanrı yalan danışanları,
Sevməz deyirdin.
Bəs yalançıların ,
Yalana bu qədər sevgisi
Hardandır belə?!
Sənmi yanılmısan,
Yoxsa mən?
Bəzən, bir ömür doğru danışmaqla,
İnsan yanılır.
Kim necə
Və nə qədər...

**SƏHRA ADAMLARI**

Çırpır özünü,
O qayadan, bu qayaya.
Dənizin yalquzaq dalğaları.
Yəgin dənizdən qurtulub,
Q itələri dolaşmaq istəyir.
Dənizin yalquzaq dalğalarından
Xəbərsizdir üzü cənuba uzanan,
Afrika səhralıqları.
Göy üzü buludsuz,
Ulduzlar diş ağardır,
Səhralıqlara.
İnsanlar nə vaxtsa göy üzündə,
Bir alça yarpağı qədər bulud görsələr,
Sevinələr.
Hətta tullanıb göydən həmən,
Buludu dartarlar yerə.
Səhra adamları...
Dünyanın qərbindən, şimalından,
xəbərsiz
Dünya onlara səhralardan başlayır,
Səhralarda bitir.
Dənizin yalquzaq dalğalarından,
Xəbərsizdir üzü cənuba uzanan
Afrika səhralıqları.

**BƏYAZ -BƏYAZ BULUDLARA**
**BÜRÜNƏRƏM**

Bəyaz –bəyaz buludlara bürünərəm,
Yer üzünə baxa –baxa .
Kəndimizin üstünə keçəndə,
Yalvarım, canım bulud,
Bu yerlərə yağış səpmə.
Üşüyər məndən ötrü darıxan,
Uşaqlıqlığım.

**KÜÇƏ SƏSSİZ**

Küçə səssiz,
Qapılar bağlı.
Nə gələn var,
Nə gedən.
Bircə divarın dibində,
Bir pişik murgu vurur.
Küçənin taleyini,
Pişiyin gözlərindən oxumaq olar.
Hayıf ki, oyanmır...
Küçə səssiz,
Qapılar bağlı,
Pişik mürgüləyib.

**NƏ YAXŞI**

Ağac olsaydım,
Daima bir yerdə,
Dayanmağa səbrim çatmazdı.
Ya quş olub göylərə uçardım,
Ya da, balığa dönüb, dəryalara
gedərdim.
Nə yaxşı Tanrı məni,
Nə ağac, nə quş,
Nə də balıq yaratmayıb...

**BİR PARÇA DAŞA**
**HƏKK OLUNMUŞ ŞƏKİLİM**

Bir az torpaq tərpənər,
Bir az yer aralanar.

Bir az da, məni sevənlərin,
Gözlərindən yaş süzülər.
Tərpənən torpağın üstündə,
Bir parça daşa  həkk  olunmuş  şəkilim,
Daha heç nə...
Kimlər məni xatırlayar-xatırlamaz,
Kimlər şeirlərimi oxuyar-oxumaz.
Kimlər yoxluğuma barışar-barışmaz,
Bu haqqda heç nə düşünmürəm.
Bəlkə də, insanların uydurmasıdır,
Ölüm söhbəti.
Bəlkə də, ölüm yoxdur.
Mənim üçün ölüm,
Buludların gözdən itməsinə,
Suyun buza çevirməsəinə bənzəyir.
Kim necə gəlib,
kim necə gedər bilmirəm.
Gəlişimi hər dəfə səhərin,
Açılması mənə xatırladır.
Gedəcəyimi isə, anamın soyuq məzarı.

### DİLİMİN UCUNDA SÖZÜM DONMASIN

Gəl, bir az yaxına,
Bir dodaq pıçıltısı qədər sənə sözüm var.
Bir az təbəssümlü,
Bir az ümidli,
Bir az da, qəlbində sevincin olsun.
Hələ neçə-neçə sabah açılar,
Hələ neçə-neçə bahar olacaq.
Hava gah buludlu,
Gah da buludsuz.
Gəl, bir az yaxına,
Qoy, çıxsın beynimdən qara fikirlər.
Bir kibrit qutusu qədər səadət bizə,
Bir ömür bəs edər.
Sənsiz yerimdəcə donduğum kimi,
Dilimin ucunda sözüm donmasın.

### DÖNƏSİ DEYİL

Kiprik döyə -döyə,
Yollara baxır.
Gələrmi, gələrmi sevdiyi insan.
Başının üstündən,
Buludlar axır.
Elə bil, başına dar gəlir cahan.
Bu gün də gələsi,
Olmadı belə,
Yollar da, duymayır iztirabını.
Görən də dərdini,
Anlamır elə,
Gedən çoxdan deyib “yox” cavabını.
O nə qayıdası,
Nə dönəsidi,
Getdi o əbədi, getdi qayıtmaz.
Eşq ondan ötəri,
Ötəri hissidir.
Gedənlər çox olur, qayıdansa az.
İnanma geriyə qayıdasıdır,
Əzizim, bu da bir alın yazıdır.
Gərək ki, qəm yeyib, həsrət çəkəsən,
Bir ömür yollara sən göz dikəsən.
Ötsədə ömründən lap belə qırx il,
İnan o, geriyə dönəsi deyil.

## Məhəmməd Tanhu



### Liliput  sayıqlamalar

“Quran”da hər şey yazılıb, deyirlər
gözlərimi eynəktək açıb oxudum, çox oxudum.
ilk məktubum haqqı, getməyin yazılmamışdı.
xxx
yağış nizətək töküləndə şəhərə
diksinər nimdaş pencəklər
udqunar çatlaq pəncərələr,

gur eşidilər şüşəsinin ürək döyüntüləri

**xxx**
qayıtmağın dözülən ağırlığı
əvvəlcə görüşlər azalar
sonra gülüşlər.
sevgi həmişə “az”lığa uduzur:
az darıxmağa, az xatırılamağa
gedənlərdən “heç kim” qayıtmayacaq,
deyir şair
heç kim böyük rəqəmdir axı
bu inqilabi getməyi döndərək qayıtmağa.
üzsüz dediklərimiz, elə o üzlə qayıtsınlar
deyirəm, üzüsulu qayıtsınlar,
biz qurudarıq üzlərini öpüşlərimizlə.

**xxx**
yerin üçdə ikisi suyla örtülü, deyir okean
yaşlı səyyah
bəlkə bundandır adamların ağlamağa
meyilliliyi
axı, yerdə cazibə qüvvəsi mövcud.

**xxx**
süpür göz yaşlarını gözlərimin
küçəsindən
daha nəm yerlərdə yeriyə bilmirəm

**xxx**
daha tək deyilsən, şair
ağciyərində xərçəngin var
bəs heyvanları sevmirdin?

**xxx**
aysberqlə toqquşan “Titanik”dir
bir yazarın ölümü.

**xxx**
Yaralı qəlbin səsi olmur,
iniltisi olur.

**xxx**
Adamlar doğmalarını isti qumlarda
basdırırdı
Uğurlar həyata keçirdi ölümə hazırlıq
məşğələləri

**xxx**
“Tənha yaşayanların manifesti”
kitabının ilk cümləsi:
cavabı məlum suallar, ən qorxulu
suallardır.

**xxx**
AY, küçədə gəzişən aç tifillərin
gözündə
yarım çörək kimi görünər hər gecə.

X
E
Y
R
U
L
L
A



XƏYAL

### Basdırın məni

Ölənə vətənin nəyi yaxşıdı? –
Tabutu götürüb ölüxanadan,
Maşına qoyarlar. Qarmı, yağışnı,
Bürkümü – fərqi yox, yola çıxarsan.

Sürücü gecəni gündüzə qatar,
Sərhədə yetişər. Yüksən indi sən
Ancaq nə dəyərin, nə qiymətin var,
Hərbini, gömrüyü sevindirəsən…

Türmə qapısı tək sərhəd açılar,
Torpaq… Doğma iyi duyulmaz indi
Ruhuna zindandı üstü haçansa,
Altına gömülər ölü bədənin…

…Uzaq məzarlıqda tikə yer alın,
Aparın, sakitcə basdırın məni.
Xaçlı qəbirlərdən xeyli aralı,
Abidəsiz məzar bəsimdir mənim.

Bir ağac parçası torpağa sancın,
Yazmayın üstünə nə tarix, nə ad.
Müsəlman adımı görən bir cənab,
Tüpürüb deməsin …tvoyu mat…

***Rusiya, Samara***

## İBRAİMXƏLİL



### ÜMİD

Adam hərdən ümidini yeyir ucqarda;
fikirləri köçaköçdü – ürəksiz yeyir?
Axşam-axşam ulduz altda duza batırıb,
adam hərdən ümidini çörəksiz yeyir, –

yeyib hələ saxlayır da dar günü üçün...
kim deyir ki, bir çiçəklə yaz olmur ümid?
...Adam hərdən ümidini yeyir ucqarda;
yeyir... yenə azalmır ki, azalmır ümid!

Baxıb yanır Göyçə səmtə Arazdan uzaq;
giley edir gecə ağzı yanıq kirpiyə...
Adam hərdən ümidini çörəksiz yeyir;
sınıqçıtək baxır hərdən Siniq körpüyə.

Tənhalığı tab gətirmir Təbrizə qədər...
dad da çəkmir: başı üstdə bir dam olaydı!
Deyir: Allah, ayrılıqlar yaylığa dönə;
kaş, canpərvər cudamlar da adam olaydı!

Ümidsizlik bir bəladı lap bal da qatsan...
ara-sıra ümidgahda ürəksiz yeyir.
Bəlkə çörək bolluğunu artıran odur:
adam çox vaxt ümidini çörəksiz yeyir.

Sınıq körpü sınar deyə çıxmır körpüyə...
təki orda Azərbaycan var olsun deyir.
Arazbarı olur ümid qonaqlıqları,
nəfs özünü qınamasa, ar olsun deyir.

Eh, sən nahaq sızlayırdın: ümidsizdi yurd...
qadağanda elə bil ki, qoca dağ durur!
Sizdə hələ yağış yağır, hardan biləsən,
bu ucqara Allah təkcə ümid yağdırır...

***Gürcüstan, Əyriqar***



# "YAZI" DƏRGİSİNİN 5 YAŞI TAMAM OLUR: TƏBRİKLƏR, ARZULAR, TƏKLİFLƏR

Ədəbiyyat işi həmişə davam etdirilməlidir. Sabah da, biri gün, də... həmişə! "Yazı" jurnalı ədəbiyyatçıdır, bizə bir köynək yaxındır. Dərginin redaktoru Azad Qaradərəli yorulmadan, böyük şövqlə çalışır, maraqlı əsərlər tapıb ortaya çıxardır. Bu jurnala uzun ömür, yeni saylar, yeni uğurlar arzulayıram!



**Əjdər Ol**

Bu gün internet saytlarında, sosial şəbəkələrdə çap olunmaq daha cazibəli görünür. İnternetdə populyarlaşmaq da asan və tez başa gəlir. Çap olunan bədii materialların oxucusu bol olur. Amma yenə də bütün bunlar ədəbiyyat dərgilərinin , kitabların yerini vermir.

İlk növbədə ona görə ki, kitablarda, dərgilərdə çap olunmaq daha qalıcıdı, daha qarantilidi. Üstəlik bizim ölkəmizdə.

Hansısa populyar saytda şeirlərin çıxır, yayılır, oxunur. Amma əlbəəttə ki, bütün şeirlər, hekayələr yadda qalmır. Özün belə unudursan. Bir də gördün həmin saytın rəhbərinin, ya redaktorunun səninlə münasibətləri pozuldu. Görürsən ki, aylar əvvəl çap olunmuş mətnlərin saytın arxivindən yoxa çıxdı.Yaxud sayt yenilənir, dizaynı dəyişir, baxırsan ki, yazıların arada itdi, batdı.

"Başına gələn başmaqçı olar"- deyirlər. Başıma gəlib ki, deyirəm. Bir müddət yeni yazılarımı ancaq "Yazı" dərgisinə yollayırdım. Bilirdim ki, kompüterim qəfildən yansa, elektron adresimin parolunu sındırsalar, hansısa saytdan yazılarım çıxarılsa, yenə də "Yazı" dərgisi yazılarıma sahib çıxacaq, əmanət kimi saxlayacaq.

Gözümüzün qabağında tarixə qovuşmadan yox olan onlarla sayt olub. Bəzi gənc yazıçılar ədəbiyyat jurnallarına elə də diqqət yetirmir, populyar saytlarda çap olunmağa can atırlar. Amma o saytların böyük əksəriyyəti qalıcı deyil.

"Yazı" dərgisinin Azərbaycan ədəbiyyatı qarşısında təmənnasız xidmətlərindən biri də budur: müasir Azərbaycan ədəbiyyatının gələcək üçün arxivini toplamaq!

"Yazı" dərgisi öz ətrafında çoxlu sayda gənc qələm sahiblərini cəm eləməyə nail olub. Bəzi gənclər hətta ilk qələm təcrübələrini bu jurnalın səhifələrində çap etdiriblər, ondan sonra tanınıblar.

"Yazı" dərgisi istedadla yazılmış hər bir mətnə öz qapılarını açır. Müəllifinin kimliyinə fərq qoymadan, ayrı-seçkilik etmədən. Bütün bunlar qələm dostlarımıza, eləcə də "Yazı" dərgisinin oxucularına bəllidir.

Artıq bir çoxlarınıza tanış olan "Yemlik" uşaq ədəbiyyatı jurnalı da "Yazı" nın əlavəsi olaraq işıq üzü görür. Maddi çətinliklərə baxmayaraq, "Yazı" jurnalının baş redaktoru Azad Qaradərəli uşaq jurnalı ideyasını sevinclə qarşıladı. Uşaq ədəbiyyatı yazarları, yazmağa

həvəsi olan balaca dostlarımızın özü üçün "Yemlik" bir nəfəslik oldu.

"Yemlik" nəşr olunana qədər hamı danışırdı ki, guya bu sahədə dərin boşluq var, yazan yoxdu. Yazıçıların uşaq ədəbiyyatına həvəsi azdı. "Yemlik" üçün materialları toplayanda isə gördük ki, yazmağa həvəsi olanlar da var, yazanlar da. Lakin uşaq ədəbiyyatının inkişafı üçün geniş meydan yoxdu. Özünü uşaq ədəbiyyatına həsr eləmək arzusunda olan ona qədər yeni imza kəşf elədik.

Artıq tanınmış yazarların bir çoxunu uşaqlar üçün də yazmağa həvəsləndirdik. Bəziləri isə uşaqlar üçün yazdıqlarını böyüklər üçün nəzərdə tutulmuş kitablarında, yaxud jurnallarda çap eləmişdilər. Biz o mətnləri bir yerə topladıq və müasir Azərbaycan uşaq ədəbiyyatının mənzərəsini yaratdıq.

Maddi çətinliklər ucbatından gələcəkdə biz uşaq ədəbiyyatı əlavəsini "Yazı" jurnalının içində çap eləməyi düşünürük. Uşaqlar üçün ədəbiyyat yaratmaq mənəvi borcdur. "Yazı" jurnalı bu mənəvi borcun da altında qalmamışdır.

İndi "Yazı" dərgisinin beş yaşı tamam olur. Mənə elə gəlir ki, o elə lap çoxdan mövcud imiş. Sanki indi beş yox, əlli yaşı tamam olur. Arzulayaq ki, o da olsun!

Hər zaman yazılarıma qucaq açan "Yazı" dərgisinin oxucularını, jurnalın ətrafında toplaşan bütün qələm dostlarımı və səmimi dost, gözəl qələm sahibi hesab elədiyim baş redaktoru Azad Qaradərəlini jurnalın yubileyi münasibətlə təbrik edir, "Yazı"ya da, baş redaktoruna da uzun ömür arzulayıram!



***Sevinc Elsevər***

# İLK ADDIMLAR

## Elmar Xəta



***

Bilsəm ki, hələ də məni sevirsən,
Sərərəm ayaqların altına bütün gülləri
Və unudaram ağrılarımı sevə-sevə…
Bilsəm ki, çiynimdə var qanadlar,
Qaldıraram varlığını səmaya
Və sındıraram bütün sərhədləri uça-uça…
Bilsəm ki, ovuclarimda ilişib qalib saçların
Qoxusunu içimə alıb, sıxaram gözlərimə
Və sığal çəkərəm bircə-bircə
Bilsəm ki, unuduram varlığını, çıxardıb ürəyimi, sərərəm ayyaqların altına,
Və deyərəm "tapdala, tapdala…"

## AYSEL ABDULLAZADƏ



**Mən öldürdüyünüz qadınam...**

Mən öldürdüyünüz qadınam,
On beş yaşında ərə verib
kitablarımdan ayırdığınız,
arzularımı boğduğunuz,

yumşaq oyuncağımla yatmadığım gün
məni öldürdünüz...

Mən öldürdüyünüz qadınam,
On altı yaşında ana olan
özüm uşaq ikən
özümdən bir uşaq dünyaya gətirən zaman öldüm.
Yaşıdlarım məktəbə gedərkən
mən qızımı bələyəndə öldüm.
Onlar küçədə gizlənqaç oynayarkən
məni ərim zorladığında öldüm...

Mən öldürdüyünüz qadınam,
Dəftər yerinə əlimdə bir külfətin qazan qaşığı,
Məzun geyimi əvəzinə
ağ gəlinlik libası geydirdiyiniz
kəfən misalı...
Mən öldürdüyünüz qadınam,
diri-diri torpağa basdırdınız,
ocağa atıb yandırdınız,
daşladınız, dışladınız
yetmədi, külümü göyə sovurdunuz...

Mən öldürdüyünüz qadınam,
Qız olduğu ucun
abort olunmuş körpənin çığlığıyam.
Ər qorxusu ilə o masada
canından balasını çıxaran
ananın içindəki fəryadıyam.
Bütöv deyil,
hissə-hissə doğrayan cərrah bıçağının iti baxışıyam...

Mən öldürdüyünüz qadınam,
Əsir bildiyiniz, cariyə etdiyiniz,
Bir gecədə otuz dəfə təcavüz etdiyiniz,
Saçından asdığınız, ruhunu qırbacladığınız,
mənəviyyatını öldürdüyünüz qadınam...

O qadınam,
gecə küçəyə çıxsam, pozğun dediyiniz,
evə gec qayıtsam, "adamı" var dediyiniz,
boşanarsam, potensial fahişə kimi gördüyünüz,
Dilinizlə, dininizlə, belinizlə,
Öldürdüyünüz qadınam.
...Amma bu gün ayaqda duran,
Çalışan, qazanan, övlad yetişdirən,
Topluma açılan, söz sahibi olan,
oxumuş, bilgili, kültürlü
Canına oxuya bilmədiyiniz,
daşlayamadığınız,
dışlayamadığınız,
yandıramadığınız,
Bitirəmədiyiniz qadınam mən!
Mən öldürəmədiyiniz qadınam!



# "YAZI" DƏRGİSİNİN 5 YAŞI TAMAM OLUR: TƏBRİKLƏR, ARZULAR, TƏKLİFLƏR

Dərginin adı – "Yazı". O "Yazı" ki, ruhunun kökləri Orhon-Yeniseydəki qranit daşlara qazılmış əski türk yazılı abidələrindən gəlir. O qədimliyi müasirliyə bağlamaq üçün dərginin baş redaktoru Azad Qaradərəli bütövlükdə mədəniyyətimizin keçdiyi yolun harasında dayandığını bilərək, ədəbiyyata çox geniş meydan açır. Çağımızın ədəbiyyatı bütün arsenalı ilə bu dərgidə görünmək və özünü ədəbi cəsarəti ilə ifadə etmək imkanları qazanır. Bu gün Azərbaycanda heç bir jurnal "Yazı" qədər geniş palitraya malik deyil. Çünki "Yazı" iddialar ədəbiyyatını deyil, yeni Azərbaycan ədəbiyyatını yaratmaq iddiasını ortaya qoyur. Özü də gerçəkdən və buna qadir olduğunu addım-addım irəli getməklə göstərərək. Uğur olsun! "Yazı"ya pozu yoxdur.



***Rahid Ulusel***
***Professor***

Qəribədir... Taleyimizin anlımıza yazıldığını desələr də qaraçılar ovuclarımızdan oxuyar. Əllərimiz qismətimizin tək sahibidir. Əllərimizlə qurub-yaratdıqlarımız bəzəyir ömrümüzü. Əllər ən gözəl sözləri, ən həzin misraları yazar ömrümüzə. "Yazı" düşüncələrimizin şəklidir. Beynimizdə doğulub, barmaqlarımızdan axan ən mükəmməl tablodur. Rəsmin və sözün möhtəşəm birliyindən yaranan bir mükəmməllik də var həyatımızda – " Yazı" dərgisi - ədəbiyyatın görən gözü.

Mənimcün doğmalıq hisslərin ən alisidir. " Yazı" dərgisi haqqında düşünəndə keçirdiyim hissin bir adı var – doğmalıq.

Mükəmməl yaradıcı qrupun içərisində şəxsən tanıdığım, yazılarını izlədiyim, fikirlərini acgözlüklə dinlədiyim sənətkarlar var.

"Yazı" dərgisi indiki yaradıcı heyətlə dəyərli və əvəzsizdir. Gəncliyə açdığı geniş qolları, sevgiləri sığdıra biləcək geniş ürəyi ilə sevimlidir.

Və... 2013- cü ilin noyabr ayında ilk dəfə şeirlərimi işıqlandıran dərgidir. Əyalət qəzetlərindən jurnal ədəbiyyatına atdığım ilk addım və mənə göstərilən böyük etimad idi.

Bu gün kitab rəfimdə dərginin bütün nömrələri var. Məni tanıyan bütün insanlar bir nömrəsini oxuduqdan sonra mütləq növbəti nömrələr üçün müraciət edir.

Əziz " Yazı" dərgisi! Ömrün uzun olsun, həmişə bax beləcə dünyanı bizə, bizi dünyaya tanıdasan və sevdirəsən.



***Aynur Cavid***

# NƏSR
## Hekayələr

## Ziyad Quluzadə



### Qaçış

-Qurtarın! Mənə kömək edin!- deyə Zamza bağırdı. Səs quyunun dərinliyində qaranlıq dibsizlikdə qəribə bir əks-səda verdi. Əvvəlcə qarşıdakı divara dəydi, sonra isə bir iki dəfə təkrarlanaraq əriyib getdi. Artıq bilinməyən, tanımadığı bu quyudan xilas üçün sığınacaq bir insan, Tanrı və fövqəlqüvvə axtarmağa ehtiyac yox idi. Eləcə kürəyini quyunun nəm divarına söykəyib qaranlıqda gözləməli idi. Əvvəlcə sükutu dinlədi. Səssizliyə qulaq asdı. Bir neçə saniyədən sonra quyunun divarından qopub yerə düşən və ayaqlarının altından axan kəhrizin içində şıppıltıyla əriyib gedən torpaq parçasının yaratdığı səsə qulaq asdı...

***

- Zamza, Zamza, tez ol. Oyan işə gecikəcəksən,- deyə qapını ehmalca döyəcləyən anası Nətavan xalanın həlim səsinə oyandı. Üzərində uzun ayaqları olan böcək təsvirli yorğanını kənara tulladı və çarpayıdan hövlnak özünü pəncərənin qabağına atdı. Həyətdə, pəncərənin qabağındakı boşluqda atasının əkdiyi qızılgüllərin üzərinə şeh düşmüşdü. Qapının ağzında həyəti sulamaq üçün çəkilmiş İran istehsalı olan plastik borular ölü ilan yığını kimi bir-birinə dolaşıb qalmışdı. Bir də həmin alma ağacı...

Zamza arxasını pəncərəyə tərəf çevirdi. Divara pərçimlənmiş güzgünün qarşısında dayandı. Gözlərinə baxdı. O, 75 kilo ağırlığında, 29 yaşlarında, qarayanız, qaraçərçivəli eynək taxan, qaradinməz bir gənc idi. Bakı Dövlət Üniversitetinin Coğrafiya Fakültəsini bitimişdi və öz sahəsinə dair iş tapa bilməyəcəyini oxuduğu müddətdə başa düşdüyü üçün, qəfil bir qərarla üniversitetdəki təhsilini ‘məlum yollarla’ başa vurub reklam şirkətlərinin birində qrafik-dizayn işləri ilə məşğul olmağa başlayır. Sözün düzü bu sahədə də xeyli fərasətli olduğunu demək olar. Çünki, Adobe Photoshop, Corel Drav və reklamçılıqla bağlı olan hər proqrama bələddir.

Zamza qaraçərçivəli eynəyini gözünə taxdı. “Samsung” markalı telefonunun kənar düyməsinə toxunub açdı. Ekranın üst qismində ona gələn mesajların və zənglərin işarələrini gördü. Tez-tələsik həssas ekrana barmağını gəzdirib daxil olan zənglər və mesajlar qismini açdı. Bu reklam şirkətində onunla bir yerdə işləyən copywriter (Mətnyazan) Nigar idi.

***

NİGAR- Taleyin bir insanı saçlarından qeyri-müəyyən bir nöqtəyə çəkib apardığına yəqin inanırsınız. Mənim üçün də həyat elə bir çıxılmazlıq, təkadamlıq bir həbsxanaydı. Keçmiş heyatım, atamın ömürlük həbsi,

anamın heç vaxt olmamağı kimi faciəvi hadisələr danışmaq istəmirəm. Buna ehtiyac da yoxdur. Məqsəd, burada Zamzanın hekayəsini danışmaqdır. Onun təbiətə və mövcud həyata olan yadlaşmasının bədii həlini tapmaqdır. Ancaq ona olan sevgim fərqlidir. O, özünəməxsus, səliqəli və çox intelektualdır. Bəlkə də ona görə də onu çox sevirəm.

Nigarın hekayəmiz üçün belə bir fədakarlığı gözə alması, düzü məni xeyli sevindirdi. Çünki, məqsəd onu da ətraflı tanış etmək idi. Ancaq, görünür, bu hekayədə onun yerinin olmadığını görməsi daha məqsədəuyğundur.

***

Zamza coğrafiya fakültəsində oxuğu ərəfədə evdə baş vermiş bir cinayət hadisəsini də unutmalıdır. Atasının qəfil bir qəza ilə öldürdüyü qonşunun balaca uşağının bağdakı alma ağacının altında basdırılması və uzun illərdir valideyinlərin hələ də həmin uşağı axtarması Zamzanı çox narahat edir. Bəzən, tünd qırmızı boya ilə qapısı boyanmış qonşunun evinin qarşısından keçəndə fikirləşir ki, zəngi vursun və o gözü yaşlı qadını bir ümid təlaşıyla çağırsın. Bütün həqiqəti ona olduğu kimi danışsın. Desin ki, atam istəmədən bu cinayəti törədib. Təsadüfən evin damındakı çəkici həyətə atanda oğlunuzun başına dəyib və oğlunuz ölüb. Biz də sizdən qorxduğumuz üçün oğlunuzu həyətdəki alma ağacının altına dəfn etmişik. Ancaq sonrasını fikirləşəndə... Fikirləşəndə ki, həmin qonşu illərin əzabı və nigarançılığı ilə atasını cəzalandırmaq istəsə... Əgər belə bir şeyə cürət etsələr, onda gərək körpə uşağı öldürdüyü üçün atası həbsxanada yatsın. Yox. Elə vicdan bəzən susub əzablar içində işgəncələrə düçar olsa daha məqsədə uyğundur. Bəzən həqiqətdənsə, elə yekəpər, iricə bir yalan daha yaxşıdır.

Zamza otağa keçdi. Televizorun qarşısındakı böyük yemək masasının ətrafında əyləşmiş atası və anası qəlyanaltı edirdilər. – İşə yenə gecikəcəksən,- deyə işlədiyi cinayəti çoxdan unutmuş ata dilləndi.

Nətavan xala ehmalca ərinin üzünə baxdı. Sanki, onu tənbehləmək, oğlunun yanında olduğunu bildirmək, onu qoruduğunu və onun üçün də ərinin yeri gəldi-gəlmədi danlamağı qarşısında həyatda etməyəcəyi bir şeyin olmadığını demək istəyirdi. Bu baxış, ötəri, qəfil bir refleks kimi xəbərdarlıq xarakteri daşımırdı. Onun kökündə çox dərin mətləblər vardı. Bu baxışın kökündəki xəbərdarlığın elə ən birincisi bəlkə də belə idi. “Deyəsən, bizim susmağımız sənə yaman qol-qanad verib? Qatil”- deyə bilərdi.

-Heç yumurtanı axır vaxtlar yeyə bilmirəm. Zamza, gəl. Gərək soruşardım. Qaynamış istəyirdin, yoxsa yağda qırma... Hamınınkını qaynatdım. Sabah qızardaram...- deyə Nətavan xala masanın ortasındakı boşqabdakı yumurtanı götürüb Zamzanın boşqabına qoydu.

Divara pərçimli bir məşhur tablonun kopyasında iri gözləri olan qadın Zamzaya baxırdı...

Otağın içindəki sükunətdə eşidilən ağız şappırtısı, çəngəlin boşqaba toxunuşundan yaranan küt bir səs, atanın çarəsizliyə doğru tulladığı dərin “Ah!”səsi və ananın həmin an etiraz etmək üçün qurcalandığı stulun vintləri boşalmış ayaqlarının cırıltısı...

Zamza qaynadılmış yumurtanı çəngəllə ortadan iki hissəyə ayırdı. Yumurtanın tən yarısını yavanca yedi. Telefonu açdı. Əvvəlcə dünəndən yarımçıq qaldığı bir oyunu oynadı. 349-cu mərhələdə idi. Əgər bu mərhələni də

keçsəydi, oyunda 1 saat fasiləsiz oynamaq haqqı qazanırdı. Oyun adətən yuxarıdan tökülən çiyələk, alma və fərqli fiqurlardan ibarət olan lövhədəki eyni üç işarəni birləşdirməklə davam edirdi. Hər üç simvol birləşdiyi an qəribə ulduzlar ortaya çıxır və həmin simvollar yox olur. Heçliyə sovrulur. Zamza günün böyük bir hissəsini məhz bu heçliyə sovurma əməliyyatını həyata keçirmək üçün sərf edirdi. Bəzən, səhərdən axşama kimi telefonu əlindən yerə qoymur, müxtəlif bu tipli oyunlarda qalib gəlmək üçün mübarizə aparırdı. Sizifin adlı bir müştəbehin varlığını da yəqin bu məqamda Zamzaya xatırlatmaq lazımdır.

"Real Madrid-Chelsea- 1-0". Zamza dostu Kafkadan gələn bu mesajı oxuyar-oxumaz yerindən dik atıldı. – İşə gecikdim, - dedi. Qapının kandarında "Nike" ayaqqabılarını zorla, bağlarını açmamış ayağına ilişdirdi. Həyətə çıxdı. Kafkaya zəng vurdu.

-Alo. Salam. Ala,"Topaz"a etibar yoxdur, - deyə Zamza şikayətli bir halda dilləndi.

-Bütün maaşını yatırmışdın?

-Hə. Özü də yüz faiz bilirdim ki, hesab 1-1 olacaq.

-İşə gəlirsən?

Zamza susdu. Heç bir şey demədi. Telefonu söndürdü və fikirli bir halda evin 100 metr irəlisindəki şosedən ötüb keçən maşınlara baxdı. Sonra çox uzaqlarda kiçik bir siluet kimi görünən neft buruqlarına və fasiləsiz çalışan quyuların üzərindəki dəmir konstruksiyaların müştəbeh hərəkətinə acıqlandı.

Şosenin kənarından ötüb keçən maşınların qəribə şütüməklərinin müşaiyət etdiyi uduzduğu aylıq maaşı və həyatın bu sayaq davam edən darıxdırcı yeknəsəkliyi qarşısında çarəsiz bir halda cibindəki qulaqcığı çıxardı. Son vaxtlar meyxanaya qəribə bir maraq yaranmışdı. Bakı ləhçəsi ilə, gəlişigözəl bir formada, avazla deyilən bu qəribə səs-küy onun üçün yeganə əyləncə vasitəsi idi. Sanki, bu bir-biri ilə ironiya edən, poeziyadan dəm vurub əslində tamamilə başqa bir nəsnə istehsal edən musiqi adlı səs-küyün fonunda Zamza gələcək həyatını fikirləşirdi. Zamzanın gələcək həyatdan gözlədiyi şeylər "Çox Böyük İdi". Onun hədəfləri var idi. Mütləq bir xarici maşın almalı idi. Nə bahasına olursa olsun. Kreditə girib həmin maşını alacaqdı. Özü də hesablamışdı, maşının kreditini vaxtlı-vaxtında ödəsə, 5 il sonra özünə qalır. Ev məsələsi həll edilmişdi. Atasından qalan ev vardı. Çünki evin bir oğlu idi. Başqa bir şeyə ehtiyacı duymurdu. Nigar da halal süd əmmiş qız idi. Onunla da evlənəcəkdi. Reklam işi də pis deyil. Bir də bir az komputer təmirindən başı çıxırdı. Özündən soruşsaq belə deyər. "Hə. Qaqaş. Mən komputeri söküb – yığıram. Format lazımdırsa, edim. Cd-Rom, DVD-Rom, tapım. Dizayn proqramlarını da ki, əla bilirəm. İstəsən sənin üçün sayt da yığa bilərəm."

Bəs, həyətdəki o ölünü necə edəcəklər? Bu üç nəfərlik ailənin başı üzərində fırlanan həmin körpə qətlinin nə ilə nəticələnəcəyini heç kim bilmir. Deyilənə görə belə işdən ötrü adama 15 il həbs verirlər. Çox vaxt, əslində əksər vaxt ailə bu ölünü tamamilə unudurdu. Onlar da hamı kimi qohum toylarında pul salır, əl qaldırıb oynayırdılar. Ya da eyni ciddiyətlə yaslara gedir, çıxanda ölənin yaxınına başsağlığı verirdilər. Ancaq lənətə gəlmiş insan yaddaşı. Hər şeyi ən lazımsız anda xatırladır. Sanki, çox əhəmiyyətli bir şeymiş kimi bu hadiəsni də bütün detallarına qədər onun xatirəsində saxlamışdı. Qəfil bir duyğu seli peyda olan kimi həmin hadisədən bir səhnə gəlib atasının gözlərinin

qarşısında dayanırdı. Belə məqamlarda bu yaşlı adam eyvana çıxır və siqaretini var gücüylə ciyərlərinə çəkərək uşağı basdırdığı alma ağacının altına baxırdı.

Avtobusun pəncərəsindən bir müddət yol boyu uzanan neft qüllələrinə baxdı. Boz, quru torpaqların üzərindəki bu dəmir konstuksiyaların enib-qalxan başı onda həmişə qoxulu, ağzından od püskürən əjdahaları xatırladır. Zamza bu dəmir yığınına qarşı içində qəribə bir qorxu duyurdu. Həm də deyəsən nifrət edirdi. Bu boz və tutqun qüllələr onu çox qorxudurdu. Qəribə bir əsəb gətirirdi.

Qulaqcıqlardan gələn meyxana yolun yarısında onu bezdirdi. Telefonu söndürdü. Yenidən əvvəlki kimi oyununa qaldığı yerdən davam etdi. Növbəti mərhələni keçdi. Ekranda WINNER! Yazıldı.

***

-Bilirəm axı, balam axırıncı dəfə sizə gəlmişdi. Nətavan, balama nə oldu?- deyə qonşu yarı özündən əmin halda dilləndi. Bu 28 yaşlı qadın şübhəsinin doğru olub-olmadığını bilmir. Ancaq bir ana instikti ilə, əslində körpəsinin bu həyətdə, ona yaxın bir yerdə olduğuna şühələnirdi.

Nətavan bu məqamda əsl aktyor kimi əllərini dizinə çırpır, ağlayır, göz yaşı tökür və and-aman edirdi ki, heç nədən xəbəri yoxdur.

Ancaq Zamza bu qadının əl çəkməyəcəyini, bir gün qorxduğu həmin hadisənin baş verəcəyini bilirdi. Bəlkə də həmin hadisə heç vaxt baş verməyəcək... Neft qüllələri aədti üzrə tələm-tələsik quyuları soracaq, alma ağacı bar verəcək, yarpaq tökəcək, quruyacaq, kəsiləcək... həmin fikirli adam eyvanda siqaret kötüklərini həyatın bütün əzabına qarşı etiraz edirmiş kimi qeyri-müəyyəniliyə tolazlayacaq və bütün şeylərin üzərindən "ZAMAN" adlı əzəmətli bir külək əsib hər şeyi öz ilkin mənasından arınmış yeni formalara salcaq...

## VAHİD QAZİ
**(İsveç)**



## Oginskinin melodiyası

Uşaqları ötən bazar onu əməlli-başlı sınağa çəkmişdilər. "Sənin musiqi duyumunu yoxlayacağıq. Çaldıqlarımıza qulaq asıb düşüncələrini yazacaqsan!" – demişdilər. Pianoda çaldıqlarını bir-bir dinləyib təəssüratını yazmalıydı.
Əlbəttə, bir-iki saatın içində ondan çox musiqi parçasını dinləyib hər birinə ayrıca köklənmək mümkün deyildi, odur ki, hiss və düşüncələrini bütünlüklə əhatə edə bilməyəcəyini bəri başdan söyləmişdi. "Olsun!" deyib, razılaşmışdılar. Dediklərinə görə, özlərinin də belə "test"ləri varmış, "cavablar" çox gülməliymiş.

***

Minə yaxın əhalisi olan Bürseridin protestant İsveç kilsəsi ətrafdakı neçə-

neçə kənd, şəhər kilsəsindən ən qədimidi. 1752-ci ildə özülü qoyulan kilsənin tuncdan tökülmüş zəngi özündən də qədimdi, üstündəki tarix belə deyir: 1691.

Kilsə hündürdə tikildiyindən üstündəki xaç kəndin hər yerindən görünür. Dörd bir tərəfi qəbirlərlə cərgələnmiş Tanrı evi Akropolu xatırladır, dünya içində başqa bir aləmdi. Qəbirlərin ətrafına cürbəcür güllər, çiçəklər əkilib. Sanki qəbir yiyələri gül əkməkdə bəhsə giriblər. Sadə başdaşlarına ölənin adı, doğulduğu, bir də öldüyü il yazılıb. Kilsəyə yaxın olanlar daha qədimdi, aralandıqca qəbirlər “cavanlaşır”.

Qırx, əlli, hətta yetmiş il əvvəl ölənlərin məzarları üstündə çiçək əkilməsi, şam yanması onu göstərir ki, hələ də xatırlayıb ziyarət edənləri var.

Dünyada bütün məzarlıqlar yerli camaatın adət-ənənəsinə, dünya-görüşünə, mədəniyyətinə güzgü tutur. Məzar daşlarına yazılan rəqəmlər onların ömür yolundan xəbər verir. Bu şimal ölkəsinin adamları uzunömürlüdürlər. Ortalama səksən il yaşayırlar.

Burda ona doğma gələn yeganə şey palıd ağaclarıdı. Uşaq vaxtı qozalarına “stəkan-nəlbəki” dediyi palıdın biri də babasının qəbri başında bitmişdi. Böyüklər dua edəndə o, ciblərinə palıd qozaları yığırdı. Kilsəyə hər gəlişində uzaqda – zamanın və məkanın o üzündə qalan uşaqlığını xatırlayır, xəyalların qanadında uçub isti cənub ölkəsində uyuyan babasını ziyarət edirmiş kimi qəribə duyğular keçirirdi.

…Kilsənin iki giriş qapısı var. Yan qapı həmişə açıq olur. Baş tərəfdəki böyük alaqapı isə yalnız böyük dini mərasimlərdə camaatın üzünə açılır. Burda yalnız matəm deyil, nikah mərasimləri də keçirilir və kilsə hər mərasimə uyğun olaraq əvvəlcədən xüsusi bəzədilir. Qədim zəng, xeyli tarixi eksponat giriş otağında saxlanır. İkinci mərtəbəyə aparan on beş pilləli taxta pilləkən də burdadı. Pillələr kilsə musiqiləri çalınan orqanın yerləşdiyi eyvana və kilsə zənginə doğru aparır. Ziyarətçilər əsas zala bu otaqdan daxil olurlar.

İbadət zalına girişin ilk sırasında soyuq havalarda oturmaqdan ötrü döşəkçələr yığılıb, körpə uşaqlar üçün cürbəcür oyuncaqlar qoyulub. Divardakı rəflərdə iki yüzdən çox qırmızı üzlü “İncil” düzülüb. Hər birində səkkiz nəfərin rahat əyləşə biləcəyi on yeddi uzun oturacaq zalın sağ və sol yanları boyu sıralanıb. İbadət zalının uzunluğu otuz, eni on, hündürlüyü yeddi metr olar. Hər iki yandakı üç iri pəncərədən içəri gün işığı düşür, bu işıq yetməyəndə pəncərələrin sağ-solunda asılmış böyük şamdanlar yandırılır.

Girişin təqribən on addımlıq yerini tutan alçaq tavanın – daxili eyvanın üstündə kilsənin orqanı quraşdırılıb. O, orqan müsiqisini xoşladığından burdakı əksər mərasimlərə gəlir və adəti üzrə arxa cərgədə oturub dinləyir.

Tamaşaçı zalı kimi sırayla yerə bərkidilmiş oturacaqlardan sonra başlayan səhnəyəbənzər geniş podiumda pastorun moizə oxuduğu kafedra, körpələrin xaç suyuna çəkildiyi üstü tasa oxşayan dəmir lövhəli ağır girdə daş, ortasında bir iri, ətrafında iyirmi altı balaca şam düzülmüş dəmir barmaqlıqlardan hazırlanan yumru “qlobus şamdan” var. İbadətə gələnlər şam yandırıb oyuqlardan birinə qoyur.

Mərasim vaxtı “İncil”dən oxunacaq surələrin nömrələri yan divarlardan asılan lövhələrə yazılır. İbadət zalına girən hər kəs girişdəki rəflərdən müqəddəs kitabı götürüb oturur, oxunan surəni tapıb pastorla birlikdə dua eləyir, orqanda çalınan musiqini dinləyir və

kilsə xoruna qoşulub mahnı oxuyur. Divarlarda yanan şam, kilsənin hündür tavanından sallanan çilçırağın toran işığı ibadət zamanı xüsusi fon yaradır.

Zalın başındakı divarda İsanın çarmıxa çəkilmiş böyük şəklidi. İki yüz yaşı olan bu böyük tabloda İsayla yanaşı çarmıxa çəkilən iki quldur, peyğəmbərin ayağı altında ürəyi getmiş Məryəm ana, at belində Ponti Pilat, dəhşət içində İsaya baxan müridləri əks olunub.

Şəklin önündəki yarımçevrə sürahı buranı zaldan ayırır.

Bu boş sahənin sağında səkkiz pilləli taxta minbər durur. Minbərin mühəccərində xristian müqəddəslərin şəkli çəkilib. Bura kilsənin ən qədim hissəsidi. Üstündə dualar latınca yazılsa da, tarix rum yox, ərəb rəqəmləriylədi – 1632. Görünür, minbəri bura daha qədim kilsədən hazır gətiribmişlər.

Bütün bu qədimliyin içində tək müasir əşya minbərin altındakı pianodu. Amma o da burda yad görünmür, sanki ilahi əl ona sığal çəkib. Piano ömrünü müqəddəs Ruha ibadətə həsr edən gənc rahibə kimi məsum görünür.

…Kəndə gələndə ilk işi uşaqlarına piano axtarmaq olmuşdu. Onlar aylardı pianodan uzaq düşmüşdülər, çalmağı yadırğamışdılar. Pastor mərasim keçirilməyən istənilən saatlarda çalmağa icazə vermişdi. Onlar da hər gün bura gəlir, saatlarla çalır, köhnələri təkrarlayır, yeni əsərlər başlayır, sanki böyük bir konsertə hazırlaşırdılar.

***

Əsərlərin nə adını dedilər, nə də müəllifini söylədilər. Dinləyib hər birinin onda oyatdığı duyğunu qısaca yazmağa başladı. Melodiyalar ona tanış idi, dəfələrlə eşitmişdi. Amma indi musiqini sadəcə dinləmək yox, yaratdığı təəssüratı yazmaq üçün onu həm də yaşamaq lazım idi…

Kilsənin güllü-çiçəkli balaca məzarlığa, qəbirlər kimi səliqəylə sıralanmış yaraşıqlı evləri olan kəndə, yan təpədəki meşənin əksi düşən gölə açılan pəncərəsindən uşaqlıq, cavanlıq çağlarının, yaşanmış illərin ayrı-ayrı anları kino lenti kimi gəlib keçirdi. Baba evinin pilləkənindən uzanıb eyvanda çiçəkləyən armudun budağında səhər mehindən titrəyən ağappaq ləçəklərlə, baxışların yazdığı roman yerinə dilin bircə kəlmə sözünü istəyən ilk sevginin nigaran çöhrəsi boy-boya vermişdi. Səhərin erkən qatarından paytaxt vağzalına düşən sevgiylə günboyu şəhərin küçələrini dolaşan, parkların üstü xəzəlli oturacaqlarını isidən, dəniz ləpələrinin bulvar sahilinə pıçıltıyla oxuduğu nəğməsini dinləyən, axşam lampalarından qaçıb qaranlıqda nəfəs-nəfəsə dayanan, sonda metro vaqonunun şüşəsi arxasında qalan baxışları dünyayla vidalaşırmış kimi itənədək məsum kədərlə ötürən sevdalı əyalət gəncini görürdü.

Dünyanın ən zalım sərhədi tikanlı məftillər, qalın divarlar deyil, şəffaf pəncərə şüşəsidi. Şüşə arxasından baxıb, gördüyün və arzuladığın yerə keçə bilməməyin əzabı ayrı əzabdı. Qərib adamın yad ölkədə həyatı bax beləcə şüşənin o üzündə qalır. Gördüyün yeni dünyada həm varsan, həm də yox. Nə eləyirsən elə, bu yeni həyatla aranda şəffaf şüşə olacaq, xatirənlə arandakı həsrət qatı kimi. İstəsən də heç vaxt bu sərhədi keçə bilməyəcəksən!

Qəriblikdə adam işlək dəmiryolun yanında üstündən qatarlar keçməyən, relsləri paslanmış ehtiyat yol kimidi…

İnsan zamanın təsdiqidi. İnsansız zaman yoxdu! Çalınan musiqilər onu istədiyi məkana, zamana aparır, arzuladığı hər kəslə görüşdürürdü. Gah keçmişin dərinliklərində qalanlara baş vurur, gah da umudların qanadında gələcəyə

uçururdu. O anların içində bu an yoxuydu, hamısı keçmiş həsrətli, gələcək arzuluydu.

İfalarını bitirən kimi uşaqları tələsik dəftəri əlindən alıb yazdığını oxumağa başladılar. Oxuduqca da qəşş etdilər. Kənardan baxan olsaydı, deyərdi, uşaqları onu məsxərəyə qoyub. Onları belə güldürən nəydi? Yazdıqlarını anlamamışdılarmı?

…Balalara özünü anlada bilməyəndə gülməli görünür böyüklər!

Uşaqları çaldıqları əsərlərin adını onun yazdıqları ilə birlikdə sırayla dəftərə köçürdülər. Biri dedi, o biri yazdı. Sonra "Bax gör necə alınıb" deyib dəftəri ona uzatdılar. Dəftərdə bunlar yazılmışdı:

"Seçdiyin Zamana səfər edən qatarın mənzil başına çatma an həyəcanı" – Mişel Leqran, "Şerbur çətiri";

"Qonşu qızın "küsməyi" – pəncərədə tərpənən tül" – Stiv Uander, "I just called to say: I love you" ("Zəng etdim deyəm: "Səni sevirəm");

"Uşaqlığın qapısını döyürsən, döyürsən, döyürsən… açan olmur" – Toto Kutunio, "Soli";

"Görən mesajımı aldımı? Oxudumu?! Cavab yazacaq!…mı?…" – Pier Başle, "Emmanuel";

"Əlvida!" deyib gedən xoşbəxtliyin qatar pəncərəsinə düşən silueti" – Co Dassen, "Salut";

"Şuşanın Üçmıx yüksəkliyindən üzüaşağı Cıdır düzünə sarı yüyürüb, ana qucağına atılırmış kimi dərin uçuruma tullanıb Vətən səmasında quş kimi süzməyin bəxtiyarlığı" – Demis Russos, "Souvenir";

"Gecə damda oynaşan yağış damlalarının xatirələrin qapısında əks-sədası" – Frederik Şopen, "Bahar. op. 74 № 2";

"Ömrü sahilə yetməyən dalğanın qayalara çırpılmaq röyası" – İohann Sebastyan Bax, "Praludium";

"Günəş şəfəqlərində rəqs edən bir cüt kəpənəyin qanadından qopan meh" – Yohan Ştraus, "Dunayın mavi valsı";

"Düyün düşən fikirlərin açılmaq çabası" – Moris Moşkoviski, "Etüd. op.72 № 2";

"Şıltaq gözəllərlə gizlənpaç oyunu" – Volfqanq Amadey Mosart, "26 saylı sonata. C-Dur";

"Yenə deyə bilmədim…" – Vaqif Mustafazadə, "Bayatı Şiraz"dan parça;

"…" – Mixail Oginski, "Vətəndən ayrılma";

"Sonuncu ümidi itirmək qorxusu…" – Frans Şubert, "Ekspromt 12";

"53 il əvvəl ölmüş ərin qəbri üstə çiçək əkən qonşu Yevanın titrəyən barmaqları" – Tomaso Albinoni, "Adagio";

"Sənin suya buraxdığın kağız gəmidə gələn baxışların" – Feliks Mendelson, "Sözsüz mahnılar. Op.30 № 6".

Oxuyub dəftəri geri qaytardı. Uşaqları güldürən sətirlər, əksinə, ürəyini sıxdı.

Kilsənin yağış döyəcləyən pəncərəsi ağzında oturub bu melodiyaları dinlədiyi gün ovqatı yalnız bir havaya köklənmişdi – siyahıda söz yerinə nöqtələr qoyduğu havaya, uşaqların "Bəs buranı niyə boş saxlamısan" sualına cavab yaza bilmədiyi musiqiyə.

O musiqi ki, qəlbinin astarını üzünə çevirmişdi. Rentgen aparatı kimi ürəyinin şəklini çəkib onun ən zülmət guşələrinə belə işıq salmışdı. İndi onu göynədən ağrının köklərinə baxır, rişələrin ən nazik ucunu belə aydın görürdü. Uzun illər öncə içində bitən, kökü ürəyinin alt qatlarınacan işləyən Ağrı ağacı qurumamışdı, üstü nisgil yarpaqlarla doluydu. Saralan iztirabla yan-yana tumurcuq kədər də vardı.

Onlar kilsədən çıxanda pəncərə şüşəsinin nəfəsdən tərləyən yerində barmaqla bir cüt söz yazılmışdı: "Həsrət nəğməsi".

Bu, dəftərdə üç nöqtəylə cavablandırdığı melodiyanın insan qəlbindən qopardığı ahın pəncərəyə düşən iziydi.

***

Bayırda yağış yağırdı. Günorta çağı olsa da hava qaralmışdı. O, kəndə qayıdırdı. Üzü soyuqqanlı şimal insanlarının “qaranlıq ölkədə” qurduqları “işıqlı həyata” sarıydı. Qulaqlarında Oginskinin melodiyası, beynində qaranlıq ölkəyə çevrilmiş günəşli vətəni, ürəyində yalnız kədər yarpaqlayan Ağrıyla daş ayaqlarını… arxasınca sürüyürdü.

Qarşı gələn adamlar əlindən çətiri sürüşən, dodağında siqareti islanıb sönən, sifəti çarmıxını daşıyan İsanın üzünə bənzəyən bu qəribə adama maraqla baxırdılar. Küçəylə sanki daş heykəl yeriyirdi. O, yağışın soyuq damlalarını duymurdu. İndi yağış onun qəlbini yuyurdu, içində göyərən daşı döyəcləyir, Ağrı-ağacının təşnəsini sulayırdı.

Özündən qabaqda qaçışan uşaqları yağışın altında bəxtəvər-bəxtəvər oynaşırdılar. Onlar daha atalarına gülmürdülər, hər şeyi unutmuşdular, öz dünyalarına getmişdilər…

…Havada isə qəribə atəşfəşanlıq vardı. Səkidəki dirəklərin lampalarından axan işıq seli ox olub yağış damlalarını milyon yerə parçalayırdı.

Gözqamaşdıran parlaqlıqda aydın seçilən iri bir işıq milyon-milyon şüanı yarıb göylərə üz tutdu. Ondan qopan bu işıq bir fənərlik şöləsiylə sanki bütöv bir səma qaranlığını nurlandıracaqdı.

***Yanvar 2013***

# ELDƏNİZ QULİYEV



## ELEGİYA

***Tanrım, yıxılmağa qanad ver mənə!..***

Gecə saat 3-ə işləyir. Divar saatının «çaqq-çuk»u ürək döyüntülərini xatırladır.

Qəribədi, adam ürəyində nəsə fikirləşir, ölçüb-biçir, amma qəlbindən keçəni sözə çevirib dilə gətirəndə görür ki, dedikləri demək istədiklərinin çox az hissəsini əhatə eləyir. Yəni «diri» fikir sözə çevriləndə yarımcan olur,

Elə sözlər var ki, sən onu ancaq özünə, öz üzünə deyə bilirsən. Və çox vədə məhz elə bu sözlərdə, yəni özünə, öz-özünə dediyin kəlmələrdə çox istədiyin bütünlüklə ifadə olunur.

Gecə saat 3-ə işləyir...

Evdə hamı yatmışdı. Dəhlizdəki bədənnüma güzgünün qarşısındakı dolabda yığılıb-qalmış yazı- yuzularımı, kitabları səliqəyə salırdım. Çoxdan açmadığım bir kitabı götürəndə, arasından rəngi soluxmuş bir yarpaq düşdü. Hansısa kitabın, ya dəftərin arasına nə vaxtsa yarpaq qoyulmasında elə də qeyri-adi bir şey yoxdu. Amma.

Üç barmaq enində olan bu cansız, solub-qurumuş yarpaq nədənsə mənə adi bir həqiqəti xatırlatdı: insan öz emosional yaddaş və xəyallarının əsiridi!

Kim bilir, bəlkə elə XIX əsrin

sonunda Lümyer qardaşlarının «Sinema» adlandırdıqları və az qala dünyanın 8-ci möcüzəsinə çevrilən dahiyanə ixtiraları insanın öz daxili «ekranı»nı - yaddaşını, təsəvvür və təxəyyül qabiliyyətini maddiləşdirmək ehtiyacından doğmuşdu?..

Mən güzgünün qarşısında dayanıb, ehmalca ovcumda saxladığım quru yarpağa baxa-baxa 10 il əvvəlki O GÜNÜ «görürdüm» - «ləng kino çəkilişi kimi hər şey bircə-bircə gözüm önündən ötüb- keçir, keçirdi».

O gün gözəl bir yay səhəriydi.

Bir neçə ailə istinin əlindən baş götürüb «İsa bulağı»na «qaçmağı» qərarlaşdırdıq (O vaxt Ağdam teatrında «Mürşüd kişi niyə susur?» pyesim tamaşaya qoyulmuşdu və mən ailəmlə birgə Ağdamda qonağıydım). Olanından-olmazından yığıb-götürdük, bazarlıq-filan da eləyib, bir neçə maşınla yol aldıq Şuşaya sarı.

Onda hələ yollar açıq idi. Hərdən-hərdən daşdan-kəsəkdən atsalar da, gediş-gəliş bir o qədər də qorxulu deyildi.

Ağdamın çıxacağında, maşın yolunun tən ortasında bir uzunqulaq dayanıb-durmuşdu. Yaxınlaşanda, hər ehtimala qarşı, maşının sürətini azaltdım. Arxadan gələn maşınlar da yavaşıdı. Oğlum Nəcəf (4 yaşına təzəcə keçmişdi o vaxt) əlini çiynimə qoyub dikəldi və çox maraqla ilk dəfə gördüyü bu «əcaib» heyvana baxa-baxa soruşdu:

- Bu nədi, ata?..

Cavab verdim ki:

- Uzunqulaqdı, eşşək də deyirlər.
- Essək?
- Hə.

Arxa maşını idarə eləyən dostum siqnal verib gülə-gülə:

- Ə, qağa, bəlkə, bu «QAİ»-nin qulağına bir üçlük basaq?! - dedi. Elə bu zaman uzunqulaq başını tərpətdi və elə alındı ki, guya o, bu «xeyirli təklif»ə razılığını bildirir. Hamımız gülüşdük. Nəcəf çevrilib sonuncu dəfə zəndlə uzunqulağı süzəndən sonra boynumu qucaqladı və yəqin ki məni bu an daha çox istədiyini göstərməkçün dedi:

- Ata, bu essək toçnı sənə oxsayır ey!

Uşaq səmimiyyətilə deyilmiş bu «kompliment» yenə hamımızı güldürdü.

Bir saatdan sonra biz «İsa bulağı»ndaydıq. Meşənin kölgəliyi ruha dinclik gətirirdi. Dünyada təkcə çörək ətriylə müqayisəyə gələ biləcək torpaq ətri. Bir də quşların səsi yadımdadı. Bir də kabab qoxulu ocaq tüstüsü yadımdadı. Bir də havanın körpə uşaq təki bir andaca dodağını büzüb tutulub-dəyişməsi.

Əvvəl haradansa, çox-çox uzaqlarda - elə bil yuxudaydı - göy guruldadı. Günəşin tutulmasıyla yerə iri fındıq boyda dolu tökülməsi bir oldu. Və bu, elə qəfil baş verdi ki, çəmənlikdə sərdiyimiz süfrəni yığışdırıb, üstüörtülü bir yerə daşımağa da macal tapmadıq. Ocağımızın təzəcə düşən közü də bu həmlədən «hirslənib» fındıq-fındıq dolu dənələriylə «cızz-dızz» savaşına başladı.

Az sonra, hava qəfil tutulduğu kimi, qəfil də açıldı. Təbiətin dəcəlliyi cəmi-cümlətanı beş dəqiqə çəkdi, ya çəkmədi.

Sehrlənmiş kimi donub qalmışdım. Gördüyüm bu mənzərədə bir boynubüküklük, saflıq, doğmalıq, bir azca da qəribəlik və irreallıq varıydı... Bayaqdan əlimdə saxladığım kitabdan bircə cümlə də oxumamışdım (Əcəb adamam, bu cür cənnət-məkanda, denən, heç kitab oxumaq vaxtıdı?!) Taqqıltıyla kitabın üstünə, sonra başıma düşən dolu dənələri mənə süfrəmizin «xilası ilə» əlləşənlərə kömək etməli olduğumu xatırlatdı. Və indiki kimi yadımdadı: yarımçıq qaldığım səhifəni əzməməkçün, hansısa ağacdan bir yarpaq qoparıb, kitabın arasına qoydum.

Bax, bu, həmin yarpaqdı!

Dayanmışdım öz evimdə. On il keçmişdi. Gecə saat 3-ə işləyirdi.

Və ovcumda ehmalca saxladığım quru yarpağa baxa-baxa gözüm yol çəkirdi. Sol yanağım nədənsə səyriyirdi və üççə barmaq enində olan bu soluxmuş, kövrək yarpaq gözümdə artıb beşbarmaq boyda olub, sanki tutarlı bir şillə vurmağa hazırlaşırdı və bəlkə elə buna görəydi ki, yanağım od tutub yanırdı və quş lələyi yüngüllüyündə olan bu yarpaqda zindan ağırlığı var idi və bu yarpağın mənə deyiləsi zindandan ağır, şillədən ağrılı qırmızı-qırmızı sözləri də vardı: «Niyə, niyə qoymadın orda öləm?!.. Niyə qoymadın xəzana qarışam, torpağa gömüləm? Orda, öz meşəmdə, öz meşəmdə öləm, ölüb qalam?!..»

Ölüm! Ölüm - qorxunun bitdiyi, tükəndiyi yerdi, İlahi!.. Ölümdən qorxmaq - qorxudan ölməkdən nəylə fərqlənir görən?... Və ölümü öldürmək niyə belə çətindi görən?! Qorxu!.. Qorxu.

Güzgüyə baxdım. Güzgüdə öz-özümə, öz gözümə, gözümün içinə baxdım.

Baxa bilmədim. Utandım. Gözümü yumdum. Nəcəfin sözləri gəldi qulağıma: «Ata, toçnı essəyə oxsayırsan ey!» Bədənimdən gizilti keçdi. Ətim ürpəşdi. Ürəyimin döyüntüsünü eşitdim - «tup-tup», «tup-tup». Öz- özümə:

- Uzunqulaq! - dedim.

Sonra:

- Qorxaq!! - dedim.

Sonra:

- Kül başıma!!! - dedim.

Sonra, sonra gözümü açıb yenə güzgüyə baxdım.

Qəribəydi. Əvvəl mənə elə gəldi ki, doğrudan da, başıma kül tökülüb. Qeyri-ixtiyari əlimin dalıyla saçımı təmizləmək istədim. Alınmadı. Diqqətlə baxanda gördüm ki, yoox, bu, kül deyil. Kül deyil bu!..

Bircə anın içində, bircə anın içində saçlarıma dən düşmüşdü. Dən düşmüşdü saçlarıma!..

Gecə saat üçə işləyir.

Saatın səsi ürək döyüntülərinə oxşayır. Vaxt donmuşdu! Vaxt ölmüşdü!

**1998-ci il**

# Orxan İsmayıl



## Mariko

Mariko hələ beş dəqiqə əvvəl siqaret yandırmışdı. Onun mətn yaratmaq həngaməsi elədir ki, bomboz əlbisəsinə sıxılıb hekayətin içərilərinə baş vurdusa, qaynar qəhvə fincanı tez-tez dolub boşalmalı, zəif közlü siqaret kötükləri sümük külqabında "canlarını tapşırmalıdır". O gülməyi və siqaret sümürməyi teatral bacaranlardandı. Göz almacığı boyda xırda dodaqları təkcə bu iki istedada görə tərifəlayiqdir. Bəli, dodaqlar da onların sahibləri kimi hansı işi bacardıqlarına, necə təəssürat yaratmaq qabiliyyətlərinə görə qiymətləndirilməlidir. Marikoya görə anadangəlmə istedadlı yazıçı kimi doğulmaq qeyri-mümkün idi. Əgər hansısa ikiyaşlı körpədə şairanəlik, mədhiyyəçilik, tərənnümçülük əlamətləri hiss etsəydi məmnuniyyətlə özünə layiqli ər tapıb balaca tosunlar

dünyaya gətirərdi. Belə də demək olar: Mariko xəstəliklərdən və zahiri oxşarlıqdan savayı nəyinsə irsən keçməsinə inanmırdı.

Bir dəfə ona tanrıya inanıb-inanmadığı haqda sual vermişdilər. Hə də, axı bu lənətə gəlmiş sual hamını çox düşündürür. İnanmaqmı-inanmamaqmı, məscidmi-kilsəmi, qara əlbisəmi, ağ əlbisəmi? Mariko soyuqqanlılıqla belə demişdi:

- Yox! Görüm onun yanbızları deşilsin.

- Məgər başımızdan oramızadək bütün bədənimizi isladan su təsadüf nəticəsində göydən tökülür?

Marikonun cavabı yenə özünəməxsus olmuşdu:

- Onun yanbızları deyəsən doğrudan deşikmiş. Sizsə məni rahat buraxın. Evimə gedib qəhvə içəcəyəm!

Doğma şəhərini tərk edib Bakıda yaşamağa alışmaq ilk vaxtlar onun üçün məşəqqətli idi. O həmin gürcü qadınlarından idi ki, onlar vətənlərini çox sevirlər, ancaq orada yaşamaq istəmirlər. Yerli dildə səlis danışmaq 3 ilə mümkün olmuşdu. Mariko isə 10 ildən artıq Bakıda yaşamağın iztirabını, sevincini, yeknəsəkliyini həzm edə bilmişdi.

Mariko təkliyi ilə əylənə bilən seçilmiş insanlardandı. Özü özünü güldürər, düşündürər, zamanı çatdıqdasa divara mıxladığı kağızdakı "sərbəstlik hoqqabazlığa çevrilərsə" sərlövhəli işarələnib yazılan qaydalara uyğun olaraq cəzalandırardı. Son dəfə özündən 14 yaş kiçik dostu Rəfael qəflətən ona cılız hərflərlə sevgi mesajı yazıb cavab göndərməməyi xahiş etdikdə məsum gəncin halına çox acımış, iki qədəh tünd şərabdan sonra sevimli qaydalarına nəzər yetirmişdi. Yazılanlarda sevməyin və kimisə ovsunlamağın cəzası 12 saat qəhvədən və siqaretdən imtina etmək göstərilirdi, Mariko da bununla razılaşmışdı.

İllərin amansız yerdəyişməsi, günəşlə buludların yola getməməsi 40 yaşlı qadının möhkəm qamətini sarsıtmamışdı. O deyirdi ki, ətrafında səni tovlamaq istəyən bircə kişi varsa, sən hələ cavansan. Təbiətin harmoniyası belədir - ən yaxşısını etməyə çalışan insanlar ən gözlənilməz ölümlə qarşılaşırlar. Elə isə, həyat başdansovdu yaşamaq və xırda cəhdlərlə yaşlanmaqdan ibarət zəhlətökənlikdir. Marikoya görə, bu zəhlətökənliyi xoşovqatlılığa dəyişməyə cəhd etmək bütövlükdə onu itirməyə gətirib çıxara bilər. "Ətrafdakılar məni dinlədikdən sonra əşyavi formada etiraz edəcəkləri bir mühitdə yaşamaq istəyirəm. Bunun asan və ya çətin olduğunu elan etmək, bəri başdan ikitirəlik yaratmaq yonca saplaqlarından edam kəndiri toxumağa bənzəyir".

Əylənmək zamanı yetişmişdi. Yataq otağındakı üzbəüz divarların hərəsinə bir mıx sancmış, onları tarım qatma ilə birləşdirmişdi. Otuza yaxın şarı həvəslə üfürüb qatmaya doladığı saplardan asmışdı. Çarpayıya yayxanıb vətənindən gətirdiyi yeganə əşya - ağac liflərindən hazırlanan arbaletə bənzər mexaniki oxla şarları vururdu. Salamat qalan bir neçə şardan onu qıcıqlandıran çəhrayı rəngdə olan idi. Düz 12 cəhddən sonra da pəncərədən süzülən zəif mehin təsirilə çəhrayı şar qatmada ləngər vururdu. Mariko qəzəblənib bir dəfə də

nişan aldı. Qatmada şonquyan şarın saplağından başqa nəsə qalmamışdı.

Asqırıb sinəsini qabağa çəkərək əsnəyəndə qərara gəldi ki, soyuqlayıb. Yorğanın altında bir neçə dəfə qıvrılıb şırım açan caynaq kimi ayaq pəncələrini çarpayının yun döşəkçəsinə, boyalı taxta altlığına sürtürdü. Ağrımırdı. İlk dəfə idi ki, təkliyi cansıxıcı təsir bağışlayırdı. Yox, Mariko yatağını kiminləsə bölüşmək ehtiası ilə topuqlarında göynəmə, qıvraq sinəsində çırpınma hallarının ola biləcəyini ehtimal belə etmirdi. Boşboğaz bir çərənçiyə ehtiyacı vardı. Dil boğaza qoymadan üyüdüb tökə, Mariko isə isti yatağında sifətini ovcuna alıb onu dinləyərdi. Çərənçinin gülməli üz cizgiləri və tutarlı zarafatlarının olması əsas şərt idi. Uğunmaq, əlini əlinə çırparaq şaqqanaq çəkmək istəyirdi. Zümrüd dişləri otağın alaqaranlığını aydınlada bilərdi (adətənən bu vəzifəni siqaret közü icra edir). Yataqda bir dəfə də çevrilib bu barədə düşünməməyi qət etdi. Ayaqları ağaca dönmüşdü. "Mən soyuqlamışam. Mən xəstəhal görünürəm".

Dərin buludlardan süzülən yağış damcılarının səsinə oyananda səhər açılmamışdı. Ağacların oyuğundan yağışa etirazlarını bildirən sərçə balalarının civiltisi eşidilirdi. Vur-tut 4 saat yatmışdı. İsti vanna qəbul edib paltarlarını hazırladı. Düz 8 aydan sonra ilk dəfə kiminsə hələ bəlli olmayan suallarına cavab verəcəkdi. Çoxları buna müsahibə deyir.

Cənab Kutuzov tez-tez tövşüyür, qrafindəki soyuq sudan fincanını dolduraraq yanğıyla içirdi. Bu zaman onun sallaq alt dodağı daha eybəcər forma alır, ağız kənarlarından süzülən bir cüt damcı çənəsindən axıb ətli boğazını isladırdı. İri başlı bəstəboy, yoğun kişi masada istədiyi kimi dirsəklənə bilməməyinin narahatlığında sol əlini çənəsinin altından götürərək qrafinin qulpuna aparır, sağ əli ilə xəttatlara xas gözəl və iti yazısı ilə önündəki broşurada qeydlər aparırdı.

-Deməli tənha olduğunuzu boynunuzdan atırsınız. Bu gün kimi aydın olsa da...Mmm...

Kutuzov 20 il əvvəl Permdən Bakıya köçən rus ailənin böyük oğlu idi. Yaşı qırxı adlamışdı. Əməkli atasının, ulu babasının da vaxtilə jurnalist kimi fəaliyyət göstərmələrini ağız dolusu danışırdı. Ona görə, bu sənəti çoxları bacarır, yalnız vicdanlılar xatirələrdə qalırlar.

- Hə-ə, yəqin ki, doğru deyirsiniz - Cibindən ütülü dəsmal çıxarıb tərli alnını sildi. Qolları bilək hissədən yuxarıda dayanan pencəyinin əyninə olmadığı görünürdü - Xəcalət yaman şeydir.

- Kiril, - Mariko onun gözlərinə zillənib daha sonra nəzərlərini başqa istiqamətə yönəltdi - siqaret yandırmağım sizə mane olmaz ki?

-Yox, yox. Ancaq xəcalət haqqında daha nələrisə deyin. Fikrinizi dəqiqləşdirməliyəm.

Uzun ətəyinin bel hissəsisə bağladığı torbacığı xatırladan əl çantasından siqaret çıxardı. Yandırıb dərin bir udum aldı. Krujevalı boyunluğundakı ağ və yaşıl çillər ulduzlar kimi bərq vururdular. Gur, kürən saçlarını səliqə ilə yığmışdı.

- Dostum, xəcalət bizim yaşadığımız anların reproduksiyalarından biridir. Hisslərimizi dondurub şəkilləşdirir. - Açıq səmada yerləşən kafenin gənc xidmətçisini səsləyib naringi şirəsi içmək istədiyini bildirdi. - Sizdəmi içəcəksiniz?

- İsti günlərdə adi sudan savayı bir şey içə bilmirəm.

Mariko başını tərpətdi.

- Cəhənnəm və ona layiq olmayan insan haqda fikrinizi eşitmək istəyirəm. "Allah torpaqdan insanı yaratdı və onun burnuna həyat nəfəsi üfürdü". Tövrat, İncil, Quran, Zəbur...yoxsa adi içməli su?

- Naringi şirəsi - Mariko xəfifcə gülümsəyib xidmətçinin gətirdiyi şirədən içdi.

Kutuzovun qəribə gözləri vardı. Mariko onda sirli bir taledən nigaranlıq çalarları sezmişdi. O, yel xəstəliyindən əziyyət çəkirdi. Yağlı dərisində onlarla qırmızı nöqtələr, çapıqvari ləkələr vardı.

- Siz yəqin mənim danışdıqlarımı biçinçi məharəti ilə kəsib sonra qəzetdə verərsiniz.

- Müsahibənin özəyi məşhur yazıçı qadının öz təkliyinə hədsiz bağlı olması onun meşşan təbəqədən tamamilə kənar həyat yaşaması olacaq.

- Məş-hur... - Əlini saçlarına apardı. Tez düşünüb danışmağa çalışanda adətən belə edir - Kiril, qulaq asın, nə istəsəniz yaza bilərsiniz. Məni yalnız adlandırmağınızı sizə qadağan etmirəm.

- Bu görüşdən sonra ərə getmək haqda fikirləşsəniz, təəccüblənmərəm.

Mariko donqar gövdəli sərvləri, şiş uclu cökələri, aşağılarına doğru boz-yaşıl görünən liliput ağcaqovaqları bir-bir nəzərdən keçirirdi. Bürkülü iyun küləyinin zəif ritmində titrəyən yarpaqlardakı hələ qurumamış girdə damlalar boynuna, açıq çiyinlərinə düşürdü. Buranı meşə adlandırmaq olmaz - cökəlik, yanbızlarına döyə-döyə xəcalətdən tərləyən adamların vəhşi təbiətlə müqayisədə özlərinin vəhşiləşmədiklərini ifadə etmək üçün əkdiyi 50 ağacdan ibarət sahə. Bu isə Mariko üçün prinsipial əhəmiyyət daşımırdı. Buna baxmayaraq, o liliput ağcaqovaqların cökəlik üçün son 2-3 ilin qonaqları olduğunu kəsdirə bilmişdi.

- Belə, - əvvəlcə qollarını cökəyə dolayıb onun diametrini ölçdü, sonra cadar-cadar olan gövdəsində barmaqlarını gəzdirdi.

Vətənini xatırlayırdı. Yayın ilk ayında pardaqlayıb göz qamaşdıran qarğıdalı tarlalarının, ayıdöşəyi kollarının, "danışan göbələklər"in qoxusu onu səsləyir, yalnız insana əbədi dostluq vəd edirdi. Batumi çimərliklərində atasının ona "bala çömçəquyruğu" deyərək suya saldığı, qorxub ayaqlarını atasının kürəyinə sıxaraq qolları ilə boğazından yapışdığı günlər necə də əlçatmaz idi. İndi isə içində inanmadığı tanrıya və etibar eləmədiyi adamlara bir etirafı vardı: "Mən təkəm, mənim adım Təkdir".

Qəflətən ucadan fit çalan torağayın səsindən diksinib başını buladı. Günəşin artıq qüruba çəkilməsini görüb evə qayıtmağa qərara aldı. Kaş bu dəfə

qayıdanda evin qapısının açıq olduğunu görəydi.

## ÇİNARƏ OMRAY



### Qurbanıolduğum

Bayaq bir qucağa sığan sən indi bu boyda evə sığmazsan. Boğulurcasına gecənin bir vaxtı özünü atarsan çölə. Həyətdə divarın dibinə qoyulmuş dəmir çarpayını ilk dəfə görürmüş kimi qonarsan üstünə.

Qonarsan və görərsən, vay, nə möhtəşəm külək əsir. Divarın dibində səliqəylə düzülüb qaranlıqda üzünə gülümsəyən nanə, yarpız xöşbəxtcə sənə baxırlar. Başını qaldırıb göyə baxmaq istəyərsən, göy əvəzinə yuxarıdan sallanan üzüm salxımlarını görərsən, bir də ağacları. Bir anlıq yenə həmən qorxu gələr bütün içini alar öz caynağına. Elə bilərsən, tənəkdən yüzlərlə insan cəsədi asılıb. Gecənin qaranlığını o an dərk edərsən. Külək də sanki ciyərlərinə təcavüz edərcəsinə əsər.

Mən elə qəşəng bədbəxt ola bilirəm ki. Özü də bir anın içində. Heç bir köpəyoğlu bunu bacarmaz ki, mən bacarıram.

Saat gecənin üçü, külək əsir, həyətdəki dəmir çarpayıda ayaqlarımı qucaqlayıb təzəcə xoşbəxt-xoşbəxt bədbəxtləşirdim ki, birdən göydən taa gilanar ağacının başından bir işıq gəldi. Əvvəl elə bildim, gözümə görsənir. Tez gözümü yumub üç-dörd dəfə “bismillah-filan” dedim, göydəki məscidə də, yerdəki məscidə də bir daha küfr etmiyəcəyimə söz verdim, əlüstü tövbə-zad elədim ki, o işıq nəydisə, geri qayıtsın. Gözümü açdım ki, yoxe, xeyri yoxdu. O istedad yarışına gedib bütün var yoxunu qoyasan ortaya, axırda da deyələr ki, “bizimlə deyilsən”, bax, elə bil var-yoxunu bir əl istifadə edib, üzünə gülə-gülə “Yaxşı deyildi” deyildiyi anda necə olursa, o cür hiss edtim özümü.

Gözümü açanda qarşımda ağ paltarlı, üzü elə də aydın görünməyən birinin dayandığını gördüm. Əslində,onu tanıyıram. Bir neçə dəfə adamlardan eşitmişəm. Yəqin siz də eşitməmiş olmazsınız. Ən azı nəslinizdə birnin də olsa, yuxusuna, ya yanına gəlib.

Qarşımda dayanan varlıq tanışdı tanış olmağına, amma yenə qorxuram. Bir onu bilirəm ki, küləklə bir yerdə əsirəm. Özümü cəmləyib nənəmin sözün təkrarladım: “Qurbanıolduğum”. Elə bunu demişdim ki, qarşımda dayanan varlığı elə bil cin vurdu. Nətəhər əsəbiləşdi, nə təhər əsəbiləşdi... kaş görəydiniz. Dedi:

- Bəsdirin də-ə, - səsini uzatdı, - bəsdirin. İndi söyəcəm sizin o “qurbanıolduğunuzu”. Kimdi axı o? O kimdi ki, keçmişəm mən də onun zibilinə? Ay balam, ay başına dönüm, kimə yaxınlaşıram, görən kimi başlarını yerə qoyub qarşımda səcdəyə gedirlər. A bala, sizin millət nə yaman həvəslidir

qarşısında əyliməyə nəsə, kimsə tapmaq üçün. Nə istəyirsiz məndən? Niyə imkan vermirsiniz normal yaşayım?

Varlıq əməlli-başlı ağlayırdı. Qorxum, əsməcəm-filan hamısı getmişdi. İndi oturub buna təskinlik verirdim. İşimə-gücümə bax da.

- Axı siz kimsiz? O nə gəlişiydi, gəldiniz? Neynəsin millət, qınamayın da onları. Qorxurlar.

- Ay başına dönüm, mənə çatmır da, siz qorxduğunuzdan səcdə edirsiniz, ya sevginizdən? Bir imkan da vermirsiniz ki, ağzımı açıb deyim, kiməm, nəyəm, nəçiyəm. O "Qurbanıolduğum"u yapışdırırsınız boynumun dalına, başlıyırsınız aləmə car çəkməyə.

- Yaxşı, kimsən, nəsən, nəçisən?

- Şükür yaradana, mənə də bu sualı verən oldu. Biraz aralı otur, məni dinləsən, sən dinləyəcəksən bu gecə. Deməli, bizi, sizi, təbiəti, kainatı yaradan varlıq yaradıb məni də. İndi neynim ki, məni də bu cür yaradıb, görünüşüm budur? Neynim, mənim də gəlişim qapıdan yox, səmadandı; neynim, mən istədiyim zaman görünə bilirəm? Sizdən fərqim ola bilər. Amma sonucda mən də bir yaradılışam.

- Bəs sən də get yaşa da bizim kimi, hamı kimi. Kim mane olur sənə?

- Bəs məni yandıran, partladan da odur da. İllərdi, əsrlərdi çürütmüsüz məni. Xəbəriniz var? Nə ölə bilirəm, nə yaşaya. Ay bəni-adəm, dərdim deyiləsi dərd deyil. Vallah deyil. Bax mənim də dostlarım var. Hərəmizin öz qalacağımız yerimiz-yurdumuz var. Məsələn, bir dostumun məkanı xaricdədi. Sizdən uzaqda. O gün söhbət edirik, dəli oluram. Deyir, burda yaşamaq normaldı. Məsələn, bir uşaqla dost oluram, ailəsi məni görməsə də, uşağın görməyi kifayət edir. Mən oluram onun xəyali dostu. Ailəsi məni görməsə də, onun xəyali dostu olaraq da qəbul edir. Mənə ad qoyurlar, o uşaqla əyləncəli oyunlar oynayırıq, ya da, pislik etmək istəyən biri ilə söhbət edirəm, fikirindən daşındıra bilirəm, mənə dost olur. Hər çətində olanda çatıram köməyinə. Dostum deyir, çox rahatam. Qeyri adi istedadım da onlarla dostlaşmağa daha çox kömək edir mənə. İndi mən danışıram ona. Deyirəm ki, ay dost, mənim işim zülümdü. Bir darda olana kömək etmək istəyirəm, elə ki, gözə görsənirəm, bir də görürəm, darda olan adam bütün hər şeyini unudub, düşüb mənim ayağımdan öpür. Adımı da hamı eyni qoyub "Qurbanıolduğum". Güc-bəla ilə adamı aralayıram ki, düz dur, səbirli ol, hər şey düzələcək. Guya buna yaxşılıq etmək istəyirəm. Pəh, səhər açılır, bütün adamın qohum əqrəbası yığılır onlara. Adam yekə bir qoyunun ayaqlarını kürüyüb vurur yerə, böyük bir süfrə açır, adını da qoyur: "Qurbanıolduğuma ehsan süfrəsi". Hamını ora yığıb elan edir ki, bəs gecə otağımda Qurbanıolduğum zühur eləmişdi. Mənə dedi ki... sənə vergi verirəm. Hər şey yaxşı olacaq. Sən bacaracaqsan, sən seçilmişlərdənsən, sən bizlərdənsən.

Qardaş, and olsun bizi yaradana ki, dediklərinin birini də ağzıma almamışam. Elə yanıb-tökülürəm ki! İstəyirəm, oradaca peyda olub deyəm ki, yalançının atabaatasına lənət! Üstündən heç bi ray keçmir ki, yolum o adamgil tərəfdən düşür. Baxıram ki, gələcəyi görürmüş kimi, insanları aldadır. Bax burda öz missyama tüpürməyim gəlir .

- Bəs sən onlara vegi vermirsənsə, nədir sənin missiyan?

- Ay başına dönüm, nə vergi? Mən, sadəcə, onun üçün yaranmışam ki, insanların pis anında yanlarında olum, onlara dəstək ola bilim, pisliklərdən uzaq tutmağa çalışım. O da bacardığım qədərilə. Sizin insanlar mənim adımdan elə şeylər uydurub danışırlar ki, vallah, neçə əsrdi yaşayıram, belə ideyalar ağlıma gəlmir heç. Xətrinə dəyməsin, amma siz aldanmağa, alçalmağa, yalvarmağa, köləliyə meyillisiniz. Siz bunsuz yaşaya bilmirsiniz. Bax bir sual verim. Kimdi o "Qurbanıolduğum"? Niyə heç biriniz onu tanımaya-tanımaya, üzünü də görmədən (görmuş olsanız,məni "o" zənn etməzsiniz) ondan bu qədər qorxur və ya sevirsiniz? O Qurbanıolduğum necə biridi axı? Sizin adını Allah qoyduğunuz, bizim isə Yaradan dediyimiz deyil. Bildiyim qədərilə, sizin Allah dediyiniz, bizimsə Yaradan dediyimizin yaratdığı biridir o Qurbanıolduğum. Ay başına dönüm, tanımadığınız birini necə bu qədər sevə,ondan bu qədər qorxa bilrsiniz? Yaxşı, deyək sevirsiniz, elə mən də o QURBANIOLDUĞUM-nam, yaxşı, bəs onda niyə o sevimli "Qurbanıolduğum"unuzu olduğu kimi yox, yalandan üstünə on da qoyub tanıdırsınız? Axı mən birinə görsənib, "sıxma canını, hər şey yaxşı olacaq" deyən kimi o biri buna dastan qoşub, özünü də müqqəddəs elan edib, sizə sırıyır, siz də rahatlıqla qəbul edirsiniz?

- Nədi, qaqaş, axşam-axşam məni dəli etmək niyyətindəsən? Əgər QURBANIOLDUĞUM deyilsənsə, yeri get, işinlə məşğul ol. Mən də gedirəm yatam.

- Bəs bayaq mən gələndə niyə gözünü yumub tövbə edirdin?

- Nə blim e, ala, dedim, birdən "O" olarsan da.

- Görürsən, hətta sən belə qorxanda Qurbanıolduğuma sitayiş etməyə hazırsan.

- Bəs nə bilmişdin? Kimdən əskiyəm?

- Bilmirəm, o QURBANIOLDUĞUM kimdi, amma vallah da, billah da mənim ona yazığım gəlir. O elə sizi tanıyır ki, qaçıb da əlinizdən. O gün bir xalanın gözünə də görsənmədim ha, görsənməyinə, elə ucundan-qulağından yuxusuna girmişdim ki, deyəm, çox üzülməsin, yaxşı olar. Bay, xala obaşdandan aləmə hay salmazmı, bəs, gecə yuxuma QURBANIOLDUĞUM gəlmişdi. Məni aparırdı, getmədim. Sonra dedi ki, hə, qal, sən bu dünyada lazımsan. Dedi, səni çox mətləblərdən hali edəcəm. Deməli, cadar olmuş torpaq idi, susuzluqdan yanan torpaq. Mən də bura haradan düşmüşəm, deyirəm, ətrafa baxıram, bir də gördüm, ağ paltarlı biri peyda oldu, əlində əsası (başına dönüm, bu əsa da çatmır da mənə. Kim də məni görür, əsanı əlimə verir. Halbuki heç vaxt əlimdə əsa olmayub ha) Qurbanıolduğumdu. Maa nələr demədi nələr..."
İnan, sizin Alaha, bizim Yaradana and olsun ki, mən o xalanın dediklərinin birini də deməmişəm.

- Anlayıram səni, vallah. İndi təsəvvür edirəm, gör bizim Allah, sizin də o Yaradan dediyiniz nələr çəkir.

- Sağ ol, anladığın üçün. Elə burdan keçirdim, gördüm, əhvalın da pisdi, mən də dərdləşməyə adam axtarırdım. Get yat,darıxma, sənin də işlərin yaxşı olacaq. Bircə qorxularını yenə bilsən, yaxşı olacaq hər şey.

- Olar, sabah Feysbukda status yazım ki, axşam Qurbanıolduğum gəlmişdi bizim həyətə?..

- Yaz, bala yaz. Nə istəsən yaz. Siz düzələn deyilsiniz...

NİCAT HƏŞİMZADƏ



## Onu necə öldürdüm

Dostum, sən özünü cəhənnəmin sonsuz qatında hiss etmisən? Ruhun özgə qapılarında xoşbəxtlik həsrəti yaşayıb? Uğursuzluqlarına tale adı vermisən? Həyat sənə əzablara şikayətsiz dözməyi öyrədib? Kədərin vicdan övladı olduğuna inanmısan? Neçə dəfə intihar etmək, neçə dəfə Tanrı olmaq istəmisən? Tanrını neçə dəfə öldürmək istəmisən? Mən bunları yaşadım və yaşamaqda davam edirəm.

Xuan Pablonun "Onu necə öldürdüm" romanı bu abzasla başlayır. Yaşadığı otağın boz divarları, solğun tablolar, boş soyuducu, saralmış, yerə atılmış kağızlar ölümü xatırladır. Qələm, kağız, çap makinası, siqaret tüstüsü, şərab, bir sözlə ona aid olan hər şey ölümdən danışır. Öüm haqqında yazmaq üçün ölümü dadmaq istəyib. Dəfələrlə intihar etsə də son anda cəsarətsiz davranıb. Romanı bitirmədən ölmək istəməyib. Deyingən arvadı əsəblərini korlayırdı. 20 il ondan qurtulmağı arzulayıb. Hedeqa ərinə stimul versə də deyingənliyi Pablonu əsəbiləşdirirdi. Qəflətən düşündü:

- Bəlkə ölümü duymaq üçün özümü yox, arvadımı öldürüm. Bəs ona necə deyim ki, romanımı bitirmək üçün səni öldürməliyəm? Yaradıcılığa görə sahib olduğun hər şeyi və hər kəsi qurban verməyə dəyər. Bəşəriyyət bir arvad itirsə heç nə olmaz. Amma bir roman yazılmasa ... Off, heç nə bilmirəm. Qərar vermək çox çətindir. Onu öldürsəm həbs olunacam. Aha, bu daha yaxşı olar. Zindan həyatım haqqında roman yazsam məşhur olacam. Hamı məndən danışacaq. Deyəcəklər ki roman yazmaq üçün arvadını öldürdü. Bundan uğurlu reklam ola bilməz. Bir deyingən varlığın yoxluğu bir dahi yazar yaradacaq.

Və nəhayət gecə arvadıyla sonuncu dəfə sevişən Xuan Pablo sevgi rəqsindən azad olma anına 2-3 dəqiqə qalmış qadını boğdu. Qadını boğarkən həm də sinəsini öpürdü. Çap makinasının arxasına əyləşən Pablo romanın ardını yazdı. Hissləri, obrazları itirmişdi. O qatil idi. Günahsız insanı öz sənətinə qurban verən cani. Yaza bilmədi. Roman yarıçmıq qaldı. Müsabiqəyə də romanı bitirməmiş göndərdi. Heç gözləmədiyi halda qalib gələrək 300 min dollar mükafat qazandı. Cəsədin dəhşətli qoxusunu duyan qonşular polisə xəbər verdilər. Xuan Pablo 17 il müddətinə azadlıqdan məhrum edildi. 300 min dolları ona vermədilər. Heç verməyəcəkər də. Pullar çoxdan xərclənib. O, həbsxanada da yazırdı. Fəqət uğurlu əsər yarada bilmədi. Çünki ona Hedeqa kimi, Pablo, sən dahi yazar olacaqsan sözlərini deyən arvadı yox idi. . .



Vüsal Oğuz



## T A N I Ş L I Q

Zakirlə həmin kafedə oturub yeyib-içdiyi günə Adil hələ də peşmandı. Əslində Zakirin bu işdə heç bir günahı yox idi. Amma nədənsə Adil belə fikirləşirdi ki, arada yaranmış soyuqluqdan və fasilədən sonra yenidən Zakirlə görüşməsəydi bəlkədə bunların heç biri olmazdı.

Hər şey telefon zəngindən sonra başladı. Günün ikinci yarısı idi. Başı işə qatışan Adil telefonun zəngini eşitməmişdi. İş otağında onunla üzbəüz oturan Könül gözünü kompyuterin monitorundan ayırmadan “Adil nüəllim sizin telefondur” deməsəydi, zəngin fərqinə varmayacaqdı. Telefonu açan kimi ona tanış olan uca, bir azda cingiltili səsi tanıdı.

Tələbəlik dostu idi – Zakir. Həmişəki kimi imkan vermədi ki, ağzını aça. Əvvəlcə Adili itirib - axtarmamaqda günahlandırıb son nöqtəni də özü qoydu: “Axşam səni ofisdə gözləyirəm. Etiraz-filan istəmirəm. Gör nə vaxtdır görüşmürük. Belə də qardaşlıq olar?” Cavabı gözləmədən telefonu qapatdı. Telefon qulağında gözucu divardakı saata baxan Adil fikirləşdi ki, onsuz da bu gün qısa iş günüdür, görüşməyə vaxt tapa bilər.

Bir də ki, nə qədər qaça biləcəkdi Zakirdən?

Zakirlə üç il bir otaqda qalmışdılar. Qonşu rayonlardan idilər. Bəlkədə elə ona görədə söz-sovları tuturdu. Zakir Politexnik İnistitunda oxuyurdu. Amma çox vaxt dərsləri qurtarar - qurtarmaz özünü Adilə yetirir, gəlib Bakı Dövlət Universitetinin qabağında dayanırdı. Adillə müqayisədə çox diribaş, aktiv idi Zakir. Hər şeydən başı çıxırdı. Şəhərdə tanımadığı küçə, kafe, idarə yoxdu. Dildən-ağızdan maşallah! Tanışları, xüsusilə də qızlar nə qədər desən! Hərdən Adilə elə gəlirdiki Zakirsiz bu şəhərdə itib-batardı. O bütün günü oxumağa sərf etdiyi vaxtlarda Zakir pul qazanmağın yolunu tapdı. Əvvəlcə Malakan bağında dollar, rus pulu dəyişməyə başladı. Pis də qazanmırdı. Az keçmədi rayonlardan köhnə əşyalar, qədim xalça, əlyazmalar, nə bilim mis qab-qacaq gətirib satmağa başladı. Dərsə az-az getsədə, əlinə kitab almasa da qiymətləri, imtahanları öz qaydasında gedirdi. Hər işlə məşğul olsa da yalan, fırıldaq, oğurluq onluq deyildi. Dağ adamlarına məxsus mərdliyi, düzlüyü vardı. Elə ətrafdakıların araslnda hörmət qazanmasının da səbəbi bu idi. Dördüncü kursda oxuyanda Zakir valideyinlərinin yeganə qızı olan bir xanımla ailə qurdu. Nədənsə ürəyində dostuna yaraşdırmadı o qızı Adil. Qızın atası deyəsən hərbiçi idi. Bakının darısqal məhəllələrinin birində 3 otaqdan ibarət həyətdə yaşayırdılar. Çox-çox sonralar qaynatasının şəhərdə daha bir mənzilin də olduğunu ağzından qaçırmışdı dostu. O zaman başa düşmüşdü bu evliliyin səbəbini.

Qızın anası vaxtsız rəhmətə getdiyindən atası ilə qalırdı. Toydan sonra Zakir həmin həyətə köçdü.Təbii ki, bundan sonra onların yolları ayrıldı. Amma əlaqəni tamam kəsmədilər. Tez -

tez dostunu axtarıb tapardı Zakir. Hətta bir-iki dəfə evlərinə qonaq da apardı Adili. Amma qaraqabaq polkovnikin (qızın atasının) ona olan münasibəti dostunu açmamışdı. Bunu Zakir də hiss etdiyi üçün bu sonuncu təklif olmuşdu. Ali məktəbi bitirən kimi Adil hərbi xidmətə yola düşdü. Zakir isə övladı dünyaya gələcək deyə əvvəlcə möhlət götürdü, sonra isə işlərini düzüb-qoşdu, ümumiyyətlə əsgərliyə getmədi. Bunun da çəmini tapdı Zakir.

Hərbi xidmətdən sonra iki ay qala bildi doğma kəndlərində. İxtisasına uyğun iş tapmadığından Bakıya üz tutu. İlk illər çətin oldu yaman. Bir müddət yaxşı iş tapa bilmədi. Tapdığı iş isə ancaq gündəlik dolanışığına kifayət edirdi.Nəhayət bir gün qəzetdəki elana rast gəldi. İndiki iş yerini tapanda çox sevinmişdi.İxtisasına uyğun olduğu üçün işi ürəyincə idi. Daha sonra ailə qurmaq, kirayələr, güc bəla ilə ev almaq, gündəlik qayğılar və sairə. Həyat başını yaman qatdı Adilin. Bir də gördükü artıq on doqquz ildir şəhərdədir. Yaşı da qırxı keçib. Hərdən illərin belə xəbərsiz ötüb-keçməsi yaman yandırırdı onu. Guya lap xəbəri olsaydı nə edəcəkdi? İşi ağır olmasa da məvacibi az idi. Subay olanda bəs edirdi. Amma indi bu maaşla dolana bilməzdi. Yaxşı kı əlavə işlər olurdu. Baş redaktor yaxşı insan idi. Çox köməyi dəydi Adilə. O düzüb-qoşurdu bəzən əlavə işləri. İmkan olduqca qonarar yazardı Adilə. Qazancı artmasa da qayğları ildən-ilə artırdı.

Bakıya gəldikdən sonra hərdən Zakiri axtaracağına söz versədə sözünü tuta bilmirdi. Düz on dörd il Zakiri görə bilmədi. Nəhayət bir gün təsadüf nəticəsində rastlaşdılar. İsti avqust günlərinin birində yaxın qohumunun instituta qəbul olunmuş oğlu üçün kirayə ev axtarmaq üçün 28 May metrosu tərəfdə dolaşırdı. Daha doğrusu artıq gəzməkdən canı çıxır, maklerlərlə danışmaqdan çənəsi ağrayırdı. Elə bu zaman arxadan kürəyinə əl toxunduğunu hiss etdi. Geriyə çeviriləndə arxasında duran Zakiri gördü. Əslində dərhal tanımadı, qarşısındakının Zakir olmasını bir qədər sonra bildi. Tanıdığı Zakirdən əsər-əlamət qalmamışdı. Görüşüb-öpüşdükdən sonra dostunun buralarda nə axtardığını öyrənən Zakir onun qohumunun işini tezliklə həll etdi. İşi düzələn qohum rayona qayıdacağını bildirərək sağollaşıb ayrıldı. Qohum onlardan ayrılan kimi Zakir ofisinin qapısını bağlayaraq Adilin qolundan yapışaraq “getdik” dedi. Dostunun sual dolu baxışlarını görüb, “bu görüşü qeyd etməliyik” deyə maşına sarı dartdı. Etiraz etməyin yeri yox idi. Yolda söhbət əsnasında məlum oldu ki, dostunun əvvəllər günü güzəranı heç də rahat keçməyib. Gah tikintidə prorab, gah hansısa bağçada təsərrüfat müdürü işləyib. Qaynatası öldükdən sonra çətinliyi bir az da çoxalıb. İkinci övladının xəstəliyi bu çətinlikləri daha da artırıb. Tək özü işlədiyi üçün güclə dolanırmış. Yaxşıkı rayonda yaşayan qardaşları ara-sıra əl tuturmuş ona. Nəhayət, qaynatasından qalan həyəti plana düşəndən sonra üzünə gün doğub. Xarici tikinti şirkətlərindən birinə mülkü babat qiymətə satıb həyatını dəyişməyi bacarıb. Torpaq alıb, ev tikdirib, maşın alıb. Dostlarının məsləhəti ilə indiki ofisi alaraq maklerlik etməyə başlayıb. Bu günə şükür, bəy balası kimi dolanır. Bir neçə yerdə kirayə verdiyi mənzil, dükanları... İndi nəslini də dolandırar, dediyinə görə. Söhbət başlarını necə qatdısa geniş həyətli restorana necə çatmaqlarından Adilin xəbəri belə olmadı. Səliqəli geyimli ofisantların Zakirin maşınının qabağına qaçmalarından hiss olunurdu ki, onu burda yaxşı tanıyırlar. O gün içkinin

təsirindənmi, yoxsa tələbəlik xatirələrinin şirinliyindənmi, gecənin yarısına kimi söhbətləşdilər. Hiss olunurdu ki, dostu bu görüşə sevinir. Adil tələbəlik dostunun sadəliyinə heyran qalmışdı. Gecə binanın qarşısında maşından düşəndə Zakirin ona "bax unutma ha, tez-tez zəng et görüşək" deməsindəki səmimiyyətinə də inandı.

O görüşdən sonra bir müddət tez-tez görüşdülər. Ya Adil Zakirin ofisinə gedər, ya da şəhərdə hardasa görüşərək müxtəlif yerlərdə oturaraq istirahət edərdilər. Zakirin sayəsində iyirmi ildə şəhərdə varlığından belə xəbərsiz olduğu restoranları, istirahət mərkəzlərini tanıdı. Getdikləri hər yerdə dostunun təmtəraqla qarşılanması Adildə özünün də anlaya bilmədiyi qəribə bir paxıllıq hissi doğururdu bəzən. Dostunun yaşamağı bacarması, zamanın nəbzini tuta bilməsinə heyran qalırdı.

Xudmani istirahət etdikləri belə məclislərdən birində iki nəfər qadının onlara qoşulmasını əvvəlcə təsadüfü saysa da, az sonra dostunun işi olduğunu anladı. Başqa vaxt olsaydı etiraz edərdi dostuna. Amma bu dəfə edə bilmədi. İçində illərdi yığılıb qalmış və yalnız özünə məxsus hisslər qoymadı etiraz etməyə. İçkinin təsiri də bu işdə az rol oynamadı. Az keçməmiş artıq ona qısılan qadının hərətini hiss edəndə bayaq ürəyindən keçənlərə görə az qala özünü qınadı.

O gecə ilk dəfə ailəsindən kənarda gecələdi Adil. Düzdü əvvəlcədən zəng edərək gəlməyəcəyini demişdi. Gecəni qonaqlarla keçirdilər. Səhər maşında şəhərə qayıdanda hamı deyib gülsə də, Adil yaman fikili göründü. Dostunu yaxşı tanıyan Zakir təxminən bilirdi onun nə düşündüyünü.

İki-üç gün özündən zəhləsi getdi. Ona elə gəlirdiki xanımı bir dəfə gözlərinin içinə baxsa hər şeyi biləcək. Həmişə onu "fərasətsizlikdə" günahlandıran xanımı bu dəfə onu əxlaqsızlıqda suçlayacaqdı. Xoşbəxtlikdən hər şey yaxşı qurtardı. Bəlkə də şəhərə qayıdanda yolustü Zakirin hər ikisi üçün etdiyi bazarlıq xanımının dilini bağladı. Hər ehtimala qarşı, dünən aldığı qonorarın yarıdan çoxunu da ona verdi. Pulu həmişəkindən çox görən qadının eyni açılmışdı. Evlilik həyatında ilk dəfə idi belə bir iş tutmuşdu. Bir-iki belə məclisdən sonra adiləşdi hər şey onun üçün. Bəzən bu məclislərdən ötrü darıxdığını hiss edəndə özünü tanıya bilmirdi. Yaman dəyişmişdi. Sanki itirdiyi gənclik illərinin heyfini alırdı.

Amma tezliklə Adil bu dəvətlərdən qaçmağa, bəhanələr gətirməyə başladı. Gah işinin çoxluğu, gah qonağının olacağını dedi. Səbəb isə yalnız ona məlum idi. Səbəb Zakirin hər dəfə onu əlini cibinə salmağa qoymamasıydı. Bəzən hesabın qalığını belə almamasından hiss olunurdu ki, bunlar dostu üçün kiçik məbləğ idi. Hətta bir dəfə ofisantın stolun üstünə qoyduğu qalığın kifayət qədər çox olduğunu görən Adil dostu otağdan çıxdıqda pulu cibinə qoymaqdan özünü güclə saxlamışdı.

Adil uşaqlıqdan qürurluydu. Qəbul edə bilmirdi bunu. İstəmirdi Zakir ona istifadə edən adam kimi baxsın. Elə bu səbəbdən də yavaş-yavaş uzaqlaşmağa başladı. Münasibətləri tədricən soyutdu və nəhayət tamam kəsdi. Bəzən Zakirin nömrəsini yığaraq zəng edib hal-əhval tutmaq istəsə də dostunun bunu başqa cür başa düşünəcəyini fikirləşirdi. Sonuncu dəfə nə vaxt danışdıqlarını belə unutmuşdu, bəlkədə 3 il olardı.

İndi məhz bu gün yenidən Zakirin onu axtarıb tapması Adilə qəribə gəldi. Ürəyində "xeyirdimi görəsən", deyə

düşündü. Sonra özünü qınadı bir az: “O boyda imkanın, var-dövlətin sahibi səni axtarır, sən də gör nə gətirirsən ürəyinə”. Hiss etdiki darıxıb dostunun söhbətləri üçün. Zakirlə dərdləşmək, içib rahatlanmaq keçdi içindən.

Adilin həmişə “bizim idarə” dediyi redaksiyanın əsas hissəsi, iki böyük otaqdan ibarət idi. Otaqlardan birində baş redaktor oturardı. İkinci böyük otaq Adil də daxil olmaqla dörd işçinin oturduğu əsas otaq idi. Kiçik otaqlardan biri arxiv sayılırdı və oranın açarı baş redaktorda olurdu adətən. Dördüncü otaq isə mətbəx funksiyasını yerinə yetirirdi. Darısqal olduğu üçün hamının eyni vaxtda oturması üçün imkan yox idi. Əsas otaqda dörd iş masası vardı. Qapıdan girən kimi sağdakı otaq baş redaktorun müavininin, yəni Adilin idi. Ondan sağdakı ikinci masanın sahibi hamının “ağsaqqal” deyə çağırdığı Qafar kişi idi. Adətən çox vaxtı otaqda tapılmazdı. Qonşu ofislərə nərd oynamağa qaçardı. İş görməklə arası yoxdu. Dediyinə görə zamanında tanınmış qələm sahibi olub. Nədənsə Adil onun imzasını heç xatırlaya bilmirdi. Qafar kişinin dediyinə görə, bir ilini də başa vurub aradan çıxmaq fikrində idi. Heç kəs xətrinə dəymirdi. Bir yaxşı işi vardı ki bayramları, otaqdakıların ad gününü xüsusi qeyd etməyi və bu işi təşkil etməyi xoşlardı.

Onunla üz-üzə, Adildən soldakı masada isə sakit təbiətli, əslən Bakılı olduğunu deyən Nisə xanım əyləşirdi. Heç vaxt hündürdən danışmayan, ancaq öz yazı-pozusuyla məşğul olan bu qadın səbr dağarcığı idi. Otaqda yeriməsindən bəzən heç kimin xəbəri olmazdı. Gün ərzində həmişə dolu olan iri fincanından qurtum-qurtum çay içərdi. Hər özünə çay süzəndə otaqdakı hamıya təklif edər, hətta on dəqiqə bundan əvvəl “istəmirəm” desən də təklifini təkrarlayardı.

Onunla üzbəüz iş masası katibə-makinaçı ştatında çalışan Könül xanımın idi. Əvvəllər bu işdə orta yaşlı bir qadın çalışırdı. Üz gözündən daima narazılıq yağan bu insan Adildə həmişə ruh düşkünlüyü yaradırdı. Ona görə də çalışırdı ki, onun tərəfə baxmasın.Yaxşı ki tezliklə hansısa səbəbdən uzaqlaşdı burdan. Üç il olardıki onun yerini Könül tutmuşdu. Bəstəboylu Könülün iri, qəşəng gözləri vardı. Güləndə yanağındakı qəmzələr can alırdı. Hər gün səliqəli geyimdə və təzələnmiş makyajda işə gələrdi. Danışarkən gözlərini qəribə şəkildə yummağı vardı. Hərdən Adilə elə gəlirdiki onun gəlişindən sonra burda əla ab-hava yaranıb. Üz-üzə oturduqları üçün tez-tez baxışları toqquşardı. O zamanə hər ikisi də eyni vaxtı baxışlarını yayındırmağa çalışardılar. Otaqda hamıya məlum idi ki, Könül artıq dörd ildən çoxdur ərindən ayrılıb və qızı ilə məhkəmədən sonra ona verilən birotaqlı mənzildə yaşayır. İlk vaxtlar o qədər də fikir verməzdi bu qadına. Gün ərzində münasibətləri səhər tezdən salamlaşmaqdan, iş bitəndə isə sağollaşmaqdan ibarət olurdu əsasən. Hərdən də çətinə düşən Könülün suallarına cavab verərdi. Təbiətən ciddi, qaraqabaq adam olduğu üçün, münasibətləri rəsmiyyətdən o tərəfə keçmirdi. Bəlkə də Adilin bu qadına münasibəti belə də davam edəcəkdi. Əgər o əhvalat olmasaydı. Əhvalat deyəndə ki...

O günü iş otağında yalnız ikisi idi. Nisə xanım xəstə olduğu üçün, işə çıxmırdı. Qafar kişi isə adəti üzrə yoxa çıxmışdı. Əlindəki yazını qurtarmağa çalışan Könül tez-tez saatına baxırdı. Dediyinə görə, saat altıda qohumunun toyuna dəvətli idi. Əslində onun toya

gedəcəyini Adil səhər otağa girən kimi hiss etmişdi. Könülün vurduğu ətir iyi otağı doldurmuşdu. Bədəninə kip oturan mavi rəngli donu ona xüsusi yaraşırdı. Bunu Könülə demək istəsə də fikrindən daşınmışdı. Qadının səhv başa düşəcəyindən çəkinmişdi. Donun sinəsinin bir qədər açıq olması da nəzərindən qaçmamışdı.

Yazının sonuna çatanda problem yarandı kompyuterində. Həmişəki kimi Adildən kömək istədi. Könülün masasına yaxınlaşdı. Qadın qalxaraq yerini ona vermək istəsə də gec idi. O artıq başının üstündən əyilərək barmağı ilə monitorda məsləhətlər verirdi. Darısqallıqdandımı, ya qəsdənmi kənara da çəkilməmişdi qadın. Bu illər ərzində ilk dəfə idi ki, belə yaxın dayanmışdılar. Adil gözünü çəkə bilməmişdi qadının qar kimi bəyaz, çöldə qalan sinəsindən. Həm tünd ətir iyi, həm də qadının bədənin hərarəti dözülməz etmişdi o bir-iki dəqiqəni. Nə yaxşı o vəziyyət uzun çəkməmişdi. O gün Könül toya getdikdən sonra özünü çox danladı Adil. Hislərini ələ ala bilməməkdə suçladı özünü.

Özü də hiss etmədən münasibəti dəyişdi qadına qarşı. Hərdən Könül işə çıxmadığı günlərdə darıxdığını anlayırdı. Bunu etiraf etməsi belə özünə xoş gələrdi. Amma münasibətləri bundan o yana keçməmişdi.

Bəzən iş zamanı qəsdən onu danışdırmaq üçün dəqiq bildiyi bir şey haqqında sual verərdi. Amma hiss edirdi ki, Könül onunla ünsiyyətdən ya çəkinir, ya da aralarındakı rəsmiyyət buna imkan vermirdi. Adil neynəsə də Könül hər ona müraciət edəndə “Adil müəllim” deyirdi. Bu rəsmiyyət onun xoşuna gəlməsə də aralarındakı on üç illik fərqə görə haqq qazandırırdı qadına. Bəzən gecələr yuxusu gəlməyəndə Könülü Təranə ilə müqayisə edər, çox vaxt da üstünlüyü Könülə verərdi. Təranə Adilin ilk sevgisi olmuşdu. Dördüncü kursda ayrılmışdılar. Təranəyə olan sevgisini iki il gizlətsə də sonradan hamıya bəlli olmuşdu. Adilə qalsaydı bəlkədə heç vaxt xəbəri olmayacaqdı Təranənin bu sevgidən. Harda idi Adildə o cəsarət? Yenə də Zakir çatmışdı dadına. Dostunun vəziyyətini duyan Zakir işin mahiyyətini bilincə səhərisi gün universitetdə qızın qabağını kəsmiş və ədəb-ərkanla anlatmışdı məsələni ona. Tezliklə qrupda hamı xəbərdar oldu bu sevgidən. Təranə də etiraz etməmişdi buna. Xasiyyətləri tutmuşdu. Sonrakı iki ili hamı onları cüt görürməyə alışdı. Hərdən bir yerdə imtahana hazırlaşmaqları da olurdu.

Dördüncü kursun sonuna yaxın hər şey bitdi. Təranəni zorla Rusiyada işləyən əmisi oğluna nişanladılar. Qızın “qaçırt məni” təklifinə müsbət cavab verə bilmədi. Zakir də vəziyyəti biləndə eyni təklifi ettdi ona. Hətta həyətlərindəki kiçik otağı da yaşamaq üçün onlara təklif etdi. Amma Adil bunu edə bilməzdi, özündən böyük iki qardaşını necə basıb keçəydi axı? Bu sonuncu görüş oldu. Təranəni bir də dövlət imtahanında görə bildi. Dəhlizdə qızla üz-üzə gəlməmək üçün çox çalışdı o gün. Toya da qrup yoldaşlarının hamısı getdi, ondan başqa. Əslində heç israr edən olmadı. Bilirdilər vəziyyətini. Bəlkə də, bu sevgini daha tez unuda bilərdi, əgər toyun səhərisi Təranənin otaq yoldaşının ona verdiyi məktub olmasaydı. Əslində məktub demək olmazdı, on iki vərəqli dəftəri doldurmuşdu qız. O dəftəri Adil indi də saxlayırdı. (Məktubda nə yazıldığını oxucuya deyə bilməyəcəyik. Çünki Adil o məktubu hamıdan gizlətdi) Dəftəri oxududuqdan sonra içində nəyinsə qırıldığını his etmişdi Adil. Bu hiss Adil

üçün bakirəlik kimi bir şeydi. Bir illik hərbi xidməti zamanı hər gün gözünün önünə gətirdi o məktubu. Sətir-sətir, cümlə-cümlə əzbərləmişdi. İllər sonra-ailə həyatı qurandan belə sonra da o məktubu xəlvətə çəkilərək oxuyardı. Bir-iki dəfə yandırmaq istəmişdi, lakin yandıra bilməmişdi.

Ailə həyatının ilk illərində isinişə bilmirdi həyat yoldaşına. Öz qohumu idi. Aralarında on bir yaş fərqi vardı. Bəzən Adilə elə gəlirdiki, bu soyuqluq elə yaş fərqinə görədir. Düzdür, ikinci qızı dünyaya gəldikdən sonra bu soyuqluq qismən aradan qalxsa da, bu günə qədər hələ də pərdəli dolanırdılar. Hərdən Adilin özünə də qəribə gəlirdi bu vəziyyət. Amma gec olduğunu özü də bilirdi. Aralarındakı fərq təkcə yaş deyildi əslində. Dünya görüşü, xarakter baxımından da ayrı-ayrı adamlar idlər. Fikirlər Adili yoranda Təranə yadına düşərdi. Ən dəhşətlisi o idi ki, bu soyuqluq xanımını narahat etmirdi və hiss olunurduki onun üçün bu adi haldır. Səliqəsinə, biş-düşünə söz ola bilməzdi. Di gəl, zalım qızının deyingənliyi hərdən hövsələdən çıxarırdi onu. Xanımına elə gəlirdi ki, bu böyük şəhərdə hamı qayğısız yaşayır, hamı kefdədir bircə onlardan savayı. Evin bir işi kəsir olan kimi başlayırdı deyinməyə. Mətbəxə keçərək başlayırdı Adilə hər sözü tanış olan cümlələrə: “Cammat qaz vurub qazan doldurur, bizimki isə kağız-kuğuzla eşələnir. Kimə lazımdır axı sənin imzan, şerin?” Hərdən evdə iki qız uşağının böyüdüyünü də əlavə olaraq çatdırıdı Adilin qulağına. Belə anlarda xanımını haqlı sayan Adilin sakitcə binanın qarşısındakı nərd atanlara qoşulmaqdan başqa çarəsi qalmırdı.

Adilin birinci kitabı çıxanda buna o qədər adı, etinasız yanaşdı ki, heyrətə gəldi. Kitabı vərəqləyən xanımı sonra heç nə demədən oturduğu kresloya tullayaraq mətbəxə keçdi. Məhz o gün ikinci dəfə içində nəyinsə qırıldığını hiss etdi və qəti əmin oldu ki, bu nəsə düzələn deyil. Elə buna görə də ikinci, üçüncü kitabları çıxanda yoldaşına bildirmədi. Yaxşı ki, həyat yoldaşı ilə aralarında ortaq nöqtə – iki qız balası vardı.

***

Sürücünün qəfil əyləci basması ilə fikiri dağıldı. Yalnız indi düşəcəyi dayanacağı arxada qoyduğunun fərqinə vardı.Növbəti dayanacaqda enərək geri qayıtdı. Gecikməyi xoşlamayan Adil, Zakir deyən vaxtda onun ofisinin qarşısında idi. Ofis təxminən otuz-qırx kvadratmetrlik, iç-içə iki otaqdan ibarət idi. İkinci otağı heç vaxt görməyən Adil intusiyası ilə hiss edirdiki bura Zakirin “gizli ofisidir”. Çox guman ki, burda həm dincəlmək, həmdə özü demişkən mühüm işlər üçün idi. Əlindəki siqareti atmağa yer axtarırdı ki, qapı açıldı və Zakir həmişəki istiqanlılıqla onu qucaqladı. Ayaqüstü hal-əhvaldan sonra qolundan içəri dartdı. İçərinin sərin havasında rahatlanan Adil gözünü açmamış masanın üstünü doldurdu şirniyyatla. Çay qoyduqdan sonra söhbətə, daha doğrusu giley-güzəra başladı. O da əvvəlcədən hazır ssenari üzrə bəhanələr gətirdi.

Söhbət zamanı Zakirin qarşısındakı notbukda nəsə yazması, arabir qımışması qəribə gəldi ona. Hərdən elə gəlirdi ki, heç ona qulaq asmır dostu. Amma verdiyi suallara cavab aldıqca özü də baş açmadı bu işdən. Axır ki, dostu notbuku bir kənara ataraq “bunu icad edənin atasına rəhmət” deyərək çayına əl uzatdı. Dostunun üzünə maraqla baxdığını görüb

-Noutbuku demirəm əşi, feyzbuku deyirəm, - deyə aydınlıq gətirməyə

çalışdı. Adilin başını tərpətməyini görüncə “yoxsan burda?” deyə soruşdu.

–Əlbətdə varam. Amma həvəsim və vaxtım olmur tez-tez baş çəkməyə. Evdə də uşaqların əlindən imkan olur ki?- deyə dostunun sualına cavab verdi. - Amma sənin işinə yarıyır deyəsən? Axı səninki ticarətdir. Elan verməyə, müştəri tapmağa lazım olar sənə.

– Rəhmətliyin oğlu müştəri nə gəzir bu saat. Olan da, ofisimi tanıyırlar, - dostu qımışdı. -Burda ayrı aləm var ey. Cənnətdir bura, cənnət.

Adilin deyəsən bu sözlərdən heç nə anlamadığın görcək səsinin tonunu aşağı salaraq dedi:

–Sən də elə bil bu dünyada yaşamırsan vallah. Açırsan özünə bir profil, sonra da atırsan tilovu gözləyirsən..

–Necə yəni atırsan tilovu? - Elə maraqla soruşdu ki, dostu lap uğundu. Gülməyini birtəhər boğub, izahat verdi:

– A kişi niyə anlamırsan? Bax mən burda özümə bir profil açmışam. İndi burda əlimə düşən biri ilə tanış oluram. Bilirsən burda nə qədər bekar gəlinlər var? Hələ müasir qızları demirəm day sənə. Kef elə də özünçün! Nə aparacaqsan axı bu dünyadan, rəhmətliyin oğlu?

– Axı məni tanıyırlar az-çox. Qohum-əqrəba, dost-tanış. Hələ imzamı demirəm.

– Sən nə analamaz olmusan, a kişi. Sənə kim deyir ki, özünü tanıt. Guya məni tanıyan azdır bəyəm? Profilinə qoyursan bir cavan oğlan şəkli. Bir-iki dənə romantikadan, sevgidən statuslar paylaşırsan. Subay olduğunu yazırsan. Yaşınıda 35-36 yaş qeyd elə.

– Niyə 35-36 yaş?

– Bu elə yaşdı ki, cəlbedici gələcək əksəriyyətinə. Həm cavan, həm də kifayət qədər təcrübəli yaş dövrüdür, - deyə göz vurdu Zakir.

Dostunun başını buladığını görən Zakir “Sən öl, maraqlı olacaq sonra. İnan ki, bu olmasa burda dura bilmərəm bekarçılıqdan. İş var bəyəm? Gündə bir-iki nəfər qapımı aça, ya açmaya. Birdə ki, bizim indən belə kafe, bar, diskoteka gəzən vaxtımız deyil. Görən, tanıyan olar oralarda. Elə edirəm ki, ov özü gəlir ayağıma” - deyə izahat verdi. Nəfəsini dərib davam etdi:

–Adil bilirsən nə qədər belə tanışlıq üçün sino gedənlər var? Şəhər doludur vallah, amma hər adamla da dostluq etmək olmur.

–Bəs harda görüşürsən?

– Harda olacaq? Burda! Başı ilə ikinci otağa işarə etdi. Sonra dostunun qolundan tutaraq ikinci otağa sarı çəkdi. Qapını açaraq işığı yandırdı. Xudmani bir otaqdı, divan, kreslo, kondisioner – bir sözlə istirahət üçün hər şey. Dostunun fərasətinə heyran qalsa da, özündən zəhləsi getdi bir anlıq. Ürəyində “həmişə bacardın yaşamağı ay Zakir” deyə düşündü. “Elə ona görədə on yaş cavan görünürsən məndən. Mən bədbəxt isə ömrümü günümü çürütdüm kağız-kuğuzların arasında. Rayondakılar olmasaydı bəlkə hələ də kirayələrdə çürüyürdüm.” Adili xəyallardan Zakirin “yaşa da özünçün, ə bu dünyadan nə aparacaqsan?” deməsi ayırdı. Başını tərpədərək təsdiqlədi dostunun fikirlərini.

Gecə uzun müddət yata bilmədi. Fikri bu gün Zakirlə etdiyi söhbətdə qalmışdı. Bir kəlmə sözüylə onun fikirlərini qarışdırmışdı. Nəsə ağlına bir şey batmırdı onun dediklərindən. Amma orası da vardı ki, Zakirin yalanla arası olmazdı. Deyirdisə, deməli nəsə var. Hələ tələbəlikdən bu sahədə peşəkar idi onun dostu. İllər keçsə də bu işlərini əlindən buraxmayıbmış demək. Bir yandan da baxanda düz eləyir bəlkə də.

Dünya beş gündür, kim nə aparacaq bu dünyadan...

Yuxudan ayılanda gün yarı olmuşdu az qala. Hərdən belə yatıb qalmağı olurdu. Onsuz da bu gün iş günü deyildi. Çay içdikdən sonra iş otağındakı notbukunu açdı. Yarımçıq qalan yazıları vardı. Planı yazıları tamamlamaqdı. Çoxdandı təzə heç nə yazmırdı. Əlini notbuka sarı uzatmışdı ki, hardansa dünənki söhbət yenidən düşdü beyninə. Özündən asılı olmayaraq dünən Zakirin təkidi ilə yeni yaratdığı profilini açdı. Zakir onun üçün əməlli başlı iş görmüşdü burda. Maraqlı və romantik şəkillər, sevgi statusları paylaşmışdı dostunun səhifəsində. Nəsə bu iş maraqlı gəlmədi ona, hətta bayağı göründü. Amma əli işə də yatmadı. Geyinərək həyətə düşdü. Adətən binanın tinində domino yarışları gedərdi bu vaxtlar.

Arada hardasa iyirmi gün, bəlkədə bir ay keçmişdi. Redaksiyada qəribə bir sakitlik vardı. Ondan başqa heç kəs yox idi idarədə. Əlindəki yarımçıq yazını tamamladıqdan sonra kresloya yayxanıb gözünü divardakı saatın əqrəblərinə zilləyərək baxırdı kı, hardansa yadına şoğərib profili düşdü. Biixtiyar adını və şifrəsini yazaraq səhifəyə girdi. Gözünə inanmadı. On bir nəfərdən dostluq təklifi gəlmişdi. Acgözlüklə birnəfəsə hamısını qəbul elədi, heç gözünü qırpmadan. Elə bil özünə inam hissi yarandı içində və bu hiss içindəki tərəddüdü bir andaca qovdu. Bir qədər Zakirin səhifəsinə baş çəkmişdi ki, qəflətən gələn mesajın bildiriş səsinə diksindi. Oğurluq edən uşaq kimi ətrafına baxsa da otaqda tək olduğunu xatırlayınca sakitləşdi.

Toruna balıq düşən ovçu kimi reaksiya görsətdi. Mesajın kimdən gəlməsinə baxmadan belə cavab yazmağa tələsdi.

–Salam. Necəsiz?

– Salam. Siz necəsiz? - Tanımadım deyə cavab yazdı.

– Nə tələsirsiz, tanıyarsınız, - deyə cavab aldı. Adım Aliyədir. Bəs sizin?

Adilin bir anlıq dili-dodağı qurumuşdu. Az qala öz adını yazacaqdı kı, hardansa Zakirin tapşırıqlarını xatırladı. (Əməlli-başlı yazışmadan nömrə vermə. Yerini-yurdunu bildirmə.) Təxminən iyirmi dəqiqə yazışdıqdan sonra həmin xanım “bir azdan yazaram” deyib yoxa çıxdı. Üstündən sanki dağ götrüldü .Yol boyu Adilə elə gəlirdi ki, hamı ona baxır. Oğurluq edibmiş kimi heç kimin üzünə belə baxmaq istəmirdi. Binanın qarşısında domino şaqqıldadan qonşularına belə, həmişəki ümumi salam belə vermədən bloka girdi. Arxasınca boylanan qəribə baxışları belə his etmədən pilləkənləri qalxmağa başladı. Evdə də özünə rahatlıq tapmadı. Duş qəbul etdikdən sonra bir qədər toxtadı.Yadına düşdü ki, qonaqlığa dəvətlidir. Bir-iki məhəllə aralıda böyük qaynı yaşayırdı. Zəng edib, gələ bilməyəcəyini deyib, üzürxahlıq etdi.

İş otağına geçdi. Notbukunu açaraq yenidən şifrəsini yazaraq profilini açdı. Təzə tanışından xeyli mesaj gəlmişdi. Bu dəfə tələsməyən Adil əvvəlcə onun profilinə baxdı: Aliyə, 30 yaş, Bakıda yaşayır. Səhifəni ələk-vələk etsədə bundan başqa heçnə tapa bilmədi. Mesajları oxuduqdan sonra cavab yazdı. Az keçmədi cavab gəldi. Söhbətləri alındı. İki saatın necə keçdiyini belə hiss etməyən Adil, Zakiriə haqq qazandırdı ürəyində. Söhbət əsnasında çox şey öyrəndi xanım haqqında: ailəli olub ayrılıb, ayrıca mənzili var, 35-40 yaşlı dürüst biri ilə dostluq etmək istəyir. Yatağına uzanan Adil yuxuya nə vaxt getdiyini hiss etmədi.

Səhərisi iş vaxtı imkan tapdıqca öz səhifəsinə baxan Adil yeni mesajlar görmək ümidində olsa da nədənsə tanışından səs soraq yox idi. Hətta nahar fasiləsi zamanı yeməyini belə ayaqüstü

yeyərək yenidən masasına qaçdı. Nədənsə dostu susurdu. "Yəqin işdədir, ya da vaxtı yoxdur" deyə özünə təskinlik verdi. Saat altı olar-olmaz küçəyə çıxdı. Lakin elə dəhlizin başındaca köhnə tanışlarından birinə ilişdi. Bu minvalla çənədən saz tanışının hesabına yarım saat itirdi. Əlindən güc-bəla ilə qurtulub evə sarı qaçdı...

Beləcə narahat günləri başladı. Özündən asılı deyildi. Evdə olanda işə, işdə olanda isə evə can atırdı. Hərdən " bir az yazım var" deyib iş otağına çəkiləndə səsində qəribə titrəyişi özüdə duyurdu. Bəzən ona elə gəlirdiki ondaki bu qəribəliyi həyat yoldaşı və ətrafindakılar da duyur. Nədənsə gündüzlər yazmırdı Aliyə. İşdə olduğunu deyirdi. Adil də harda işlədiyini soruşmamışdı. Yaxşı bilirdi ki, soruşsa belə, doğru cavab almayacaq.

Günlər bir-birini əvəz etdikcə Adildə qəribə öyrəncəlik yarandı bu yazışmaya. Hiss edirdi ki, ayrı qala bilmir üzünü görmədiyi, tanımadığı bu yad qadından. Bəzən özünə bir neçə gün yazmayacağına söz versə də bacara bilmirdi. Qadının da ona biganə olmadığını hiss edən Adil gecələrin birində sağollaşarkən özündə cəsarət tapıb, ona "öpdüm" yazdı. Qarşı tərəfin cavabı ləngimədi: "mən də". Beləcə yazışmaları yeni mərhələyə qədəm qoydu. Hərdən gecələr mövzular sevgidən, intim hisslərdən düşəndə qadının da bu cür söhbətlərə biganə olmadığını görən Adili qəribə hislər bürüyürdü. Artıq əməldən işə keçməyin vaxtıdır, deyə düşünürdü. Bu barədə Zakirlə məsləhətləşmək qərarına gəldi. Aldığı məsləhət belə oldu: "Canım üçün hazırdı. Görüşə dəvət elə". Adilin "harda görüşüm axı?" sualına başı ilə arxa otağı göstərən Zakir "dostun ölməyib ki sənin" deyə qımışdı.

–Dəvət elə bura. Arxayın, xudmanı yerdir. Mən sizi təklikdə buraxaram, dedi.

Dostunun bu canyananlığı ordaca fikrini qətiləşdirdi Adilin. Artıq dördüncü ay idi ki, yazışırdılar. Araları tam açıq idi. Hər cür mövzuda söhbət etmişdilər. Evə qayıdarkən yolda qaynı zəng etdi, dünən ailəsini onunla yola salmışdı rayona. Ənənəvi olaraq yay tətili başlayan kimi köç başlayırdı kəndə. Yoldaşı onsuz da evdar qadın idi.

Görüşüb qəsəbədəki kafedə bir az pivələdilər. Evə qayıdanda bir az keflİndiyini hiss etdi, çoxdandı bir belə içmirdi.

Hamamdan çıxib qurulanmamış iş otağına qaçdı. O gecə ya içkinin təsirindən, ya da Zakirin məsləhətindən cəsarətlənən Adil mətləbi açdı.

–Bəlkə görüşək?.

– Nə bilim. Bu hardan ağlına gəldi?

– Bilmirəm

–Nədən istədin ki?

– Elə belə. Tanımaq üçün. Axı nə vaxta qədər bir-birimizi tanımayacağıq?

–Bilirsən, qorxuram. Görən olar. Tanış-biliş.

–Qorxma. Kim görəcək ki?

–Baxarıq da.

-Sabah görüşək. İstirahət günüdür.

– Bilmirəm. Qərar verə bilmirəm.

Söhbət uzun çəkdi. Nəhayət, razı sala bildi Aliyəni. Zakirin gündüz ona əzbərlətdiyi ünvanı Aliyəyə başa saldı. Hər ehtimala qarşı nömrəsini də verdi ona. Bu gün almışdı nömrəni Zakirin məsləhəti ilə. "Lazım olmasa qır, tulla getsin" demişdi.

O gecə söhbət məcrasından çıxdı. Aliyənin dediyi kimi hərdən Adil lap cızığından çıxırdı. Virtual olaraq başlayan öpüşlər virtual seksə çevrildi. Hər ikisi də hiss edirdi ki, sabahkı görüş üçün artıq mane olacaq, çətinlik yaradacaq heç nə qalmayıb. Bir sözlə,

hər ikisi tam hazır idi sabahkı “zirvə toplantısına” ( Bunu da Adil düzüb qoşmuşdu). Nəhayət gecə yarısı sağollaşıb, yatmağa qərar verdilər.

Özünü tanımırdı. Hər şey gözündə dəyişmişdi o gecə. Sabahkı görüşü düşünürdü. Bir yandan da, aylardan bəri dincliyini alan qadının ona ilk təklifdəcə ram olması içində bir qəribəlik yaratmışdı. Hər şeyin belə tez əldə olunması gözündə adiləşdirmişdi bu münasibəti. Qarışıq fikirlər onu yaman sıxırdı.

Səhər yuxudan ayılanda bir müddət özündə olmadı. Bir az içkinin təsiri, bir az da narahat və az yatdığından heç nə xatırlamadı əvvəlcə. Qəfildən divardakı saata baxanda axşamkı yazışmaları gözünün önünə gəldi. Əvvəl istədi görüşü təxirə salsın. Yadına düşdü ki, Aliyənin nömrəsi onda yoxdur.

Bu fikrindən daşındı. Getmək qərarını verdi bir andaca. Amma vaxt lap daralmışdı. Tələsmək lazım idi. Hamamlanıb, üzünü qırxmaq bir az da vaxtını aldı. Pilləkənləri qaça-qaça düşdü az qala. Avtobus qaydasında getsə də ona elə gəlirdi ki, sürücü qəsdən ləng sürür. Saatına bir də baxanda gecikəcəyini dəqiq bildi. Taksiyə minmədiyinə peşman oldu. Tərslikdən xanımın telefon nömrəsini də bilmirdi. Zakirə zəng etmək istəsə də, sonra fikrindən daşındı. Zəng edib nə deyəcəkdi? Onu Zakir gözləmirdi ki.

Dayanacaqdan Zakirin ofisinə qədər az qala yüyürdü. Küçəni keçərkən maşınların verdiyi əcaib siqnallardan hiss etdi ki, yolu düz keçmədi. Uzaqdan gördü ki, Zakir ofisin qarşısındadır. Ürəyi yerinə gəldi bir az. “Gəlməyib hələ.. gecikib mənim kimi” düşündü. Adili görən Zakirin üzü güldü. “Öz aramızdı, zövqün pis deyil dostum” deyərək əlindəki açarları Adilin ovcuna tutuzdurdu. ”Sizə uğurlar! İşiniz bitəndən sonra zəng edərsən. Qapını içəridən bağla. Döyən olsa da açma. Kef elə..” deyərək əlini dostunun kürəyinə vurdu. Dostunun dediyindən anladı ki, Aliyə artıq içəridədir. Özünü ələ alan Adil qapının dəstəyindən yapışaraq aşağı burdu və açılan qapıdan özünü içəri saldı...

Kaş heç girməyədi...

Divanda arxası qapıya tərəf oturan xanım içəri kiminsə girdiyini hiss etdi və əlindəki kiçik kosmetika güzgüsünü çantasına qoyaraq geri çevrildi...

Baxışlar toqquşanda sanki ildırım vurdu hər ikisini. Bir anlıq otağa qəribə sükut çökdü. Adilə elə gəldiki bu sükut saatlarla davam etdi. Hətta ürəyinin döyüntüsünü belə eşitdilər küçədən keçənlər. Sükutu qadının hönkürtüsü pozdu. Otağın sakitliyini pozan bu səs uzun müddət davam etdi. Ayaqüstə dayanmağa gücünün qalmadığını hiss edən Adil bağlamağa macal tapmadığı qapının önündə oturdu. Hələ də şokda idi. Quruyub qalmışdı. Divanda içini çəkə-çəkə ağlayan qadına təsəlli verə biləcək söz tapa bilmirdi. Əvvəl istədi ki, yaxınlaşsın ona. Lakin vəziyyətin daha da pisləşəcəyindən qorxdu. Oturduğu yerdən duraraq su vermək istədi. Əlini suya uzatmışdı ki, qadın qəflətən durdu və göz yaşları içində “Məni bağışlayın Adil müəllim” dedi və ardınca az qala qaçaraq otağı tərk etdi.

Gedən Könül idi – Adilin iş yoldaşı...

Adil içmək üçün açdığı mineral suyu başından aşağı tökdü...

***

Zakirlə tindəki çayxanada görüşüb açarları verdi. Dostunun üzünə baxıb qımışan Zakir Adilin qırımından hiss etdi ki, nəsə vəziyyət başqa cürdür. Soruşmağa da da risk etmədi. Dostunun

sağollaşmadan ayrılmağı xoşagəlməz hadisənin olduğundan xəbər verirdi.

Gecəni yata bilmədi Adil. Bir neçə dəfə notbuku yandırsa da profilini açmadan söndürdü. Divarlar hər tərəfdən üstünə gəlirdi. Səhərə yaxın artıq gözlərinin şişdiyini, sifətinin bir gecədə qaraldığını belə hiss etdi güzgüdə.

İş otağına keçdi. Baş redaktorun adına ərizə yazdı. İşdən çıxması barədə səbəb kimi səhhətini görsətdi. Səhər açılanda redaktorun nömrəsi yığdı. Salamlaşdıqdan sonra qısa şəkildə işdən çıxmaq qərarına gəldiyini bildirdi. Ərizəni isə tezliklə göndərəcəyini bildirdi. Baş redaktor hələlik bu həftəni işə gəlməyini xahiş etsədə gələ bilməyəcəyini dedi. Baş redaktor "mən indi sənin yerinə adamı hardan tapım bu tezliklə? Tərs kimi Könül xanım da bir az bundan qabaq işdən çıxması haqda ərizəni qoydu stolun üstünə. Belə olmaz axı."

Telefonun o başından baş redaktorun səsi gəlsə də Adil artıq sonuncu cümlədən sonra heç nə eşitmirdi...

***

Çoxdandı rayona avtobusla getmədiyi üçün avtovağzalda rayona gedən avtobusu çətinliklə tapdı. Rayona gedəcəyinə qərar vermişdi. Uzaqlaşmaq lazım idi burdan. Qarşısanda dayanan dilənçı uşağın səsi onu fikrindən ayırdı. Əlini cibinə saldı. Xırda pul axtardı. Əlinə dəyən qəribə əşyanı çıxartdı, nömrə idi. Həmin nömrə. Qeyri-iradi ortadan iki bölüb uşağın ovcuna qoydu. Dodağının altında danışan uşaq başını bulayaraq uzaqlaşdı...

## Zamiq Mehdisoy



## ŞƏHİD QANI

Hər gün işə gedəndə palçıqlı yoldan keçməli olurdum. Yolun kənarına səliqəsizcəsinə qoyulmuş zibil yeşikləri dolub daşır və ətrafa səpələnən zibil palçıqlı yolu lap eybəcər göstərirdi. Üfunət qoxusunu içimə çəkməmək üçün burnumu tutub keçirdim. Mənə qəribə gələnsə o idi ki, palçıqlı yolun hər iki cinahında bir-birindən yaraşıqlı evlər, villalar olsa da, nədənsə o malikanə sahibləri o yola bir əncam çəkmirdilər. Mən isə onların yerinə xəcalət çəkirdim (ürəyimdə söyürdüm təbii ki...) hər dəfəsində. Bu günsə işə gedəndə həmin yolu tanımadım; dünənə kimi gördüyüm o palçıqlı yoldan əsər-əlamət qalmamışdı. Yola yeni asfalt örtüyü çəkilmiş, köhnə zibil yeşikləri yeniləri ilə əvəzlənmiş və səliqə ilə düzülmüşdü. Düşündüm ki, yəqin malikanə sahibləri qeyrətə gəlib yolu düzəltdiriblər, nəhayət. Lakin işə çatandan sonra iş yoldaşlarımla söhbət əsnasında mənə aydın oldu ki, sən demə işin məğzi başqaymış.. yolu icra başçısı düzəltdirib..

Bir-neçə gün bundan öncə erməni ordusu ilə savaşda qəhrəmancasına şəhid düşən bir zabitimizin ailəsi həmin o yolun başındakı evlərdən birində

yaşayırmış. Şəhidin hüzr məclisinə Dövlət və Hökumət nümayəndələrinin gələcəyindən xəbər tutan icra başçısı o ətrafın səliqəyə salınması, ilk növbədə isə palçıqlı yolun təcili surətdə abadlaşdırılması barədə göstəriş verib. Axı dağdan ağır məmurlar öz bahalı avtomobilləri ilə ordan keçəcəklər.

" Görəsən heç düşünən varmı, o şəhid zabit sağlığında həmin yoldan keçərkən çəkməsi dəfələrlə üfunət qoxulu palçığa bulaşıb?.. İnanmıram hansısa məmur nə vaxtsa bu barədə düşünə...". Öz-özümə suallar verə-verə işdən çıxıb evə gedərkən həmin yola çatanda qeyri-ixtiyari olaraq ayaq saxladım. Mənə elə gəldi ki, o yola çəkilən asfalt örtüyünə şəhid zabitin qanı qarışıb.

# "YAZI" DƏRGİSİNİN 5 YAŞI TAMAM OLUR: TƏBRİKLƏR, ARZULAR, TƏKLİFLƏR

Yazı dergisiyle ta Ankara'da nasıl tanıştım tam anımsamıyorum. Belki Rıza Heyet tanıştırdı. Belki internetten Azad Karadereli dostla tanışmamla başladı. Önce kapağını yolladı. Sonra içeriğini de göndermeye başladı. Sonra benim hikayemi yayınladı. Sonra Ankara Kocatepe'deki evimin posta kutusunda derginin kendisini gördüm. Sonra Azad Karadereli dostu Ankara'da.

Edebiyat dergileri onu çıkaran, ona baş koymuş sahip/yönetmenlerin düşüncesini taşır. Değişik edebiyat dergilerinin olması değişik edebiyat kaygılarının olduğunu gösterir. Bu sağlıklı bir durumdur.

Yoksa tek tip edebiyat dergileri ve giderek tek bir dergi mutlu etmeye yeterdi koca bir ülkeyi!

Azad Karadereli'nin Yazı dergisi hem gençlerin, hem yaşı kemale ermiş yazarların yapıtlarını, hem edebiyat üzerine makaleleri, hem Batı ve Doğu kültüründen çevirileri içeren bir yayın politikası izliyor.

Özellikle geniş bir coğrafyaya değişik siyasi bütünler olarak yayılmış Türk dünyasından yazar şairlere yer vermeye, haber vermeye çalışması geleceği gören ilerici bir anlayıştır.

Türklerin büyük bütünlüğünü ve büyük güç olmasını sağlayacak en önemli araç edebiyatın başını çektiği kültürel bütünleşme ve kenetlenme olacaktır. İstanbul'daki bir okurun Bakü'de, Alma Ata'da yaşayan bir kardeşinin duygu dünyasını tanıması büyük bir iştir ve ancak edebiyatla mümkündür.

Yazı dergisi, bağımsızlığına düşkün bir dergi. Tüm gerçek yazar ve şairler gibi!

Resmi çevrelerin edebiyatımızı rahat bırakıp, görünmeden, dolaylı olarak desteklemesi gelişmenin ön şartıdır. Siyasi niyetlerle boğulmuş bir edebiyat/yayın dünyası yaratıcılıktan

yoksun, güdük kalır. Destekçilerine de hayır vermez. Kurur.
Yazı dergisi Türk edebiyat/ları için bir yeşil alan, bir yeşil sahadır benim için.
Nice yıllara!



***Ahmet Yıldız (Türkiyə)***

***Yazar/gerçekedebiyat.com yayın yönetmeni***

"Yazı" jurnalı heç bir maliyyə dəstəyi olmadan çıxır. Dəyərli yazıçı, dostumuz Azad Qaradərəli daşı başa, başı daşa vura-vura, birtəhər "Yazı"nın çap xərcini tapıb, ölkənin yeganə bağımsız ədəbiyyat dərgisini yayımlayır.

"Yazı" dövlət büdcəsini parazit kimi sümürən "Ulduz"dan, "Azərbaycan"dan dəfələrlə yaxşı çıxır. Bunun yeganə səbəbi isə "Yazı"nın azadlığındadır! O azadlıq ki, ədəbiyyatı rahat şəraitə, Anarın boyunduruğuna dəyişən adamlar bilməzlər onun qədrini.

Azad müəllim, gördüyünüz bu müqəddəs işdə sizə Tanrıdan kömək diləyirəm. Allah bizə də insaf versin, yeganə müstəqil jurnalımıza vaxtlı-vaxtında yazı göndərək.



***Mövlud Mövlud***

# AZAD QARADƏRƏLİ



## Beş hekayə

### BREND

Qərar sərt idi: süfrəyə nə qoyulur qoyulsun, hamısı öz məhsullarımız olmalıydı. Soyuq içkilərdən dondurmayacan, soyuq yeməklərdən (bu sözü də bu gün baş sındırıb tapmışdılar, yoxsa heyf deyil deyəsən: "xalodnı verim əvvəlcə?") istiyəcən, spirtli içkilərəcən və həkəza.

Əslində o sərt qərarların bazıydı. Sərt qərardan sonra adətən tutulan, işdən qovulan, töhmət alan olsa da, inkişaf da olurdu. Yəni ən azı belə qərarlar kimlərəsə xatırladırdı ki, bu ölkədə qanun deyilən şey var. Yoxsa, ode, bir rəisin oğlu şəhərin ortasında qabağına çıxan maşına yol vermədiyinə görə tıxac yarandı, aləm dəydi bir-birinə. Yox e, bu sözü elə-belə demədim ki! Doğrudan qarışdı aləm. O səviyyədə ki, ölkə başçısı üçün həmişə bomboş olan yollar da qapandı və o da tıxaca düşdü. Düz bir saat bu tıxacı şəhər yol polisi təmizləyə

bilmədi... Axırda o rəis oğlunu tapdılar və atasını işdən qovdular, bu cəhənnəmə, əmisi – yüksək çinli rəis ölkə başçısını müşayət edən polis kordonundan çıxarıldı. Hələ şükr etsin ki, belə qurtardılar... Beləcə, bu sərt qərar yolları bu tip tıxaclardan bir az azad etdi.

Babasının qardaşı Maksim müəllim – Qorkinin şərəfinə qoyubmuşlar bu adı ona - bir zamanlar Mərkəzi Komitədə ideoloji şöbənin müdiri olmuşdu. Bağırov onu hər ayağa qaldırıb müzakirə olunan adam *( əslində "məsələ" yazmalıydım, özüm bilərəkdən yazmadım: bizdə məsələləri müzakirə etmirlər, adamları araya qoyub eninə-uzununa döşəyir, sonra da qərar verirdilər: güllələnsin, ya mükafatlandırılsın? Orta yer yoxdu, ya elə, ya belə...)* barədə fikir bildirməsini istəyəndə babası da - daha durub "babasının qardaşı" deməyəcəkdi ki; bir də belə böyük vəzifə sahibinə niyə "baba" deməsin - hələ müzakirə başlamazdan öncə imsiləyər, iyləyər-çüyləyər, bilərdi ki, iş nə yerdədir. Ona uyğun da qərar verərmiş. Və belə müzakirələrin azı səksən faizi "güllələnsin!" olardı. O da buna uyğun həmişə özünü "güllələnsin"ə kökləyərmiş. Bir dəfə də belə qəribə hadisə olur: müzakirə olunan adam tarixçiymiş. "Nizaminin əsərlərində sosial motovlər" *(əslində "sosialist motivləri" imiş ilk variantda, görüblər ki, barıtı çox oldu, "ist"i sonradan çıxardıblar)* adlı elmi iş yazıbmış. Əsəri "Revolyusiya və kultura" – indiki "Azərbaycan" - jurnalında çap edirlər. Tarix İnstitutunda, Yazıçılar İttifaqında müzakirələr çox uğurla keçir. Hətta deyilənə görə, əsərlə şəxsən tanış olan Bağırov deyib ki, son müzakirədə özüm də iştirak edəcəm. Moskavanın rəyindən sonra bəlkə onu Stalin mükafatına təqdim etdik.

Müəllif Marks Əzimov (pasport adı Marks olsa da sonralar Maksud eləmişdi) müzakirədən qabaq özünü salır Maksimin yanına və babasından qalma beş Nikolay beşliyini (qızıl beşlik də deyirdilər) dürtür ovcuna – onda belə şeylər mində bir olardı, hələ rüşvətə tamam qurşanmamışdıq – və deyir: qağa, səni atanla atamın kəsdiyi o halal çörək, məni qurtar bu Əlinin Qəzəb oğlunun əlindən. Heç Stalin mükafatı-zad da istəmirəm, eləcə qoysun sakit başımı salım aşağı müdafəmi eləyim... (*Marksla Maksimin ataları bir rayondan deyildilərsə də, bir elli sayılırdılar. Əslində, rayonları vaxtilə bir olmuşdu, sonradan bölüb iki rayon eləmişdilər. Elə buna görə onların ikisi də baş-başa verib hərəsi öz rayonunda bir vəzifə tutmuş, çörək kəsmiş, bir-birinə arxa-dayaq olmuşdular.)* Bu da eləməyib tənbəllik qızılları qaytarmış və qaş-qabağını sallayaraq demişdi ki, sən nə məni tanıyırsan, nə də atalarımız çörək zad kəsiblər, kəsiblərsə də qələt eləyiblər. Xatanı məndən elə... *(Sonralar Marks deyirmiş ki, Maksimin o hərəkətindən bildim ki, mənim torbam tikilib. )*

Müzakirə Akademiyada keçirilirmiş. *(İçərişəhər tərəfdəki İsmailliyədə)* Məruzəçinin birinci cümləsindən hər şey bəlli olur: "Marksist-leninçi tarixşünaslığımıza böyük zərbə olan bu dırnaqarası monoqrafiya həm də Nizamişünaslığa ağır bir zərbədir..." Daha gerisi heç kimi maraqlandırmırdı, heç Marksın özünü də. Bilirdi ki, bu tüldən sağ-salamat çıxsa, türməylə canını qurtarsa böyük xoşbəxtlik olar... Arada bir məruzəçi "Maretta Şaginyan kimi anti-milli ünsürün" sözlərini eşidəndə dalağı sancdı.

Və söz MK-nın ideoloji şöbəsinin müdiri Maksim Şirinoviçə verilmişdi. Maksim Şirinoviç bir tədbirin aparıcısı Mirzə İbrahimova baxmışdı, bir ayaq üstə qalmaqdan ayaqlarına su yığılan Marksa baxmışdı, *(Marks iclas başlayandan ayaq üstə idi, Mircəfərin icazəsi olmadan əyləşə bilmirdi)* bir də eynəyinin altından gözləri od saçan Bağırova baxmışdı və demişdi:

-Bu adam görün nə ibnədir ki, proletariatın dahi rəhbərinin adını da mənimsəyib?! Hələ üstəlik Marietta Şaginyan kimi bir ünsürün əsərindən snoskalar vermiş, həm ədəbiyyatımıza, həm tariximizə, həm də Nizamişünaslığımıza böyük zərbə vurmuşdur. Xalqımızın şanlı oğlu Mir Cəfər Bağırov Marietta Şaginyanın ayağının Azərbaycana, Gəncəyə dəyməsini qadağan edir, bu ünsür isə onun əsərinə istinad edir. Onu proletariat məhkəməsinin qanunları ilə güllələsən belə azdır!

Bir əl çaldılar, bir əl çaldılar...

Əlbəttə, onu güllələmədilər, amma əsərinin və taleyinin üstündən qara bir xətt çəkdilər. Müdafiə şurası nəinki doktorluq işini qəbul etmədi, hələ üstəlik onun on il əvvəl müdafiə etdiyi namizədlik disertasiyasını da saxta adlandırdı və elmlər namizədi elmi adını da əlindən aldı. İşlədiyi institutdan, mühazirə oxuduğu ali məktəbdən qovuldu. Ailəsini də götürüb rayonlarına qayıtdı ki, bəlkə onu unudalar.

Getməmişdən iki gün öncə bir gecə qaranlıqda plaşının papaqlığını başına basıb üz-gözünü gizləyərək Maksimin Olimp tərəfdəki qədimi binada olan evinə gəldi və qapını döyüb yalvar-yaxar içəri keçdi. Maksim ona heç oturmağa yer də göstərmədi və acıqlı-acıqlı dedi:

-Niyə gəlmisən?! Cəhənnəmə gedən özünə yoldaş axtarar budu e vallah!

-Sizdən bir xahişim var... – Marks başını aşağı saldı və özünü toplayıb dedi. – Axı ürəyimi bir sirr deşir. Bir neçə həftədə nə dəyişdi ki, mənim başıma bu oyun açıldı? Axı əsərimi O özü oxumuşdu?

-Eeeee... Sən nə tupoy adamsan, ə?! Bir gecədə mıxın mismar olmasını eşitməmisən, ay Nizamişünas?! İş səndə yox, o alagöz armyankadaydı... Şaginyanda... Kişinin ondan zəhləsi gedir nədənsə... Get, zəng vurub katibə demişik. Sənə orada iş verəcəklər. Başını sal aşağı, məktəbdə dərsini de, dana-duna da al, yaşa oralarda... Buralara ayaq basma... Yazı-pozunu tərgit, Nizami, tarix, ədəbiyyat haqda nə bilirsən, unut... Sən, əslində sürgün olunursan! Get və Bakıya ayaq basma!

Elə getdi də. Dana-duna da aldı, toyuq-cücə də. Arvadıyla anası onun bütün əlyazmalarını od vurub yandırdılar gözü baxa-baxa. Beləcə, elmlər doktoru olası adam bir barmaq hərəkətiylə dönüb oldu kənd müəllimi...

...Və bir gecə Bakıdan rayonlarına gələn bir şairdən əsl həqiqəti öyrəndi. Şair dedi ki, Mircəfər rus, yevrey və erməni qadınlarının bazıymış. Evləndiyi arvadının biri rus, o biri də cuhud idi. Sənin aşiyanını kün fə kün eliyən Şaginyandan da Mircəfərin xoşu gəlirmiş. Yaşda Mircəfərdən böyük olsa da kişi ona vurulubmuş. Hər Moskvaya gedəndə görüşürmüşlər. Hərdən də onu bura çağırtdırır, yazıçıları, alimləri pişvazına çıxardırmış. Amma bir dəfə Moskvaya gedəndə eşidir ki, bu füsunkar erməni qadını Beriyanın bağındadır. İnanmır, adam göndərir, öyrənib doğru olduğunu ona bildirirlər. Bağırov elə o andan Şaginyana nifrət etməyə başlayır. Hətta onun

Azərbaycana, Gəncəyə gəlişinə qadağa qoyur. Mənasını da belə əsaslandırırlar ki, o Nizaminin qəhrəmanlarına böhtan atıb, yaradıcılığını təhrif edib və sair... *(Əslində, Şaginyanın Nizami haqqında yazdıqları hələ də dərindən tədqiq olunmayıb. Necə ki, Nizami özü hələ yaşadığı ölkənin xalqınıa olduğu kimi tanıdılmayıb. Neçə ki, onun üstünə yapışdırılmış o "ist" yarlığı götürülməyib, bu belə də qalacaq.)*

...Hə Mircəfər Bağırov həmin iclasda bir söz demişdi: "Nizami simvol Azerbaydlanskoqo naroda!.."

...İndi budur, o da – Nizami müəllim də babası kimi Maksim müəllim kimi ideoloji şöbənin müdiridir – sadəcə, indi adı dəyişib, olub humanitar şöbə ; fəqət babası kitablarla, yazıçılarla, incəsənət adamlarıyla işləyərdi, o isə burada belə işlərə baxır: gələn qonaqların mehmanxanada yerləşdirilməsi, maşınla təminatları və əlbəttə yeyib-içməklərinin təşkili. İndiyəcən hələ işində bir xətaya yol verməmişdi. Rəhbərlərin qarşısında mil duran, lazım gələndə ikiqat əyilən Nizami müəllim bu dəfə çətinə düşmüşdü. Rəhbər bu dəfə eynən Mircəfər Bağırov kimi sərt danışmışdı. Demişdi ki, bəsdirin, mən dedim, mən eşitdim, siz hələ də bu boyda ölkənin simvolu olan bir məhsul yaratmadınız. Mən ölkələrə səfər edərkən milli paltar geymiş qızlar öz ölkələrinin növbənöv məhsullarını düzürlər stollara. Bəs sizinki hanı?! Alma? O hamıda var! Armud? O da. Üzüm? Bu olmayan ölkə yoxdur. Nar? Mən elə bilirdim ki, bu ancaq bizdə olur, amma o da başqa ölkələrdə varmış... Plov? İran çoxdan mənimsəyib onu. Kabab? Daha bunu ruslar da bişirir şaşlık adıyla..! Bilmirəm! Elə edin ki, bu dəfə mənim qonaqlarımın qabağına brend məhsul qoyun, brend! Mənim ölkəmin simvolu, brendi!

Brend... Bu söz qədər amansız kəlmə yoxdu onun gözündə. Qocalmaqdan və postunda uzun illər oturmaqdan boynu əyilən baş yazarı çağırmışdı, meyxanalar küncündə içib yatan bir gənc şairi də tapıb gətirmişdilər. Təzəcə polis mayoru rütbəsi almış idmançı ayaqlarını gen qoyub dayanmışdı – elə bil çırpmağa adam axtarırdı. Hələ bir gitaraçı da gəlmişdi, deyilənə görə "mal"ının vaxtı çatdığından özünü ora-bura çırpan bu adam bağıra-bağıra deyirdi ki, hansı havanı istəyirsiniz, çalım, buraxın gedim, mənim dərmanımın vaxtı keçsə, ölə bilərəm. Bir məşhur kulinar da gəlmişdi, bığlarını və saçını təzə boyadığından rəng dərisinə də hopmuşdu və bığlarını alt dodağı ilə sümürə-sümürə gəzinir və hərdən mırıldanırdı:"Burda mən lazımam, gəlmişəm. Axı bu qalanları niyə çağırıblar? Mənə mane olmağamı?.. Şair mənə süfrəmi salacaq?!. İdmançı şpaqatmı açacaq?!"

Nizami müəllim başını qaldırıb ekrana baxdı - salonda gəzənləri bir-bir nəzərdən keçirdi və katibəsinə dedi ki, onları kabinetinə dəvət etsin.

Əyləşənlər həyəcanlıydı. Amma Nizami müəllim bu həyəcanı bir az da artırmaq üçün onları bir qədər də sükutla süzüb ötkəm səslə dedi:

-Qısa danışacam sizinlə. O səbəbdən ki, vaxt çox məhduddur. Deməkbelə...

Gerisini bilirsiniz...

...Üç gün keçib və həmin adamlar yenə burdadılar – hərəsinin də əlində bir qovluq. Fərq orasındaydı ki, bu dəfə ölkənin ərzaq təminatının yüzdə səksənin verən şirkətin başçısı, bir şərab firmasının sahibi, "Bəy" adlı dimedrollu

araq sexinin meneceri və bir rəqqasə də gələnlər içindəydilər.

Hamı səksəkədəydi. Gitaraçı bu dəfə hazır gəlmişdi. Ona görə gitarasına sarılıb uymuşdu. Baş yazar boynunu əyib gözünü qıyaraq uzaqlara baxırdı. Kulinar əsəbi şəkildə oturmuşdu, elə bil arxasına tikan batırdı – tez-tez yançaqlarının yerini dəyişir, gah bu, gah da o birisinin üstdə yıxırdı özünü. Təkcə gənc şair yoxuydu, deyirdilər ki, xəstəxanaya düşmübmüş.

Baş yazar ilk söz söylədi, ağzından sözlər tökülə-təkülə. Qocalıq səsini dəyişməsə də, danışığına damğasını qoymuşdu.

-Məncə biz milli-mənəvi dəyərlərə uyğun...

Konkret bir şey demədi, amma bilinən o idi ki, o ölkədə brendlərin olduğu qənaətindədir, sadəcə bunları axtarıb tapmaq lazım, necə ki, ədəbiyyatda və idmanda buna artıq nail olunub: dünya bizim ədəbiyyata və idmana həsədlə baxır...

Sonra rəqqasə danışdı. Danışmadı ki, bir "Ça-ça-ça" oynadı və oynayıb da əyləşdi. Dalıncan gitaraçı gitarasını boynunun arxasına qoyub bir "Anadır arzulara hər zaman Qarabağ" çaldı. Elə bu vaxt uzun-arğaz bir şair içəri girdi, deyəsən xəstaxanaya düşmüş şairin əvəzindən gəlmişdi. Elə onu görən kimi Nizami müəllim tribunaya çağırdı. O da saqqallı üzünü qaşıya-qaşıya başladı şeir oxumağa:

mən posmodern zamana hamiləyəm
zaman da mənə məhcub
siz kurallara kırqın, mən quyudakı yusuf
mənəm bu ölkənin brendi
bəs sən nə düşünürsən indi?

Boynunu əymiş baş yazar hirslə üzünü yana tutdu və bir fu elədi. Amma ideoloji şöbənin müdiri dik yerindən qalxıb gənc şairə tərəf yeridi və qışqırdı:

-Vo, vo,vo! Brend! Brend! Budur! Bunun üstündə bir az işləyin, saqqalınıza da bir az əl gəzdirin... Oldu bu iş...

Üz-gözündən təkəbbür yağan idmançı bu dəfə polis paltarında deyil, idmançı formasındaydı. Nizami müəllim oturan tribunadan yan tərəfdə dayanıb qollarını sinəsində çarpazlamışdı. Anlamaq olmurdu ki, idmançıdır, ya cangüdən.

Söz ərzaqçıya verildi. O çal saçlarına bir sığal çəkdi, Süleyman Rəhimovun bığlarına oxşayan bığlarını iki barmağı ilə tumarlayıb dedi:

-Ben şu denemeyi uyğulamaqçün her hanki bir sorun görmüyorum...

Anlaşılan da o ki, ərzaqçı istehsal etdiyi bütün ərzaqlardan nümunələri özüylə gətirmişdi... tökdürdü ortaya, hamısının da üstündəki yazı "azər" sözüylə başlayırdı...

Kulinar bu olub-bitənləri qorxunc film kimi seyr edir, hərdən də dalının yançaxlarının yerini dəyişirdi. Nəhayət, sıranın ona çatdığını görüb şövqlə ayağa qalxdı və dedi:

-Xanımlar və cənablar! Hörmətli Nizami müəllim! Yaxın tariximizdə Brejnyevi paytaxtda qəbul etdiyimiz hamının yadında... O vaxt rəhbərə bir tay ağ ət kababı bişirmişdilər. Ləzzətlə yeyib, barmaqlarını yalaya-yalaya "anuha, şto eto takaya?" demişdi. Başa salmışdılar ki, bu ağ ətdir, üzr istəyirəm, erkək heyvanın, üzr istəyirəm, xayası... Sonra yüzlərlə çöngə kəsildi, minlərlə qoç kəsilib-soyuldu, ağ ətləri çıxarıldı. Həm rəhbərə, həm də onu müşayət edənlərə ondan löyün-löyün xörəklər hazırlandı... Deməyim odur ki, biz milli-mənəvi dəyərlərimizə arxa çevirmədən, öz milli brendimizə sahib

çıxmalıyıq... Qonaqları qarşılamaq üçün nə qədər lazımsa qoç, cöngə kəsməli, brend xörəklər hazırlamalıyıq... Bunun gerisini mənə buraxın...

Nizami müəllim ayağa qalxdı. Bir-bir hamının əlini sıxdı və sonda kulinarın qabağında dayanıb şövqlə dedi:

-Mən elə bilirdim ki, bizim kökümüz quruyub... Amma yooox! Bax, potensialımız varmış hələ! Hər biriniz brend oldunuz bu gün! Sən, sən isə, bu AĞ ƏT məsələsində lap onluğa vurdun! Bəli, bu bizimdir, yalnız bizim! Bunu biz bilirik... Hamınız var olun. Türklər demiş, iyi ki varsınız...

Sonra bir qolunu idmançının, o birini rəqqasənin qoluna keçirib adamlarla şəkil çəkdirdi.

***

Baş yazar o il deputat seçilmədi. Posmodernist şairi qonşu ölkəyə gedəndə həbs etdilər. Gitara çalan gitaranı tərgidib xanəndəliyə qurşandı. Kulinar ölkəni tərk elədi. Rəqqasənin ayaqları tutuldu. İdmançı polisdə zibil qaynatdığına görə həm polisdən qovuldu, həm də yarışlardan kənarlaşdırıldı. Süleyman Rəhimova oxşayan ərzaqçı... yox ona toxunmadılar... zatən o özü brend idi - bığıyla, çal saçıyla, yerişi, duruşuyla...

Yazdığını ölkədə özündən başqa kimsənin başa düşmədiyi Nazim Niyaz adlı bir filosof isə bu hadisələrin hamısında bir əlaqə və qavram gördüyünü yazmış, axırda bütün bu olub-bitənləri Mörfi qanunları ilə əlaqələndirmişdi.

**22-23 mart 2015**

# ALIŞQAN

*“Azərbaycanda sunami gözlənilir,*
*pul sunamisi”*

***Rino Harniş***
***ABŞ-ın Azərbaycandakı keçmiş səfiri***

## Birinci hissə

Adam bu dəfə qərarlıydı: nə olur olsun, sədrin qəbuluna düşməli, iradəsini yeritməliydi. Qarşıdan Yeni il bayramı gəlirdi. Bu yadına düşəndə acı-acı gülümsündü. Gülümsünmək deyildi bu. İçində boğulan qəhərin gülüş rəngində üzə çıxması idi: “Hələ yalannan Dünya azərbaycanlılarının həmrəyliyi günü də quraşdırmışıq. Burdan-bura bir-birimizlə həmrəy ola bilmirik, okeanın o tayındakı azərbaycanlı ilə süni, yalançı həmrəylik nə təhər olur? Sən mənim balamın boğazının çörəyini kəs ki, mən həmrəylik günü keçirirəm? Heç gör dəxli var?.. Mən axı əlil olmasam *(vallah bu qazi sözünü heç xoşlamadım – məğlub ordunun əsgərinə necə qazi demək olar axı? Yaxşısı elə əlildir, əlil... müharibə əliliyəm...)* indi sənin qapını kəsməzdim ki. Müharibədə güllə yarası alanacan kimsə mənim qolumu qanıra bilməzdi. Ən çətin, ən ağır işlərə girişmişdim həmişə. Amma indi yarımcanam... ayağımın biri, qolumun da biri yaxşı işləmir... ona görə sənnən ayrı şey yox, ədalət istəyirəm...”

Döyüşə gedirmiş kimi üst-üstə qalın geyindi. Axşamdan hazırladığı lazimi əşyaları nimdaş gödəkçəsinin altından bağladı. Məktəbyaşlı oğluna da tapşırdı ki, əynini qalın geyinsin. Belə çətin işə gedəndə onu həmişə özüylə aparırdı. Hələ cəmi on iki yaşında olsa da, atasının məmurlarla, yaxud polislərlə

dartışmasında qolundan tutar, aradan çıxmasına yardımçı olardı. Bu dəfə qızı da onlara qoşulmuşdu. Atanın etirazına baxmayaraq, qız özünü yerə sürtüb ağlayır, gedəcəyini deyirdi. Qız anasına oxşayırdı deyin, onu çox istəyirdi. İndi uşağın bu israrına, illah da göz yaşlarına dayana bilmədi. Qəhərdən əyilmiş üzünü uşaqlarından gizlənməkçün guya ayaqqabısının bağını bağlamaq üçün aşağı əyildi və axır ki, razılaşdı.

***

-Nə olar, məni müəllimlə görüşdürün...

-Olmaz.

-Çox xahiş eliyirəm... Mən axı...

-Ə, sən nə sırtıq adamsan! Dedim olmaz!

-Bilirsən, mən səni tanıyıram... Sən sədrin bacısı oğlusan! Səni bura qoyub ki, onu mənim kimi şikayətçilərdən qoruyasan... Amma nə eliyirsən, elə, mən bu gün onu görməliyəm. Qarşıdan Yeni il gəlir. Mənim uşaqlarım acdılar... Mən haqqımı tələb edirəm! Çayxanamı qaytarsın! Yoxsa...

-Yoxsa, nə, ə?! Nə eliyəssən?! Belə şərəfsiz adam olar!..

Son sözlər güllə kimi dəydi ona. Neçə il əvvəl döyüşdə aldığı yaraların yeri gizildədi, sancdı, sonra harasısa od verib yandı. Yanığın alovu ağzından çıxıb dil-dodağını qarsdı. Kəkələyə-kəkələyə dedi:

-Mən... mən... Qa... Qarabağda canımı qoyanda, sən... sən hard... harda sülənirdin, bilmirəm! Mənim şərəfim... şərəfim o torpaqların uğrunda qurban gedib! Bəs sənin şərəfin hanı?! Hay?!

Sədrin köməkçisinin yanında duraraq açıq-aşkar ona yaltaqlanan yaşlı adam köməkçiyə göz vurdu:

-Bəlkə çıxardıb göstərəsən?

Köməkçi irişə-irişə əlini qıçının arasına aparır və şaqqa çəkib gülür. Əsəbindən üzü əyilən şikayətçi bir ayağını çəkə-çəkə çəliyinə söykənib onların ikisini də itələyərək içəri keçmək istəyir.

-Çəkilin, ə! Məni dolayırsınız! Sə... sən... Sənnn öl, sizi elə doluyaram ki...

Amma şikayətçi yarımcandır, müharibənin vurduğu yara sağalsa da, onun fiziki gücünü almışdır. İki adam birləşib şikayətçini çölə atırlar. Bu vaxt iki məktəb yaşlı uşaq bura gəlib asvalta uzanmış adamın qolundan tutub ağlaya-ağlaya qaldırmaq istəyirlər.

-Ata...

-Ay ata, dur gedək də, nə olar?

-Kəsin! Döyüşçünün balası ağlamaz! Acınnan ölsəniz də, ağlamayın bu nakəslərin qabağında! Siz gedin o tərəfə, mən bir də çalışım görüm, bəlkə girə bildim içəri...

Bu vaxt bahalı xarici maşın dayanır, şikəyətçinin qəbuluna düşmək istədiyi sədr maşından düşür, tələsik kandardan keçmək istəyir. Şikayətçi özünü onun yoluna atıb qışqırır:

-Müəllim, mənim balalarım acdır, özüm də müharibədə şikəst olmuşam, day bunu bilirsiniz...

Sədr ona tərs-tərs baxır və qışqırır:

-Yenə sənsən? Ə, səni mən göndərmişəm müharibəyə?! Sənin çayxananı mən əlinnən almışam? Get məhkəməyə müraciət elə... Ə sən nə...

-Ay müəllim, məni otarma! Sən göstəriş vermisən, hakim də o cür qərar qəbul edib... Bayramqabağı məni qana salma!

-Nə edəcəksən?! Məni hədəliyirsən!?

-Yoox, sənə gücüm çatmaz. Eləsəm, özümə eləyəcəm.

-Sənin ona qeyrətin çatmaz!

Sədr çıxıb gedir. Şikayətçi bayaqkı dartışmada ağrımış şikəst ayağını tutub yenə qapıya yaxınlaşır və bu dəfə nalə təpib qışqşrşr:

-Bax, budu sizə deyirəm! Ya bu gün mən sədrin yanına girəcəyəm, ya da...

"Bacıoğlu" qapıya çıxıb onun üstünə bağırır:

-Özünü niyə hayasızlığa qoymusan?! Gördün ki, səni qəbul etmək istəmir! Get məhkəməyə de dərdini!

Şikayətçi bu dəfə daha bərkdən bağırır:

-Elə eləməyin ki, qanımı üstünüzə töküm...

Bayaqkı yaşlı adam "bacıoğlu"ya göz basıb rişxəndlə deyir:

-Neyliyək, bu qan salacaq!

Bacıoğlu ağzın əyir:

-Pox yeyəcək!

Şikayətçi onu buradan uzaqlaşdırmaq istəyən polislərə bağırır:

-Buraxın, yoxsa yandıraram özümü!

Birinci polis onu itələsə də qorxmuş halda geri çəkilir, "bacıoğlu"ya baxır:

-Rəis, bu deyir özümü yandıracam.

"Bacıoğlu":

-Yox, a? Yalan demir ki?

Yaşlı adam bu dəfə elə göz vurur ki, elə bil gözünün qarası itib gedir və açıq lağla deyir:

-Atam danışırdı ki, o rayonda katib olanda biri nefti töküb üstünə və deyib ki, bu saat özümü yandıracam! Kişi deyirdi ki, baxdım gözünün içinə, gördüm bu qorxağın biridir, bunnan özünü yandıran çıxmaz. Çıxartdım kibriti verdim, dedim di yandır! Kişi dalı-dalı çəkilib getdi... Ha-ha-ha-haaaaaaa!

Əvvəl bacıoğlu hırıldadı, sonra polislər də gülüşdülər. Bu vaxt şikayətçi qoltuğundan bir "çubuş" butulkasına bənzər nəsə çıxartdı, *(amma bu faktı sonrakı dəlillər təkzib edir)* içindəki nefti başına tökdü və bağırdı:

-Sizi xəbərdar edirəm, bu dəqiqə məni içəri burxmasanız, özümü yandıracam! Yaxın gəlməyin, çəkilin, çəkilin deyirəm!

"Bacıoğlu" bahalı siqaretini çıxardıb damağına qoydu, sonra gümşü rəngli alışqanla yandırdı, ləzzətlə sümürəndən sonra alışqanı şikayətçiyə uzatdı:

-Hadi, yandır görək, necə yandırırsan!

Nə oldusa bir göz qırpımında oldu. Əvvəl alov, sonra ütülmüş baş iyi, sonra yanıq ət iyi, alov içində ora-bura qaçan şikayətçinin və onun məktəbyaşlı uşaqlarının bağırtısı...

***

Bir sutka sonra şikayətçi dərin yanıq diaqnozu ilə öldü. Ölümündən sonra ona... daha doğrusu, onun ailəsinə küllü miqdarda pul verildi. Yüz min, iki yüz min... Sonra nazirlər bəhsə düşüb pulu ailəyə şabaş kimi səpələdilər. *(Pul gəldikcə gah gülən, gah ağlayan məktəbli oğlan boğula-boğula deyirmiş: "Atam demişdi də! Demişdi ki, neft çoxalacaq. Yəqin çoxaldı! Heyf ki, atam görmədi...)* Çayxanası ailəsinə qaytarıldı. Hələ qəbiri də götürəcəkmişlər: qara, ən bahalı mərmərdən.

***

Bir gün sonra başqa bir nəfər də özünü yandırmışdı. Sonra daha birisi.

Yer-göy neft qoxuyurdu. Alışqana bənd idi.

***

Şəhərin mağazalarında alışqan qalmamışdı. Siqaret çəkən, çəkməyən – hər kəs alışqan alırdı özünə. Hətta məktəblilər də çantalarında alışqan gəzdirirdilər. Bunu eşidən Binə və Sədərək ticarət mərkəzinin al-verçiləri Çindən alışqan idxalını gücləndirməyə başlamışdılar. Təxminən bir ay sonra şəhəri alışqan basmışdı.

**İkinci hissə**

Hadisədən dərhal sonra bir-iki jurnalist hadisə yerindən reportaj hazırlasa da, ya onların bəzisini çap etmədilər, ya da hökumətdən təzə aldıqları evin yeni il qabağı qaramata bürünməsini istəməyib özləri çapa vermədilər. (Yazıqları qınamalı deyil. Eləsi var illərdir zirzəmilərdə ailəlikcə kirayənişin qalmaqdan beziblər. İndi belə vaxtda bu cür gic-gicə məqalə yazmaqla hökumətin verdiyi qənimətə burun-damaq eləmək axmaqlıq olardı – nə olsun senzura götürülüb, bəs sənin öz ağlın, fəhmin?) Həmin yazılardan əlimizə keçmiş bəzi parçaları burada verəcəyik. (Bu yazıların çoxu vaxtilə sərt müxalif mövqeyi ilə seçilən, indi isə ayağısürüşkən ərli qadınlar kimi gecə ərinin, gündüz oynaşının yanında olan sayt və qəzetlərin müxbirlərinin əldə etdikləridir.)

"***Yenicə 12 min verib polisə düzəlmiş gənc polisin hadisədən sonra dediklərindən:***

***-Hər tərəf benzin qoxuyurdu. Elə bil ürəyimə dammışdı. Mən daha təcrübəli olan paqon yoldaşıma dedim ki, bu adam özünü yandıracaq. O da dedi, qorxma yandırmaz, mən belələrini çox görmüşəm... Əslində düzdür. Axı kim deyir ki, o üstünə neft töküb. Gözümün şahidiyəm, çubuş butulkası-filan yox idi. Heç neft iyi də gəlmədi. Alışqanın şaqqıldamasıyla bədbəxtin alışması bir oldu. Mənə kömək edən olsaydı, tez söndürərdik, yanıq dərin olmazdı. Hamı qaçdı girdi içəri, kurtkamı çıxardıb basdım üstünə, çox çətinliklə söndürə bildim... Bax, əllərim də yanıb..."***

Bu vəfat etmiş qazinin oğlunun dedikləridir:

***"-Çayxanamızı əlimizdən alannan sonra məktəbə getmirəm. Hər gün gedib talkuşkada qab-qaşıq satıram, 5-10 manat qazanıram. Elə vaxt olurdu ki, sabaha çörəkpulumuz olmurdu, yeməyi az yeyirdim ki, qardaş-bacıma qalsın... Birdən səhər çörəkpulu olmasa, atam əsəbləşər, piristupu tutar... (hıçqıqrıb göz yaşlarını əlinin içi ilə silir, əlinin kiri göz yaşına bulaşıb üzünə bomboz ləkələr salır) Atam bizə demişdi ki, mən qışqırıb özümü yandıracam desəm, siz qorxmayın. Əgər gördünüz ki, məni döyürlər, onda qışqırın, hay-küy salın ki, buraxsınlar... Bacımla mən bilirdik ki, atam əsəbidir, özünü doğrudan yandıra bilər. Ona görə onu gözdən qoymurduq. Necə olub atam neft götürəndə mən görməmişəm? Yoxsa yanınnan əl çəkməzdim. Zajiqalkanı çəkəndə əlindən dartıb alardım. Ya da özümü onun üstünə yıxardım ki, mənə görə özünü yandırmasın... Bilirsiz, atam həmişə deyirdi ki, biz neft ölkəsiyik, tezliklə hamımıza o var-dövlətdən pay düşəcək... Deyirdim nə vaxt? Deyirdi neft çoxalanda payımızı alacağıq. Onda səni İngiltərədə oxudacam, özüm də orda müalicə olunacam... Bəs nə oldu? Bu neft niyə çoxalmadı? "***

Bu sədrin dostlarına telefonla dediyi sözlərdir. Bunu necə əldə etməyimizi soruşmayın. Bu ölkədə hər kəsin bir informasiya mənbəyi var,

bizim də belə. Nəysə, telefon söhbətindən parça:

***“-Bu, mənə qurulmuş bir tələdir. Həmin axşam təcrübəli polisləri də dəyişib, yerinə gəncləri qoyublar. Biri hətta bir neçə ayın polisiymiş. Yoxsa, onun nə işi vardı özünü yandıranı söndürməyə qalxışırdı?.. Tamamilə bir oyundur bu, təxribatdır. Düzdür, bu adam tamam yanmamalıymış – özünü neftlə yox, spirtlə odlamalıymış və yanıq da yüngül olmalıymış... Sadəcə mənə tələ quranlar bədbaxtı aldadıblar, spirti daha kəskin yanan maddəylə əvəzləyiblər... Bu, yalnız Bakı neftindən alınır. Bilirsən də, bizim neft tərkibinə görə dünyanın ən zəngin neftidir. Yadındadır, İkinci dünya müharibəsində bizim neftdən alınan donmayan benzinin hesabına almanların başına nə oyun açdı bizimkilər? Bu da heylə bir şeymiş. Gör nə təhər tez alışan maddəymiş ki, bizim bacıoğlunun siqaret yandırmaqçün çaxmağını çəkdiyi zajiqalkanın odunu iki metrlikdən alıb bədəni. Bacıoğlu bir az cəld tərpənməsəymiş, o da yanacaqmış... Kaş elə yanaydı! İt küçüyü! Deyirəm, sən niyə duymadın ki, bu it oğlu özünü yandıra bilər? Nə desə yaxşıdır? Ağlaya-ağlaya deyir ki, dayı, Qafarda oldu günah! (Qafar da bizim qohumdur, uzun illər ÇK-da, BK-da, iri rayonlarda katib işləmiş ağsaqqalımız Rufan müəllimin oğludur. Mənin atamla uzun illər dost olmuşdular. Hara gedirdi papanı da özüynən aparırdı. Sağ əli olub Rüfan müəllimin. Papa danışırdı ki, bir dəfə Mingəçevirə katib göndəriləndə papanı da ideoloji katib aparmaq istəyib, buraxmayıblar. Özü lişno Kişinin qəbuluna gedibmiş bu iş üçün... Hə də, indi dövran fırlandı, Rüfan müəllimin oğlunu mən yanımda fırlayıram.) Dedi, papa danışırdı ki, hansısa rayonda katib olanda... Nə? Mənə nə olasıdı ki? Mənlik nə var e axı burda? Sən də deyəsən, sözlü adama oxşayırsan axı?! Bəsdirin səni allah! Yaxşı, mən adboy verirəm, indi yuxarıdan zəng gəlməlidir, tapşırıq var... Əh, zalım uşağı zalım! Qulaqları səs alıb e!”***

Bunlar da vəfat edənin atasının sözləridir:

***“-Xahiş edirəm, mənim oğlumun ölümünü siyasiləşdirməyin... “***

Bu isə orada olan şikayətçilərdən birinin dedikləridir:

***“-Mən düz onun yanındaydım. Neft-zad tökmədi üstünə. Kiminsə ona tərəf atdığı alışqanı bircə anda yandırıb, bədəninə tutdu, elə qəfil alışd. İndi özümdən qorxuram. Deyirəm ki, birdən yanımda siqaret çəkənin alışqanınnan mən də alışaram. Uzaq olsun. Bircə bu qalmışdı...”***

Nəhayət, 1-ci sinfə dərs deyən Solmaz müəllimənin dərsdən sonra evində hazırlıq keçdiyi uşaqlara şövqlə dediyi sözlər:

***“-Təsadüfi deyil ki, Vətənimizə odlar yurdu deyirlər. Alimlər sübut ediblər ki, hələ qədimlərdə Xəzər sahillərində alov dilləri ucalarmış. Hətta Xəzərdə də su yanarmış. İndi bizim adamlar da odlu-alovludur. Sadəcə alışqanı yaxınlaşdırmaq kifayətdir ki, Odlar Yurdunun adamları alova bürünsünlər.***

***-Hə, məllimə, mən bunu televizorda gördüm... Bir adam özünü yandırmışdı... Söndürə bilmirdilər.”***

Uşaq bunu deyib çantasından çıxardığı alışqanın çaxmağını çəkdi və... müəllimə o dəqiqə alışan uşağı güclə söndürdü.”

Mavi ekranda xalq artisti olan bir müğınni isə Yanardağda odların içində gəzə-gəzə oxuyurdu:

Mən odlar oğluyam, oddan yoğrulmuşam...

**dekabr 2013-yanvar 2014**

# MEYİT NAMAZI

"Yadındamı, Ramiz, dedim ki, biz bu dünyaya müvəqqəti gəlmişik... Yalvardım, düşdüm ayağına, dedim, amanın bir günüdü, gəl, daşı tök ətəyinnən, belə namərdlik eləmə... Bəs sən nə dedin?.. Dayan, salavat çevirirlər, qoy mən də salavat çevirim. Sonra..."

Hamı kimi o da sağ əlini üzünə aparıb "Allahın, məsəlli əla Məhəmməd və ali Məhəmmədin gül camalına salavat" dedi və yenə qayıtdı öz aləmunə.

"Hə, Ramiz, sən ayağında par-par parıldayan təptəzə ayaqqabına heyfin gəlmədən təpiklə ağzımın üstündən vurdun, dişlərim doldu qarnıma, qan bürüdü ağzımı... Dedim cəhənnəmə ki! Yenə süründüm sənin ayaqlarına tərəf. Dedim bir də vurasan, iki də vurasan. Bəlkə hirsin soyuya, bizim ailədən əl çəkəsən...

Ay Ramiz, axı mənim günahım nəydi ki, arvadım gözəldi? Axı namusu atıblar itə, it də yeməyib? Amma sən yedin... Ramiz...

Bacım sənin xaraba idarəndə süpürgəçi işləyirdi. Hər axşam məhkəmə işçiləri içi sən qarışıq evə gedəndə bacım məhkəmənin otaqlarını silib-süpürər, sonra da açarı özüylə bizə - yaşadığı qardaşı evinə gətirərdi. Səhərlər də sizin işçilərdən kimsə gəlib açarı bizdən alıb aparardı... Dayan, yenə salavat çevirirlər..."

Bu dəfə gecikdi, salavatı başdan verə bilmədi, sadəcə axırına qoşula bildi: "...salava!"

"...Hə, mən də xırda al-verlə başımı girələyir, bir parça çörəyimi qazanırdım. Ordubaddan meyvə qurusu alıb aparıb İmişlidə satırdım, ordan da yun alıb gətirib burda – yeddi para kənddə xırıd eliyib gəlirdim xarabama. Xaraba ona görə deyirəm ki, biləsən: sənin sayəndə mənim ordakı evim xaraba qaldı... allah böyükdü, Ramiz... Qəhər boğur, yanımda namaza duran da gözün zilləyib üzümə zalım oğlu...

...Nəysə, qəhərimi uddum içəri, bu, zəhər kimi acı olur, indi də boğazımı göynədir. (Sən belə şeyləri hardan biləsən?) Mən axı danışmıram ki. Eləcə bu fikirləri namaza dura-dura ürəyimdən keçirirəm. Bəs bu yanımdakı niyə təəccüblə mənə baxır? Bəlkə ürəyimi oxuyub bu it oğlu?!. Cəhənnəmə ki! İslanmışın sudan nə pəhrizi...

Ramiz, niyə o cür hərəkət elədin? Biz görmüşük ki, birinin bir qadından xoşu gələndə ərindən gizlincə nəsə eləyər, məsələn məktub göndərər, zəng eləyər... amma sən razılaş ki, kopayoğluluq elədin... Hə, bir gün sən təsadüfən özün maşınınla bizə gəlirsən açarı almağa və tərslikdən bizim arvad açarı gətirib sənə verir – bacım özü açarı gələnlərə çatdırardı eygili günlərdə... Heç qoymadın bir gün keçə. Səhəri məni çağırtdırdın məhkəməyə. Ki bəs, ay Saleh, istəyirəm səninlə ailəvi dost olam. Mən də dedim, ay sudya, mən bir kasıb adam, sən rayonnan bir hörmətə, ad-sana malik şəxs... Biz nətəhr dost ola billik? Sən qızıl-qırmızı qayıtdın üzümə ki, əyə, dünən səhər sənin arvadını görmüşəm, olmuşam dəli-divanə. Çox demirəm, arvadını həftədə bir dəfə verəcəksən mənə... Mən də səni eləyəcəyəm var-

dövlət sahibi: pulun pul, hörmətin hörmət, maşının, qarajın, evin, eşiyin... Məhkəmədə də sənə yaxşı bir iş verdirəcəyəm...

Boğazıma yığılan tay qəhər-zad deyildi, nəydisə ondan qan qoxusu gəlirdi. Dik qalxdım, sənin sifətinə lompaynan qanlı tüpürcək tüpürdüm və bağırdım:

-Bəs namus?!

...Ağzıma, dalıma, böyrəyimin üstünə neçə təpik vurdun, bilmirəm. Sonra iki idmançı görkəmli adam gəldi. Onlar məni gah təpiklədilər, gah boğdular, gah da xayalarımı əlləri ilə sıxıb axtalanan cöngə kimi böyürtdülər...

Həmin gün mən həbs olundum. Guya üç il qabaq kəndimizin aşağı başında öldürülən Hüsü adlı gəncin qardaşı şikayət edib ki, qardaşını mən öldürmüşəm...

Ramiz, sən üç ay məni içəridə saxlatdırdın, o üç ayda mənə elə zülmlər elədin ki, allah da onu götürməzdi, amma götürdü. Sən axırda mənim qaynımı, baldızımı, hətta öz dayım oğlunu qorxudaraq üzümə dirədin ki, mən İmişlidən yun gətirəndə cavanlara narkotik də satırmışam. Bunu bilirsən kimə dedirtdiniz? Doğmaca dayım oğluna! O yazıq üzümə saxta ifadə söyləyən axşam xəcalətindən başını soxmağa yer axtarır və əlacsız qalıb özünü asır... Sən ilk qanı belə tökdün, Ramiz...

Sonra arvadımı da şərləyib tutdurdun. Guya dayıoğlumu məhkəmədən sonra söyüb-təhqir edib, layan-latayır deyib. O da dözməyib, özünü asıb. Sən onu ölümə təhrik etmə maddəsi ilə həbs etdirdin(!)... Dayan görüm, yenə salavat çevirirlər...

-Allahın, məsəlli, əla Məhəmməd və ali Məhəmməd...

Mən heç bu salavatı da düz-əməlli bilmirəm ki... Elə uşaqlıqdan necə eşitmişəm, yadımda da heylə qalıb... Türmədə də hərə bir cür salavat çevirirdi.

Mənə on dörd il iş verdirdin! Məhkəmədə həyat yoldaşımın tükürpədici naləsi hələ də qulaqlarımdadır:

-Ay camaat, bilin və agah olun, Ramiz sudyanın badına gedir mənim ərim! Bu alçaq mənə namussuz təklif etmişdi, ərim də bu şərəfsizin üzünə lombasıyla tüpürmüşdü! Ona görə bizim ailəmizi dağıdır bu alçaq!

Arvadımı sürüyə-sürüyə zaldan çıxartdılar.... Dayan görüm molla nə deyir? Ötürərəm birdən?”

Molla iki əlini də üzünə tərəf aparıb uca səslə deyir:

-Əssəlat, əssəlat, əssəlat! Həyyü əla xeyrül əməl. Meyit namazı qılırıq, vacib qürbətən illəllah!..

“Hələ oracan hələ var... Eşitdin, Ramiz? “Həyyü əla, xerül əməl.” Yəni xeyir əmələ qol qoy deyir allahın kitabı. Mən onu türmədə oxudum, Quranı deyirəm. Sən isə kabinetində başının üstündə ən hündür yerə qoymuşdun. Məni təpikləyəndə əlimi başının üstündəki Qurana uzatdım, səni o kitaba and verdim... Sən onu ora yaraşıq üçün qoyubmuşsan, çünki ona inansaydın, məni şərə salmaqdan çəkinərdin. Gör Quranın “Əli-İmran” surəsində nə deyir: ”Hər kəsin qabağına çıxar elədiyi pislik – pis əməldən nə qədər uzaq düşmək istəsə də...” Hə, Ramiz, bax, mənə üç ay işgəncə verdirdin. On barmağımın onunun da dırnaqlarını çıxartdılar. Dişlərimi vurub tökdülər... Böyrəyimin üstünə o qədər vurdular ki, indi böyrək xəstəsi olmuşam... Hər həftə dializə otururam. Qabırğamın ikisi sınıb... Bunlar cəhənnəmə! Ramiz, sən mənim

həyatımdan on il oğrladın! Mən on il türmədə yatdım. Həyat yoldaşım da iki il yatandan sonr aministiyaya düşdü. Övladlarım təhsil ala bilmədilər... Qonum-qonşumuz bizi görəndə qaçıb gizlənirlər: sən onları da bizlə düşmən eləmisən, Ramiz... Yadındadı, sən məni ilk dəfə kabinetinə çağıranda dedim ki, Ramiz müəllim, biz bu dünyaya müvəqqəti gəlmişik, bir gün yıxılb öləcəyik, gəlin mənim ailəmə pislik eləməyin... Sən onda mənə yadına düşür nə dedin? Ağzımın üstündən ikinci təpiyi vurub bağırdın:

-Ay bədbəxt, bizlər heç vaxt ölməyəcəyik! Biz bu dünyada əbədiyik! Səni soxduracam qoduqluğa, on beş il verdirəcəm, türmədə vərəmləyəcəksən... O gözəllər gözəli, nəydi adı? Hə, Humay xanımın da əlacı kəsiləcək, özü gələcək ayağıma... Gəlib girəcək qoynuma... Hələ bir sən o qapını aç. Bir ora bax!

Məni zorla itələyib kabinetindən harasa açılan qapıya tərəf apardın, təpiyinlə qapını açdın və bağırdın ki, bax ora... Baxdım. Burda bahalı divan, kreslo, bədənnüma güzgülü şifoner, içi növbənöv içkilərlə dolu bar... vardı. Qurulu bir ev kimiydi bura. Hələ bir az aralıda qapısı açıq hamam görünürdü... Başa düşdüm ki, bura kef otağıdır. Mənə buranı elə-belə göstərmirdin ki...

...Mənə 14 il verdirdin. Düz on il yatdım. Dördünü də aministiyaya saldılar. Həyat yoldaşım sənin əlindən uşaqlarımı da götürüb Bakıya qaçmışdı. Ayda bir dəfə gəlib məni görürdülər Kürdəxanıda...*

...Çıxandan sonra bir işlənmiş maşın alıb taksiçilik eləyirdim. Bir gün səni şəhərdə ayaqla gəzən gördüm. Bir istədim maşını sürüb üstündən keçim. Amma mən ora daha qayıtmaqdan qorxurdum. Orda on ildə çəkdiyimi çəkmişdim.

Öyrəndim ki, işdən çıxarılmısan. Amma nə olsun? Şəhərin ən yaraşıqlı yerində - Badamdarda gör necə gözəl villa tikmisən? Neçə maşının, bağın, torpaq sahələrin var, eşitdiyimə görə. Gözlərimlə gördüm: Bakının küçələrində rahatca gəzirsən! Ağappaq köynək, narıncı qalstuk, qəhvəyi kostyum sənə necə də yaraşırdı! Qıraqdan baxanlar səni – ağ sifətli, hündür boylu, gen çiyinli, geniş alınlı bu adamı dünyanın, bəlkə də ən saf, təmiz adamı hesab edirlər. Heç kim bilməsə də, sən və mən bilirik ki, bu belə deyil! Sən dünyanın ən şərəfsiz, ən namussuz, ən biqiryət adamısan!..

Yoxxxx! Mənim qisasım alınmalıdır! Ona görə yuxarı təşkilatların hamısına ərizəylə müraciət etdim ki, işə yenidən baxsınlar, mənim həyatımı məhv etmiş cinayətkarı – səni həbs etsinlər. Çifayidə! Heç ərizələrimə baxan da olmadı!.. Özümü ələ ala bilmədim. Gedib Koroğlu metrosundakı körpünün üstündə gecələr gendən işıqları görünən ən hündür yerə çıxdım. Oradan bağıra-bağıra dedim ki, özümü atacam! Şərt də qoydum: məni bir deputat qəbul eləsin, şikayətim var... Gündə səsi bir yerdən gələn o qadın deputatı göndərmişdilər. Səsgücləndirici ilə dedi ki, and olsun allaha, hara istəsən səni aparacam, şikayətini təmin etdirəcəm... Doğrudan da, məni sonacan dinləyib ərizəmi aldı və dedi ki, iki günəcən sənə cavab veriləcək.

Hə, Ramiz, bu səhər yuxudan duranda kiçik oğlum internetə baxıb dedi ki, ata, səni həbs etdirən kişi səhərə yaxın ölüb. Sonra ünvanı da oxudu. Yəni buranı, Badamdardakı villanı nişan verdi... İndi gəldim ki, Ramiz, sənə deyəm ki...”

-----------------------------------------------

***Kürdəxanı** – Bakı ətrafında qəsəbə, burada həbsxana yerləşir.

Molla üzünü meyit namazına duranlara tutub dedi:

-Əziz qohumlar, dostlar, qonşular! Ölüm haqdır. Hamımız bu yolu keçəcəyik. Ola bilər ki, bu mərhumun sizlərə borcu olsun, yetirib verə bilməsin. Ola bilər ki, hansınızasa söz vermişdi, yerinə yetirə bilməmişdi... Ola bilər ki...

Molla çox şey saydı və axırda dedi:

-Ona görə də bu mərhuma öz haqqınızı halal edin!

Hamı bir ağzdan dedi:

-Halal xoşu olsun!

"Hə, Ramiz! Dəmi gəlib, mən bunu dövlət qarşısında edə bilmədim, allah və insanlar qarşısında etməliyəm. Ona görə də üzümü mollaya tutub bağırıram:

-Molla, mən bu adama haqqımı halal eləmirəm!..

Araya bir ölü sükutu çökdü, sonra qarışıqlıq düşdü, Ramiz, bir mağlətə qopdu, hələ beləsi heç zaman olmamışdı. Adamlar bir-birinin qulağına nəsə deyir, pıçıldaşırdılar. Molla da ayaq üstə quruyub qalmışdı. Mən adamların qəribə baxışları altda hüzür yerini – meyit namazı mərasimini tərk etdim. Və bu sözü də ürəyimdə sənə deməliyəm: bu işıqlı dünyada yediyin, geydiyin heç halal xoşun olmasın, ay Ramiz!"

**11.08.2014**

# BAŞÇININ MAŞININDA MƏKTƏBƏ GETMƏK

*Uzaq kənd məktəbində oxumağa piyada gedən uşaqlara həsr olunur*

Səhər təzə açılıb. Göyün üzü bulaşıqdır. Pinti uşaqların üzü kimi. Mən isə pinti deyiləm. 6-dan durmuşam. Üzümü yumuşam, dişimi fırçalamışam, amma duznan. Diş pastamız bir həftədir qurtarıb. Anam deyir ki, onlar həmişə duznan yuyarmışlar dişlərini... Düzdür, duz ağzımı acı edir, amma nə olsun? Məktəbimizin dəhlizində lap hündürdən kağıza yazılıb vurulmuş bu sözlərə *(o qədər oxumuşam ki, əzbərləmişəm)* fikir verin:"Tənqid acı dərman kimidir, amma müalicə edir. V. Belinski." Mən Tənqidlə Belinskini tanımıram, amma bilirəm ki, dərman acı olsa da, adamı xəstəliklərdən qoruyur. *(Bir dəfə Oxu dərsində Əfzələddin müəllimdən soruşdum ki, Tənqid kimdir? Qışqırdı üstümə ki, başın girmiyən yerə bədənıı soxma!.. Niyə heylə bozardı axı? Mən nə dedim ki?.. Başımı hara soxmuşdum ki?.. V.Belinskini də soruşacaqdım, qorxudan səsimi kəsdim...)*

Atam fəhlədir. Hardasa asfalt zavodu var, orda işləyir. İki, üç aydan bir maaş alır. Əlləri, üzü qapqara, üstü-başı mazutun içində gəlir evə axşamlar. Ucuz göy sabun var e, üstündə RAMİZ yazılıb ha, bax, onunla yuyur əllərini, birtəhər mazut, his-pas gedir. Anam da söz atır ki, niyə yuyursan, onsuz da səhər yenə elə olacaq... *(Bir az yalan oldu. Barmaqlarının boğmaları, əllərinin üstü o qədər qırış-qırış olub ki, mazut o qırışlara dolur və heç qonşumuz Ranizin adaşı sabun RAMİZ də apara bilmir onları. Ona görə atama ayama qoşublar*

*it uşaqları: Mazut Ələmdar. Mən bilirəm onu kim qoşub?! Hamısı o Ceyran Ürfanın oğlunun işləridir. Qoy məktəbi bitirim, qoy instituta girim! Ən böyük adam olacam, Başçı olacam! Gəlib hamısından alacam qisasımı!.. Başları girmiyən yerə bədənlərini soxurlar... o oğraş Əfzələddin müəllimin sözü olmasın...)*

Mənə deyir, gərək oxuyasan, mənim kimi eşşək olmayasan. Düzü, bilmirəm ki, atam özünə niyə eşşək deyir. Amma o, eşşək-zad deyil. Yaxşı adamdır. Bizi çox istəyir. Hərdən içməyi olmasa... Əşşi, nolsun e? Kişi içər də. *(Görərsiniz! Mən də yekələndə içəcəm! Gəlib arvadımı da şilləliyəcəm, atama ad qoyanlardan intiqamımı alacam, o Əfzələddin müəllimin də sifətinə tüpürəcəm lombasıynan...)* Ona qalsa, hamının atası içir. Amma mənim atam çox içmir ki. Heç anamı da döyüb-eləmir. Eləcənə, oturub ağlayır. Atasından, anasından danışır. Bir də uşaq vaxtı itkin düşüb ölən bacısından... Bunu çaşdım dedim ha! Siz allah, ağzınızdan çıxmasın. Atamın qulağına çatar, kefi qaçar...

Nə bilim e... Deyir atamın bacısının adı Nəzakətmiş. Atam da Nazı deyirmiş. Qonşu kənddəki məktəbə gedəndə azıb, gedib meşəyə. Üç gün axtarıblar, tapa bilməyiblər. Dördüncü gün Qara qaya səmtdə bir çoban tapıb donmuş halda. Anam deyir ki, guya başına pis oyun açıblarmış. Bu "pis oyun" nə olan şeydir, mən onu bilmirəm. Onu bilirəm ki, anam atamı heç istəmir, ona görə də heylə deyir... *(Nənəm danışanda eşitmişəm: anam ayrı oğlan istəyirmiş. Atam da bunu bilib, anamı basıb atın tərkinə qaçırdıb. Bir ay dağda, meşədə saxlayıb. Sonra enib gəliblər ər-arvad kimi. Üstündən neçə illər keçib, anam atamı hələ də bağışlamayıb. Eləcənə, elhüzürünə arvadlıq edib ona. Deyirmiş ki, biz meşədən qayıdanda istədiyim oğlanın toyu olmuşdu. Day altı-beş vurmağın nə yeri vardı? Məni təzədən kim alardı? Ona görə könlüsüz də olsa oturdum bu xarabada.)*

Sözüm ondadır ki, kəndimizdə məktəb yoxdu deyin, mən hər gün burda dururam ki, bəlkə bir yol maşını-zadı düşdü, məni aparıb məktəbə yaxın yerdə düşürtdü. Olmasa, ayağnan gedəcəm, yəni piyada. Zəhrimar yol da elə uzundu ki... qurtarmaq bilmir. Şələm də get-gedə ağırlaşır. Hə də, kitablarımdı, bir yekə pendirdürməyidi, bir də təzə çustumdu, anam təpişdirib çantama. Məktəbəcən qaloşla gedirəm – bu uzun yola ayaqqabı dözməz ki. Çatanda çustumu geyirəm, qaloşu silib-təmizləyib qoyuram çantama.

*(Gərək bunu əvvəldən deyəydim e... Kənddə məndən başqa da uşaqlar var, amma hamısı yuxarı siniflərdə oxuduğuna görə, dərsə ikinci növbə gedirlər. Ona görə mən tək qalmışam.)*

Atam məni burda qoyub gedib bayaqdan. Deyir ki, rayona təzə başçı gəlib, yəni rayonun yiyəsi. Könə vaxtlarda katib deyiblər – nənəmdən eşitmişəm. İndi də Başçı deyirlər... Hə, atam deyirdi ki, təzə Başçı asfaltzavoda gələcək, ona görə tezdən qaçdı yazıq kişi payi-piyada zavoda...

Hə, onu deyəcəkdim axı... Üçdə oxuyuram. Özü də "əla" qiymətlərlə. Hələ "4"-üm olmayıb, Seyid Mahmud ocağı haqqı. *(Bu Seyid Mahmud Ceyran Urfanın uzaq qohumu olub. Deyillər dəhşət Seyidmiş. Doğmayan arvadların belin qucaqlayan kimi uşağa qalarmışlar. Şikəstlərin üzünə tüpürən kimi sağalarmışlar. Amma bu xalası nəvəsi Ürfanın sağ qolu anadangəlmə şikəstdir, niyə onu sağaltmayıb? Bilmirəm ki... Bilirsiniz niyə Ürfana Ceyran Urfan deyirlər? Gopa basırmış ki, gecələr dağ-dərədə nə qədər ceyran*

*var, hamısı yığışıb gəlir bizim ocağa... Adı sabunun üstündı olan qonşu Ramiz də itoynadanın biridi axı. Ha-ha-ha! Tüfəngin götürüb axşam tərəfi gəlib Ürfanın qapısına. "Nə var, nəə gəlmisən?" Deyib ki, bəs ava gəlmişəm. "Nə av?" Deyib ki, bəs demirsən ceyrannar gecələr sizin ocağa yığışır? Day mən av dalıncan meşəyə nəə gedim? Gəldim burda ov ovlayım, quş quşdayım... Bəs hanı ceyrannar? "Ə, ceyran nəəzir, ə?Ay allahın tuği-lənəti!" Elə o, bu! Ürfanın adı qalır Ceyran Ürfan. Ha-ha-ha!.. Allah, qələt eliyirəm, dilim-ağzım qurusun! Seyidin qohumuna, nənəm demiş, lağ-luğaz elədim, ağzım əyilər birdən...)*

Mənim indi kefim yoxdu neçə gündür. Dostum köhnə Başçını, İramazan müəllimi çıxartdıblar. Bilirsiniz nə kişiydi?! İndi yəqin deyirsiniz ki, İramazan gop eləyir? Hə də, mənim də adım İramazandır. Əslində Ramazandır, amma yazanda heylə yazılır, deyəndə hamı eləcənə İramazan deyir... Yaxşısı budur, qoy başdan başlayım. Onsuz da, hələ maşın-zad görünmür. Bəlkə piyada getdim...

Birinci sinifdə oxuyurdum. Yenə gəlib bax burda, həmin bu uçuq-sökük klubun yanında dayanmışdım ki, bəlkə bir yol maşınından-zaddan düşər, minib gedərəm məktəbə. *(Gərək bunu əvvəldən deyəydim: kəndimiz böyük kənd olub. Amma nədənsə camaat bir-bir, iki-iki köçüb yeddi kilometr aşağıda dəmiryolunun yanındakı o qəsəbəyə yığılıb. Bizim kənddə də cəmi-cümlətanı on iki ailə qalıb. Onun biri bizik. Kəndimizin məktəbi də, klubu da qalıb xaraba. İndi bu yanında durduğum həmin köhnə klubdur.)*

Elə indiki kimi onda da xəbər çıxdı ki, Başçını dəyişiblər. Mən də gəlib bayaq dediyim kimi, durmuşam burda. Bir də gördüm, bir vilis yanımda dayandı. İçindən bir güləruz kişi düşdü və gülümsünüb dedi:

-Adın nədi?

-İramazan, - dedim.

-Boy, adaşıq ki! Yaxşı, burda niyə durmusan?

-Məytəbə geccəm, maşın gözdüyürəm...

-Nə maşını?

-Yol maşını.

-Bəs maşın düşməsə?

-Piyada geccəm.

-Gəl otur, gedək.

Əlimdən tutub məni vilisə mindirdi. Yol boyu söhbət elədik.

-Neçədə oxuyursan?

-Birdə.

-Necə oxuyursan?

-Nə bilim? Yaxşı.

-Bax, mən bu rayonun yeni Başçısıyam. Adım da Ramazandır. Ramazan Hacıyev. Yəni adaşıq səninlə. Hər gün mən bu maşınla gəlib bu yoldan keçib rayon mərkəzinə gedəcəyəm. Hər gün bu vaxt burda olarsan. Səni də məktəbə aparıb qoyacağam. Amma mənə gərək söz verəsən ki, bütün qiymətlərin "5" olacaq. Söz verirsən?

-Bəli, - dedim. *(Ağzıma gələn "hə" sözünü yaxşı ki, tez qaytardım. Ayıbdır axı. Elə bilər ki, tərbiyəsizin biriyəm. Əfzələddin müəllimin o "hə"nin üstündə bəlkə iyirmi yumruğun yemişəm.)*

Və hər gün saat səkkizin yarısı burdan o kişi maşınla məni aparıb məktəbin qapısına qoyur, özü çıxıb gedərdi. Amma bir dəfə mənimlə özü də düşdü. Əlimdən tutub məktəbə girdi. Sinif otaqlarını mənimlə gəzdi. Hətta mənimlə şəkil də çəkdirdi. (*O iki daşın arasında fotoqraf hardan çıxdı, məəttələm?)* Sonra da məni direktora tapşırdı ki, muğayat olsun.

Pah! Bir görəydiniz məktəbdə müəllimlər, uşaqlar mənə necə

baxırdılar! Cinni Həsənin qızı Leyla, hansı ki, məni adam yerinə qoymazdı qabaqlar, Ceyran Urfanın oğluyla oturardı, indi mənim üstümün tozunu çırpırdı, bir yaltaqlanırdı, bir yaltaqlanırdı mənə, gəl görəsən!..

Elə direktorumuz da həmin gün bütün kitablarımı dəyişdirib təzəsini verdi. Hətta mənə təzə kostyum da aldılar. Eeee... Kef işlər oldu vallah. Elə mən də azacıq aşın duzu deyildim haaaa... Dabanlarımı qaldıra-qaldıra gəzirdim məktəbdə. Qabaqlar mənə sataşan uşaqlara çımxırır, təpik-zad atırdım. Hətta bir dəfə Ceyran Urfanın oğlu Cüyür Həşimi yumruqladım da! Bə nədi?! Eşşək oğlu eşşək, mənim Leylama gözünün altıynan baxırmış! İt oğlu it! Sənin Ceyran-cüyür dədənin ağzına mənim ... Bıy-bıy! Allah, pox yeyirəm, keç günahımnan! Ağzım əyilər... Seyidin qohumuna söymək olmaz axı. Görmürsən, müəllimlər, elə direktorumuz Həşimə necə yaltaqlanırlar?..

Yoox, söymək qəti olmaz. Axı mən Başçının adamıyam. Gərək özümü yaxşı aparam...

Anamla nənəmin danışığın eşitdim bir dəfə. "Az, az, təzə gəlib, özün həylə istədir e, camahata. Görərsən, bir həftə sohra İramazanı toza basacey..." "Ay arvad, sən day köhnə fikirinnən əl çək, niyə, olar ki, yaxşı adam olsun, elə axıracan uşağı aparıb-gətirsin..." "Az, az, aparmağını bildik, bəs bı gətirməy hardan çıxdı?" Anam ağzın sürüdü:"Əşşşi, sözgəlişi dedim dayna... Sən də sözün başına çatı salmağa bir cansan..."

Amma yox, bu kişi Bakıya iclasa-zada getdiyi günləri nəzərə almasaq, düz üç il, nənəm demişkən sərhasər, məni səhərlər apardı məktəbə. Hətta bir dəfə Novruz bayramında pay-püşlə evimizə də gəlmişdi. Atam da quzu kəsdi, kabab elədi. İramazan müəllim məktəblərin böyüyü olan müdirlə süfrəmizdə oturdu, atamla rumka döyüşdürdü, sağlıq dedi...

Bir görəydiniz atam necə fəxrlə baxırdı mənə. *(Düzdür, onda bir balaca qanqaraçılığı oldu. Başçıyla rayon qəzetinin redaktoru da gəlmişdi. O sonralar götürüb bir məqalə yazmışdı. Məqalədə Başçının hər səhər məni məktəbə aparmasından, məktəbdə mənimlə əl-ələ tutub gəzməsindən, bizə qonaq gəlməsindən yazmışdı. Və arada bir-iki cümlə də itgin düşən bibimdən də bəhs etnmişdi. Atam buna görə içib ağladı, amma tez də unutdu.)* Hətta bir gün atam dedi ki, dostuna de, qoy məni orda birqadir keçirtsin ki, həm işim yüngülləşsin, həm də maaşım artsın. İnanmçazsınız! Dedim. İki gün keçməmiş, atamı zavodda birqadir keçirtdilər...

Düz üç il belə şad-şalayın keçdi nənəm demişkən. İndi bude, dostumu çıxardıblar. Mən də burda qalmışam boynu burulu. Maşın-zad da düşmür tərslikdən.

Dayan, dayan! Eynən İramazan müəllimin vilisi kimi bir maşın görünür. Bəlkə mənimlə sağollaşmağa gəlib? Vay səni... Yuanımdan dız getdi... Arxada qalstuklu bir kişi oturub, heç mən tərəfə baxmadı da...

Belə getsə gecikəcəm dərsə. Piyada gedəsi olacam deyəsən. Nənəm nə təhər demişdi? Özgə atına minən tez düşər... Amma vallah İramazan müəllim heç özgə adam deyildi məndən ötrü... Nəysə, yolçu yolda gərək...

***

Axşam atam dedi ki, təzə başçı asfaltzavoda gəlibmiş. Dəqiq yanımdan keçən oymuş. Zalım oğlu heç mən tərəfə baxmadı da. Eh, cəhənnəmə baxsın...

Deyir, qaşqabaqlı bir adamdır. Hamını acılayırmış. Mənim dostumsa güləriz kişiydi. Heç onu qaşqabaqlı görmədim bu üç ildə...

***

Bir aydır çantam çiynimdə piyada gedirəm məktəbə. Tərslikdən tez-tez yağış yağır. Hər tərəf palçıqdır. Çustum, şalvarımın balaqları eyzən sapsarı palçıq olub. Əyilib zığa batmış ayaqqabımı təmizləyirdim ki, vilis dayandı yanımda. Qaşqabaqlı bir kişi düşüb acıqlı-acıqlı deyir:

-Ay uşaq, hara gedirsən?!

Sən öz canın suala bax da. Çiynində çanta olan uşaq hara getməlidir? Mən də onun kimi acıqlı-acıqlı deyirəm:

-Məktəbə gedirəm...

-Kəndinizdə məktəb yoxdur?

-Yoxdur... İramazan müəllim məni hər gün məktəbə aparırdı...

-İramazan müəllim kimdir? – acıqlı-acıqlı soruşur. Sürücü məni tanıyıb gülümsünür və təzə Başçıya yavaşca nəsə deyir. Kişi bir az da acıqlı görkəm alır və deyir: - Səni niyə tək buraxıblar evdən? Gedib azıb-eliyərsən. – Sonra sürücüyə dönür. – Haçansa burda bir uşaq itibmiş, eləmi?. – Sürücü yenə yavaşca ona nəsə deyir. Başçı bir qədər kədərlənir və sürücüyə tapşırır ki, mənə maşına minməkdə kömək eləsin. Beləcə, yeni Başçının maşınında məktəbə gedirəm.

Amma elə görəcəyim o oldu. Mən daha o qaşqabaqlı kişini görmədim. Məktəbə isə gah təsadüfi yol maşınıyla, gah da piyada gedirəm. Hardasan, ay İramazan müəllim?...

Atam da arada hirslənib deyir ki, belə getsə, biz də qəsəbəyə köçəcəyik. Uşaq, (*yəni mən*) savadsız olacaq. Günü yollarda keçir yazığın...

***

Anamla atam danışır ki, təzə Başçı bizim kəndə gəlibmiş. Köhnə məktəbi buldozerlə uçurdublar, yerində təzə məktəb tikirlər. Uçuq-sökük klubumuzu da təmir edirlər. Bunlardan mənə nə? Mən ki, hələ də yeddi kilometri gündə iki dəfə ayaqla ölçürəm... Bu cəhənnəmə e... İş ondadır ki, məktəbdə daha qabaqkı İramazana baxan kimi baxmırlar mənə. Heç direktor məni itirib-axtarmır da. Hələ o günnəri dəhlizdə qaçanda çımxırdı üstümə:”Ay uşaq, itil belə!”

Cüyür Həşim iki gündən bir məni yumruqlayır. Uşaqlar mənə lağnan “Başçı” deyir. Bu da cəhənnəmə! Ceyran Urfanın oğlu Cüyür Həşim adıma biədəb ayama qoşub: “Baş-göt İramazan” deyir mənə...

Gecələr yorğanı üzümə basıb xısın-xısın ağlayıram...

***

İndi dörddə oxuyuram. Öz kəndimizdə məktəb açılıb axı... O qaşqabaqlı Başçı açılışa da gəlmişdi sentyabrda. Heç mən tərəfə baxmadı da... Üzündən-gözündən zəhər-zəmbərək yağırdı nənəm demişkən...

***

Bu gecə İramazan müəllim yuxuma girmişdi. Yenə gülümsəyirdi. Maşınına mindirmişdi məni. Ona xeyli giley elədim. Dedim ki, səndən sonra cəmi bircə dəfə təzə Başçının maşınına minmişəm...

O da gülümsəyib mənimlə şəkil çəkdirir...

Oyandım ki, yuxuymuş. Xısın-xısın ağladım.

Hərdən fikirləşirəm ki, İramazan müəllimi niyə çıxartdılar? Bəlkə mən seyidin qohumuna söydüyümə görə allaha naxoş getdi? Yo-ox, heylə olsaydı, ağzım əyilərdi. Kaş elə ağzım əyiləydi, amma o kişini çıxartmayaydılar...

Eeee... Atamı da birqadirlikdən endiriblər fəhləliyə...

9 mart 2016

# İKİ DƏFN

Qışda Balabacı arvad bizə gələrdi hər axşam. Hər axşam olmasa da, iki axşamdan bir. Gələn kimi də sobanın ən isti tərəfində oturar, başlayardı oğlundan danışmağa.

-...deyir, nənə, çayxanada oturmuşduq, ədvalı-lumulu çaydan içirdiy, bir də gördüy Kamran Bağırov girdi içəri...

-Birinci katib Kamran Bağırov ha!? – bunu anam təəccüblə soruşur.

-Az hə dana, Azərbaycanın yəəsi olan Bağırıov...

-Bakıda çayxana çöldə olur, - bunu mən gülməkdən özümü güclə saxlayaraq deyirəm yanpörtü. Səhər dərsim var 11-lərə, gərək bir az hazırlaşam axı. Kənd yeri olanda nə olar? Yazıqdırlar, bəlkə qəbula-zada gedəni oldu. Amma hanı? Balabacının oğlu Ələsgərin Bakı macəraları imkan versə...

-Nə tər yanı? Fərağat otur ha... Heş Bakidə qar-qiyamat olmur? O sızağın qabağında çöldə çaymı işməy olar? – Arvad çəp-çəp mənə baxıb davam edir:

-Deyir, nənə, dədəm yatan torpaq haqqı, kişi bir-bir əl verib hamımıznan görüşdü, sohra da qayıtdı kin, maa nə sözüuz var? Bizim gədə bına qayıdıb nə desə yaxşıdı? Yoldaş Bağırov, bizim kəttə işıx istolbaları avariyni palsjeniyadadı, böyün-səhər məftillər tökülüb uşax-böyüyü, mal-davarı çezdisə, mına kim cavab verəcəy?! Hıy???

Anamı gülmək tutub. Əlini ağzına basıb, özünü saxlayır birtəhər. Amma nənəm allahın balasıdır axı, hikkəynən qayıdır ki, az Balabacı, sohrası nolur e, sohrası...

-Nolacax kin... Odeee... haaaa... Qara-qara istolbaları gətirib töküplər kəndin ortasına...

Məni gülmək tutub. Daha özümü saxlaya bilmirəm. Yazıq anam da haya eləyir. Bu yaşlı arvadın sözünün üstünə söz demək istəmir. Amma haracan saxalayacaqsan ki?! O da qımışır, əlini ağzına bərk-bərk tutsa da, gülməyini gizlədə bilmir... Gəl ki nənəm, təslim olana oxşamır heç. Balabacı arvadla həmyaşıd deyillər, amma aralarında 7-8 yaş fərq olar, bəlkə ondandır. Qayıdır ki:

-Az ey, Balabacı, sən bizi nə yerinə qoymusan?! Bilmirəm, bəlkə gədən belə basıb-bağlıyıb, sən də inanmısan, ya da özünnən toxuyursan... O istolbaları gətirdən oğul heç səsin də çıxartmır. Mən nənəsi ölsün!

Daha dözə bilmirik. Nənə, ana, oğul bir-birimizə qoşulub gülüşürük...

...Demək məsələ belə olmuşdu. Tək bizim yox, yeddipara kəndlərin hamısının elektrik dirəkləri sınıq-salxaq idi. O qədər sınıq-salxaq ki, qəsdən durub itələsən, yıxılardı. Yəni çürümüşdü, əyilmişdi, qalın aliminium məftillər də elə sallanırdı ki, az qala adamın əli dəyərdi. Camaat orda-burda danışır, azaylanır, höküməti söyür, qarğayırdı, amma əlləri bir yerə çatmırdı. Mən də götürüb qəzetlərə yazmaq istəyəndə nənəmin, anamın

sözləri kəsirdi qabağımı: “A bala, yazma, amanın bir günüdü. Tutallar səni. Tək uşaxsan, kimin-kimsənən yox. İndi hökümət-zad sayan yoxdu...”

Anamın və nənəmin xahişini yerə sala bilmirdim. Məni min əziyyətlə saxlamış, oxutmuş bu iki qadına bütün həyatımı borcluydum. Onları məyus edə bilməzdim... Amma bir gün elə bir hadisə oldu ki...

...Qonşu kənddə İman adlı bir az ağıldan qıvraq oğlan mal otararırmış. Yüksək gərginlikli elektrik naqili qırılıb düşür yerə, bir keçi üstündən keçəndə cərəyan onu vurur, sonra da başlayır yandırmağa. İman keçinin quyruğundan yapışır ki, bəlkə xilas edə, cərəyan onu da vurur, meyidini də qatır keçinin leşinə yandırır... Yasda anasının ah-naləsini eşidəndə dözmədim, götürüb bir felyeton yazdım, göndərdim o vaxtkı “Sovet kəndi” qəzetinə.

Felyeton çıxan axşamı atam (mən uşaq olanda o, anamdan ayrılmışdı) adam göndərib məni çağırdı və danladı ki, nə eləmisən yenə, rayon dəyib bir-birinə. Sonra əmim gəldi, məni qırağa çəkib öyüd-nəsihət verməyə başladı: camaatın dərdi saamı qalıb? Niyə özünü rəhbərliyin gözünnən salırsan? Bir bizi də fikirləş...

Daha sonra başqa bir vəzifəli qohumumuz anama giley eləmişdi ki, oğlunu başa sal, otursun oturduğu yerdə, yetim oğlandır, bəlkə partiyaya keçirdik, irəli çəkdik və həkaza...

Təbii ki, bunlar eynimə deyildi. Amma ən böyük cəzanı anamla nənəm verdi: məsələdən agah olandan sonra məni danışdırmadılar. Gör neçə vaxt keçib, hələ də küsülü kimiyik. Nə qədər izah eləsəm də ki, o arvadın naləsi hələ də qulaqlarımdadır, özümü saxlaya bilmədim-filan, eşitmək istəmədilər. Hətta hər axşam işıqlarımız sönürdü, onu da misal çəkdim ki, baxın, hansı zəmanədir, biz lampa işığında oturmuşuq... kimə deyirsən? Mənə arxalarını çevirdilər. Yeməyimi verierdilər, (hələ subay idim) paltarımı yuyurdular, amma danışdırmırdılar. İndi bude, Balabacı arvad gəlib deyir ki, Ələsgər çayxanada Bağırovla əl tutuşub...

*(Hə, orasını da deyim ki, yazı qəzetdə çıxandan bir həftə sonra kəndimizə və qonşu kəndlərə maşın-maşın elektrik dirəyi daşımağa başladılar. Bu dirəklər mazutda o qədər çimizdirilmişdilər ki, 20-30 il də keçsə çürüməzdi. Bir qədər sonra həmin çürümüş dirəkləri dəyişməyə başladılar. Mərkəzi Füzuli rayonunda yerləşən işıq idarəsindən nümayəndələr gəldilər işlədiyim məktəbə və məndən xahiş etdilər ki, felyotonun müəllifi kimi razılıq məktubu verim, onlar işlərinə tiksinlər. Mən onların istədiyi məktubu yazıb verdim və kəndlərimizin işıqları demək olar ki, daha sönmədi.)*

Dəli gülmək tutur məni və gülə-gülə deyirəm:

-Ay Balabacı xala, bu mahnı oxuyurlar e, “Balabacı, bacı, dərdim əlacı...” yəqin onu saa qoşublar?

Arvad başladı nə başladı:

-Ə, bəs bilmirsən, onu rəhmətlik Əmrah maa qoşmuşdu dayna cavannıxda... Mirvarı arvadın yadına gələr, Əmrah bağ aşağı, bağ yuxarı oxuyardı:

Balabacı, bacı, Balabacı, bacı,
Yarım gəlmiyipdi dərdim əlacı...

Nənəm – Mirvarı onun adıdır - nə təhər təpindi arvada, yazıq xırp kəsdi səsini:

-Kəs aaz, kəs! Səfeyin qızı səfey! Sən bizi axmax yerinə qoymusan? Balabacı mahnısı dünən çıxıb, amma sənin ərın sümüyləri də çürüyüb! İyirmi

yeddi-iyirmi səkkiz ildi ərin ölpüyü... Balabacını heş bir il dəyil oxuyullar...

-Balabacı xala, səni allah, ha istiyirəm soruşam, utanıram e... Oğlun Ələsgər o irəli gəlmişdi haa, toyda bir cür oynuyurdu e... Bir əli yambızında, biri qulağının dibində... O nə təhər oynamaxdı, bizdərdə həylə oynamıllar axı?

-Hıııııı, - arvad bir cür səs çıxardı, - allah ətıı töhməsin! Az, Bakıdan gətirip dayna! Bakililər heylə oynuyullar deyir... Nənəsi ölmüş, həylə diqqətcildi e... Nə təzə bir şey görsə, əvdirir, yığışdırır, gətirir ki, qoy bizdə də olsun... Ode, otha, o Qaröyüz kəndi tərəfdəki çayın üstündən körpü salmağı da o camahatın başına saldı. Özüm qulağımnan eşitdim, deyirdi ki, Bakililər dənizin üstünnən körpü salıplar. Siz niyə bir çaıyın üstünnən salmırsıız?..

Nənəm daha dözə bilmirdi. Anam özünü birtəhər tutsa da, nənəm qırmızı adam idi, yalan-palanla işi yoxdu. Bir də gördüm yükdən döşəyi dartışdırır. Yəni ki, ay Balabacı, dur get yatırıq. Amma Balabacı hələ ayağının o birini indi sobanın altılna uzadırdı, yəni gedib eləyən deyiləm.

-Balabacı, odunumuz yoxdu, yeri salırıx girəy içinə ki, puça day odun qoymuyay...

-Bıy, bıy, aaz maa niyə deməmisıız, o illəri Ələsgər nənəsi ölmüş gələndə iki maşın odun doğreyib durujbeynən, bir qucax gətireydim, yandıraydıız dayna...

-Dur get öz evində yandır, biznən işin olmasın! – Nənəm bu dəfə baltanı lap kökündən vurdu.

Balabacı arvad qurcuxdu, əsnədi, könülsüz-könülsüz yerindən qalxdı və qalxa-qalxa dedi:

-Gecə də yaman uzundu e. Qutarmır ki...

-Yaxşı, bu arvad niyə yayda bizə gəlmir, ancaq qışda gəlir? Bunu başa düşə bilımirəm... – arvad gedəndən sonra ortaya soruşdum.

Nənəm yanpörtü danışsa da mənimlə barışmaq istədiyi səsinin tonundan hiss olunurdu:

-Adın da curnalis qoyub, hıı! Bilmirsən niyə qışda gəlir? Əvində puç yanmır, soyuqdan nə təhər otusun əvində? Bizə qızışmağa gəlir dayna... Görmürsən, yatmasax, səhərəcən oturasıdı...

***

İki il keçmişdi. Məni kəndimizdəki məktəbə direktor qoymuşdular. Hələ üstəlik söz də vermişdilər ki, partiyaya da keçirəcəklər. Atam sevincək dedi: “Bu sənə avansdır, özünü yaxşı aparsan, vəzifəni böyüdəcəklər, partiyaya da keçirəcəklər.”

Nənəm də anda verdi ki, ta qələmi qatda qoy döş cibıa, hətərən-pətərən yazma, bizə yazığın gəlsin...

Özümə söz verdim ki, bu adamları naümid qoymayacam. Axı daha nə yazmaq? Mən ki jurnalist deyiləm?! Yazıçı-zad heç deyiləm. Adi kənd müəllimiyəm, dərsimi keçəcəm, vəssalam... Amma olmadı...

Olacaqlı kimi, hər söz-sav gəlib məndən keçirdi, elə bil dəyirmanın dəhnəsiydim...

Bir gün anam dedi ki, Balabacı arvad xəstədi, baxanı, dava-dərman alanı da yoxdur. Bu yekəlikdə kəndin bircə kaministi var, o da baxımsız qalıb. Tək oğlu Bakidədi, kimi-kimsənəsi yoxdu...

*(Əri öləndən sonra Balabacı tək oğlunu saxlamaq üçün qol-biləyini çırmayıb kolxozda işləməyə başlayıb. Nə iş buyurublar yarıdıb – gər ağac kimi boylu-buxunlu, pəzəvəng qadındı – biçin biçib, dərz daşıyıb, arx çıxardıb, pambıq yığıb, üzüm alağı edib, xüləsey ki, olub*

*kolxozun dirəyi. Əvvəl arvadı kənd sovetinə deputat seçiblər, sonra partiyaya keçiriblər... İndi yaşı yetmişi haqlayanda qalıb tək-tənha...)*

Məktəbə o vaxtlar daş kömür verirdilər. Yarım maşın aparıb qapısına tökdürdüm – evinin soyuq olduğunu bilirdim. Özündən soruşdum ki, nəyə ehtiyacın var? Dedi, a bala, o hökümətə mən bilirsən nə təhər köməy eləmişəm? Qardaşın qardaşa eləmədiyin eləmişəm. İşin ağırın görmüşəm, yükün ağırın çəhmişəm, başımnan yer qazmışam, gözümnən od götürmüşəm... Yalannan partiyiyıya keçitdilər, qırmızı bilet verdilər... Neynirəm onu mən? Pensiyəm bı aydan o aya yetmir... Dərmanı mən nəynən alım? Götü qələmıı yaz dayna bını. Yaz ki, əlin qurusun ay belə hökümət, qəministin qalıb ac-susuz, dərmansız...

Sonra birdən nə fikirləşdisə, qayıtdı ki, ədə, bala, niyə korruq çəkib kömür göndərmisən, Ələsgərin nənəsi ölsün, ode, otxana, oxantana odun-kömür yığıb ki, odunxanaya... - Boş odunxananı göstərib göz yaşlarını məndən gizlətmək üçün üzünü yana tutdu. Məni də qəhər boğdu. Bu qadın ac qalar, amma özünü həmişə tox tutardı, kimsəyə endirməzdi. Bax ha, indi...

..."Sovet kəndi"ndə "Birinci kommunist" adlı yazım çıxandan sonra rayon çalxalandı. ("Sovet kəndi" Mərkəzi Komitənin qəzeti idi.) Məktəbimə yoxlama yoxlama dalıncan gəlməyə başladı. Hətta kimsə yazmışdı ki, Balabacı arvada kömür satmışam. Gedib onu da dindirmişdilər. Arvad da qovmuşdu onları qapıdan.

Hamının qulağı səsdə idi ki, məni bu dəfə yəqin ki, elə-belə buraxmayacaqlar. Amma gözlənilənlərin əksinə, məni çağırıb partiyaya keçirdilər. (Səbəbini sonralar bildim. Katib deyibmiş ki, onu keçirdin partiyaya, sənini kəssin.)

Sonra ölkədə təlatümlü hadisələr başladı. Yenidənqurma, Qarabağ hadisələri və 20 Yanvar. Sonuncu bir çox ziyalılar kimi mənim də taleyimə ağır iz qoydu. Partbiletimi atıb partiyadan çıxdım. Rayonumuz ermənilərlə sərhəddə olduğundan özünümüdafiə dəstələrinin yaradılmasına başladıq. Elə gün olurdu ki, heç gecə də evə gələ bilmirdim. Bir dəfə lap axşam toranı maşınla kəndə qayıdırdım. Gördüm bir arvad dalında odun şələsi ikiqat olub asta-asta yolla gedir. Maşını saxlatdırdım və gördüm ki, Balabacı arvaddır. Odun şələsini dalından alıb maşının banına atdıq. Özünü də yanıma – kabinəyə mindirdim. Yerini rahatlayan kimi məni tərs-tərs süzüb dedi:

-Ədə, o nə işdi tutmusan? Biletıı niyə atmısan? Arpa-buğda bı nırxda, görərsən, genə hərrənib-fırranıb gələcəysiız partiyanın üstünə... Leninin qırmızı bilitin atallarmı heç? Hayıf-hayıf! Mən saa nə deyim axı?.. Nənəsi ölmüş Ələsgər də atıbmış bilitin... ama...

***

-Balabacı arvad səni görmək istiyib...

-Nə?

-Hə vallah. O günnəri yasda gördüm gəlnin, dedi arvadın gözləri tutulub, amma ağlı başındadı, otur-durur, deyir o müyəllimə deyən olsa ki, Balabacının burnuna düşmüsən, gələr vallah!

-Neynir məni görəsən? – Təəccüblə çiynimi çəkdim və arvadın yaşını təxmini hesabladım. Anamdan qocaydı, nənəmdən cavan. Anam da, nənəm də ölüblər... Rayonumuz işğal olunanda nənəmin 75 yaşı vardı.

Balabacının da olardı 65. İyirmi ildir Bakıda köçkünük, demək 85 rahat var...

...-Bı mənim biletimdi, qəminist biletim... Səni qınıyırdım, yadındamı? Niyə çıxmışdın partiyadan deyirdim... Ələsgər maa yalan deyib, heç o ömür-billah qəminist dəyilmış... Bını aparıb paketə qoyarsan, yollarsan Leninin mazveleyinə... Yazarsan ki, Balabacının bilitidi... Heç o partiyaya arxa çevirmədi. Amma onu indiyəcən yada salan da olmadı... İrayonu da getdi... Onu da yaz ki, mən o bilitin mənnən sohra yerdə-yurdda qalmasın istəmirəm... Əl-əyaq altda qalıb-eliyər... Günahdı...

Sonra gözlərini gəzdirib gəlinini axtardı:

-A bala, soyuxdu, ocağa odun qoy, məllimə çay-çörəy ver... Ələsgərrrr!

Ələsgər əlini istilik sisteminə uzadıb hırıldadı:

-Azzz, nənə, odun nədi, peç nədi?! İndi kombi var e, komdi!

Amma ev həqiqətən istiydi. Bir stəkan çay içib Balabacı arvadla sağollaşdım, biletini də götürüb çıxdım. Ələsgər məni ötürmək üçün ardımca gəldi və qapıda dedi:

-Məllim, siz allah fikir vermiyin, nənəm uje o yannıxdı...

***

İki gün sonra Balabacı arvad öldü. Dəfnə özümü çatdırsam da, Yanardağdakı qaçqın qəbiristanına yetişəndə artıq onu dəfn edib qayıdırdılar. Mən maşından düşüb fatihə verdim. Sonra cibimdən onun partbiletini çıxartdım, qəbirin ayaq tərəfində əlimlə balaca yer qazıb basdırdım və geri dönən dəfn qafiləsinə qoşuldum

**25 noyabr 2015**

# YAŞAR BÜNYAD



# İblis busəsi

**roman**

**(əvvəli ötən saylarımızda)**

Döyüş bölgələrində baş verən uğursuzluğa barmaqarası baxan iqtidar guya, xain, satqın axtarışında baş sındırarkən,ə slində Domokl qılıncı kimi başının üstünü alan fəlakətdən - onu gözləyən dövlət çevrilişindən qorunmaq, qurduqları hökuməti nəyin bahasına olursa-olsun ayaqda saxlamaqla məşğul olacaq - sanki Respublika ancaq Bakıdan ibarət imiş kimi. Əslində o, bir-birinin ardınca zəbt edilən torpaqlarla birgə Bakıya yaxın rayonların da çoxunda öz hakimiyyətini, gücünü itirəcək; iqtidarı təmsil edən güc, icra, məhkəmə, yerli idarəetmə orqanları silah gücünə devriləcək, başıpozuq, heç kimlə hesablaşmayan üsyankar dəstələr milis şöbələrinə basqın edərək silahları ələ keçirib, vəzifəli şəxsləri təhqir edərək işdən uzaqlaşdıracaq, bazar və dükanları qarət etməkdən belə çəkinməyəcəklər. Bəzi rayonlarda isə onlara danoslar verən yerliləri vəzifələrə təyin etdikdən sonra onları öz bildikləri kimi idarə edərək camaatı iqtidarla qarşı-qarşıya qoymağa, öz aləmində dövlət çevrilişinə nail olacaqlar da. Hərc-

mərclik o yerə gəlib çatacaqdı ki, xalqın seçdiyi hökumət nümayəndələri Bakıdan qırağa çıxanda belə ehtiyatlı tərpənəcək. Əslində gözlənilən bu təlatümün qarşısını almağa cəhdlər olsa da, iş-işdən keçdiyi iki dəfə iki qədər sadəydi. Amma fəlakətin qaçılmaz olduğunu, bu qarmaqarışıqlığda əqidəsinə, silahdaşlarına arxa çevirib öz ambisiyalarına qul olan həmvətənlərim barədə məlumatı olmayan biri kimi ətrafımda nələrin baş verdiyindən, təbii ki, xəbərsizdim və bunları sonra biləcəkdim. Həm də ona əmin olacaqdım ki, hansısa gözəgörüməz qüvvələr ciddi-cəhdlə öz niyyətinə çatmaq üçün yaranmış şəraitdən məharətlə istifadə edir. Amma indi hər şeydən xəbərsiz,beynimdə xülyalar quru-qura coşqun, sahilsiz dənizi xatırladan azadlıq hərəkatında bir damla olmaq istəyirdim. Dənizdə bir damla...

Belə bir zaman kəsiyində Bakıdaydım və ... Milli Məclisin qarşısında keçirilən mitinqdə bir dəstə könüllüyə qoşulub cəbhəyə yola düşdüm. Ağızları köpüklənə-köpüklənə bir-birini əvəz edərək milli dəyərlərdən danışan natiqləri alqışlayan minlərlə kişi iştirak edən mitinqdən nədənsə cəmi on altı nəfər cəbhəyə gedirdi. Biz meydandan uzaqlaşdıqca uzaqlaşır, başıbəlalı mitinq isə hələ də davam edirdi. Avtobusun açıq pəncərəsindən baxa-baxa "kaş ki, burdakıların hamısı cəbhəyə gedəydi "deyə fikirləşəndə nədənsə üzümə çırpılan ılıq küləyi qınadım.

## Cəhənnəmdə doğan Günəş

...Qulaqlarıma əridliş qurğuşun tökmüşdülər elə bil. Beynimin içində nəsə vurnuxur, gərilir, amma bu "nəsə"nin səsi eşidilmir. Deyəsən gicgahımdakı ağrıdan gözlərimi aça bilmədim. Yoxsa bu ağrı deyildi? Sanki ağır avtomabil qəzası keçirəndən sonra qipsə qoyulmuşam; dərim dartınır, tarmalaşdıqca da gicişirdı, qaşınmaq üçün heç olmasa ikicə barmağa ehtiyacı vardı ki, süstləşsin, toxtasın. Amma nə lənətə gəlmiş barmaqlarımın, nə də ki, başqa əzalarımın harda olduğunu hiss edirəm... Qaxaca dönmüş qətran göz qapaqlarımı kipriklərimə yapışdırıb. Getdikcə, yavaş-yavaş burnumun dəliklərində, quruyub çatlamış dodaqlarımda onun tamını duyuram. Keylik, süstlük qollarımı tərpətməyə imkan vermir. Doğrusu, qorxudan onların olub-olmaması barədə fikirləşmirəm. Fikirləşmirəm ona görə ki özümü əlsiz-ayaqsız təsəvvür edə bilmirəm, etmək istəmirəm. "Yarəbbim, əgər günahlarıma görə məni cəzalandırırsansa, bağışla məni. Bağışla..." Özümü hiss etmirəm, sanki iflic olmuşam.

İstədim ayaqlarımı hərəkətə gətirim."Mənim qıçlarım harda, qollarım harda?.." Yazıq ayaqlarım, qurumuşdu, tərpənmirdi."Qurumuşdu?..Yoxdu bəlkə?.. Bəlkə ölmüşəm?... Yoox , belə də ölmək olaar? Ö-ölü öz-özüylə danışar məgər? Bəs bu qoxu, bu tanış qoxu nədi belə? Onu burnumun dəliklərində, dodağımda, hətta ağzımın içində hiss edirəm. Anlaya bilməsəm də çox tanış bir qoxu olduğunu duyuram. Duyuram, deməli ölməmişəm! Heç olmasa barmağımı, bircə barmağımı tərpədə biləm..."

Çiyinlərimdən məni basan ağırlıq getdikcə döş qəfəsimi ciyərlərimə sarı sıxır. Nəfəs almağım çətinləşdikcə ağrılarım şiddətlənir... Ağrı varsa, deməli, yaşayıram. Axı ağrı-acısız yaşamaq mümkün deyil bu məmləkətdə.

Birdən boğuq, xırıltılı səs qurğuşunlu qulaqlarımda cingildədi. Səs hardan gəlirdi?

-Aa -naaa...
Sanki dərin  quyunun dibində kimsə imdad diləyirdi. Səs getdikcə boğulur, qırılır, uzaqlaşır.
-A-aa...aa...
 Xeylı gözlədim. Sanki teleqraf tellərini qəfil kəsdilər. Daha səs gəlmədi.
 "Tapdım!.." Bayaqdan məni vahiməyə salan, anlaya bilmədiyimdən yaddaşımı, dünyanın bütün qoxularını lənətlədikdən sonra  anladım ki  bu, nəm torpağa qarışmış qan qoxusudur! Torpaq və Qan! Deməli qulaqlarıma dolan, gözlərimi qapayan, burnumu tıxaca döndərən laxtalanmış qan imiş?! Kimin qanı? Öz qanımda boğuluram bəlkə?
 Yaddaşımı nizama salıb harda olduğumu düşündükcə taqətimi də toplayıb var gücümlə vücuduma hakim kəsilməyə başladım."Ölməmişəmsə, deməli hələ canımda su qalıb. Qalxa bilərəm yəqin!..IIIIIhhhh... Qalx !.. Bir az da...  həəə, bir aazz ... sa-ğaa... həə... so-laa... Görən, bu üstümdəki nədi belə?!.. Nə yaman ağırmış..."
 Əzgin, heysiz qollarımı güclə sinəmin tuşunda birləşdirib ölü kimi ağırlaşmış bədənimi qaldırmağa çalışdım."Yaa..Allah!..." Üstümdəki  yükün nədənsə , daş-kəsək, torpaq olduğuna əmin idim-başqa nə ola bilərdi ki?!
 Sağ tərəfimdən nəsə sürüşüb düşdü. Handan hana,  sağ çiynimi azca azad etdikdən sonra əlimin üstüylə gözlərimi bağlayan qan laxtasını ovdum. Kipriklərimin arasından  batmaqda olan solğun payız  Günəşinin zəif şəfəqləri bəbəklərimə sancıldı. Zülmətdən qurtulmuş gözlərim qəfil işıqdan diksinib qapandı. Bu bir anlıq oldu. Təzədən gözlərimi açanda harda olduğumu, çiynimdən atdığım yükün çınqıl, daş-kəsək olmadığını aydınca dərk etməyə başlayanda bütün bədənim silkələndi, az qala ödüm ağzıma gəldi.
 Bu, qanlı-qadalı müharibənin altı ayında gördüyüm ən dəhşətli mənzərəydi! Özümü  bir-birinin, daha doğrusu mənim üstümə qalaqlanmış meyitlərin arasında  görəndə tüklərim ürpəşdi, dünya başıma fırlandı. Havaya qarışmış  dağlanmış ət iyindən sulandıqca göynəyən, həlqəsindən çıxmış gözlərimi  ovucumun içiylə ovduqdan sonra parça-parça olmuş bədən hissələrinin arasında, heç olmasa sağ qalan, döyüş yoldaşlarımı axtarmağa başladım. Yasəmən rəngində dumana bürünmüş yüksəklik boğucu boz tüstü qalxan dərin çuxurdan elə vahiməli görünürdü ki, sanki  qaynar tiyanın ağzı indicə  qapanacaq..."Qrad"ın partlayışından yaranmış bu yarğandan çıxmaq üçün xeyli əlləşdim; hələ də tüstüləyən soyumamış torpağı keyləşmiş barmaqlarımla eşərək yuxarı dırmandım, nəhayət geniş  yarğanın kənarına  yetişib ağzıüstə yerə sərildim.
 Dörd-beş saat əvvəl  tutduğumuz yüksəkliyin ətrafı "Qrad" atəşindən dəlik-dəlik  olmuşdu. Qarşı tərəfdəki kənddən açılan ardı-arası kəsilməyən atəşdən qorunub, kömək gələnə kimi, heç olmasa bir sutka mövqeyimizi möhkəmləndirmək üçün qazdığımız "qəbir"lər, gör neçə döyüş yoldaşımın son mənzilinə çevrilmişdi?! Dəli Aydın, Yavuz, "Qartal", Əlibəy, Qasım, Tapdıq, "Bozqurd", bələdçimiz Mübariz... Kimini  paltarından, kimini qolundakı yaşıl şüşəli  kompaslı saatından, kimisini də çapığından tanımaq olurdu. Bu tükürpədən mənzərəni  ürəyinə daş bağlamış insan belə gözucu izləmək iqtidarında deyildi. Mən ixtiyarsız gözlərimi yumdum, çünki belə etməsəydim ürəyim  dayanacaqdı... Yox, bu  dəhşətli ölüm meydanını təsvir etməkdə acizlik çəkirəm!
 Bir azdan möcüzə nəticəsində sağ qalanlar bir-bir  görünməyə başladı; beş

nəfər, ölümün pəncəsindən qurtulmuş beş döyüşçü!..

Atəş kəsilmişdi - yəqin hamımızın qırıldığını güman edib daha atmırdılar. Buradan sağ-salamat qurtulmaq həqiqətən də möcüzəydi. Bizlərdən kiminsə anası namaz üstündəymiş! Atəş kəsildiyindən ölülərimizi rahatca torpağa tapşırmaq üçün imkan yaranmışdı. Belə vəziyyətdə yüksəklikdə yubanmaq, ləngimək olmazdı. Həlak olanları arxa cəbhəyə daşımaq mümkün deyildi. Söz verilən kömək isə gəlmək bilmirdi ki, bilmirdi.

Hər qarışı qanla yuyulan, hər an ölümə qoynunu açan bu torpağın meşələri, çölləri, dərə-təpələri maral, ceyran üzünə, qırqovul, bildirçin, kəklik hətta sərçə civiltisinə həsrət qalmışdı. İndi onların yerinə buralarda tüğyan eləyən özündən müştəbeh, arxayın, heç top səsinə, güllə yağışına da məhəl qoymadan isti qan iyinə yığışan qarğa-quzğunlar başımız üstündə dövrə vururdu. Onlara aman verməк olmazdı.

Vahid, hava ələlbət qaralmamış həlak olan uşaqları dəfn etməyi məsləhət gördü.Ürək ağrısı və göz yaşlarıyla döyüş yoldaşlarımızı torpağa tapşırdıq. Güllə atmasaq da papağımızı çıxarıb döyüş yoldaşlarımıza son ehtiramımızı bildirdik. Belə adsız yüksəkliklərdə görəsən neçə qəhrəman oğullarımız yatır?!

Qulağımız olan rabitəçi Tapdıq, gözümüz olan bələdçi Mübariz həlak olduğundan ətrafla əlaqə tamam kəsilmiş, hansı istiqamətdə gedəcəyimizi də dərk edə bilmirdik. Gümanımız bir Yaradana qalırdı.

Gecə düşən kimi salamat qalmış bir neçə darağ patronu, silahımızı götürüb dərəyə endik, qayalıq boyu axan dağ çayında əl-üzümüzü yuduq, balaca rahatlaşandan sonra kor-koranə yola düşdük. Arientiri itirmişdik. Yol bizi dalınca aparırdı.

Özüylə dağların soyuğunu, sızağını gətirən bu dəlisov çayın qayalardan qopan daş parçalarına çırpınaraq atılıb düşən ləpələri köpüklənə-köpüklənə axdıqca gözlərimizdən tökülən sərsəm yuxunu qovub yox edir... İçimizə dolan acılar isə ağır yükə dönüb belimizi bükür, addımlarımızı karıxdırırdı...

Gözlənilməz itkilərdən sonra həyatın nə qədər dözülməz olduğunu hər birimiz yaxşı dərk edirdik. Heç kəs danışmırdı. Dərdimizi dağlara desəydin yerindən oynardı, bəlkə heç dözməzdi bu dərdə, əriyərdi dağlar. Biz dağdan da möhkəm idik, daş bağladığımız ürəyimizdə daşıyırdıq bu dərdi, ürəyimizdə...

Bələdçimiz olmadığından, kor-koranə getdiyimiz yolun harda bitəcəyini güman etmək belə mümkünsüzdü. Sağ qalanların hamısı buralara nabələd idi. Nabələd adam isə lap günün günorta çağı da kor kimi olur.Yollar isə adamla danışmır.

Hava qaraldıqca soyuq iliyimə işləyir.Yadıma nəsə şirin bir xatirə, ürək qızdıran bir söz salmaq istəyirəm. Başım bu dağlar kimi dumanlıdır, heç nə yadıma düşmür... Birdə ki, nəyi yada salaydım axı? Ha eşələndim, ha vurnuxdum, dağınıq xatirələrimin içində ürəyimi göynədən ağrı-acıdan, göz yaşlarından savayı bir şey tapmadım.

Gözlərim qarşısında itirdiyim yoldaldaşlarımın yaddaşıma hopub qalmış sifət cizgiləri görünür. Sanki çiyin-çiyinə addımlayırıq. Bir neçə gün əvvəlki söhbətimiz yadıma düşdükcə Əlibəyin kəlməbaşı işlətdiyi "cigərüü yeyim" deməsini lap apaydınca eşidirəm.

-"Cigərüü yeyim, bağışla... qorumadım özümü."

- Sənə min dəfə demişdim, dəlilik eləmə!..."dava-dava" oynamırsan e, burdakı güllələr doğruçudur, sən öl-mən ölüm qanmır.
- Cigərüü yeyim, bir güllə maa neyniyəcək ha?!...
- Axmaq-axmaq danışma! Sənin ölən vaxtın deyil. Sənin tay-tuşun texnikumda, institutda oxuyur, qız sevir, görüşə gedir, sənsə gör nədən danışırsan.
- Mən də oxuyurdum daa, ciyərüü yeyim, Politexdə, ikinci kursda. İstədiyim qız da var. Çox dedilər: " Dava sənlik döyül". Dözəmmədim. Qeyrətim götürmədi... İnstitut cəhənnəm, qoy dava qurtarsın, ciyərüü yeyim, bir toy çaldıracam ki, səsi göyləri titrətsin!"

Yaşını bilməyən, özünü tanımayan hər kim olsaydı Əlibəyə yeniyetmə, cavan deməzdi. Bircə il yarım nə imiş ki, onu bu qədər böyütmüşdü, yaşlandırmışdı?! Danışanda da ahıl kişilər kimi "qocafəndi" danışırdı. Əvvəllər bu barədə düşünməsəm də, indi, Əlibəyi torpağa tapşırandan sonra, yenə də o deputatlar yığılıb iclas keçirdiyi binanın qarşısındakı mitinq, ora qışqırmaqçün yığışıb on-onb eş adamı döyüşə yola salandan sonra hələ də çoxu bir əlində siqaret, bir əli havada nəyisə tələb edən millət gözümün qabağından ötüb keçdi... Şəhərin küçələrində şıdrığı al-ver edən demokratik ölkənin azad vətəndaşlarının bağırtısını eşitdim; döyüşə, Vətəni azad etməyə səsləyən çağırışlarını yox,"Gəl mala!... Şok endirim!... İkisini alana biri havayı!..." bağırtısını və başa düşdüm ki, Bakıyla Qarabağın arasında iki dünya qədər məsafə varmış. Bu məsafəni qət etmək üçün hələ lazım olan heç bir nəqliyyat vasitəsi icad edilməyib.
- Sənin nə yaşın vardı ki?!...Lənətə gəlsin belə müharibə!

- Kimnən danışırsan, ay Rüfət?

Vahidin qəfil sualı məni xəyaldan ayırdı.
- Heç... - deyib dayandım. - Əlibəy düşdü yadıma. Uşağın heç bığı da əməllicə çıxmamışdı. Lap sütül oğlan idi... Torpağı nurla dolsun!

Qəhər məni boğurdu, lap zar-zar ağlamaq istəyirəm. Vahid kövrəldiyimi hiss etdi və ağır əlini çiynimə qoyub:
-Gəl, - dedi ,- bir az oturaq. Uşaqlar da yorğundu...

Silah-sursatımızı qayaya söykəyib şaqqıldayıb axan çayın rütubətini canına çəkmiş sal daşların üstündə çiyin-çiyinə söykənib oturduq. Sanki, sağ qaldığımız üçün utanırdıq, göz-gözə gəlmək istəmirdik. Hamının üzündən kədər yağırdı.

Soyuq, aclıq da bir tərəfdən öz işini görürdü. Bir balaca qızınmaq, heç olmasa, nəm çəkmiş paltarlarımızı elə üstümüzdəcə qurutmaq üçün ətrafdan ağac kötüyü, çör-çöp toplayıb tonqal qalamaq olardı, amma, harda qərar tutduğumuza tam əmin olmadığımızdan risk eləmədik. Əllərimizi əllərimizə sürtüşdürməklə kifayətlənirdik.

Gecənin zülmətində, çay qırağı ayağımızı yara eləyən daşlarının üstüylə nə qədər yol getmişdik, bir Allah bilir.Yorulub əldən düşmüşdüyümüzdən heç olmasa səhər açılana kimi bir az mürgü döymək, gözümüzün acısını almaq pis olmazdı...

Buna nə mürgüləmək, nə çimir vurmaq demək olmazdı. Nə qədər istəsəm də gözlərimi yumub yuxunu öldürə bilmirəm ki, bilmirəm.

O gün - Şahbazın Gəncədən qayıtdığı gün - eşitdiklərimlə dünənki hadisənin bir əlaqəsi olduğunu düşünur, qəlbimi didib parçalayan şübhələri, qara fikirləri özümdən uzaqlaşdırmağa çalışırdım. Şahbazın görüb eşitdiklərindən belə çıxırdı ki, arxa cəbhədə - Bakıda, Gəncədə, ətraf rayonlarda yaman hərc-

mərclik yaranıb; heç bir təmənna güdmədən, qeyrətlə döyüşən , canından keçən oğullara kömək etmək əvəzinə, hərə bir partiya yaratmaqla məşquldur, bəzi rayonlarda hədə-qorxuyla, silah gücünə rəhbər işçiləri devirir, mənəm-mənəmlik, xaos baş alıb gedir, hakimiyyət çevrilişi hazırlanır, bir sözlə, hərənin ağzından bir avaz eşidilir. Demək belə çıxırdı ki, arxa cəbhədə hegemonluq edənlərin adamları ön cəbhəyə də daraşıb, ara qızışdırmaq, narazıçılıq yaratmaq, qardaşı-qardaşla üz-üzə qoymaq üçün dəridən-qabığdan çıxırlar. Ön cəbhədə istədiklərinə nail olmaq üçün döyüş bölgələrində hərc-mərclik yaratmaq ən asan yol idi axı?! Həm də ən iyrənc! Murdar siyasətin azğın qulları öz əqidəsinə analarını da qurban verər, nəinki torpağını!

(Bu millət nə vaxta qədər rayon-rayon, kənd-kənd, küçə-küçə bölünəcək, ilahi ?!...)

Bizə kömək gələcəyinə söz vermişdilər, amma gəlmədi. Ona görə də itkimiz çox oldu. Sanki bizi bilərəkdən ölümün cənginə vermişdilər. Niyə ?! Bəlkə Bozqurda görə? Son vaxtlar ştabdakı polkovniklə sözü düz gəlmirdi. Lənətə gəlsin bu iyrənc siyasət! Bəlkə bilmədiyimiz çox şeylər vardı?

Bilmirəm.Bircə onu bilirəm ki, gecənin sükutunu pozan bu balaca dağ çayı lap cəhənnəmin Qıl körpüsünə, biz isə kor yolçulara bənzəyirik. Hara aparacaqdı bu yol bizi?!

...Dərə boyu çökmüş ağ duman üstünə qüssə ələnmiş uca dağların arxasında doğan yaz Günəşini bizdən ciddi-cəhdlə gizləyirdi.

Cəbrayıl kişiylə Cavid kəşfiyata çıxıb yol-irizi öyrənmək üçün gözdən itib dumana qarışan vaxtdan bir saat keçirdi. Onlar qayıdana kimi toparlanmaq lazım idi. Kimi gərnəşir, kimi üzünə soyuq su çiləyirdi. Mən silahımı götürüb qalxmaq istəyəndə addım səsləri eşitdim. Qulaq verdim. Duman seyrəldikcə ağır addım səsləri yaxınlaşırdı. Nəhayət Cavid göründü, sonra da Cəbrayıl kişi.”Nəhayət gəlib çıxdılar. Bəs silahları hanı bunların? Deyəsən axı qonaqlarımız da var?”...

Duman seyrəldikcə hər şey aydın oldu: onları əsir götürüblər.

Avtomatlarını Cavidlə Cəbrayıl kişiyə tuşlamış erməni döyüşçülərindən biri rusca üstümüzə bağırdı:

-Silahları atın!...

Müqavimət göstərməyin yeri yox idi. Getdikcə çoxalan erməni döyüşçüləri bizi dövrəyə aldılar. Beş dəqiqə keçmədi hamımız hədəfə döndük. Belə çıxırdı ki, öz ayağımızla düşmən mövqeyinə gəlib çıxmışıq?! Öz torpağımızda azmışdıq.

Tankist gödəkçəsi geymiş, qoluna narıncı lent düyünləmiş iki saqqalı cavan silahlarımızı toplayıb dumanda yox oldu.

Avtomatın qundağıyla kürəyimizə, qolumuza döyəcləyərək bizi qabaqlarına qatıb qərb istiqamətində apardılar. Kefləri kök ermənilər gülə-gülə, gah erməniycə, gah da rusca bizi təhqir edir, söyüş söyürdülər. Dişimiz bağırsağımızı kəsirdi.

Günəş diksindikcə duman seyrəlib yox oldu. Dağlar göründü. Elə bil yad nəfəslərdən boğulurdu dağlar. Bizim kimi.

Qəribədir, bizdən fərqli olaraq ayağımızın altındakı bu torpaqda onlar özünü daha inamlı, daha xoşbəxt hiss edirdi.

Geniş taladakı uçuq fermaya çatanda dayandılar. Bizi cərgəyə düzdülər. Kimisə gözləyirdilər elə bil.

Diqqətlə ətrafı nəzərdən keçirdim; bura fermadan çox yığcam, səyyar hərbi bazaya oxşayırdı; bir neçə top, “Qrad”,

iki tank, uçuq binanın sağında qurulmuş iri çadır vardı. Təzəcə yuyulmuş əsgər paltarları ipdən asılmışdı. Soyutma ət, qovrulmuş soğan iyi gələn səyyar mətbəx qazanları buxarlanırdı ...

İlk baxışdan yaşlı görünən iki zabit çadırdan çıxan kimi döyüşçülərdən biri onların qarşısında təzim etdi, sonra nisbətən yaşlı zabitin qulağına nəsə pıçıldadı. O da gülümsünüb saqqalını qaşıdı, əvvəlcə ermənicə, sonra da rusca bağırdı:

-Ara, nə utanmaz adamsız... Öz ayağınızla gəlmisiz ki, Suren, öldür bizi, haa?! Ara, bəsdi də, bəsdi... Sizdə necə deyirlər, hə, keçinin əcəli çatanda özünü çobanın çomağına sürtər.Neujeli başa düşmürsüz ki, bu sondu?!

Cavidgili əsir götürməsəydilər, təsadüfən üz-üzə gəlsəydik, məncə, onlarla bacarardıq. Bayaq gözucu saymışdım - cəmisi on dörd nəfər idilər.

-Sən də qanmırsan? Ara, sən ki, cavansan, yerlisən?!

O istehzayla bir-bir bizi süzüb Cavidin qarşısında dayandı.

Cavid qızarmış gözlərini zabitin gözlərinə zilləyib acıqla:

-Qanmaz özünsən!-dedi.

Söz onun ağzından çıxar-çıxmaz zabit təpiklə qasığından elə vurdu ki, Cavidin “ıııııyy...” eləyib ikiqat olmasıyla saqqallıların avtomatları döyüş vəziyyətinə gətirməsi bir oldu.

-Tvoyu mat!... - deyib, qəzəbindən erməniycə də bir neçə söyüş döşədi. Dili başa düşməsək də səsinin tonundan pis söyüş olduğu bilinirdi. - Yaxşiliq başa düşmur da bu musalman. Ara, sənun arvadun yoxdu? Nə var burda, ged evina, eşiyina, gir arvadin qucağına...Ha, burda nə var?!.. Dalisan?...

Dəliqanlı Cavid də özünə görə deyildi, balam. Nifrət dolu baxışlarını kinayə ilə onu süzən zabitin düz gözünün içində oynatdı. Qəzəblə zabitin üstünə şığıyanda yaxında dayanmış silahlı erməni avtomatın qundağıyla onun sinəsindən vurdu. Qəfil zərbədən geriyə səndərləyən Cavid:

-Öz arvadından xəbərin var? - bağırdı.

Hamımızı heyrət bürüdü.Yəqin ki, zabit sağ əlini havaya qaldırıb “dur” komandası verməsəydi halımızın necə olacağı məlum idi. Suren dişlərini qıcıdaraq ağrıdan zarıldayan Cavidin saqqalından tutub yuxarı qaldırdı.” Zıpa balası zıpa, hələ bir hürürsən da?!” deyib, üzünü yekəpər, bədheybət bir erməniyə tutub ağzını büzdü :

-Bu gədə heç xoşuma gəlmir, ha...

-İndi başa salaram!...- Əsl cəllada oxşayan həmən yekəpər, deyəsən komandirinin nəyə işarə etdiyini anladı. Sinəsini irəli verib xüsusi bir jestlə yoğun, tüklü boynunu şıqqıldadaraq qollarını havada oynatdı, Cavidin bir addımlığında dayanıb bərk-bərk çiyinlərindən yapışdı. Gözlənilmədən kəllə vurub onun burnunu partlatdı. Zərbə o qədər güclü idi ki, qığırdaqların şaqqıltısını eşitdik. Bir anda Cavidin sifəti al qırmızı qana bulaşdı. O, dayanmadan, ayı pəncəsinə bənzər yumruğuyla sifətinə zərbələr endirir, Cavid də şıddətli ağrılardan qovrulurdu.

Suren özündən razı halda aralanıb çadıra tərəf getmək istəyəndə Cavidin bu bədheybətin əlindən salamat qurtarmayacağına əmin oldum. Onun bu iztirabına dözə bilmirdim.Özümdən ixtyarsız qışqırdım:

-Bəsdi !...Bəsdi!...

Bərəlmiş gözlərini qan tutmuş bədheybət mənə sarı çönüb ”İndi sənin də payını verərəm” deyirmiş kimi baxdı. Zabit də çevrilib səsin hansı tərəfdən gəldiyini aydınlaşdırmaq üçün göz gəzdirdi. Şəhadət barmağını irəli uzadıb dedi:

- Burda komandanı mən verirəm! Bağırma! ...

Sonra Cavidi şi-lküt eləyən yekəpər erməniyə üzünü turşutdu, bayaqdan dinib-danışmayan zabitə azərbaycanca dedi:

-Ara, Armen-can, bu Vahanda heç insaf yoxmuş haa? Ara, adam "qonşusunu", yaxın qonşusunu belə incidər ?! Ha-ha-ha! Xaça and olsun, bir tarafdan da duz eleyir, bu türklərin qanı bizə halaldı da. Düz demirəm? – Səsindəki istehza, iyrənc təkəbbür aydınca duyulurdu. Vahan dediyi o zalımın gözlərini döyməyindən başa düşdüm ki, o azərbaycan dilini bilmir, deməli zabit sadəcə onlara deyib bizə eşitdirir. Bir qədər dayanıb baxandan sonra rusca əlavə etdi. - Onu aparın fermanın dalına.

Vahan əldən düşmüş Cavidin sırıqlısının boynundan tutaraq uçuq fermanın arxasına apardı. İki erməni də qasığını qaşıya-qaşıya onun dalınca getdi.

Bu anda zaman dayandı bizimçin."Onu niyə apardılar, güllələməyə? Yazığın başına nə oyun açacaqlar orda?" Yerimizdəcə donub, hər an açılacaq güllə səsini gözləyirdik. Xeyli keçdi, amma güllə səsi eşidilmədi...

Bu müsibətə dözə bilmirdim. İçimdə bir tərəddüd olsa da, artıq nə baş verəcəyini belə düşünmədən zabitin üstünə yeridim.

-Sən, - dedim, - sən vəhşisən! Düşmən də olsaq, biz qafqazlıyıq axı?! Bir vaxt can verən erməni uşağını ölümdən qurtaranda bilsəydim ki, o da böyüyüb sənin kimi olacaq... axx, onu bu əllərimlə boğardım onda! Bax, bu əllərimlə!...

Hələ də güllə açılmadığından fermanın dalında nələr baş verdiyini təsəvvürümə belə gətirə bilmirdim. Amma hamımız hiss edirdik ki, nəsə iyrənc iş tuturlar, yoxsa atəş çoxdan açılmalıydı.

Suren tapancasını çıxaran kimi onu gicgahıma dirəyib bağırdı:

-Kəs səsini, sukin sın!...

Mən isə susmur, qeyri-iradi, illər öncə Bakının "Ermənikənd " məhəlləsində al qana bulaşmış oğlanı necə xəstəxanaya çatdırdığımı, gecəni sübhə kimi başının üstündə oyaq qaldığımı danışırdım. Elə bil intuisiyam gözlənilməz nəyinsə baş verəcəyinə işarə edirdi, lakin vəziyyətin hansı istiqamətdə dəyişəcəyindən asılı olmayaraq, "onsuz da axırı ölümdü, nə olacaq-olacaq", deyə fikirləşərək nəfəs almadan tanımadığım erməni uşağını necə xilas etdiyimdən bəhs edirdim.Təki Cavidə bir şey etməsinlər...

Bu dəm, bayaqdan susaraq heç bir olaya baş qoşmayan ikinci zabit Surenə yaxınlaşıb qolundan tutdu. Pistoleti güclə əlindən alıb onu sakitləşdirdi. Mənə baxdı. Sanki illərcə axtardığı adamı tapıbmış kimi gözləri parıldadı, dodağı qaçdı. Şirin Bakı ləhcəsiylə soruşdu:

-Kim idi o uşaq, ara, tanıyırdın onu?

Özümü itirdim. Deyəsən, mənim yalan, yoxsa düz danışdığımı yoxlayırdı. Bayaq, Suren ona müraciət edəndə adını demişdi: Armen. Nə olsunki? Bizdə Məmməd çox olan təki olarda da iki nəfərdən biri Armen deyildimi? Bəs niyə birdən-birə maraqlanırdı? Armen barəsində Marqodan eşitdiyim məlumatlar olmasaydı, ikibaşlı sualından narahat olardım, elə başa düşərdim ki, o, uşağı bıçaqlayan Karapetin, ya da onu tanıyanlardan biridir. Yox, Karapet belə mülayim soruşmazdı. Bəlkə heç soruşmazdı da. Təsəvvür edirsən, illərlə dustaq həyatı keçirəsən, indi də, bu şəraitdə biləsən ki, bıçaqladığın gədə ölməyib, özü də onu xilas eləyən durub səninlə üz-üzə, hələ bununla lovğalanır da...Yox, Karapetin

yerinə kim olsa sorğu-sualsız təpəmə bir güllə vurar, vəssalam! Bəlkə Marqoya evlənmək vəd edib yoldan çıxaran, zorlayan, sonra da aldadıb Rastova qaçan Armen indi mənimlə üzbəüz dayanıb?! Odurmu? Bəs qardaşının adı nə idi?

İlahi, kömək ol! Bəlkə də bu sualın cavabından bizim taleyimiz asılı idi?! Bəlkə də yox. Təki onun adını düz deyə biləydim.Yadına sal, Rüfət, hə, yadına sal!...

-Ara, səninləyəm ha. Adı nəydi?...

Yadıma düşəndə uşaq kimi sevinsəm də bunu biruzə vermədim. Sakitcə:

-Ra-fik...-dedim. - Hə, Rafik idi.

Zabit əlini çiynimə qoyub məni başdan ayağa süzdü.

O da bizim kimi yuxusuz, yorğun görünürdü. Marqo onu başqa cür təsvir etmişdi.Yəqin illər öz işini görmüşdü, ya da lənətə gəlmiş müharibə. Məndən beş-altı yaş böyük olsa da, işığı solmuş gözlərinin altı tuluqlanmış, yeldən, şaxtadan çatlamış cod dərisi, papağının altından qıvrılan saçlarına, illərlə qırxılmayan saqqalına düşən dən onu çox yaşlı göstərirdi. Sakitcə:

-Rafik mənim qardaşımdı, - dedi.

Daha bir kəlmə də demədi, Surenin qoluna girib çadıra tərəf apardı. Əl-qol ata-ata nəsə götür-qoy edir, danışıqlarını başa düşməsək də, hərəkətindən hiss olurdu ki, Suren onunla razılaşmır. Xeyli vaxt ötdü. Suren, nəhayət, bayaqdan bizə nəzarət edən saqqallılardan birini hayladı. Qaça-qaça ona yaxınlaşan döyüşçüyə göstəriş verdi. Bir azca keçmişdi ki, həmən döyüşçü bizi tərs-tərs süzüb gözdən itdi.

Ürəyimizdən qara qanlar axırdı.”Bu saat bizi güllələyəcəklər, boş yerə danışdım bu əhvalatı” deyə fikirləşdim. Bir tərəfdən Caviddən soraq gəlmirdi, o bir tərəfdən də zabitlərin bu cürə səssizliyi şübhələrimizi üst-üstə yığırdı. O gədə niyə bizə tərs-tərs baxıb keçdi? Əslində hər biri bzi diri-diri didib parçalamağa hazır idi. Amma duruşlarında, baxışlarında bu arzularının puç olduğu aydın sezilirdi. Ola bilsin ki, kiminləsə bizi dəyişəcəkdilər, yoxsa bizimlə məzələnməzdilər, çoxdan o dünyalıq etmişdilər. Son vaxtlar ədalətsiz dəyişmələr tez-tez baş verirdi; bir azərbaycanlıya on, on beş erməni dəyişirdilər. Bu nə qədər ədalətsiz və məntiqsiz olsa da mən bu cür dəyiş-döyüşə özlüyümdə belə məna verib toxtamışdım: deməli onlar da dərk eləyirlər ki, bizim bir nəfərimiz on erməniyə dəyər!...

Uçuq ferma binasının tinindən sırıqlısını geyinə-geyinə birinci, o yekəpər çıxdı, sonra ust-başı toz-torpağa bulaşmış Cavidi sürüyə-sürüyə gətirən iki nəfər göründü. Onu divarın dibinə söykəyib bizə sarı baxıb qımışdılar. Ona yaxınlaşmaq istədik, qoymadılar.

Sifəti eybəcər hala düşmüş Cavid elə halsız və pərişan görünürdü ki... Diqqətlə baxanda sinəsində quru mal peyininə qarışmış nəm otların izi hiss oludu. Başını qaldırıb bir dəfə də bizə tərəf baxmadı.

Bəs indi nə baş verirdi? İki döyüşçü səyyar mətbəxə yaxınlaşdı. Biri çömçəylə iri qulplu qazana parça-parça ət çəkir, o birisi də yeşikdən çörək çıxarıb doğrayaraq padnosa yığırdı. Beş-on dəqiqə keçmədi ki, qazan da, podnos da bizim qarşımızda, təzə göyərməsinə baxmayaraq ayaq altında tapdaq olmuş otun üstündə göründü.

Qazanı gətirən istehzayla baxıb, rusca :

-Bağışlayın, - dedi,-çəngəl-bıçağımız yoxdu. Əllə yeməli olacaqsız. - Sonda dilucu əlavə etdi.-Nuş ...

Bayaq bizə tərs-tərs baxan erməni də əlində bir butulka və iki stəkan bizə yaxınlaşdı: ” Zoğal arağıdı. Komandir

göndərib" - deyib, çörək podnosunun yanına qoydu.

Əvvəlcə "süfrə"yə heç birimiz yaxın durmaq istəmirdik. Aclıq nə qədər güc gəlsə də, belə "qonaqpərvərliyin" nəylə nəticələnəcəyini fikirləşirdik. Müharibədən bəhs edən hansısa film yadıma düşdü. Faşıstlər günlərlə ac qalmış sovet əsirlərini güllələməmişdən qabaq guya humanizmlik göstərib yedizdirib-içizdirirdilər. Və bu onlara xüsusi zövq verirdi.

Suren " UAZ" a minib gedəndən sonra əllərini ovuşdura-ovuşdura çadırdan çıxan Armen bizə yaxınlaşıb butulkanın ağzını açdı, stakanları yarıyacan doldurdu.

-Yeyin... Ara, qorxmayın, kim istəsə içə bilər... - deyib, arağı başına çəkdi. Qazandan iri bir tikə götürüb dişinə çəkdi.Yeyə-yeyə başı ilə işarə etdi ki, yaxın gəlin. - Cöngə ətidi, öz malınız kimi yeyin.

Şahbaza işarə etdim ki, ətdən, çörəkdən Cavidə aparsın. O cəld qazana yaxınlaşıb bir tikə ət götürdü, qoydu yarım çörəyin üstünə və Cavidə tərəf getdi. Həm də fürsətdən istifadə edib öyrənərdi yazığın başına nə oyun gətiriblər. Duyuq düşən nəzarətçı tez Şahbazın qabağını kəsdi, yeməyi ondan alıb Cavidin qucağına qoydu.

Uşaqlar bir-bir qazan ətrafına toplaşdı. Vahid nə fikirləşdisə ac qarına çappa stəkandakı arağı birnəfəsə uddu. Armen yenə araq süzsə də, daha heç kəs içmədi. Hamı yeyirdi. Təsəvvür edirsən, əllərimiz, üst-başımız it günündə, düşmən süfrəsində "ziyafət"də.

Mən elə hey fikirləşirdim ki, yəqin qarnımızı doydururlar ki, taqətimiz olsun, əsirlər dəyişdiriləncən ayaqda olaq. Deməli, bayaq o bir zabitlə də bunu müzakirə edirlərmiş.

Göz altı Cavidi süzürdüm; yeməyə gözünün ucuyla da baxmadı. Başını sinəsinə söykəyib durmuşdu. Sındırmışdılar onu...

Armen son tikəsini udub başını mənə sarı əyəndə bütün düşündüklərim alt-üst oldu.

-Ara, sabax bayramdı, Stepanakertdən maşın gəlməyəcək. Baxtiniz var, klyanus!...Rafik canı...

Artıq bilirdim ki, bu iki zabitdən başqa heç biri bizim dilimizi başa düşmür. Deməli, döyüşçülər nə Bakı, nə də Qarabağ ermənisiydilər. Elə Armenin də arxayın-arxayın danışmağı buna sübut idi. Ağlında nə vardı, bilmirdim. Amma yeganə qardaşını ölümdən qurtardığıma görə bizə nəsə yaxşılıq edəcəyinə əmin idim - gözlərindən oxuyurdum bunu!

Astadan mənə dedi ki, axşam düşəndə gəldiyiniz yolla qaçmağınıza bir saat vaxtınız olacaq. Uspet eliyərsiz? Axşam məndən başqa hamı kəndə gedəcək. Bayrama. Mənim siqnalımı gözləyin, ara.

Sonra keşikçiyə əmr elədi ki, bizi tövləyə salsın.Vahidlə Cəbrayıl kişi Cavidin qoluna girib bizimlə ifunət qoxuyan tövləyə girdi. Sınıq-salxaq taxta qapı arxamızca bağlanandan sonra hamımız Cavidi dövrəyə aldıq.

Köhnə fermanın bu hissəsindən nə vaxtsa tualet kimi istifadə etdikləri tin-bucağa atılmış əzik-üzük qəzet parçalarından, kəskin sidik qoxusundan hiss olurdu."Görəsən məzələnmir ki, mənimlə? Düşdüyümüz vəziyyətdən istifadə edib dolamır ki, bizi?" İyrənc qoxu ödümüzü qarışdırsa da , yediyimiz tikələr boğazımızda ilişib qalsa da əgər Armenin dedikləri düz idisə buna da dözmək olardı. Ağır-ağır nəfəs alıb ermənilərin kəndə gedəcəyi anı gözləməkdən başqa çarəmiz qalmamışdı.

Cavid bir küncə qısılıb susurdu. Gözlərini bizdən gizlədir, ufuldayırdı.

Neçə saat keçmişdi, Allah bilir. Bayaqdan, üst-üstə pərçim edilmiş taxtaların arasından ətrafı nəzərdən keçirən Şahbaz qəfil bizə sarı çönüb pıçıldadı:

-Yığışırlar deyəsən... Köçürlər elə bil.

Tez qapıya yaxınlaşdım. Doğrudan da yığışırdılar. Deyəsən çox əziz bayram idi bu bayram, hətta əsirlərinin olduğunu da unutmuşdular.Yarım saat keçmişdi ki, bayaqkı hay-küydən əsər-əlamət qalmadı. İnanmayacaqsınız, elə mən də inanmazdım. Armenin verdiyi sözə əməl edəcəyinə ümid etsəm də , “ara, vaxtdi” deyib qapıya yaxınlaşana qədər şübhələrim bu ümidimi üstələyirdi.

Taxta qapı cırıldayıb açılanda axşamın soyuq mehi üst-başımıza hopmuş nəcis iyini qovmağa başladı...

O, qapının böyründə uzanıb xoruldayan cavan əsgərə baxa-baxa bizi tələsdirir, silahlarımızın yerini göstərir, nəsə dodağının altında danışırdı. Hiss edirdim ki, fikrində qəti də olsa, narahatdır. Bəlkə də özünü bağışlaya bilmirdi.

Şahbaz tez-tələsik hamının silahını çiyinlərinə keçirdi. Vahidlə mən Cavidin qoluna girib gəldiyimiz yolla çaya tərəf üz tutduq.

Armen aqibətinin necə olacağını fikirləşə-fikirləşə arxamızca baxıb astadan dedi:

-Bakıda görüşərik, ara...

“Sən bunun iştahasına bir bax?! “ deyə fikirləşirdimsə də özümün Bakını görəcəyimə şübhə edirdim.

Təşviş, qorxu, inamsızlıq yaxamızdan hələ də əl çəkməmişdi. Bəlkə bu bir oyun idi? Bizim əlacsızlığımızdan istifadə edib aldadırdı bizi, bayram-zad da yoxdu, hamısı hardasa gizlənib, məzələnirlər bizimlə? Heç avtomatlara da düz-əməlli fikir vermədik. Maqazinlərin boşaldıblar yəqin. Bax, indicə gizləndikləri dəlmədeşikdən çlxacaqlar, şaqqanaq çəkə-çəkə hammımızı it kimi qıracaqlar...

Çayın kənarına çatana kimi saniyəbəsaniyə arxadan üstümüzə yağacağ güllə yağışını gözləyirdim...

***

“ Necə sakit payız axşamıydı, ilahi?! “

Cavid getdikcə ağırlaşırdı, yoxsa, biz yorulub əldən düşmüşdük? Onun sifətindəki qüssə də məni bir yandan üzürdü. Yol - məşəqqətlə dolu bu yol nə qədər üzücü və sonsuzmuş. Əzabı, iztirabı tapdaq edib asudəliyə qovuşmaq üçün atılan hər addım isə inanılmaz cəsarət tələb edirdi.

Qaranlıqda soyuq dağ çayının ən sısqa yerinə çatıb o taya keçdik. Buz kimi su sümüklərimizi də gizildədirdi. Taqətdən düşsək də meşəyə çatana qədər hərəkət etməliydik. Vahid tövşüyür, mən öskürməyə başladım. Bu vaxt Cavid güclə eşidilən səslə dedi:

-Məni burda qoyun, gedin.

Danışdığına görə hamımız sevindik. Bir anlığa dayanıb ona baxdıq: donuq baxışlarına yığılmış məyusluqdan özgə bir şey görünmürdü.

-Axmaq-axmaq danışma. Çatırıq...

-Hara?

-Meşəyə, - dedim. - Meşəyə çatıb dincələrik.

Nə dediyimi anlamayan adam kimi gözlərini döyüb susdu.

Meşənin dərinliyinə girən kimi Cavidi qovaq ağacına söykəyib, biz də nəm otun üstünə leş kimi sərələndik...

***

“Görəsən , yuxudan şirin nəsə var?”

“Şokolad!”

“Başqa?”

“Bal.”

“Heç bal kimi yuxu görmüsən?!

”O qədər...”

“Başqa...

“Qadın”.

"Qadın?"
"Hə, qadın.O, həm baldı, həm şəkərdi, həm də şokolad!"
"Yaman dedin! İndi bir qadının qucağında olmaq üçün hər şeydən keçərdim!"
"İndicə yuxuma gəlmişdi o gözəlçə, diksindirdi yuxumu..."
" Deməli, yuxu hər şeydən şirindi?"
"Ölüm! Ən şirin yuxu ölümdür! İnsan öləndə rahatlanar, öləndə..."

Yuxudan küt bir səsə diksinib ayıldım. Meşənin soyuğu canıma hopub bədənimi keyitmişdi. Qaranlıqda heç nə görə bilmədim. Təkcə biri-birinə sığınmış qoca ağacların çılpaq budaqları xışıldayırdı. Təlaş içində uşaqları hayladım. Birinci Cəbrayıl kişi hövlnak cavab verdi, sonra Vahidlə Şahbaz hay verdi, amma Caviddən səs çıxmadı. Bir də çağırdım. Yerində yox idi. Onu axtarmağa başladıq.

Dərənin dibindən Cəbrayılın xırıltılı, həyacanlı səsi onsuz da biz-biz duran tüklərimi tərpətdi.

-Cavid ?!..

Hamımız səsə tərəf döndük. Özünü vurmuşdu Cavid.

Axı bu necə olub, ac, susuz yuxu bizi necə aparıb ki, onun silah götürdüyünü , özünü vurduğunu görməmişdik?!

Bir-birimizi qınadıq, söyüşdük...

Cavid isə çəkdiyi iztirablardan qurtulduğu üçün rahatlanmışdı. Açıq qalmış gözləri hələ təzə-təzə yarpaqlarını tökən sıx budaqların arasından göydəki təkəm-seyrək ulduzlara sarı dikəlmişdi. Sanki, intizarla bu cəhənnəmdə Günəşin havaxt doğacağını gözləyirdi. O bir daha nə gecələr parlayan soyuq ulduzları, nə də yandırıb-yaxan Günəşi görəcəkdi - Cəbrayıl kişi əlini sifətinə sarı uzadıb onun hədəqəsindən çıxmış gözlərini qapadı...

Yadımızda qala biləcək yer tapdıq. Avtomat süngüsüylə soyuq, yumşaq torpaqda "bu sonuncu olsun!" deyib qəbir qazmağa başladıq. Bilmirəm qəbir qazmağa öyrənmişdik, yoxsa soyuğun təsirindən idimi, Cavidin son mənzilini yaman tez hazırladıq. Vahid yasin oxudu.

Onu torpağa tapşıranda artıq dan yeri sökülmüşdü.Min illər belə Günəş buralarda torpağın üzünü öz hərarətiylə isitsə, qovursa belə onun istisi Cavidə çatmayacaqdı.

Yenə duman üstümüzə çökdü...

## Tanış qoxu

...İtlər hürüşdü, ancaq itlər. Başqa heç bir səs.

Birinci, dərəyə qovuşan üstü kol-koslu, çay daşından hörülmüş divar göründü, sonra həyətində qollu-budaqlı meyvə ağacları olan ikimərtəbəli daş ev, sonra hər iki tərəfini qollu-budaqlı nəhəng ağaclar əhatə edən və elə beş-on addımlıqdan sonra da ağacların qoynunda itib-batan çınqıllı küçə...

"Nəhayət ki!" Görəsən yorucu, üzücü yolumuz bu dərədə bitəcəkdimi?

Gizləndiyimiz yerdən kəndə sarı xeyli baxdıq; bu vaxt kənd oyaq olmalıydı axı?! Sahibsiz qalmış itlərin uzun-uzadı zingildəməsindən savayı nə heyvan-qara, nə də bir insan həniri gəlirdi. Deyəsən kənd köçmüşdü.

Hamımız yorğun olsaq da Şahbaz cavan, həm də diribaş olduğuna görə kəşfiyata göndərdik. Silahını qapıb dərəyə endi. Artıq möcüzəyə-filana inanmırdıq.Yazıq Şahbazı arxadan izlədikcə hamımızın nə halətdə olduğumuzu təxmin etdim: sərxoş adam kimiləngər vura-vura dərəni keçib daş hasarın üstündən həyətə aşdı.

Gözləmək! Nə yorucu və dəhşətli şeymiş gözləmək?! Başqa əlacımız da

yox idi, gözləməliydik. Heç bilmirəm yeriydi, ya yox, amma bu tələşlı vəziyyətimiz kəndçimiz Əfruz arvadı saldı yadıma.

Mən uşaq olanda danışırdılar ki, Əfruz arvadın cüvəllağı bir oğlu varmış Nəbi adında. Nəbi sovetin dövründə, hardasa altımışıncı illərdə gedir Rusiyaya. Orda nə qələt eləyirsə iyirmi beş il iş verirlər Nəbiyə.Yazıq arvad da bundan bixəbər, canını dişinə sıxıb gözləyir, qırx manat pensiyayla bilmir öz hayına qalsın, yoxsa Nəbinin yetimçələrinin...

Yetimlərini dolandırmaq üçün üzünə üz tutub kəndin dükanından, "selpo"nun avtolavkasından xırda-xuruş götürüb deyərmiş ki, vallah, Nəbi qayıdan kimi verəcək borcu. Hamı da elə bilir ki, Nəbi Rusyətə pul qazanmağa gedib. Bir il belə, beş il belə. Borc borc üstünə yığılır, qalır Əfruzun boynunda.

Hə, bir gün kənd soveti, selponun müdüri, sovxozun partkomu gəlir Əfruz arvadın evinə. Xoş-beş, hal-əhval tutandan sonra soruşurlar ki, ay Əfruz bacı, oğlun gələnə oxşamır, nə qədər gözləmək olar axı? Hökümətі ələ salmısan?! Bilməmiş olmazsan, bəlkə başında bir qəzyə-filan var, bizə də de, bilək də?...

Əfruz arvadın öz dərdi özünə bəs idi. Oğlunun sanki gedər-gəlməzə getməsi onu vaxtından tez qocaltmışdı, amma buna baxmayaraq heç kəsin yanında özünü sındırmazdı. Elə hökumət adamlarının da yanında heç halını pozmadan cavab verib ki, a başuza dönüm, yəni hökümət o günə qalıb, o günə düşüb ki, yetimçə Nəbinin beş-on manatına göz dikə? Bir də, dünya dağılmıb haa, gələr daa... Qayıdıb gələr, inşallah, hamının borcun da qaytarar... Səbriniz olsun, başuza dönüm. "Nə qəzyə bazlıqdır, uşağa iyirmi beş il iş kəsiblər, beş il də səsdən məhrum ediblər, yazıq balamı..." Bax, bircə bunu deməyə dili gəlmirdi - udurdu içinə.

Yalan-doğru deyirdilər ki, Əfruz arvad öldü, "selpo" da ləğv oldu, amma Nəbi gəlib çıxmadı ki, çıxmadı. Allaha dua etdim ki, Şahbazın da gəlişi Nəbinin qayıtmasına dönməyəydi.

...Şahbaz hasarın üstündən bizə tərəf əl edənə kimi elə bil zaman nəfəsini içində boğub saxlamışdı. Nəhayət ki, dərindən nəfəs alıb özümüzə gəldik.

Kəndi gecəylə boşaltmışdılar: pəyələrdə heyvan-qaranın ilıq nəfəsi hələ hiss olurdu. Birinci, ikinci, üçüncü həyətə girdik. Tələm-tələsik yığışdıqlarından evlərdən ancaq vacib şeylərin götürüldüyü ilk baxışdan hiss oludu. Amma, yeməyə, ürək toxdadan, mədəmizi aldadan heç nə tapa bilmirdik. Özümüzü Daniel Defonun qəhrəmanları kimi hiss etməyə başlamışdıq. Sanki bu adadan qurtuluş yox idi - labirintə düşüb qalmışdıq, hara getsəydik yenə qayıdıb eyni məkana gələcəkdik. Bu halsızlığın, aclığın xoşa gəlməyən təzahürü idi. Bir yandan da boşalmış evlərdə buranı təzəcə tərk etmiş sakinlərin iyini hiss edir, qarabasmalar yorğun gözlərimizin solmuş işığına kədər qatırdı. Özümə ürək-dirək verdim: "Təki ağlımızı itirməyəydik..."

Nəhayət, nə oldusa, yosma evin kəllə otağına girən Şahbaz sevinərək uşaq kimi bağırdı:

-Qovurğaaa!...Uşaqlar, gör nə qədər qorğa var burda?!...

Onun bağırtısını eşidən Vahid qonşu evin həyətindən hasarı elə oppandı ki, elə bil neçə günün it yorğunu deyildi. Şahbaz divara söykənmiş köhnə mizin altından çıxardığı torbanı sinəsinə sıxıb heykəl kimi dayanmışdı. Hamımız sanki bayram süfrəsinə yığışırdıq. Beş kiloluq düyü kisəsini mizin üstünə qoydu, ağzımız aralı qovurğaya elə

baxdıq, elə baxdıq, elə bil bir kisə qızıl tapmışdıq . Həqiqətən də Şahbazın tapdığı qorğa bu dəqiqə qızıldan da qiymətliydi! İnsan itirdiyi ən əhəmiyyətsiz bir şeyi də tapanda uşaq kimi sevinir. Ona vacib olanı axtaranda buna nail olursa lap çox sevinir mən bilən. Bir də var heç nə itirməmisən, heç nə də axtarmırsan, amma təsadüfən elə şey rastına çıxır ki, elə bilirsən hər an onun həsrətini çəkmisən, onu arzulamısan. Sən belə halla rastlaşmısan, ya yox, deyə bilmərəm, amma Əfqanıstanda başıma gələn bir hadisə çox maraqlı və gözlənilməz olmuşdu mənimçin.

***

1982 ci ilin qışın hansı ayı idi yadımdan çıxıb, Əfqanıstanın şimalında bir aulu çalmalılardan təmizləmək əmri almışdıq. Biz əvvəllər elə bilirdik ki, bu çalmalı dediyimiz düşmənlər partizan kimi bir-bir, iki-bir yayılıb aullara və onları məhv edib sıradan çıxarmaq çox asan olmalıdır. Artıq Əfqanıstanla dərindən tanış olandan sonra dərk elədik ki, yox balam, bizimlə vuruşan bütün aullar düşmənlərdən ibarətdir və bunların əli silah tutan balaca uşaqları da çalmalıdır ki, var... Hə, həmən aula çatanda dəstəmizin komandiri möhkəm-möhkəm tapşırmışdı ki, daxmalara girəndə içəridə lap uşaq, əldən düşmüş qoca da görsəniz ehtiyatlı olaq və nəbadə bir şeyə toxunaq; yerli camaat onların lazımsız əşyasına da kafir əlinin dəyməsinə təcavüz kimi baxdığından belə halları bağışlamırlar. Mən yarızarafat-yarıciddi dedim ki, mən müsəlmanam, kafir deyiləm. Komandirimiz “kafir”liyi özünə götürüb mənə tərs-tərs baxdı, sonra da kinayəylə gülüb cavab verdi:

-Bu sənin alnında yazılmayıb. Müsəlman olduğunu bildirən yeganə yerini səni öldürüb şalvarını çıxarandan sonra biləcəklər. Ha-ha-ha! Başa düşdün, onların gözündə sovetin formasını geyən hər kəs kafirdi, axmaq!

Əlbəttə, bunu heç ağlıma gətirməmişdim.”Baş üstə!” deyib girdik aula. Daxmalar, onları əhatə edən əyri-üyrü hasarlar ağımtıl, bir az sarıya çalan gilli palçıqdan kəsilmiş çiy kərpiclə hörülmüşdü. Boz qaya daşlarıyla döşənmiş dar və biyöndəm küçələr - yoluq toyuğun dalınca qaçan qırmızı xoruzu nəzərə almasaq - bomboş idi.Bizim gələcəyimizdən xəbər tutan camaatın kəndi yenicə, həm də tələm-tələsik tərk etdiyi bəzi həyətlərdə atılmış ev əşyalarıyla yüklü arabaların ilişib qalmasından məlum idi. Bu cür səssizlik aldadıcı ola bilərdi. Təhlükənin qaşla göz arasında olduğunu bir an da yaddan çıxarmaq olmazdı.

Biz döyüşə hazır vəziyyətdə üç-üç bölüşüb daxmalara girir, otaqları yoxlayır, boş olduğuna əmin olandan sonra küçəyə çixib komandirə raport verirdik. İki evi yoxlayıb üçüncüsünə girəndə bütün otağı bürümüş çox tanış ətir burnuma dolub məni məst elədi. Bir anlığa yerimdəcə donub gözlərimi yumdum, bu xoş qoxunu doyunca ciyərimə çəkdim. Andrey mənə baxıb əvvəlcə təəccübləndi, ona tanış olmayan qoxunu duyunca burnunu çəkməyə başladı, bu xoş ətirin hardan gəldiyini öyrənmək üçün yarıqaranlıq otağa göz gəzdirdi, bir şey tapmayanda yenidən mənə baxıb maraqla soruşdu:

-Bu nədiki belə?...

Onun sualı məni düşdüyüm sehirli ətir dünyasından ayırdı, gözlərimi açıb otağa göz gəzdirdim; divarın içində hörülmüş rəflərdə rəngbərəng qədimi çini kasalar, mis qab-qacaq səliqəylə düzülmüşdü. Lap küncdə iç-içə qoyulmuş qar kimi ağ kasanın içində sanki qaranlıq otaqda doğan aya bənzər bir cüt sapsarı

heyvaya gözüm sataşanda onun cazibəsindən qaça bilmədim, ixtiyarsız otağın küncünə atıldım. Bizdən sonra otağa girən, Andreylə məni məst eləmiş qoxudan bixəbər olan leytenant Kostalevski rəfə toxunduğumu görüb cingiltili səslə elə bağırdı ki, əlim havadan asılı qaldı.

-Toxunma!

Onun otağa qəfil girişiylə bağırması bir anda olduğundan quruyub yerimdəcə qalmışdım.

-Heyva...- deyə pıçıldadım, sanki, əlimi tərpətsəydim rəfdəki heyva qumbara kimi partlayacaqdı. - Yoldaş leytenant, bu heyvadı ... qorxmayın...

Boynuma alım ki, mən də yaman qorxmuşdum – "qumbara"dan yox e, zabitin qəfil çıxardığı qulaqbatırıcı səsindən. Onun çığırtısına dəstənin komandiriylə bir neçə əsgər də qaçıb gəlmişdi. Əsəbi halda bir də yadımıza saldı ki, heç nəyə əl vurmaq olmaz, heyvadı-nədi, bilmirəm, zəhərli ola bilər...

Komandir səriştəli hərbiçi kimi düz ehtimal edir, hər şeyə məntiqlə yanaşırdı. Düşmənə etibar etmək axmaqlıq idi.

Komandir yığışmaq əmri verəndən sonra hamı bir-bir daxmadan həyətə çıxdı. Mən bilərəkdən axıra qalmışdım və komandirin ciddi göstərişini bir anlıq unudaraq heç düşünmədən rəfə yaxınlaşıb heyvanın birini götürdüm."Belə gözəli zəhərləməkmi olar?Axmaq adam, sən hardan bilirsən heyva nədir?!"deyib şaraqqıltıyla heyvanın sapsarı yanağından bir yekə dişdəm götürdüm.Heç saniyə keçmədi heyvanın ətirli şirəsi dişlərimin arasından süzülüb dilimin üstünə axdı. Sanki həyatımda ilk dəfəydi heyva yeyirdim, özü də belə iştahayla!...

***

-Nə gözlərinizi döyürsüz? - deyib, Vahid qovurğadan bir ovuc götürüb yeməyə başladı. - Yeyin də... Həə...

Uşaqlar buna bənd imiş. Ovuclar bir-bir kisəyə girib-çıxırdı. Yediyimizi yedik, qalan qovurğanı da ata malı kimi bölüb ciblərimizə doldurduq. Bu qorğanın "göydən düşmə " olduğunu desək də , buğdanı bulaq suyunda yuyub qurudan, onu həvəslə, bayram əhval-ruhiyyəsiylə sacın içində qovuran naməlum qadının canına sağlıqlar diləyib evdən çıxdıq.

Həyatımda ikinci dəfəydi atılmış, yiyəsiz kəndin küçəsiylə addımlayır, amma ilk dəfəydi məcburən evini tərk etməyin nə qədər dəhşətli olduğunu duyurdum. Sahiblərini bir daha görməyəcəklərinə əmin olub boş küçə boyu zingildəyə-zingildəyə veyillənən itlər bizi görəndən sonra bir az sakitləşdilər.

Vahidə baxdım. Ara-sıra cibindəki qovurğadan ağzına atır, yəqin ki, adamı vahiməyə salan bu səssizliyin aldadıcı olduğundan ehtiyat edərək tez-tez ora-bura baxırdı. Ona dedim ki, heç kəs evini könüllü boşaltmaz, onları məcbur ediblər yəqin. Elədirsə, demək ermənilər gec-tez bu kəndə də girəcək, uzaqlaşmaq lazımdır burdan.

Çınqıl döşənmiş əyri-üyrü yolla gəlib axırıncı evin daş hasarının tininə çatanda hamımız yerimizdəcə quruyub qaldıq. Doqqazın böyründə, iri çay daşının üstündə qoca kişiylə qarı oturub, gözlərini də dikiblər yola sarı. (Bu yeri artıq sizə danışmışam. Amma bəzi məqamlar var ki, burda deməliydim. Ona görə təkrar xatırladım o müdhiş anı) Vallah, heyrətdən yerimizdən tərpənə bilmirdik; hamı qaçıb canın qurtarıb, onlarsa geyimli-keçimli, elə bil toya, ya da qonaqlığa getmək üçün hazırlaşıb, kimisə səbirsizliklə gözləyirdilər. Bizi

görəndə heç təəccüblənmədilər. Əvvəlcə salam verib təlaşla soruşdum:

- Ağsaqqal, kənddə heç kim yoxdu, hamı qaçıb, siz kimi gözləyirsiz? Bu dəqiqə ermənilər kəndə "Qrad" yağdıracaq, durun gedək burdan...

Kişi halını pozmadan bizə baxdı. Ağır-ağır dilləndi:

-Bizimki buracanmış...Sən kefini pozma, oğul.

-Ata, - bunu Vahid dedi, - kəndi kim boşaltdı ki? Axı camaata qoşulub niyə getmədiz?

Qoca başını qaldırıb təəssüflə dindi:

-Ay oğul, bu müşkildən Allah da baş açmaz. Biri elə deyir, biri də belə. Kimə inanasan, a başına dönüm? İndi hərə öz canının hayındadı.

Vahid təkidlə qocanın qolundan yapışdı.

-Dur, - dedi, - dur, gedək burdan. Qurban olum, dur!

Kimə deyirsən, inadkar qoca qarısına bir az da sıxılıb təmkinlə cavab verdi:

-Oğlum söz verib, indilər gələr. Dünən çıxıb Bakıdan. Gəlib bizi aparacaq.

Yalvarıb-yaxardıq ki, yollar bağlıdı, ay bəxtəvər, aləm qarışıb biri-birinə, it yiyəsin tanımır, bura heç vertolyot da uçmur, oğlun necə gələcək, nəylə gələcək?!...

Pəhlavan cüssəli, öz aramızda "Əydaha" deyə çağırdığımız Vahidə elə bil güc gəldi, cəld arvadı qucağına alıb, bu inadkar, nurani kişinin körpə uşaq kimi necə sadəlövh olduğuna acıya-acıya :

-Mən, - dedi, - ananı qucağımda lap Bakıya qədər aparacam! Daşı tök ətəyindən, ata! Dur, səni and verirəm Allaha, dur, dur !

Kişi əsasını zəhmlə yerə vurub Vahidin qucağına körpə kimi sığınan qarıya tərs-tərs elə baxdı ki, yazıq arvad, bir göz qırpımında onun qolları arasından sıyrılıb kişinin böyründə qısılaraq yumağa döndü.

-Ay sizə qurban olum, siz öz halınıza yanın. Bizim bir ayağımız burdadı, biri də gorda. Cavansız, yazıqsız, qaçın, canınızı qurtarın! Bax, bu evin tinindən dərəylə düşün. Gedin günçıxana sarı. Gedin! ...

İndi dünya görmüş kişi özünü, qarısını unudaraq bizim halımıza yanırdı, bizə yazığı gəlirdi. Kişi nə işarə elədisə, üzündən nur tökülən qadın bayaqdan nəzərimizdən yayınmayan, tanış qoxu gələn boxçanı hasarın üstündən götürüb Vahidə uzatdı.

-Götür oğul, - dedi. - Sizin qismətiniz imiş. Dünən özüm bişirmişəm, çörəkdi, təndir çörəyi.

Nə qədər etiraz etdiyimizə baxmayaraq çörək boxçasını götürməyimizi təkid edib dedi:

-Bəlkə də bu ömrümə yazılası ən böyük savabdı, ay oğul! Halal xoşunuz...

Ağsaqqal da suyu qurumuş gözlərini bizə dikib gülümsündü. Mənə elə gəldi ki, o kövrəlmişdi, yamanca kövrəlmişdi. Çünki, səsində bayaqdan hiss etmədiyimiz həlimlik vardı.

-Bizdən narahat olmayın, - dedi. - Oğlum da mütləq gələcək! Deyibsə, deməli gələcək...

Əlacımız qalmamışdı. Hər saniyənin, dəqiqənin bir hökmü vardı. Burda qalmaq olmazdı. Necə olursa- olsun kəndi tərk etməliydik. Öz dediyinə inanmasa da, inadından dönməyən qocanı qarısıyla orada qoyub gündoğana sarı getdik. Qocalardan nigaran qala-qala.

Bu tərk edilmiş kəndin atılmış itləri qarşıdan gələn fəlakəti hiss etsələr belə, arxamızca baxa-baxa, nə vaxtsa dönəcək sahiblərini gözləyirmiş kimi qocaların ayağına qısıldılar. Bütün varlığıyla torpağına bağlı olan qocanın məğrur duruşu, arxamızca baxıb, sanki

baxışlarıyla səssiz-sədasız vida etməsi, mənə hansısa filmdəki batmaqda olan gəminin qürurlu kapitanını xatırlatdı...

Dərədən axan sısqa bulaqda yuyunub qovurğanın yanğısını öldürmək üçün doyunca sudan içdik. Boxçanı açanda çörəyin ətri bütün dərəni bürüdü. Hərəmiz bir qismət kəsib yavanlıq etdik.

Yaz Günəşı nə illah edirdisə bədənimizi qızdıra bilmirdi...

Narahat meşə yolu bitmək bilmirdi. Biz təngənəfəs olmuşduqsa da, bir an belə dayanmır, qocanın göstərdiyi istiqamətdə addımlayırdıq. Bir saatdan sonra meşənin seyrək yerindəki talaya çatmışdıq ki, yeri-göyü lərzəyə gətirən "Qrad"ın uğultusuna dönüb geriyə baxdıq: qocalara və sahibsiz itlərə əmanət qalmış kənd alov içində yanırdı...

Bu anda mənim ağlıma da gəlməzdi ki, az vaxt keçəcək, neçə-neçə kəndlər, şəhərlər yanıb kül olacaq, minlərlə insan döğma ocağından didərgin düşəcək, uyuşmadıqları, ilk günlər, "bəlkə bu da müvəqqəti çətinlikdi" deyərək sığınacaq tapdıqları yurd-yuvada beş-on günlük qalacaqlarına əmin olduqlarından iynə üstündə oturururmuş kimi hələ uzun illər narahat sürgün həyatına öyrəşə-öyrəşə vərdişkar olacaq, beləcə bu faciənin məchul sonucunu gözləməkdə gözlərinə qara su gələcəkdi.Və bunu hələ heç kim bilmirdi...

## Nə heyfislənir , nə də qürurlanırdım...

Hərbi hospitaldan çıxanda hara gedəcəyimi götür-qoy etdikcə neçə vaxtdı məni bərk narahat edən olay yenidən beynimdə dolanmağa başladı. Axı nəyə görə döyüşən dəstənin birdən-birə qeyb olduğu heç kimi narahat etməmişdi?! Qərargahdan verilən əmrə görə üç tərəfdən düşmən nəzarətində olan, kömək gələcəyini əmin edib, tükənmiş silsh-sürsatla adsız yüksəkliyi tutmaqda məqsəd nə idi? Kimisə aradan götürmək üçün bir dəstəni güdaza vermək kimə lazım idi axı, kimə?!...

Qəlbimi didib parçalayan suallar cavabsız qaldıqca, nizamsız orduya, qaragüruhçuluğa, hay-küylü, kor-koranə həmlələr edən səriştəsiz komandanlığa da nifrət edirdim. Siyasətdən uzaq da olsam dərk edirdim ki, müharibələrdə əl-ayaq açmış siyasi fahişələr döyüşçünü qələbədən çox məğlubiyyətə aparar.Tək müharibə zamanımı?

Yenə də, lap ölməmişdimsə də, məqsədli gəlişimdən nə heyfislənir, nə də qürur duyurdum. Buna haqqım olmasa da ilk dəfəydi illərlə, əsrlərlə başımıza gətirilən faciələrdən dərs almadığımıza, bir əqidə, bir amal uğrunda birgə mübarizə aparmadığımıza, "kor-kor, gör-gör" olan düşmənlərimizi yaxşı tanımadığımıza görə millətimi qınadım və ilk dəfə döyüşdə həlak olan yoldaşlarıma həsəd apardım.

Bəlkə də mənim gördüklərim müharibənin bir üzüydü? Ayın görünməyən üzü kimi o da sifətini gizlətmişdi. Hamıdanmı gizlətmişdi?!...

## Kəndimizə gedən yol qəbirstanlıqdan keçir.

Bu kəndə kim gəlsə birinci ölülərlə görüşər, bu dünyanın nə qədər fani olduğunu dərk edər, sonra dirilərə baş çəkər. Qayıdan başı da eləcə. Bəlkə də dədə-babalarımız bilərəkdən belə etmişlər ki, dünyadan köçənlər unudulmasın, həmişə göz qabağında olsun. Gələnə "xoşgəldin", gedənə "uğur" diləsin gündoğana baxan qəbir daşları. Bu da bir hikmətdi bəlkə. Niyə görə əvvəllər bunu dərk eləmirdim?

Son dəfə səni nə vaxt görmüşəm, ana?! Bu yollara baxmaqdan, unutqan oğlunu gözləməkdən yorulmadınmı? Yorğunsan, görürəm, gözlərindəki su da quruyub. Bilsən, bilsən sənin bircə kəlmə sözünə, ılıq nəfəsinə necə möhtacam?!.

Ana, bilirsən, sən arzularını da özünlə apardın. Sənə söz verdiyim kimi ali təhsilimi başa vura bilmədim. Sənə yaxşı oğul ola bilmədim. Aliyə də mənimlə deyil. Atdı məni Aliyə, ana, atdı , Sərdarın əmisi oğluna qoşulub qaçdı. Məni o havayıyeyən vələdüznaya dəyişdi. Sevgi dediklərin xülya imiş. Dediyin eşq-məhəbbət elə sevdiyin Füzulinin qəzəllərindəymiş. Bəlkə Füzuli özü də eşqin nə olduğunu yaxşı dərk etməyib, ana. Heç vətən sevgisini də! Ata yurdumuz boş qalıb. İndi orda, Allah bilir, bəlkə də göyərçinlər yurd-yuva salıb, ya da uçub dağılıb. Ayaqlarım getmir ora. Bu qəbristanlıqdan o yana nə varsa mənə yaddı, özgədi. Bütün xatirələrimi sizinlə dəfn etdim, ana! Ölümlərdən keçdim, qərib ellərə düşdüm. Bax, səninlə, nənəmlə vidalaşıb yenə gedirəm. Bu dəfə həmişəlik gedirəm.Yaman üzdü məni buralar, daha çəkmir özünə. Çəkəcək bir şey qalmayıb buralarda.

Nənəmlə darıxmazsan yəqin. Aranızda atam yerləşən qədər boş yer var. Bunu kəndin çoxbilənləri eləyib, bilirəm. Bəlkə də mənimçin saxlayıblarmış. Atama quruca torpaq da qismət olmadı, heç olmasa mənə yer eləyiblər. Bilirsən, ikicə ay əvvəl mən də öləcəkdim. Ələ gələn bir yerim qalsaydı gətirib aranıza döşəyəcəkdilər yəqin ki. Ölsəydim, doyunca görərdiz, bir daha ayrılmazdıq. Ana, istəməzdin məni görmək?! Axı, həmişə yanında olmağımı arzulayardın?! Yox, sən bircə şey arzulayardın, tək bircə şey, yadındadır?..

**(davamı olacaq)**

# “YAZI” DƏRGİSİNİN 5 YAŞI TAMAM OLUR: TƏBRİKLƏR, ARZULAR, TƏKLİFLƏR

"Yazı" dərgisinin 5 yaşa gəlib çatmasına çox sevindim. Əslində bu, bioloji ömür deyil, daha çox mənəvi ərazi, daha çox əbədilik var. Görün, bu illərin arxasında nə qədər əsər, nə qədər mətn, nə qədər imza dayanır. Əslində texnoloji baxımdan biz audiovizual dövrdə yaşayırıq, görüntü, vizuallıq insanları əsir-yesir eləyib, amma bununla yanaşı, hətta, televiziya və internetin hökmranlığına baxmayaraq mən bu qənaətdəyəm ki, mətn, o cümlədən bədii mətn öz cazibəsini və böyük təsir imkanlarını saxlayır. Mənim üçün insan fantaziyasının vüsətini göstərən bir bədii əsər hər hansı filmdən qat-qat güclü və dəyərlidir. Ona görə nə qədər böyük texnoloji kəşflər olsa belə, biz yenə mətnə qayıdırıq. "Yazı" dərgisi, məhz bu mətni çap edib yaydığına görə qiymətlidir, fərqli bədii nümunələri çap etdiyinə görə dəyərlidir, fərqli düşüncəni yaydığına görə gərəklidir. Mən bu kiçik yubiley münasibətilə 5 yaşlı, amma artıq müdrikləşmiş nəşrin bütün əməkdaşlarını, jurnalın baş redaktorunu, bütün çətinliklərə sinə gərmək nümunəsi olan əziz dostum, istedadlı yazıçımız Azad Qaradərəlini ürəkdən təbrik edirəm.



***Qulu Məhərrəmli***
***Professor***

Müasir Azərbaycan ədəbiyyatında naşir də çoxdur, nəşrlər də. Şair, yazıçı da ki yenə bol. İstər qəzet və jurnallarda, istər də sosial şəbəkələrdə,virtual aləmdə. Amma adam bu ədəbi mühitdən nə qədər uzaqda yaşasa da (məsafə baxımından), ən ucqar əyalətdən belə yenə ağı ağ, qaranı qara görmək olur. Ədəbiyyatda dostbazlığın, dəstəbazlığın, reklam və şounun çövlan etdiyi vaxtda kimin kimin adamı olduğunu, kimlərin kimin və nəyin sayəsində parladığını ayırd etmək o qədər də çətin deyil: zatən özləri özlərini ifşa edirlər. Və bu həngamədə yalançı parıltıların içində gerçək qiymətliləri seçmək çətin olsa da, mümkündür nə yaxşı ki...

"Yazı" jurnalı da beləcə.... İlk addımını hansı çığırla atıbsa, bu gün də o amalla irəliləyir.Uçuz reklam və şoudan uzaq,.yalnız istedadla qələmə alınmışları heç bir təmənna ummadan dərc etmək. Özü də bəzi üzü parıltılı, içi boz dərgilər təki dövlət tərəfindən maliyyə dəstəyi olmadan.

5 il bir dərgi üçün elə də qısa müddət deyil,özü də bu cür fədakarlıqla.

Mən 5 yaşlı "Yazı"ya uzun və oxunaqlı yazı ömrü arzulayıram. İlk yazılı abidələrimiz tək. Azad müəllimə isə yaşının ahıl çağında belə çətin və şərəfli işində səbr arzulayıram. Hər zaman belə şövqlü və əzmkar olmanız diləyilə....



***Sara Selcan***
***Hacıqabul***

# GÜNEYİN SƏSİ

## Kiyan Xiyav



### "susənbər"

Düşüncələrdən soyuqdur duyğular
İnanmasan sərçələrdən soruş
Göylər sadəcə sonsuz bir boşluqdur
Uçaq tüstüsü
Buludlarla dəyişik düşə bilir.
Göylərdən gələn ən önəmli xəbər
Yalnız yağışdır
Bunu bitgilərdən soruş
Və yağışı qurudur qıtlıq illəri
Susənbər kərtisini
Bir hörümcək poza bilir.
İndi ha söylə yaşasın barış və qardaşlıq!
Barış adsız və imzasız bir məktubdur
Gecə yarıları gedir adressiz qapılara
Və qardaşlıq sadəcə bir tikə buludla
Bir sürü uçaq tüstüsünün öyküsüdür göydə.
İnanmasan
Buyur bizim həyətdəki qıtlıq illərini pozqun yaşayan
Qəmli susənbər kərtisindən soruş!...

## “bir şıltağın unudulmuş sözləri”

-Nahara mütləq bizdə olmalısan!
-Qapını açıq qoyacağam,
Zəng vurmaq lazım deyil!
-Başmaqlarını gətir içəriyə!
-Kapşənini... yox, qoy onu mən çıxardım!
-Qabaqca bu şirnini ye, bu çayı iç!
-Bağışla, evdə səs sistemi yoxdur
Ancaq elə-belə ləzgi oynayacağam!
Mən xiyaban ortasında səninlə oynamalıyam!
-Qorxma, koridorda kimsə yoxdur!
-Bu şəhərdə günün gün ortaçağı da hamı yatır
-Oğlanlar otaqlarında yatıblar
Necə də gicbaşdırlar bu şəhərin erkəkləri!
-İrmi dörd saat borcun var mənə, ancaq
Bir öpüş, bir üç öpüş də olsa yetər!
-Hava qəribə istidir, köynəyini çıxartsana!
-Məni sıx- sıx bağrına bas!
Nə gücün var sıx məni, sıx, sıx, aaaay, sıxma!
Istədiyin qədər ye, iç bu gövdə, bu candan, və get
Yox, getmə, dur
Yox, get, durma!
-Hava qəribə gözəldir
Bu gecə mənim üç metirlik otağıma
Bir göylük ulduz anbarı uçacaq!
-Səni pəncərə qırağında gözləyəcəyəm bu gecə
Və sabah, və biri gün, və ölənə dək!
-Toğrol quşum, hardasan?
Bir səlam, yalnız bir səlam, darıxıram səsinə!...

## “yerlə göyün arasında”

Buraxdım get yuxarıya
Quşlar mələk kimidir
Mən qolayca bir adamam.
Quşlar səni çağırır
Ancaq qorxuncdur göy üzü
Qanadlar qırıla bilər.

Buraxdım gəl aşağıya
Adamlar mələk kimidir
Mən mələklərdən də başam.
Adamlar səni çağırır
Ancaq qorxuncdur yer üzü
Ürəklər qırıla bilər.

Buraxdım get yuxarıya
Buraxdım gəl aşağıya
Yaxşı
Oldu
Mən mələklərdən də başam
Ancaq bir az düşünməyin gərəkir!...

***

Yanlış anlama haaa,
Mən,
Sən deyiləm.
Deyilməmiş, oxunan bir “
s..dirəcəksiniz” sözcüyü var dilimdə...
Atılmamış dəyən bir daş var əlimdə.
Yanlış anlama haaa,
Əlinə daş almaqla deyil.

***

Dəniz dalğalarıyla,
Ağac yarpaqlarıyla danışır.
Mən
Dilimi ağzımın boşluğuna sərmişəm
dincəlsin,
Yalan bazarına qız buraxmıram.
Bu an qum dilində
Barmaqlarımla danışıram.
Bax,
Ovcumdan süzülən qumda sənin adın
var

Şirvani Ədilli



# Müasir ədəbiyyatımızda Güney mövzusunun yeri

Bədii ədəbiyyat estetik cəhətdən nə qədər gözəl olsa da onun dəyərini artıran əsas amil məhz ictimai əhəmiyyətidir. Yəni bədii yaradıcılıq cəmiyyətin inkişafına, oradakı haqsızlıqlara qarşı mübarizəyə, haqq-ədalətin bərqərar olmasına, insanların xoşbəxtliyinə nəsə bir töhfə verməlidir. Bu məsələ "sənət sənət üçün" və "sənət xalq üçün" terminləri ilə də ifadə olunur. Əlbəttə ki, "sənət sənət üçün"prinsipi ilə yazılan əsərlərin də öz yeri və dəyəri var və ədəbiyyat durduqca ən azından insanların zövqünü oxşamaq üçün belə əsərlər də olmalıdır. Lakin bir müəllifin yaradıcılığı başdan ayağa "sənət sənət üçün" prinsipi ilə yazılmış əsərlərdən ibarətdirsə o ciddi və böyük ədib sayıla bilməz.

Ədəbiyyatımızda ictimai məzmunlu əsərlər əsasən maarifçilik dövründən (XIX əsr) meydana çıxmış və XX əsrdə özünün yüksək inkişaf səviyyəsinə çatmışdır. Azərbaycanın quzeyini götürsək burada XX əsr ədəbiyyatı əsasən sovet dövrünü (1917-1991) özündə birləşdirir. Bu dövrdə isə digər sahələr kimi ədəbiyyat da sovet dövlətinin ciddi nəzarəti və sovet ideologiyasının təsiri altında olduğundan ictimai məzmunlu yaradıcılıq nümunələri əsasən sosialist ideyalarının təbliğinə, quruluşun tərifinə xidmət etmişdir. Lakin bununla belə etiraf etməliyik ki, ədəbiyyat özü xeyli dərəcədə inkişaf etmişdir (etməmişdir desək ədalətsizlik olar).

Bəs həmin dövrdə ictimai problemlər əsasən nələrdən ibarət olmuşdur? Əlbəttə ki, totalitarizm, siyası azadlıqların olmaması və ən əsası rus müstəmləkəçiliyi və rus assimilyasiya siyasəti kimi milli problemlərimiz. Həmin dövrdə Azərbaycanın Güneyində də indiyədək hakimiyyətini sürdürən fars şovinizmi mövcud olmuşdur. Sovet dövrü ədəbiyyatında məhz adını çəkdiyimiz milli problemlərə həsr olunmuş əsərlər bu gün bizim üçün həmin dövrün ən dəyərli yaradıcılıq nümunələridir. O dövrün poeziyasından bizə qalan ən dəyərli nümunələr S. Vurğunun "Partiyamızdır", "Vaqif", "Ceyran" kimi əsərləri yox, S. Rüstəmin "Cənub şeirləri", B.Vahabzadənin "Gülüstan" poeması, T. Bayramın "Ana dilim" şeiridir.

Müasir dövrə gəldikdə bir çox özündən deyən yazarlarımızın əsas ictimai mövzusu milli mentalitetimizi müzakirəyə çıxarmaq, orada qüsurlar axtarmaq, adət-ənənələrimizi tənqid etmək, Qərbi yüksəltmək, Şərqi aşağılamaqdır. Sanki, bütün iş-güclərini atıb, dəridən-qabıqdan çıxıb gecə-gündüz bu məsələdə fikirlərini əsaslandırmaqla məşğuldurlar. Sanki

bundan başqa problem və mövzu yoxdur. Bununla özlərini postmodernist, yenilikçi hesab edirlər. Düzdür, bütün fikirlərə hörmətlə yanaşılmalıdır. Fikir bildirmək azaddır. Bununla işimiz yoxdur. Bu fikirləri həqiqətən də inkişafımız naminə dediklərinə də inanırıq. İnkişafımız naminə səmimiyyətlə deyilən istənilən fikir – doğru və ya yanlış, fərqi yoxdur – təqdirəlayiqdir. Amma həmin yazarlar həqiqətən problemlərimizin həlli haqqında düşünürlərsə, Güneydəki 35 milyonluq soydaşımızın faciəvi durumuna necə biganə qalırlar? Bu heç cür başa düşülən deyil.

Bu gün İran müasir dünyada analoqu olmayan, insanlıq faciəsinin, milli zülmün ərşə dirəndiyi mərkəzlərdən biridir. Dünyada ikinci elə bir dövlət yoxdur ki, orada əhalinin yarısından çoxunu təşkil edən, əsrlər boyu dövlətçiliyi qurmuş və yaşatmış, yerli-köklü bir xalqın dili nəinki rəsmi dil statusuna malik olmasın, hətta həmin dil bir dil kimi tədris də olunmasın və həmin dildən şifahi nitqdə belə istifadə sıxışdırılsın. Bəziləri elə düşünürlər ki, bunlar yalnız millətçilərin problemidir. Belə düşünənlər çox böyük səhvə yol verirlər. Bu problem demokratiyanın da, insan haqlarının da, liberalizmin də, sosializmin də, sağçıların da, solçuların da, bütün ideologiyaların problemidir, bəşəri bir faciəsidir. Bu problemə biganəliyə heç cür bəraət qazandırmaq olmaz.

Güneydə 2006-cı il may hadisələri baş verdi. Özündən deyən bəzi yazarların o hadisələrdən nə qədər məlumatları var və nə yazıblar? 2013-cü ildə haqsız yerə həbs olunmuş milli hərəkat fəalları həbsxanada bir aya yaxın aclıq aksiyası keçirdilər. O yazarlar hansı yazıları və ya çıxışları ilə onlara dəstək verdilər? Güneydə 2015-ci il Noyabr hadisələri baş verdi, nə dedilər və nə yazdılar? Bu gün o yazarlar 1930-cu illərdə "donos" verənləri, sovet dövlətindəki haqsızlıqlara qarşı qorxub susanları qınadıqları kimi sabah Güney probleminə biganə qaldıqları üçün onların özlərini qınayacaqlar. Bunu mütləq göz önünə almalıdırlar.

Gələcəyə o əsərlər qalacaq ki, millətin ağrılarını ifadə edib, millətin inkişaf tarixi ilə ayaqlaşıb.Mənə görə Güney dərdimiz haqqında həqiqi ürək yanğısı ilə deyilmiş bir cümlə mentalitetimizin müzakirəsinə həsr olunmuş yüz məqalədən daha dəyərlidir!

**(Oxu zalı)**



# "YAZI" DƏRGİSİNİN 5 YAŞI TAMAM OLUR: *TƏBRİKLƏR, ARZULAR, TƏKLİFLƏR*

Yazının meydana gəlməsi bəşəriyyətin ən böyük kəşfi idi. Bu mənada yazı fikir və düşüncələrimizin hərflərlə ifadə olunan açarıdır. Əslində yazının tarixi tarixin özü qədər qədimdir. Heroqliflərdən başlamış yazının bugünkü səviyyəyə gəlib çatmasında ədəbiyyatın rolu danılmazdır. Azad Qaradərəlinin baş redaktoru olduğu "Yazı" ədəbiyyat dərgisi də, əslində bizim ədəbi ünsiyyətimizdir. Xüsusilə, "Yazı" dərgisində Güney bölməsinin olması parçalanmış vətənin ədəbiyyat timsalında bütövlüyünü təcəssüm etdirir. Bu mənada "Yazı" dərgisisi son dərəcə çətin, lakin şərəfli və vacib bir missiyanı öz üzərinə götürüb. Bu yolda "Yazı" dərgisinə və onun ətrafında toplaşmış yazı əhlinə uğurlar arzulayıram.



***Hörmətlə, Əkrəm Rəhimli***
***tarix elmləri doktoru***

"Kölgədə olanın kölgəsi olmaz" deyibdir ulu babalarımız. Yazıçı, şair və incə sənət yolçusu öz yolu və öz kölgəsini yaratmalıdır. Qul deyil, qulluq boyunduruğunu söz baltası ilə qırandır yazıçı. Qələmin gözəlliyini yırtıcı əllərə deyil, qurtarıcı işıq qığılcımlarına calayan, bağışlayandır.

Həri, bərli-bəzəkli saraylarda sülənmək, min başlı divin qarşısında dizin-dizin sürünmək, qoltuq altında qoxumuş tük, dəyərsiz və yiyəsiz yük deyil, səsinin yüksəlişi coğrafiyası ölçüsü qədərdir yazıçı azadlığı.

Azad bəyin başçılığı altında işıq üzü görən "YAZI" jurnalı yazının yazı düşərgəsində səsinin azadlıq coğrafiyası ölçüsünü genişləndirənlərin yeridir. Səsinə qandal vuran, qələmini qaranlığa gömən, boyunu min başlı DİVİN uca kölgəsində alçaldanların yeri deyil. Azadlıq və demokratiya sevdalıları, yolçularının düşərgəsidir.

Güneylə-Quzeyin arasında sınmış ədəbi həsrət körpüsünü yenidən tikmək, boşarqı bağları bərkitmək istəyini jurnalın yenicə işıq üzü görmüş saylarında görürük. Bu bağ, bu körpü günü-gündən bərkisin, tikilsin, ucalsın umuruq.

Yazı jurnalı dilin və yazıçı kimliyinin paxırına yegə çəkən yazıçıların ocağıdır, sığınacağıdır. Ocağın odu-alovu közərsin, sönməsin, işığı öləziməsin dilərəm.



***Elşən Böyükvənd***
***Güney Azərbaycan***

# ÇEVİRMƏ

## L.N.Tolstoy



## BARDAQ ALYOŞA

**Hekayə**

Alyoşka qardaşlardan kiçiyi idi. Ona "bardaq" ayamasının verilməsi isə belə olmuşdu: anası Alyoşkaya bir bardaq süd verib kilsədə qulluq eləyən bir qadına vermək üçün göndərmişdi, o isə yolda büdrəyib yıxılmış və saxsı bardağı sındırmışdı. Buna görə anası onu döymüşdü və bunu görən dəcəl uşaqlar da onu "Bardaq" çağırıb ələ salmağa başlamışdılar; elə o gündən başlayaraq da, onun ayaması Bardaq Alyoşka olmuşdu.

Alyoşka çəlimsiz, arıq, pələqulaq idi(qulaqları quş qanadı kimi yana əyilmişdi), çox yekə burnu vardı. Uşaqlar yekə burnuna görə onu ələ salıb deyərdilər: "Alyoşkanın burnu təpə başında şöngümüş köpəkdir". Kənddə məktəb olsa da, evin başdan aşan iş-gücündən ayırıb Alyoşanı oxumağa göndərməmişdilər. Böyük qardaşı şəhərdə bir tacirin evində qulluq eləyirdi, Alyoşka isə lap kiçik yaşlarından başlayaraq atasına kömək eləməyə başlamışdı. Altı yaşı olanda artıq yaşca özündən böyük olan bacısı ilə qoyun və inəklərini örüşə otarmağa aparırdılar, biraz da böyüyəndən sonra onun işi daha da artmış, gecəli-gündüzlü atlarından göz-qulaq olmağı da ona tapşırmışdılar. Oniki yaşında o artıq xışla yer sürür və araba ilə yük daşıyırdı. Gücü olmasa da, işləməyə təpəri var idi. Alyoşka eyzən gülərüzlü olardı. Uşaqlar onu ələ salıb gülərdilər; o isə ya susar, ya da özü də onlara qoşulub gülərdi. Atası onu söyəndə də susar, dinməzcə qulaq asardı. Söyüb qurtaran kimi, gülümsəyər və əlindəki işi görməyə davam eləyərdi.

Alyoşa ondoqquz yaşına çatanda onun böyük qardaşını əsgərliyə apardılar. Onda atası onu qardaşının yerinə, tacirin yanında qapıçı işləməyə apardı. Alyoşanın ayağına qardaşının köhnə çəkmələrini keçirdilər, atasının nimdaş papağı ilə pencəyini geyindirdilər və şəhərə apardılar. Alyoşa əyin-başına görə bərk sıxılırdı, üstəlik, tacir də onun görünüşünü bəyənməmişdi.

–Mən elə bilirdim, sən Semyonun yerinə onun kimi qollu-qanadlı birisini qoyacaqsan,–Alyoşanı gözaltı süzən tacir dedi.–Sən isə götürüb bu burnufırtıqlını gətirmisən. Bunun əlindən nə iş gələcək?

–Bunun əlindən hər iş gəlir–Alyoşanın atası dedi.–Araba qoşmaq olsun, harasa iş dalınca getmək olsun, nə iş desən yarıdandır, üstəlik ürəklə işləyir. Belə cılızlığına baxma, işləmək üçün gücü də var.

–Yaxşı, nə deyirəm, qoy işləsin. Baxaq, görək, bacarırmı?

–Ən başlıcası isə, üzüyola və qaradinməzdir. Əməksevərdir.

–Daha sənsən də. Qoy qalıb işləsin.

Beləliklə də Alyoşa tacirin evində yaşayıb işləməyə başladı.

Tacirin ailəsi böyük deyildi: onun xanımı ilə anası, tacirlə birgə işləyən evli, çox da savadlı olmayan böyük oğlu, onun alim sayılan, gimnaziyanı bitirib universitetdə oxumuş, ancaq sonradan oradan qovulmuş o biri oğlu, bir də gimnaziyada oxuyan qızı, bir damın altında yaşayırdılar.

Ev adamları öncə Alyoşanı bəyənməmişdilər–kəndçi sayağı yöndəmsiz davranışına, habelə, pis geyindiyinə, bayağı danışdığına, hamını "sən" deyə çağırdığına görə, ev adamları ona yuxarıdan aşağı baxırdılar, ancaq çox keçmədən Alyoşaya üz-gözləri öyrəşdi. O qardaşından da yaxşı qulluq eləyirdi. Doğrudan da çox üzüyola idi, ona hansı işi buyursan, dinməz-söyləməz və həvəslə eləyərdi, yorulmaq nə olduğunu bilmədən, bir işi qurtarıb o birinə başlayardı. İstər evin, istərsə də tacirin evdənqıraq bütün işlərini Alyoşanın boynuna yükləmişdilər. O nə qədər çox çalışırdısa, boynuna bir az da artıq iş qoymağa başlayırdılar. Tacirin arvadı, anası, qızı, oğlu, təsərrüfat müdiri, aşbaz ona göz qırpmağa macal verməz, ara vermədən iş buyurar, çox vaxt öz görməli olduqları işləri də ona buyurardılar. Alyoşaya dedikləri sözlər də belə olardı: "Qardaş, qaç onu gətir", "Alyoşa, bu işi yoluna qoy. –Alyoşa, sənə tapşırdığım işi unutmamısan? –Alyoşa, olmaya sənə dediyim işi hələ eləməmisən?" Alyoşa da, yorulmaq nə olduğunu bilmədən, buyurulan işləri görməyə qaçar, deyilənləri necə gərəksə yerinə yetirər, heç nəyi unutmaz, hər şeyi çatdırar və hamının üzünə gülümsəyərdi.

Çox keçmədən qardaşının köhnə çəkmələri yırtıldı və tacir bunu görüb onu ayaqyalın yırtıq çəkmədə gəzdiyi üçün danladı, sonra təsərrüfat müdirinə bazardan ona təzə çəkmə almağı tapşırdı. Təzə çəkmələri geyinəndə Alyoşa çox sevinmişdi, ancaq çəkmənin təzələyini neynirsən, onun ayaqları yenilənməmişdi, elə köhnə ayaqları idi durmuşdu və axşamlar günuzunu ayaq üstə olduğundan onlar bərk sızıldayırdı, Alyoşanın isə onlara acığı tuturdu. Alyoşa bir şeydən də qorxurdu: görəsən, atası onun maaşını almağa gələndə tacirin Alyoşaya aldığı təzə çəkmələrin pulunu onun maaşından çıxdığını bilib acıqlanmayacaqdı?

Qışın soyuğunda Alyoşa gün çıxmamışdan yataqdan qalxar, odun yarar, qapı-bacanı süpürər, inəklərlə atları yemləyər, suvarardı. Sonra sobanı qalayar, ev yiyələrinin çəkmə və paltarlarını təmizləyər, samovarı silib parıldadar, sonra ona od salardı, daha sonra təsərrüfat müdiri onu dükana göndəriləcək malları yükləməyə çağırardı, ya da aşbaz ona xamır yoğurmağı, yaxud da qazanları yumağı buyurardı. Birazdan onu, hansısa bir kağızı yerinə çatdırmaq üçün, ya da ağanın qızını qarşılayıb gimnaziyadan gətirmək üçün, yaxud da məşəl yandırmaq üçün işlənən zeytun yağı almaqdan ötəri şəhərə göndərərdilər. "Harada itib-batmısan, ay başı batmış"–ev adamlarından gah biri, gah da o birisi, onu tez-tez beləcə çağıradı. "Yox-yox, siz niyə gedirsiniz, indi Alyoşanı göndərərik qaçıb gətirər. Alyoşka! Ay Alyoşka!" Beləcə Alyoşa müxtəlif tapşırıqlarla ora-bura qaçardı.

Səhər yeməyini o ayaqüstü yeyərdi, günorta yeməyini isə çox az

hallarda başqaları ilə birlikdə yeməyi çatdırardı. Aşbaz onu hamı ilə birgə yeməyə gəlmədiyinə görə söysə də, ancaq onun halına acıdığından günorta və şam yeməyi üçün ona isti xörək saxlayardı. Bayramqabağı və bayram günlərində onun işi lap çox olardı. Ancaq, buna baxmayaraq, Alyoşa bayram günlərini çox sevərdi, axı belə günlərdə ona çaypulu verərdilər, düzdür, bu qəpikquruş olardı, ancaq o bu günlərdə verilən pullardan özü üçün artıq 60 qəpik toplaya bilmişdi və indi onun öz pulu var idi. O bu pulları istədiyi kimi xərcləyə bilərdi. Maaşını isə o heç vaxt gözü ilə belə görməmişdi. Atası bəlli vaxtlarda gəlib tacirdən onun maaşını götürərdi, Alyoşa ilə danışığı isə onun çəkmələrini çox tez yırtmağından olardı.

O bu çaypulularından iki manat toplayandan sonra aşbazın məsləhəti ilə özünə qırmızı rəngdə, toxunma bir gödəkçə aldı, gödəkçəni geyinəndə aldığı həzzdən bütün günü onun dişləri ağarırdı.

Alyoşa çox az, qısa və qırıq-qırıq danışardı. Haçansa ona iş buyuranda, ya da hansısa işi görə biləcəyini soruşanda o eyzən, tərəddüdsüz deyərdi: “Bunu eləmək olar”–ardınca da deyilən işi görməyə cumardı.

O dua eləyə bilməzdi; anasının öyrətdiyi duaları unutmuşdu, ancaq hər halda dua eləməyə çalışırdı–duanı əlləriylə, xaç çəkərək eləyirdi.

Alyoşa beləcə ilyarım yaşadı və tacirin yanında işlədiyi ikinci ilin ikinci yarısında onun ömründə ən qeyri-adi bir olay baş verdi. Bu olayın qeyri-adiliyi Alyoşanı çox təəcübləndirmişdi, sən demə, insanlar arasındakı münasibətlər təkcə elə onların biri-birinə nə üçünsə gərək olması ilə bitmirmiş, bundan başqa da, büsbütün ayrı münasibətlər də varmış: burada sən kiməsə onun çəkməsini təmizləmək, ona nə isə alıb gətirmək, yaxud da onun buyuruğu ilə atı arabaya qoşmaq üçün gərək olmursan, burada bir insan başqasına sığınmaq, oxşamaq üçün gərək olurmuş və Alyoşa da kiməsə gərək olan belə əzizlənməli adamlardan imiş. O bütün bunları aşbaz Ustinyadan öyrənmişdi. Ustyuşa yetimliklə böyümüşdü, o da Alyoşa kimi gənc və çalışqan bir işçi idi. O Alyoşanın halına acımağa başlamışdı və Alyoşa ömründə birinci dəfə onun gördüyü işin yox, yalnız onun özünün başqa bir adama gərək olduğunu anlamağa başlamışdı. Haçansa anası ona acıyanda o bunun fərqinə varmazdı və ona elə gələrdi, bu elə belə də olmalıdır, anasının öz oğluna acıması elə onun özü-özünə acıması deyildimi? İndi isə birdən birə, büsbütün yad olan Ustinyanın ona acıdığını görmüşdü, qız Alyoşa üçün bardaqda, üstünə yağ tökülmüş sıyıq saxlayar, Alyoşa sıyığı yedikcə əllərini çənəsinə dayaqlayıb gözlərini ona dikərdi. Alyoşa da ona baxardı, sonra Ustinya gülməyə başlayar, o da qıza qoşulub gülərdi.

Bu yenilik və qəribəlik gözlənilməz olduğundan, Alyoşa qorxmağa başlamışdı. O bütün bunların ona, qabaqlarda olduğu kimi qulluq eləməkdə mane olduğunu duyurdu. Ancaq buna baxmayaraq o anlaşılmaz bir sevinc içində idi və nə vaxt Ustinyanın yamaq vurduğu şalvarına baxsaydı, başını yelləyib gülərdi. Çox vaxt işlədiyi yerdə, ya da harasa iş dalınca gedəndə Ustinyanı xatırlayıb deyərdi: “Ay səni, Ustinya!” Ustinya bacardığı qədər ona kömək eləyərdi, o da Ustinyanın işlərinə əl yetirərdi. Qız Alyoşaya öz başına gələnləri danışmışdı: necə yetim qaldığını, xalasının onu himayəsinə götürüb saxladığını, sonradan tacirin böyük oğlunun avam

xalasının başını tovlayıb onu evlərinə işləmək üçün gətirdiyini demişdi. Qız danışmağı çox sevirdi, Alyoşaya da onu dinləmək olduqca xoş idi. Ustinyanın danışıqlarından o, şəhərdə çox vaxt ağa evində qulluq eləyən kişilərin evin aşbazları ilə evləndiyini də eşitmişdi. Bir dəfə Ustinya ondan atasının onu haçan evləndirmək istədiyini də soruşmuşdu. Alyoşa onu nə vaxt evləndirəcəklərini bilmədiyini və kənddən evlənmək istəmədiyini demişdi.

–Yaxşı, barı gözaltı elədiyin kimsə varmı?–qız soruşdu.

–Məndən olsa səni alardım. Mənə gələrsənmi?

–Görürsən, buna bardaq deyirlər, ancaq gözdən tük qapır, adamı öz sözündən tutur,–qız belə deyib əli ilə Alyoşanın kürəyinə vurdu.–Nə üçün də gəlməyim?

Maslenitsa bayramında Alyoşanın atası şəhərə onun maaşını almaq üçün gəlmişdi. Tacirin arvadı Alekseyin Ustinya ilə evlənmək istədiyini öyrənib bundan narazı qalmışdı və bu xəbəri ərinə də çatdırmışdı: "Ərə getsə uşağa qalacaq, doğandan sonra əliuşaqlı qadın bizim nəyimizə gərək olacaq?"

Tacir Alekseyin qazandığı pulları onun atasına verəndə kəndli soruşdu:

–Hə mənimki özünü necə aparır? Demişdim axı sözəbaxandır.

–Sözəbaxan olmağına elədir, ancaq bu yaxınlarda başına axmaq bir fikir gəlib. Bizim aşbazla evlənmək istəyir. Mən isə evli adamı işdə saxlamayacağam. Mənə beləsi gərək deyil.

–Axmağın biri axmaq, gör hələ nə düşünür,–Alyoşanın atası bərk acıqlandı.–Sən fikir eləmə. Mən ona tapşıraram, bu işdən biryolluq əl çəksin, belə düşüncələri başından çıxarsın.

Kəndli mətbəxə keçib oturdu, oğlunu gözləməyə başladı. Alyoşa iş dalınca qaçmışdı, birazdan qaranəfəs qayıdıb gəldi.

–Mən səni ağıllı bir adam bilirdim. Bu nə oyundur, çıxarırsan?–atası acıqla soruşdu.

–Mən heç nə eləməmişəm.

–Necə yəni, heç nə eləməmisən. Deyirlər, evlənmək istəyirsən. Vaxtı çatanda mən səni evləndirəcəyəm, özü də kiminlə desəm onunla da evlənəcəksən, daha şəhərin ayağısürüşkənləri ilə yox.

Atası çox danışdı. Alyoşa oturub dinməzcə qulaq asır, köks ötürürdü. Atası danışıb qurtarandan sonra Alyoşa gülümsünüb dedi:

–Neynək, qoy sən deyən kimi olsun.

–Bax ha, bir də sənin haqqında belə sözlər eşitməyim.

Atası gedəndən sonra o Ustinya ilə təklikdə qalanda(qız qapının arxasında gizlənib onun atası ilə olan danışıqlarına qulaq asmışdı) Alyoşa dedi:

–Bizim işimiz alınmadı. Eşidirdinmi? Acıqlanıb, deyir, olmaz.

Qız önlüyünü gözünə sıxıb səssizcə ağlamağa başladı. Alyoşa dilini damağına sürtüb şaqqıldatdı.

–Necə qulaq asmayasan? Görünür, bu işdən əl çəkməliyik.

Axşam tacirin arvadı anbarın dəmir qapı örtüyünü bağlamaq üçün Alyoşanı çağıranda soruşdu:

–Hə, atanın dediyini eləyirsən ya yox, axmaqlığından əl çəkirsənmi?

–Görünür, əl çəkirəm,–Alyoşa gülümsəyərək dedi və birdən hönkürüb ağladı.

O gündən sonra Alyoşa bir də Ustinya ilə evlənmək barədə danışmadı və köhnə qayda ilə yaşamağa başladı.

Bir dəfə təsərrüfat müdiri ona damın üstündəki qarı təmizləməyi tapşırmışdı. Alyoşa dama dırmaşdı, damın üstündəki qarı bütünlüklə kürüdü və sonra damın qırağına vurulmuş tənəkə novun üstünə yapışıb buzlaşmış qarı qaşımağa girişdi, bu vaxt, gözlənilmədən ayağı sürüşdü və o əlindəki kürəklə birlikdə yerə yıxıldı, işin tərsliyindən Alyoşa qarın üstünə deyil, evin dəmirlə döşənmiş girəcəyinə yıxılmışdı. Öncə Ustinya, sonra tacirin qızı qaçıb özlərini ona yetirdilər. Ustinya soruşdu:

–Alyoşa, əzilməmisən?

–Hə, deyəsən, biraz əzilmişəm. Ancaq eybi yoxdur.

O ayağa durmaq istədi, ancaq qalxa bilməyib gülümsədi. Onu əl üstündə götürüb qulluqçuların yaşadığı komaya apardılar. Feldşer çağırdılar, o Alyoşanı yoxlayıb harasının ağrıdığını soruşdu. Alyoşa dilləndi:

–Ağrımağına hər yerim ağrıyır, ancaq bunun eybi yoxdur. Ağa mənə acıqlanacaq, bax bu pis oldu. Gərək, atama xəbər eləyək.

Alyoşa iki sutka yataqda uzandı, sonra keşişin dalınca adam göndərdilər.

–Sənə nə olub, yoxsa ölürsən?– Ustinya ağlar bir səslə soruşdu.

–Nə olsun? Həmişəlik yaşamayacaqdıq ha! Haçansa bu da olmalıydı,–Alyoşa həmişə olduğu kimi tələsik və qırıq-qırıq danışırdı.–Ustyuşa, mənim halıma acıdığın üçün çox sağ ol. Görürsənmi, elə yaxşı oldu bizi evlənməyə qoymadılar, yoxsa lap pis olardı. Hər şey yaxşı qurtardı.

Keşiş gələndə o əli ilə və ürəyində dua elədi. Əli ilə xaç çəkirdi, ürəyindən isə bunları keçirirdi: necə, burada üzüyola olursan, kimsəni acıqlandırmırsan, günün yaxşı keçir, özünü belə aparsan, elə o dünyada da işin yaxşı olacaqdır.

O çox az danışırdı. Yalnız su istəyirdi və nədənsə, çox təəcüblü olduğu görünürdü.

Son dəfə də o, nəyə görəsə bərk təəcübləndi, bütün bədəni ilə nəyəsə çatmaq istəyirmiş kimi dartındı və öldü.

***1905 г.***

**Çevirən Araz Gündüz**

# A.P.Çexov



## Mismarda

**hekayə**

İşdən sonra Neva prospekti ilə bir dəstə dövlət qulluqçusu və quberniya katibi gedirdi. Struçkovun doğum günü idi və yoldaşlarını evə, doğum gününü qeyd etməyə aparırdı.
– Qardaşlar, indi doyunca tıxacağıq! – Səbəbkar deyirdi. – Elə tıxışdıracağıq ki! Arvadım piroq bişirib. Unu dünən özüm almışdım. Konyak da var… Arvadım bizi gözləyir!
Struçkovun evi çox uzaq idi. Getdilər, getdilər, nəhayət çatdılar. Koridora girdilər. Piroqla qızardılmış qazın iyi burunlarına dəydi.
– İyi hiss edirsiniz? – Struçkov həzz içində güldü. – Soyunun, cənablar! Kürklərinizi sandığın üstünə yığın! Bəs Katya hardadır? Ey, Katya! Hamını yığıb gətirmişəm! Akulina, gəl qonaqlara kömək elə soyunsunlar!
– Bəs bu nədir? – Qonaqlardan biri divarı göstərib soruşdu.
Divara mismar vurulmuşdu, mismardansa təzə, kokardası parıldayan furajka asılmışdı. Qonaqlar bir-birinə baxdılar, hamısının rəngi ağardı.
– Bu onun furajkasıdır! – deyə pıçıldaşdılar. – O… burdadır?
– Hə, burdadır. – Deyə Struçkov mızıldandı. – Katyanın yanında… Gəlin çıxaq, cənablar! Bayırda gözləyək. O gedəndən sonra gələrik.
Hamı kürkünün yaxasını bağladı, bayıra çıxdılar.
– Qazın iyi əcəb iştahaçan idi! – Arxivariusun köməkçisi dedi. – O hardan gəlib çıxdı axı? Tez gedəcək?
– Tez gedəcək. Heç vaxt iki saatdan çox oturmur. Acımışam! Əvvəlcə araq içib qəlyanaltı edəcəyik… Sonra bir də araq içəcəyik… Qardaşlar, ikincidən sonra piroq. Yoxsa iştahımız qaçar… Arvadım qəşəng piroq bişirir. Şi də var…
– Sardin almısan?
– İki qutu. Dörd cür kolbasa… Yəqin arvadım da acıyıb… Ay, şeytan!
Yarım saat mehmanxananın girəcəyində oturdular, qızışmaq üçün çay içdilər və təzədən Struçkovun evinə getdilər. Koridora girdilər. İy bayaqkından da güclü gəlirdi. Mətbəxin yarıaçıq qapısından qaz və xiyar dolu qab görünürdü.
Akulina sobadan nəsə çıxartırdı.
– Qardaşlar, yenə alınmayacaq.
– Nə olub?
Hamısının qarnı quruldayırdı. Divardakı mismardansa bu dəfə başqa papaq asılmışdı.
– Bu Prokatilovun papağıdır. Bayıra çıxaq. Hardasa gözləyək… Bu da az oturur…
– Bu axmağın bəxti gətirib ki, belə gözəl arvadı var! – Qonaq otağından Prokatilovun bas səsi eşidildi.
– Axmaqlar xoşbəxt olur, cənab! – arvadı ona cavab verdi.
– Gedək! – Struçkov dedi.
Yenə mehmanxanaya getdilər. Pivə istədilər.
– Prokatilov gücdür! – İş yoldaşları Struçkova ürək-dirək verirdilər. – Bir saat sizdə oturacaq, əvəzində… on il rahat işləyəcəksən. Bəxtin gətirib,

qardaş! Nə üçün bikefsən?
Təəssüflənmək lazım deyil.
– Sizsiz də bilirəm lazım deyil. Amma mən acam axı… Bu xətrimə dəyir!
Yarım saata yenə evə getdilər, papaq mismardaydı. Yenə bayıra çıxıb gözləməli oldular.
Ancaq saat səkkizdə ev boşaldı. İndi piroq yemək olar! Piroq qurumuşdu, şi istiydi, qaz yanmışdı – hər şeyi Struçkovun karyerası məhv etmişdi! Amma iştahla yedilər.

**Tərcümə- Həmid Piriyev**

# NAZİM HİKMƏT



## Dünyanın ən qəribə məxluqu

Əqrəb kimisən, qardaşım
qorxunc bir qaranlıq içindəsən
əqrəb kimi.
Sərçə kimisən, qardaşım
sərçənin tələşı içindəsən.
Midyə* kimisən, qardaşım
Midyə kimi qapalı, rahat.
Və sönmüş bir vulkan ağzı kimi
qorxuncsan, qardaşım.
Bir deyil,
beş deyil,
milyonlarlasan nə yazıq.
Qoyun kimisən, qardaşım
bir çodar uşağı qaldırınca zopasını
sürüyə qatılırsan o dəm
və adətən məğrurcasına gedərsən
sallaqxanaya.
Dünyanın ən qəribə məxluqusan yəni,
əslən bu dərya içində olub
dəryanı bəyənməyən balıqdan da qəribə.
Və bu dünyada bu zülm
sənin sayəndə.
Və acıq, yorğunuq, al-qan içindəyik əgər
və hələ də şərabımızı çıxartmaq üçün
əziliriksə
qəbahət sənin
-deməyə də dilim var gəlmir, amma –
qəbahətin çoxu sənin, canım qardaşım.

------------------------------------------------
***Midye - yeyilən dəniz canlısı (Tərcüməçinin qeydi)**

## Salxım söyüdüm

*Yatmayacaq,*
*bəyaz orduların ardında qılıc*
*oynatmayacaq!*
*Axırdı su*
*göstərib aynasında*
*söyüd ağaclarını.*
*Salxım söyüdlər yuyurdu suda*
*saçlarını!*
*Yanan yalın qılıncları çarparaq*
*söyüdlərə*
*çapırdı qızıl atlılar günəşin*
*batdığı yerə!*
*Birdən-birə quş kimi*
*vurulmuş kimi*

*qanadlarından,*
*yaralı bir atlı yuvarlandı atından!*
*Bağırmadı,*
*gedənləri geri çağırmadı*
*baxdı yalnız dolu gözlərlə*

*uzaqlaşan atlıların parıldayan*
*nallarına!*
*Ah nə yazıq!*
*Nə yazıq ki ona*
*dörd nala gedən atların köpüklü*
*boynuna bir daha*

*Nal səsləri sönür pərdə-pərdə.*
*Atlılar qeyb olurlar günəşin batdığı*
*yerdə.*
*Atlılar atlılar qızıl atlılar,*
*atları rüzgar qanatlılar!*
*Atları rüzgar kanat...*
*Atları rüzgar.*
*Atları...*
*At...*

*Rüzgar qanatlı atlılar kimi keçdi həyat!*
*Axar suyun səsi dindi.*
*Kölgələr kölgələndi*
*rənglər silindi.*
*Siyah örtülər endi*
*mavi gözlərinə*
*sallandı salxım söyüdlər*
*sarı saçların üzərinə!*
*Ağlama salxım söyüd*
*Ağlama ağlama!*
*Qara suyun aynasında əl bağlama!*
*əl bağlama!*
*ağlama!*

## Tərcümeyi-hal

*1902-də douldum*
*doğulduğum şəhərə dönmədim bir daha*
*geriyə dönməyi sevməm*
*üç yaşımda Hələbdə paşa nəvəsi oldum*
*On doqquzumda Moskvada kommunist*
*universiteti*
*tələbəsi*
*qırx doqquzumda yenə Moskvada*
*partiya MK-sı*
*qonağı*
*və on dördümdən bəri şairlik edirəm*
*bəzi insanlar otların bəziləri balıqların*
*çeşidin bilir*
*həm*
*ayrılıqların*
*bəzi insan əzbər bilər ulduzların adın*
*mən*
*həsrətlərin*
*həbslərdə də yatdım böyük otellərdə də*
*aclıq çəkdim aclıq tətilləri də içində və*
*dadmadığım*

*yemək*

*yox kimidir*
*otuzumda asılmamı istədilər*
*qırx səkkizdə sülh medalının mənə*
*verilməsini*

*verdilər də*
*otuz altımda yarım ildə keçdim dörd*
*metr qara*

*betonu*
*əlli doqquzumda on səkkiz saata uçdum*
*Praqadan*

*Havanaya*
*Lenini görmədim növbə tutdum başında*
*924-də*
*961-də ziyarət etdiyim movzeleyi*
*kitablarıdır*
*partiyamdan qoparmağa girişdilər məni*
*qopmadı*
*yıxılan bütlərin altında da əzilməidim*
*951-də bir dənizdə gənc bir dostumla*
*getdim*
*üstünə ölümün*
*52-də çatlaq bir ürəklə dörd ay çiynimin*
*üstdə gözlədim*

*ölümü*
*sevdiyim qadınları dəli kimi qısqandım*
*bu qədərcə də həsəd aparmadım Şarloya*
*belə*

*aldatdım qadınlarımı*
*danışmadım arxasınca dostlarımın.*

*içdim amma düşkünü olmadım*
*həm alnəımın təriylə qazandım*
*çörəkpulumu*

*nə xoşbəxtəm*

*başqasının hesabına utandım yalan*
*söylədim*
*yalan söylədim başqasını üzməmək üçün*
*amma elə-belə də yalan söylədim*

*mindim qatara təyyarəyə avtomobilə*
*çoxu minə bilmir*
*operaya getdim*
*çoxu gedə bilmir adını belə eşitməyib*

*operanın*
*çoxunun getdiyi yerlərə də mən*
*getmədim*
*21-dən bəri*
*məscidə kilsəyə məbədə sinoqoqa*
*amma qəhvə falıma baxdırdığım oldu*

*yazılarım otuz qırx dildə çap olunur*
*Türkiyəmdə türkcəmdə yasaq*

*xərçəngə tutulmadım hələ*
*tutulmam da şərt deyil*
*baş nazir filan olacağım yox*
*maraqlısı da deyiləm bu işin*
*bir də hərbə girmədim*
*sığınacaqlara da enmədim gecəyarı*
*yollara da düşmədim eniş edən*
*təyyarələrin altında*
*amma sevdalandım altmışıma yaxın*
*sözün qısası yoldaşlar*
*bu gün Berlində kədərdən gəbərməkdə*
*olsam da*
*insanca*
*yaşadım deyə bilərəm*

*və daha nə qədər yaşayaram*
*başımdan nələr keçər*
*daha*
*kim bilir*

**(Bu tərcümeyi-hal 1961-ci il sentyabrda Şərqi Berlində yazıldı.)**

## Acların göz bəbəkləri

*Degil bir neçə*
*deyil beş-on*
*otuz milyon*
*ac*
*bizim!*
*Onlar*
*bizim!*
*Biz*
*onların!*

*Dalğalar*
*dənizin!*
*Dəniz*
*dalğaların!*
*Deyil bir neçə*
*deyil beş-on*
*30 000 000*
*30 000 000!*
*Aclar bizim aclar!*
*Nə kişi, nə qadın, nə oğlan, nə qız*
*sısqa, cılız*
*əyri qol-qanadlarıyla*
*əyri budaqlı ağaclar!*
*Nə kişi, nə qadın, nə oğlan, nə qız*
*aclar düzülmüş aclar!*
*Bunlar!*
*yeriyən parçaları*
*o quraq*
*torpaqların!*
*Kimi*
*sümük*

*dizlərinə basaraq*
*yuvarlaq*
*bir*
*qarın daşıyır!*
*Kimi*
*dəri... dəri!*
*Yalnız*
*yaşayır*
*gözləri!*
*Uzaqdan*
*qapqara sivriliyi*
*nöqtə-nöqtə uzanıb damara batan*
*iri bir nalın çivi kimi*
*dəli göz bəbəklərini*
*göz bəbəkləri!*
*Hələ bunlar*
*hələ bunlarda elə bir ağrı var ki,*
*bunlar*
*elə baxarlar ki!..*
*Ağrımız böyük!*
*böyük!*
*böyük!*
*Fəqət*
*artıq imanımıza enmədən yumruq!*
*Dəmirləşdi bağrımız*
*Çünki ağrımız*
*30 000 000*
*dəli göz bəbəkləri!*
*göz bəbəkləri!*
*Ey*
*məni*
*ağzı açıq*
*dinləyən adam!*
*Bəlkə arxamdan mənə*
*Bu qəlbinin səsi haykırana*
*“qıcıq”*
*deyən adam*
*Sən də əgər*
*o birilər*
*kimi qazsan,*
*bir məna*
*verəmməzsən*
*sözlərimə*
*bax barı gözlərimə;*
*bunlar:*
*Dəli göz bəbəkləri*
*göz bəbəkləri!*

## Ceviz ağacı

*Başım əlçim-əlçim bulud, içim-çölüm dəniz,*
*Mən bir cəviz ağacıyam Gülhanə parkında.*
*Budaq-budaq, şırtım-şırım ixtiyar bir cəviz.*
*Nə sən bunun fərqindəsən, nə polis fərqində.*

*Mən bir cəviz ağavcıyam Gülhanə parkında,*
*Yarpaqlarım suda balıq kimi qıvrım-qıvrım.*
*Yarpaqlarım ipək dəsmal kimi pırıl-pırıl*
*Qoparıb al, gülüm, gözlərinin yaşını sil.*
*Yarpaqlarım əllərimdir tam yüz min əlim var.*
*Yüz min əllə toxunuram sənə, İstanbula.*
*Yarpaqlarım gözlərimdir. Heyrətlə baxıram.*
*Yüz min gözlə seyr edirəm səni, İstanbulu.*
*Yüz min ürək kimi çarpar, çarpar yarpaqlarım.*
*Mən bir cəviz ağacıyam Gülhanə parkında,*
*Nə sən bunun fərqindəsən, nə polis fərqində.*

## Arvadıma məktub

*Bir dənəm!*
*Son məktubunda*
*“Başım sızlayır*
*Ürəyim sərsəm!..”*
*deyirsən.*
*“Səni asarlarsa,*
*səni itirsəm*
*deyirsən*

*yaşayamam!..”*
*Yaşayarsan, əzizim,*
*qara bir duman kimi dağılar xatirəm*
*küləklərdə,*
*yaşayarsan qəlbimin qızıl saçlı bacısı*
*ən artığı bir il sürər*
*iyirminci əsrlərdə*
*ölümün acısı.*
*Ölüm...*
*Bir ipdə sallanan bir ölü,*
*Bu ölümə heç cür*
*razı olmur könlüm.*
*Fəqət*
*əmin ol ki sevgili,*
*zavallı bir qaraçının*
*tüklü, qara bir hörümçəyə*
*bənzəyən əli*
*geçirəcəksə əgər*
*ipi*
*boğazıma*
*mavi gözlərində qorxuyu görmək üçün*
*boşuna baxacaqlar*
*Nazimaə!*
*Mən,*
*alaca qaranlığında son sabahımın*
*dostlarımı və səni görəcəyəm,*
*və yalnız*
*yarımçıq bir şərqinin acısını*
*torpağa götürəcəyim...*

## Yürüyən adam

*Alnı açıq*
*qırmızı boyun şərfi külək ağzında*
*yürüyür.*
*Yürüyür addım-addım*
*Yürüyür ağır-ağır*
*yürüyür.*
*Külək dəniz kimi dalğalanır*
*əsir dəniz küləklər kimi*
*Axr iki yandan işıqlar*
*düşən ulduzlar kimi.*
*Səslər gəlir dərindən,*
*qəlbin uzaq*
*sahillərindən:*
*-Hara gedirsən yavrum mənim haraya?*
*Dön sevgilim,*
*qardaşım*
*dön evimin*
*erkəyi, dön geriyə.*
*Yürüyür o*
*fitlə qızğın bir matəm marşı*
*çalaraq.*
*Yürüyür o*
*gövdəsi bir gəmi kimi yüksəlib-*
*alçalaraq.*
*Yürüyür addım-addım*
*Yürüyür ağır-ağır*
*yürüyür.*
*Kim bilir*
*bəlkə bir daha soxmayacaq*
*barmaqlarını*
*dizinin dibində tikiş tikən*
*qardaşının*
*sarı saçlarına.*
*Və bəlkə bir daha altında yatıb*
*günəşə gedən yaşıl bir yola*
*baxar kimi*
*baxmayacaq*
*vələs ağaclarına.*
*Yürüyür o, yürüyür.*
*Açıq, geniş adımlarla arşınlayır yolları.*
*İki ağır çəkic kimi düşür qolları.*
*Tüklü köksü bir qalxan kimi qabarıq.*
*Eşitmir artıq*
*həm eyni taxta masanın başında*
*axşamlayan*
*xəstə topal*
*dostların*
*qəlbə qərənfil ruhu kimi*
*damlayan*

*sözlərini.*
*Çılpaq*
*iki bıçaq*
*kimi çəkmiş üzündə*
*gözlərini*

*yürüyür*
*düşmənə doğru.*
*YÜRÜYÜR ADDIM-ADDIM*
*YÜRÜYÜR AĞIR-AĞIR*
*YÜRÜYÜR.*

***Azərbaycan türkcəsinə uyğunlaşdırdı***
***Azad Qaradərəli***

# İOSİF BRODSKİ



***

Qəfəsə girmişəm mən vəhşi heyvan yerinə.
Adı, müddəti mıxla baraklara yazmışam.
Qonağı da olmuşam mən frak geyənlərin,
Ruletka oynamışam, sahildə yaşamışam.
Yarıdünyanı gördüm buzlağın təpəsindən,
Üç dəfə boğulurdum, iki dəfə deşiblər*.
Döşündə bəsləndiyim ölkəni tərk elədim,
Məni unudanlardan salmaq olardı şəhər.
Çovdar əkdim, bürüdüm qara tolla xırmanı,
Bircə quru su olub bəlkə də son içməyim.**
Qulaq verdim çöllərdə harayına hunların,
Təzədən dəbə düşən nə var geydim əynimə.
"Zağlı bəbəkləriylə yardı yuxumu konvoy"
Sürgün çörəyi yeyib, bir gilə salmamışam.
Səs çıxıb boğazımdan hər cür, haraydan savay,
Pıçıltıya keçmişəm, indi qırx olur yaşım.
Nə deyim həyatımdan? Bilmirdim uzanacaq,
Qəlbimin həmrəyliyi təkcə dərdlədir indi.
Nə qədər ki torpaqla dolmayıb ağzım ancaq,
Minnətdarlıq həmişə töküləcək dlimdən.

***24 may 1980***

***Çevirən Xeyrulla Xəyal***

---

*İzahlar:*
**İ.Brodski əməliyyat olunmasına işarə edir bu misrada. "Deşiblər", yəni bıçaqla əməliyyat ediblər mənasındadır.*
***«Quru su deyilən rəngsiz və iysiz maye doğrudan da var, ancaq Brodsi "quru su" ifadəsini metafor kimi işlədir, yəni gəncliyində hər şey içib, hər içkidən dadıb.*

# ARTUR REMBO



## SƏRXOŞ GƏMİ

Düşərək felinə lal çayların üzdüm irəli,
Qurtulan tək ciyəsindən canım yedəkçilərin.
Rəngli şalbanlara mismarlayıb Qızıldərilər,
Onları hay-harayla nizələdi.

Nə komanda veciməydi, nə də mal,
İngilis mahlıcı yəni, flamand buğdası da.
Çəkilən tək yedəkçilərlə hesab,
Hara mən istəsəm, apardı axar.

Dəli çaxnaşmalarla sarsılan dənizlərdə,
Yengi bir qışda üzürdüm, çağa beynindən küt.
Ötüb keçəndə yanımdan donurdu heyrətdən,
Adalar ki, qıraraq lövbəri dəryada gəzinməkdəydi.

Verdi hər sübhümə xeyir-duanı fırtınalar,
Aldı-oynatdı dalğalar məni mantar sayağı.
Burda bəlkə neçə səyyahın axır mənzili var,
Mənsə üzdüm, salaraq qorxuya bir çox mayağı.

Turşməzə alma şirindir necə uşaqlar üçün –
Eləcə xoşladı bu göy suları şam qılafım.
Qusuntular və çaxır gölləri yuyuldu bütün,
Qırıldı lövbərim ancaq. Sükan da yoxdu daha.

Məni şeriyyəti qərq etdi o vaxtdan dənizin,
Ulduz axmış sulara, sanki süd calanmışdır.
Və füsunkar bu mavilikdə görürsən bəzən
Ölü – görkəmdə deyərsən o, fikrə dalmışdır.

Ağarır mavilik qəfil günün cəlalı ilə,
Canlanır ritm və yoxdur daha sayıqlamalar.
Şərabı qıcqırır eşqin qızıl çalarlar ilə,
Tünddür hər içkidən və səsdə ötər liraları.

İldırımlar, bilirəm mən, necə səmanı yaxar,
Ləpədöyənlər, axınlar nədir axşam olcaq.
Və göyərçin qatarı tək necə sübh qayğılanır –
Mənim bu gördüyümü özgə zənn edər ancaq.

Yanır bənövşəyi işıqla, köpür, laxtalanır,
Günəşin çöhrəsində sirli, eybəcər ləkələr.
Necə antik dramın aktyoru
Çırpınırdı – eləcə çırpınır, əsir ləpələr.

Xəyala gəldi qarla nurlanan yaşıl gecələr,
Qaldırıb ehtirasla öpdüm həm dənizləri mən.
Və misilsiz bu həyat cövhəri ki, dövr eləyər,
Qoşarəng sayrışı həm fosforun ki, nəğmə deyər.

Hürküdülmüş sürü tək dalağaların hiddətlə
Olmuşam şahidi mən riflərə çırpılmağının.
Ümidim yoxdu da bu Dərya zəiflər, nəhlər,
Düşər üzqoylu Təmiz Məryəmin ayaqlarına.

Yan keçirdim inanılmaz Floridlərdən,
Orda panterlər adam cildli, gözlərində çiçək.
Elə əyilmədə göy qurşağını gördüm mən,
Elə bil indi dəniz ilxısı kəməndlənəcək.

Qıcqırırmış necə, gördüm nəhəng bataqlıqlar,
Leviafan çürüyür orda qamışlıqlıqlarda.
Sular qəfil burulur, sarsılırdı matlıqlar,
Uçurumlardakı mirvarilik uzaqlarda.

Səmada od, günəş –ağ, dalğa – sədəf. Buzlaqlar,
Suları qəhvəyi körpəz, rəzil dayazlıqlar.
Orda var müdhiş ilanlar ki, bitlərə yem olar,
Yerə düşəndə ağacdan, kəsif bir iy yayılar.

Göstərəydim uşaqlara bu mavi dalğaları,
Doradları və qızıl nəğməkar balıqları da.
Məni çiçək-çiçək köpüklənən su yırğaladı,
Ruhu qəribə küləklərsə qanadlandırdı.

Qütblərdən və zonalardan axıb can üzərək,
Dəniz ağlardı, yumşalırdı dalğa zərbələri.
Sulara endi toranlıq çiçək dəstəsi tək,
Mənsə diz üstə düşən bir qadın kimi əyili.
Üstümə zir-zibil töküldü, oxşadım adaya,
Yağdı ağgöz, qışqırıqçı quşların peyini.
Mən üzürdüm. Burazları bu vaxtsa adlayaraq,
Boğulanlar girirdi burda keçirsin gecəni.

Beləcə gözdən itirdim yosunlar altında,
Qasırğa atdı bir fəzaya ki, yox quşdan əsər.
Elə mən sərxoşam sudan, çətin ki əl uzada,
Mənə yelkənliləri Hanzın, həm kreyserlər.

Gedərəm arxayın, bənövşə dumanlar çəkilər,
Səma da allanan yerində divar tək dəlinir.
Ləziz mürəbbələrlə ki, bəyənir şairlər,
Qarışırdı günəşin dəmrovu, göyün seliyi.

Yürüyürdüm talaşa tək yağırdı nur yoluma,
Qara bir ilxı dənizdən çıxıb dalımca qaçmaqda.
İyulların dəyənək zərbəsiylə mavi səma,
Alovlanan çuxurlara axıb alışmaqda.

Cütləşirdi Begemotlar malstromlar ilə,
“Ah”lar, “oh”lar gəlib yetişdi, məni titrətdi.
Keçsə günüm də mavilikləri əyirməklə,
Qədim Avropa nisgiliylə məni göynətdi.

Adalar gördüm orda, sıxlaşırdı bürclər tək,
Açıldı səyyahın yolunda sayrışan göylər.

Belə sonsuz gecələr bəlkə sən yatırsan tək,
Başında quş qatarı, ey gələcək Qüvvə-qədər.

Ah, yetər ağladım! Bu şübhələrsə qəlbi didən,
Günəşdə zəhrmar dadı, itib insaf ayda.
Xoralı sevgi məni sardı, bədən keyləndi,
Çatla ey kil və batım, qərq olum bu dəryada.

Məni Avropaya çəkən sular soyuq və qara,
Xırda bir gölməçədir ki, yanında çömbələrək

Kədərli bir uşaq axşam çağı atıb sulara,
Üzdürür bir qayıq ki, may böcəyindən kövrək.
Yetər artıq! İliyə vurdu dalğa bezdirdi,
Məni pambıq gəmiləriylə qaçdı-tutdu yaman.
Qoy bu bayraqların ədası çəkilsin gözdən,
Görəyim həm də ki dustaqları pontonlardan.

**Fransızcadan çevirən**
*Xeyrulla XƏYAL*

***İzahlar***

“Sərxoş gəmi” şeri ilk dəfə 1883-cü ilin noyabrında müəllifin xəbəri olmadan “Lutece”də və 1884-cü ildə Verlenin nəşr etdiriyi “Lənətlənmiş şerlər” kitabında çap olunmuşdur.

Bu, Rembonun Şarlevildən Parisə getməzdən qabaq yazdığı son şerdir. Burda o, şeri öz əliylə 1871-ci ildə Verlenə vermişdir.

Şərhçilərin fikrinə görə, Rembo bu şeri heç vaxt dənizi görmədən yazmışdır. Mənbə kimi çoxlu ədəbi qaynaqlar göstərilir.

***“Sərxoş gəmi”*** – C. Muke bu başlığım mənbəyini “Le Magasin pitoresque” jurnalında 1869-cu ilin sentyabrında çıxmış məqalənin “La marubia” başlığında görür. Burda Sijiliya sahillərində müşahidə olunan “marubia” (“sərxoş dəniz”) dəniz təlaşı təsvir olunurdu. Bu sözün fransız tərcüməsi – “mer ivre” Rembonun diqqətini çəkə bilərdi.

**Leviafan** – finikiya mifologiyasında dəniz əjdahası

**Hanz** – Orta əsrlərdə Şimali Avropa şəhərlərinin ticarət birliyi. 1241-ci ildə yaranıb.

**Begemotlar** – S. Bernarın fikrinə görə, bu, Hüqonun “Dəniz əməkçiləri” romanının oxusu ilə bağlıdır. Romanda şirlərin cütləşməsindən danışılır və mağaranın təsvirində begemot xatırlanır.

**Malstrom** – Norveçin şimal-qərb sahilində şəlalə.

# FAZİL İSKƏNDƏR



## Qoca və onun qarısı
### hekayə

Çeqemdə bir kəndli qarının əri öldü. O hələ müharibə vaxtından yaralı idi və ayağının yarısını itirmişdi. O vaxtdan ölənə kimi çəliklə gəzdi. Çəlikləriylə də işləməyə davam elədi və müharibəyə qədər necəydisə, eləcə də qonaqpərvər ev sahibi oldu. Bayram qonaqlıqları vaxtı başqalarından heç də az içməzdi və içəndən sonra qonaqlıqdan qayıdırdanda çəlikləri ilə ona çatmaq olmazdı. Heç kim başa d üşə bilməzdi, o ayıqdı, ya sərxoş, çünki sərxoş vaxtı da, ayıq vaxtı da bir qayda olaraq şən olardı.

Di budur, o öldü. Onu ehtiramla dəfn elədilər, yasına bütün kənd gəldi. Çoxusu da digər kəndlərdən gəlmişdilər. O belə sevimli qoca idi. Qarısı da ona görə çox dərd çəkirdi.

Dəfnindən dörd gün sonra qoca qarısının yuxusuna girdi. Elə bil hansısa dağa aparan çığırda dayanmışdı, yöndəmsiz halda bir ayağı üstə tullanır və ondan xahiş eləyirdi:

- Allah xatirinə, mənim çəliklərimi göndər. Onlarsız heç cür cənnətə gedib çata bilmirəm.

Qarı yuxudan oyandı və qocasına yazığı gəldi. Düşünürdü: Bu nə yuxuydu belə? Həm də mən çəlikləri ona necə göndərə bilərəm?

Qarı növbəti gecə yenə həmən yuxunu gördü. Yenə də qoca çəliklərinin göndərilməsini xahiş eləyirdi, çünkü çəliklər olmayacağı halda gedib cənnətə çata bilməyəcəkdi. Amma çəlikləri ona necə göndərmək olar? – qarı yuxudan oyanandan sonra düşündü. Əyər bir də yuxuma girsə və çəlikləri göndərməyi xahiş eləsə, özündən soruşaram, deyə qarı qərara aldı.

İndi qoca hər gecə qarının yuxusuna girir və hər gecə çəliklərini istəyirdi, amma qarı yuxuda özünü itirir, vaxtında soruşmaq yadına düşmürdü, yuxu da harasa çıxıb gedirdi. Nəhayət qarı özünü ələ aldı və yuxuda ayıq-sayıq oldu. Qocanı görən kimi, hətta ona ağzını açmağa belə imkan vermədən soruşdu:

- Axı çəlikləri sənə necə göndərim?

- Bizim kənddə birinci öləcək adamdan, - qoca cavab verdi və yöndəmsiz halda bir ayağı üstə taytıyaraq, cığırda oturub, ayağının kəsilən yerini ovuşdurmağa başladı. Ona yazığı gələn qarı hətta yuxuda göz yaşları axıtdı.

Lakin yuxudan oyanandan sonra ruhlandı. İndi neyləməli olduğunu bilirdi. Çeqemin kənarında bir qoca yaşayırdı. Bu özgə qoca ərinin sağlığında onunla dostluq eləyirdi və onlar tez-tez birlikdə içirdilər.

- Sənin üçün içmək asandır, - bu qoca ərinə deyirdi, - sən nə qədər içmiş olsan da, həmişə ayıq çəliklərə söykənirsən. Mənimsə çaxır birbaşa ayaqlarıma vurur.

Onun belə zarafatı var idi. Amma indi o ağır xəstə idi və həmkəndliləri onun tezliklə öləcəyini gözləyirdilər.

Qarı qərara aldı bu qoca ilə danışsın və onun razılığı ilə, öləndə ərinin çəliklərini qocanın tabutuna qoysunlar, sonra da qoca o dünyada əri ilə görüşəndə çəlikləri ona versin.

Səhər qarı öz fikrini evdəkilərə danışdı. Evdə oğlu, gəlini və bir də böyük nəvəsi qalmışdı. Bütün digər uşaqları və nəvələri öz evlərində yaşayırdılar. Qarı onlara can verməkdə olan qocanın yanına getmək istədiyini və ondan ərinin çəliklərinin tabutuna qoyulmasına razılıq verməyi xahiş edəcəyini deyəndən sonra hamı bu avam qarıya gülməyə başladı. Xüsusi ilə də evdə ən təhsilli hesab olunan, onuncu sinfi qurtarmış nəvəsi hamıdan bərk gülürdü. Əlbəttə bu fürsətdən gəlini də istifadə elədi, o da ucadan qəhqəhə çəkirdi, halbuki oğlundan fərqli olaraq onuncu sinfi qurtarmamışdı. Gəlini qəhqəhə ilə gülərək dedi:

- Bu hətta münasib də deyil, sənin ərinin çəliklərini onun tabutuna qoysunlar deyə sağ-salamat qocadan ölməyini xahiş eləyəsən.

Amma qarı hər şeyi düşünmüşdü:

- Mən ki ondan dərhal ölməyini xahiş eləməyəcəyəm, - qarı cavab verdi. – Qoy vaxtı gələndə ölsün. Yalnız çəlikləri aparmağa razılıq versin.

Bu ağıllı və olduqca nəzakətli qarı belə cavab verdi. Onu dilə tutsalar da, elə həmən gün bu qocanın evinə gəldi. Yaxşı sovqatlar gətirmişdi. Qismən xəstəyə baş çəkməyə gəldiyi üçün, qismən də ölən qocanı və onun ailəsini öz gözlənilməz xahişinə razı salmaq üçün.

Qoca otaqda uzanmışdı və ağır xəstə olmasına baxmayaraq hələ də özünün saxsı qəlyanını sümürürdü. Onlar bir qədər həyatdan danışdılar, qarı isə hələ də öz xahişi ilə qocaya müraciət eləməyə utanırdı. Xüsusən də ona görə ki, otaqda qocanın gəlini və bir neçə nəfər də digər yaxınları oturmuşdular. Həm də qarının bizim əvvəl düşündüyümüzdən də nəzakətli qarı olduğu məlum olurdu. Amma xəstə qoca özü ona kömək elədi – qarının ərini yaxşı sözlərlə yad elədi, sonra isə köks ötürərək, əlavə elədi:

- Görünür, mən də tezliklə orda olaram və sənin qocanla görüşərəm.

Bu yerdə qarı canlandı:

- Sözünün qüvvəti, - qarı sözə başladı və qocaya öz yuxusunu, birinci öləcək həmkəndlisi ilə ona çəliklərini göndərmək xahişini danışdı. – Mən səni tələsdirmirəm, - qarı əlavə elədi, - amma əyər nəsəolarsa, icazə ver, çəlikləri tabutuna qoyaq, ərim də çəlikləriylə cənnətə gedə bilsin.

Ağzında qəlyan ölən bu qoca dilli-dilavər və hətta qonaqpərvər adam idi, amma öz tabutuna özgəsinin çəliklərinin qoyulmasına razılıq verəcək qədər də üzü yola deyildi. Öz tabutuna özgə çəliklərinin qoyulmasını dəhşətli dərəcədə istəmirdi. Utanırdımı? Bəlkə başqa kəndlərdən dəfninə gələn adamların onun əlil olduğundan şübhələnəcəklərindən qorxurdu? Amma birbaşa imtina eləmək münasib deyildi.Ona görə də qarıyla siyasətlə danışmağa başladı.

- Məyər bolşeviklər cənnəti bağlamayıblar? – qarıdan bu bəhanə ilə yaxasını qurtarmağa cəhd elədi.

Amma qarı təkcə nəzakətli yox, həm də hazırcavab imiş. Qoca ilə çəlikləri o dünyaya göndərməyi çox istəyirdi.

- Yox, - qarı inamla dedi, - bolşeviklər cənnəti bağlamayıblar, buna

görə də Lenini Movzeleydə saxlayıblar. Bu digərlərinin də gücü çatan iş deyil.

Onda qoca yaxasını zarafatla qurtarmağı qərara aldı.

- Yaxşısı budu sən mənim tabutuma bir şüşə yaxşı çaçi qoy, - təklif elədi, - biz orda sənin qocanla görüşəndə vurarıq.

- Sən zarafat eləyirsən, - qarı ah çəkdi, - o isə gözləyir və hər gecə çəlikləri göndərməyi xahiş eləyir.

Qoca bu qarıdan yaxa qurtarmağın çətin olduğunu başa düşdü. Onun ümumiyyətlə ölmək ürəyincə deyildi, tabutuna çəliklərin qoyulması isə heç ürəyincə deyildi.

- Bir də mən indi ona çata bilmərəm, - qoca fikirləşib dedi, - o artıq bir ay əvvəl ölüb. Hətta məni həmən cığırla cənnətə göndərərlərsə də, buna mənim elə də inamım yoxdur. Günahlarım var…

- Sənin günahlarından xəbərdaram, - qarı razılaşmadı. – Mənim qocamı gördüyün kimi, elə həmən günahlarla cənnətə yola salıblar. Çatmağa qalanda isə, adamları özünə güldürmə. Mənim qocam tək ayağı üstə uzağa taytıya bilməz. Əyər deyək ki, sabah ölsən, hərçənd mən səni tələsdirmirəm, birisi gün ona çatarsan. O sənin əlindən heç yerə gedə bilməz…

Qoca fikrə getdi. Amma bu zaman indiyə qədər onların danışıqlarına dinməzcə qulaq asan gəlin söhbətə müdaxilə elədi.

- Əyər orda nəsə varsa, - dodaqlarını büzərək dedi, - biz sənin tabutuna bir kisə qoz qoyarıq. Mənim rəhmətltik yazıq qardaşım qoz yeməyi elə xoşlayırdı…

Bütün gəlinlər eynidir, qarı düşündü, həmişə başqalarının işinə qarışırlar.

- Hə, mən görürəm siz mənim tabutumdan araba dü zəltmək istəyirsiniz! – qoca qışqırdı və qarıya üz tutaraq əlavə elədi: - Bir həftədən sonra gəl, onda mən sənə qəti cavab verərəm.

- Gec olmaz? – görünür qarı öz nəzakətinə qalib gələrək soruşdu. – Hərçənd mən səni tələsdirmirəm.

- Olmaz, - qoca inamla dedi və qəlyanını sümürdü.

Bununla da qarı çıxıb getdi. Axşa ma yaxın evə qayıtdı. Mətbəxə girərkən tamami ilə gözləmədiyi bir mənzərə ilə qarşılaşdı. Onun adam ələ salan nəvəsi a yağı sarınmış halda babasının çəlikləri il əmətbəxin ortasında dayanmışdı.

- Sənə nə olub? – qarı həyəcanla səsləndi.

Məlum oldu ki, o, ölüm ayağında olan qocaya baş çəkmə yə gedəndən sonra nəvəsi yunan qozu çı rpmaq üçün ağaca dırmaşır, ehtiyatsızlıq eləyərək ayağını quru budağın üzərinə q oyur, ağacdan yıxılırvə ayağı möhkəmcə burxulur.

- Çəliklər məşğuldur, - nəvəsi dedi, - babam bir ay gözləyəsi olacaq.

Qarı öz qocasını sevirdi, amma la ğlağaçı nəvəsini də çox sevirdi. Düşünd ü ki, nəvəsinə çəliklər doğrudan da lazı mdılar. Bir ay gözləmək olar, qarı qərara aldı, cənnətə gedən yolun havası korlan maz.Hə, bir də baş çəkdiyi qoca onun m üşahidələrinə görə bir ay duruş gətirə bil ərdi, bəlkə lap çox. Bir gör qəlyanını nec ə tüstülədirdi.

Amma hamısından qəribəsi – daha qoca çəliklərini ona göndərmək xahişi ilə yuxusuna girmədi. Ümumiyyətlə yuxusuna girmədi. Hardasa gizləndi. Görünür, nəvəsinin ayağının sağalmasını gözləyir, səhərlər öz yuxularını xatırlayan qarı mütəssir

olurdu. Amma budur, nəvəsi çəlikləri bir kənara tulladı, amma qoca daha onun yuxusuna girmədi. Görünür, bəlkə də yolun kənarındakı kollardan yapışıb taytıyaraq cənnətə qədər gedib çıxa bilib, qarı düşündü və tamami ilə sakitləşdi.

Həmən ölən qoca isə qarının təşrifindən sonra qeyri adi və hətta qocalara xas olmayan cəldliklə sağalmağa başladı. Tabutuna özgə çəliklərinin qoyulmasını heç istəmirdi. Ona ağır gəlirdi: sağlığında bircə dəfə də axsamamışdı, tabuta isə çəliklərlə birgə uzanır. O indi də sağdır, hərçənd o vaxtdan beş il keçib. Öz keçilərini meşədə otarır, hərdənbir onlar üçün cavan qoz zoğları qırır, hətta bu zaman belə qəlyanını ağzından çıxartmır.

Baltayla taraq! Qəlyanına bir qull ab vurur! Baltayla taraq! Qəlyanına bir q ullab vurur! Baltayla taraq! Qəlyanına bi r qullab vurur! Şeytan ona uzaqdan baxır və dişlərini qıcayır: bu dünyanı partlada rdı,amma lənətə gəlmiş qəlyanlı qoca hə tta dönüb partlayışa baxmayacaqdı! Onu n keçilərinin yeyib doymasını gözləmək lazım gəlirdi.

Bax,biz də nə vaxta kimi qoca bal tasıyla taqqıldadacaq, qəlyanına bir qullab vuracaq – yaşayacağıq! Keçilər isə heç vaxt doym ayacaqlar.

**Ruscadan çevirən: Aslan Quliyev**

# Berrin Taş
## (Türkiyə)



***

İllər  nə axıb gedirsiniz belə
hara gedirsiniz belə nəfəs dırmədən
hələ dünən başladım mən yaşamağa
ovuclarımda bahar nəşəsi

üstündən keçdiyim torpaq
təzə çattaquş kimi doldu əllərimə
sözlər – o qutsal xəzinə
şeirlərimdə mənaya dolduğu kimi

illər nə axıb gedirsiniz belə
hara gedirsiniz belə nəfəs dərmədən
hələ duymadığım yaşamlar var – sözə çevrilməmiş
görmədiyim insanlar var fırtınada boranda

illər nə axıb gedirsiniz belə

## Ankara

Ağla Türkiyəm
doğulmamış bəbələrinə ağla
gənc  qızlarına dəliqanlılarına ağla
yatağında ölməyən yaşlılarına ağla
ağla Türkiyəm ağla
xəstaxana qapılarında əsim-əsim əsərək
gözləyən insanlarına ağla
adları oxunanların yaratdığı acıya ağla
ağla Türkiyəm
yaşatamadıklarına ağla
sevincinə ortak olamadıqlarına ağla
qorumadığın  Respublikana ağla
ağla Türkiyəm
ağla
bu acı tükənməzz ağlın yerinə
qayıtmadıqca
ağla Türkiyəm ağla
gözyaşlarında boğulur bəlkə cəhalətin
xof cəsarəti
ağla Türkiyem
inancın boş güveninde iitirdiğin
gələcəyinə ağla

başına hörülən çorablara ağla

***

Üzgünəm
Uzulmək bəs etmir
Acı  çəkirəm
Acı çəkmək yetməz
Parcalanan  ölkəmin haqqı qorunmur
Yazıq  ağlını əldən verənlərə
Hansı nifrətin qucaginda bəslənir kin
ofkə

Yazıq yazıq yaşadığım çaga

## Əllərim sevgilim

Əllərim üşüyür sevgilim
əllərim xeyli yorğun
yorğun və döyənəkli əllərim
hər barmağımda çalışdığım  illərin izi
var
biri mən buradayam yaşadım diyəbilmək
üçün
ikincisi həyata sual vermək üçün
üçüncüsü qavraya keçmişi gələcəyi
dördüncüsü uyumu ve acını sakitləşdirən
beşincisi birleşir tutmak için səbirlə
bilgini
altıncısı toxunur eşqə toxunur sabaha
tutur günləri səbirli bir dərviş ədasıyla
yeddincisi
əllərim sevgilim əllərim dirənir
səkkizinci barmakla
gündüzə  gecəyə toxuyur  sabahın
aydınlıq örtüsünü
doqquzuncusu saxlayır iniltisini hüzn
quşlarının
əllərim sevgilim əllərim qovuşunca
birbirinə
on barmaq ovuclayınca yaşamağı bərk-
bərk
yenidən yaradır dünyanı

***Çevirən A.Qaradərəli***



# Çağdaş İran Şeiri

*Elşən Böyükvəndin çevirməsində*

## Sanaz Davudzadə



1
Dünənləri
Çadrasının güllərində itdi
Bu gün
Bir alma çiçəyində bulundu.
2
Dustağa və ölümə çevrilir
Yazdığım hər bir şey
Xəstələnmiş əlifba ilə
Azadlığı işarə dilində yaşamaq gərək.
3
Göyə yamaq vurmaq üçün
Göyərçinlə sərçə gətizdirmək yerinə
Qoy qarğalar çevrəndə otursun
Bütün quşların uçuşu eyni mənalıdır.

## Lalə Məmnun



1
Yorğunam, bilirsən
Küləyin kürəyində yeriyərkən
Hər yolçunun çiyini bir xiyabandır.

2
Pəncərələr vəsvəsəsi əlindən
Daha bütün qapıları açıq qoymuşam
Dustaqlar
Özgürlüyü qonşu divarını aşmış
insanların payıdır.

3
Bax
Qələm dodağından unudulmuşdur ağzım
Şair insan axınından dili tutulmuş
kəlmələrdir
və sözün üsyan tarixini bilən
səssizlikdən savayı
eşq əruzunu pərişanlaşdırmağa
giley yoxdur şeirim rədifində.

## Yədulla Röyayi



### "Sükut"

Boğazımda bir dəstə gül idi sükut
Sənin açıq gözlərin
Və öpüşümün əsintisi idi
Qıyının şərqisi
Dənizlərdə külək quşu
Yüzlərcə səsin yuvasında didərgin idi
Dənizlərdə quş
Yorqun idi
Ildırımın islaq səsi
Və işıq,ildırımın nəmli işığı
Sularda
Dəniz odu ila parlayan bir ayna çəkdi
Öpüş əsintisi

Açıq gözlərin və külək quşu alovlandılar
Boğazımda
Bir dəstə gül idi sükut.

### "Çılğın Bahar"

Səninlə
Ağaca dırmaşan bir çılğındır bahar
Dırmaşır
Küləyə qədər
Küləklə,ağacdan yuxarı düşürəm

## "YAZI" DƏRGİSİNİN 5 YAŞI TAMAM OLUR: *TƏBRİKLƏR, ARZULAR, TƏKLİFLƏR*

İndisi olmayan xalqın heç nəyi yoxdur...

Planetin bu adsız xalqını həmişə olmayan keçmişlə mifik gələcəyin qovşağında yaşadıblar. (cənnət-cəhənnəm, feodalizm-kommunizm, "mənfur" AXC iqtidarı döməmi-sabahın neftli xoş gələcəyi və s.)

İndiyə sahiblik həm də zamanı və hətta gərəkəndə məkanı yönəltmək qüdrəti verir.

Zamanın sahibi İndidə əyləşib və bu "taxt" hər kəsin nəsibidir. Bu xalq yazıçıları ilə bahəm hələlik zaman-məkanın gic-gici sərgərdanıdır.

Dostum Azad Qaradərəlinin buraxdığı "Yazı" dərgisi bilərəkdən-biməyərəkdən İndiyə doğru ayaq götürüb və 5 yaşı tamam olur. Azad əllincilərdəndir (yəni 1950-lərdə doğulub). Və deyilmiş sözdür ki, 50-cilər planetin (və mənsub olduqları xalqın) şüur və ruhunun genişlənməsində mühüm rol oynayırlar (kainatda dəyişim enerjisini ifadə edən 5 və 50-yə diqqətli olun).

Uğurla olsun...



***Fərzuq Seyidbəyli***

Azad Qarad ərəlinin "Yazı" dərgisi, Azərbaycan yazı məkanında dirsəklə özünə yol açan, qanadlanıb uçan yox, uça-uça qanadlanan, yeni nəfəsli,ruh qidasıdır. Hər bir nömrəsini səbirsizliklə gözlədiyim, bütün nömrələrini oxuduğum "Yazı"nın doğrudanmı beş yaşı oldu? Günəş ətrafına beş dəfə fırlanan dərgi. Uzun yoldurmu ? Bəli, uzun yoldur. Amma, mən deyərdim ki, keçəcəyi yola nisbətdə bu yol çox azdır.

Beş yaşın mübarək, "Yazı"!

Dərginin işıq üzü görməsində ilk redaksiya heyətinə xüsusi təşəkkürümüz var. A. Qaradərəlinin həyati roman və povestləri , gənc yazıcıların təzə nəfəsli yazıları, Ş. Qaraoğlunun yüksək əyarlı, Cavidanın orginal fikirli şeirləri, N.Mehdinin düşündürən yazıları, S.Baycanin cümlələrindən ağıl daman yazıları dərginin bəzəkləridir. Bundan sonra da "Yazı"da dərin, samballı yazılar görəcəyimizə əminəm. Ona da əminəm ki, biz olsaq da, olmasaq da "Yazı"nın yüz illiyi də təmtaraqla qeyd olunacaq.Onda çox adam tapılacaq ki , desin : yubiley yaşın mübarək, "Yazı"!



***Rizvan müəllim Saatlı***

# REZONANS

## Ə.Əylislinin gedə bilmədiyi Kitab Festivalında etməli olduğu çıxışın mətni



***Yazıçı Əkrəm Əylisli İtaliyanın Venesiya şəhərində keçirilən "Sivilizasiyaların görüşü" kitab festivalında çıxış edəcəkdi. 31 mart 2016-cı il tarixdə Bakı hava limanında saxlandığı üçün həmin tədbirdə iştirak edə bilmədi. Aşağıda yazıçının festivalda etmək istədiyi çıxışın tam mətnini təqdim edirik.***

## *Əkrəm Əylisli*

### *HAKİMİYYƏTİN PSİXOLOGİYASI ÖZ MÖVQEYİ OLAN YAZIÇILARI QƏBUL ETMİR*

Hələ Bakıda ikən, burada danışmağıma ehiyac yaranarsa, çıxışıma necə başlayacağımı düşünərkən bu təlaş dolu sözlər ağlıma gəldi: "Sizin qarşınızda

tamamilə müdafiəsiz insan dayanıb". Və elə həmin andaca ürəyimdən buna qarşı etiraz səsi gəldi. O səs: "sızıldama" - dedi, "qocafəndi deyingənlik eləmə. Sən öz müdafiəsizliyində tək deyilsən. Dünyada səndən də müdafiəsiz adamlar var!"

Təəssüf ki, həqiqətən belədir, əziz həmkarlarım! Bu qəddar zəmanədə bizim hər birimiz aciz və köməksizik.

Tarixdə elə dövrlər olur ki, insanın qəlbindəki boşluğu heç nə doldura bilmir: nə din, nə elm, nə də ədəbiyyat.

Ruhi və bədii avtoritetlər əbədi olaraq, keçmişdə qaldı. Ən çox inkişaf etmiş ölkələrin dövlət institutları insanlığın mübtəla olduğu ruhi və mənəvi çıxılmazlıqdan çıxış yolu tapmaqda aciz olduqlarını sübut etdilər.

Vaxtilə mənim dindaşlarım dini məbədlərin qapılarını üzümüzə bağladığına görə, Sovet hakimiyyətinə lənət yağdırırdılar. İndi mənim ölkəmdə məscidlərin sayı az qala məktəblərin sayına çatmaqdadır, ancaq bunun nəticəsində mənim həmyerlilərimin heç biri hələ ki, Allaha daha yaxın olduğunu deyə bilməz.

Kilsə və məscidlərdə basabasdır, beyinlərdə də hər şey bir-birinə qarışıb. İnsanların ürəyində gələcəyə nikbin baxmağa ümid qalmayıb. Ürəyinin səsini eşitməyə kimsənin vaxtı yoxdur. İnsanlar mədəniyyətdən də əlini üzüb.

"İlahi, mən dondum bu dünyada,
Evdə də əynimdə palto var.
Burda sənin olan hər şeyi dağıdıblar,
Özümüzünkülərsə bizi isitmir".

Ürəklərimizin ağrısını söyləməyə bir gənc rus şairinin bu dörd misrada dediklərindən daha dəqiq söz tapmıram.

İndi biz hamımız köməksizik. Və bu, tək-tək insanlara aid deyil, çarəsiz, köməksiz qalan xalqlar və millətlər də var.

Yüzminlərlə insanın ölümünə və milyonlarla insan taleyinin şikəst olmasına bais olan - Çeçenistanda, Yuqoslaviyada, İraqda, Liviyada, Suriyada, Yəməndə, Donbasda... törədilən cinayətkar siyasi avantüralara görə, kimsə məsuliyyət daşımaq istəmir. Əgər belə davam edərsə, lap yaxın zamanda dünyada həmişəlik cəzasız qalacaq daha dəhşətli hadisələrin şahidi ola bilərik.

Soljenitsının dediyi kimi, zorakılıqla yalan həmişə bir-birinin yanındadır. Zorakılıq yalandan ayrı yaşaya bilmir, onun tək yaşamağa zoru çatmır. Zorakılıq yalnız yalan hesabına özünə haqq qazandıra bilir.

Zorakılıq – bu gün dünyada heç vaxt olmadığı qədər geniş miqyas alan və hər kəsi öz həyatı və yaxınlarının, doğmalarınınn taleyi üçün daim səksəkədə saxlayan terror aktları ilə bitib qurtarmır. Zorakılıq həm də ona görə qorxuludur ki, xəlvətcə şüurumuza soxulub qəlbimizi viran qoyur, insanın xeyirə, ədalətə inamını məhv edir, bizi cəhalət tərəfdarlarının və tərəqqi düşmənlərinin qarşısında çarəsiz vəziyyətə salır. O, Xeyirlə Şərin yerini vicdansızcasına dəyişə bilir.

Qəlbində insanlıq naminə heç nə olmayan, yaxud içində bir müdhiş mənasızlıq gəzdirən ürəksiz və beyinsizlər bu yerdə fürsət tapıb milli ideya pərdəsi arxasında gizlənərək, hələ dünən sülh içində, dinc-yanaşı yaşayan xalqların, millətlərin arasına zəhərli nifrət toxumları səpirlər. Millətçi ona görə qorxuludur ki, o, hər zaman nikbindir, həyatın kədərli, faciəvi məqamlarını görmür və görmək istəmir. Əslində isə həyat həmişə faciələrlə doludur.

Bu sayaq millətçilik - idraka və insaniyyətə qarşı qiyamdır. Özlərini, həyasızcasına, yeganə düzgün ideyanın

aparıcısı və xalqın səadəti uğrunda həqiqi mübarizlər elan edən bu adamlar əslində iblisanə dərəcədə qəddarlaşıb insan sifətini itirənlərdir.

Yuxarıdan insanlara sırınan patriotizm isə faşistcəsinə azğınlaşan belə həpəndlərə xalqı kütləyə çevirmək üçün geniş imkan yaradır. Kütləyə yaxın, çox yaxın olanların potensial satqınlar olduğunu qoca tarix çoxdan sübut edib. Kütləyə xalq kimi yanaşanların xalqı necə bir cəhalətə sürükləməyi də bizə çoxdan məlumdur.

Günahkarlar arasında yaşayanda günah istər-istəməz sənə də yapışır. Yazıçı isə elə ona görə yazıçıdır ki, ən ekstremal şəraitdə də əsl həqiqət qarşısında şüurunu sakit və sabit saxlaya bilir.

"Həqiqət Puşkindən, Nekrasovdan, xalqdan, Rusiyadan da üstündür" – bu sözləri bir zaman Dostoyevski yazıb.

"Özünü millətin səsi adlandıran yazıçılardan ehtiyat edin," – bu sözlər isə başqa bir böyük rus yazıçısı, bizim müasirimiz Andrey Bitova məxsusdur.

Kütlənin sevimlisi olmaq üçün nə gəldi, necə gəldi yazmaq olar. Ancaq öz oxucuna doğma adam olmaq hər yazıçıya qismət olmur.

Əsl ədəbiyyat - yazıçının vicdanla keçdiyi fikir və hiss yoludur.Yazıçı kütləvi oxucu tərəfindən daha çox oxunduğuna görə, yazıçı sayılmır.Yazıçı, - ən yaşarı əxlaqi və mənəvi dəyərlərin sadiq ifadəçisidir, xalq ona öz ağrı və əzablarını etibar edir. Və xalq simasını itirməyə başlayanda bunun əzab-əziyyətini hamıdan çox yazıçı çəkir. Yazıçı - xalqının ürəyindən doğulan müəllimdir və bu, yazıçının təqsiri deyil ki, onun belə bir sehirli üstünlüyə malik olduğunu anlamaq siyasət adamlarının adına yazılmayıb.

Hakimiyyətin psixologiyası ictimai həyatda baş verən taleyüklü hadisələrə münasibətdə öz mövqeyi olan yazıçıları qəbul etmir. Hakimiyyət belə yazıçıları sərt və dəhşətli cəzalandırır. Mənə münasibətdə də o, belə sərt və amansız mövqe göstərdi.

Amma indi bu barədə geniş danışmaq niyyətim yoxdur: xarici auditoriya qarşısında öz balaca ölkəmin nüfuzuna xələl gətirmək istəmirəm, çünki ölkəmin indiki rəhbərlərinin mənimlə məlum rəftarından sonra da mən öz vətənimi əvvəlkindən az sevmirəm.

Mənimlə bağlı olan bu əhvalatda kədərli hadisələr az olmadı, ancaq mənim üçün xeyli faydalı və ibrətamiz məqamlar da oldu.

Mənə elə gəlir ki, artıq italyan dilində də nəşr edilən bu kiçik həcmli əsərimlə mən öz başlıca məqsədimə nail ola bildim: mən erməni millətindən olan xeyli insanı xalqıma nifrət bəsləməkdən xilas etdim.

Bir daha anladım ki, bu qanlı konfliktdə bizim iki xalqın günahı yoxdur. Əgər siyasət xalqlarımızın həyatına müdaxilə etməsəydi, xalqlarımız bu qanlı konfliktə heç vaxt getməzdi. Bir daha əmin oldum ki, xalqlarımız hərə özlüyündə yaxşıdır, hər ikisi bir yerdə olanda isə onlar daha gözəl görünür.

Mən əvvəllər də bilirdim ki, görünəndən görünməzə gedən yol həmişə əzablar içindən keçib. İndi mən bu yolu öz ayaqlarımla yeridim və imkan daxilində çalışdım ki, büdrəyib yıxılmayım.

Görünür, mənim qəlbim bu iztirabı axıracan çəkməliydi ki, satqınlığa və xəyanətə həmişə hazır olan insanları daha yaxından tanıya bilsin. Və bu prosesdə mən özümü yenidən dərk elədim.

Həyatın elə epizodları olur ki, o epizodlar bir çox həyata dəyər. Həyatımın bu epizodunda mən kiminsə

nəzərində qəhrəman, kiminsə nəzərində satqın oldum. Ancaq buna bir an belə, şübhə etmədim ki, mən nə qəhrəman, nə də satqınam, mən sadəcə başqalarının ağrısını duya bilən bir yazıçı və humanist insanam.
Mən özümü Qalileyin həyatında gördüm. O Qaliley ki, özünün inandığı həqiqətə bir an belə, şübhə eləməmişdi. Amma bu şəksiz həqiqətlə o, köhnəlmiş əxlaq və dünyagörüşə malik olanların paslanmış qəlbinə yol tapa bilməmişdi.

Mən yalnız coğrafi qonşuluqla yox, həm də çoxəsrlik tarixi tale ilə bir-birinə bağlı olan iki yaxın xalqın yenidən bir yerdə olması üçün şəxsi rifahımdan və rahatlığımdan məhrum oldum. İndi mənim ən böyük arzum bu iki xalqı yenidən bir yerdə görməkdir. Və mən o işıqlı günü görənəcən yaşamaq istərdim.

## Dünyanın 20 yazıçısı Ə.Əylisliyə dəstək bəyanatı yayıb

Dünyanın müxtəlif ölkələrindən olan 20 yazıçı Əkrəm Əylisliyə dəstək bəyanatı verib.

"Biz, aşağıda imza atan yazıçılar hazırda Venesiyada "Incroci di civiltà" Beynəlxalq Ədəbiyyat Festivalında iştirak edirik, burada cənab Əkrəm Əylisli də çıxış etməliydi, biz hamımız həmkarımızın ən sadə ifadə azadlığı əleyhinə baş verənlərə görə narahatlığımızı bildiririk, qoy ürəkdən gələn həmrəyliyimiz ona yetsin və ona qarşı vəziyyətin yumşalmasına kömək olsun" - bəyanatda deyilir.

*Bəyanatı aşağıdakı yazıçılar imzalayıblar:*

*A Yi (Çin)*
*Ana Blandiana (Rumıniya)*
*Catherine Chanter (Britaniya)*
*Marco Castelli (İtaliya)*
*Radka Denemarkova (Çex Respublikası)*
*Amir ElSaffar (ABŞ)*
*Garth Risk Hallberg (ABŞ)*
*Nathalie Handal (ABŞ)*
Aleksandar Hemon (ABŞ)
Helena Janaczek (İtaliya)
Antanas A. Jonynas (Litva)
Khaled Khalifa (Suriya)
Linda Le (Fransa)
Rosa Liksom (Finlandiya)
Roger Lucey (CAR)
Ann-Marie MacDonald (Kanada)
Okey Ndibe (Nigeriya)
Doron Rabinovici (Avstriya)
Juri Talvet (Estoniya)
Paco Ignacio Taibo II (Meksika)
Frank Westerman (Hollandiya)

## GÖRKƏMLİ YAZIÇI ƏKRƏM ƏYLİSLİNİN SAXLANILMASI İLƏ ƏLAQƏDAR OLARAQ MÜSTƏQİL "YAZI" ƏDƏBİYYAT DƏRGİSİNİN BƏYANATI

Görkəmli Azərbaycan ədibi, əsərləri dünyanın bir çox ölkələrində nəşr olunan qocaman yazıçı Əkrəm Əylisli İtaliyanın Venetsiya şəhərində keçirilməsi nəzərdə tutulan kitab festivalına dəvət olunmuşdu. Azadlıq radiosunun məlumatında deyilir ki, 30 mart 2016-cı il tarixdə Ə.Əylisli saat 5:11-də 613 saylı reyslə uçmalı imiş. Amma sərhədçilər onun ölkədən çıxışına qadağa qoyulduğunu bildiriblər.

Yazıçı, böyük oğlu İlyas Naibovla birgə Nəqliyyatda Baş Polis İdarəsinin aeroportdakı bölməsində

saxlanılıb. Saat 9:00-dan bölmədə olan yazıçı və oğlu axşam saatlarına qədər oradan buraxılmamışdılar.

Daxili İşlər Nazirliyi Mətbuat Xidmətinin şöbə rəisi isə Azadlıq Radiosuna demişdi ki, yazıçı ilə sərhəd xidməti əməkdaşları arasında aeroportda münaqişə yaşanıb. Bu üzdən hazırda araşdırma gedir.

Amma, oğlunun deməsinə görə, sərhəd xidməti yazıçıya xaricə çıxışına qadağa qoyulduğunu bildirib. Nəcəf Naibov deyib: "Aeroportda heç bir insident olmayıb".

Yalnız axşam saatlarında sərbəst buraxılan yazıçı ilə telefon əlaqəsi saxlaya bildik. O dedi:" Heç bir əsas olmadan məni səfərə çıxmağa qoymayıblar. Əvvəlcədən öyrədilmiş adamların deməsinə görə, guya mən aeroport işçilərini təhqir etmişəm. Halbuki belə şey olmayıb."

Müstəqil "Yazı" dərisi olaraq bildiririk ki, yaşının səksənə yaxın olmasına baxmayaraq ən fəal müəlliflərimizdən olan Əkrəm Əylislinin İtalya kimi bir ölkənin oxucuları ilə təmasına imkan verilməməsinə üzüldük. Onun son vaxtlarda dərgimizdə çap olunan yeni əsərləri Rusiyada, İngiltərədə, Pribaltika ölkələrində, Finlandiyada, Almaniyada və başqa ölkələrdə çap olunub, oxucuların rəğbətini qazanıb. Elə buna görə də ədib İtaliyaya dəvət olunmuşdu.

Dünyada demokratik proseslərin getdiyi bir zamanda ölkəmizin adının bu cür aşağılayıcı insidentlərdə hallandırılması yolverilməzdir. Sözün aliliyini rəhbər tutan ölkələrdə yazıçılara qarşı bu cür hallara yol verənlər qanun qarşısında cavab verirlər. Üzümüzü ölkənin inzibati orqanlarına tutaraq ümidvar olmaq istəyirik ki, görkəmli yazıçıya qarşı yol verilmiş qanunsuzluq dəqiq araşdırılacaq və təqsirkarların cəzalandırılacaq.

***"Yazı" ədəbiyyat dərgisinin təsisçisi və baş redaktoru Azad Qaradərəli***
***30.03.2016***

# "YAZI" DƏRGİSİNİN 5 YAŞI TAMAM OLUR: *TƏBRİKLƏR, ARZULAR, TƏKLİFLƏR*

Əvvəllər "Yazı " jurnalını yalnız sosial şəbəkələrdə dərc olunan məlumatlardan tanıyırdım. İndi bu jurnalın daimi oxucularından biriyəm. "Yazı" jurnalı dövrümüzün tanınan, seçilən ədəbi simalarından biri olan Azad Qaradərəlinin şəxsi fədakarlığının məhsuludur. Əslində, Azad Qaradərəlinin özü də elə yazı deməkdir. Çünki mən elə bir gün təsəvvür eləmirəm ki, Azad əlinə qələm götürüb yazı masasının arxasında əyləşməsin. Jurnalın 5 yaşı münasibətiylə onun fəal müəlliflərini və yaxın təəssübkeşlərini – Sevinc Elsəvəri, Mübariz Örəni, Namiq Şamanı, Mövlud Mövludu, Nərmin Kamalı, Cəliul Cavanşiri, Vahid Qazini, Alpay Azəri və digərlərini ürəkdən təbrik edirəm. Yaşayın yaradın və bu çətin işinizdə Allah sizə yar olusun.



***Əkrəm Əylisli***

# ƏDƏBİYYAT TARİXİMİZDƏN

## ƏHMƏD AĞAOĞLU



# SƏRBƏST İNSANLAR ÖLKƏSİNDƏ

***SƏRBƏST DÜŞÜNCƏLİ İNSAN***
***(Ön söz)***

*...Ola bilsin ki, Əhməd bəy Ağaoğlunu çoxunuz tanımırsınız. halbuki o, dövrümüzün ən parlaq simalarındandır. Sabir kimi, Mirzə Cəlil, Üzeyir Hacıbəyli, Məmməd Əmin Rəsulzadə, Hüseyn Cavid, Əlibəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov kimi. Onlar millətinin nadanlığı ilə heç vaxt barışa bilməyiblər, axı nadanlar həyatda son dərəcə aciz olur, onları kölə halına salmaq rahat olur.*

*Əhməd bəy bu kitabı 1930-cu ildə Türkiyədə yazıb. Elə bil anlayıb ki, 50; 60; 70 il keçəndən sonra da bu kitab Azərbaycanda əhəmiyyətini itirməyəcək. Axı bir qismimiz, Əhməd bəy demişkən, hələ "iç zəncirləri"mizlə yaşayırıq, nə sərbəst olmaq haqqında düşünürük, nə də köləliyimizi lənətləyirik. O biri qismimiz azad olmağa can atsa da, ya qorxur, ya qətiyyətsizlik göstərir, ya da sadəcə olaraq, sərbəstlik haqqında, "sərbəst ölkə" haqqında məlumata ehtiyac duyur. Bax, əsasən bunlara, kölələlikdən yaxa qurtarmaq istəyənlərə, heç kəsdən qorxmaq istəməyənlərə, beli dik yaşamaq istəyənlərə müraciət edir, sözünü deyir Əhməd bəy.*

*Bir neçə kəlmə Əhməd bəyin həyatı haqqında. Bu həyat yoluna diqqət yetir və qərarı özün ver.*

*Əhməd bəy Ağaoğlu 1868-ci ildə Şuşa şəhərində anadan olub və 1939-cu ildə İstanbulda dünyasını dəyişib. Əvvəl Şuşada, liseydə oxuyub. Sonra Tiflisdə, gimnaziyada. Sonra Parisdə, hüquq məktəbində və məşhur Sorbon universitetində. Azərbaycan (o zaman "türk" deyilirdi), rus, fars, ərəb, fransız, ingilis dillərini mükəmməl bilib. Şuşada, Bakıda, Parisdə, İstanbulda, Peterburqda yaşayıb və işləyib. Maltaya sürgün olunub. Şuşada - fransız dilindən dərs deyib (ona hətta "Firəng Əhməd" deyərmişlər), İstanbulda - rus dilindən. Nijni-Novqorod və Peterburqda keçirilən Rusiya müsəlmanları qurultayının təşkilatçılarından biri olub. Azərbaycan Demokratik Respublikası dövründə parlamentin üzvü və parlament sədrinin müavini seçilib. Türkiyə Mətbuat İdarəsinin baş müdiri olub. Parlamentin üzvü, millət vəkili seçilib. Ankara və İstanbul universitetlərinin professoru olub.*

*Parisdə, biliyinə görə, elmi və ədəbi salonlara dəvət alıb (salonlara seçilmiş adamlar dəvət alırdılar), intellektual çəkili söhbətlərə və mübahisələrə qatılıb. Dünya şöhrətli alimlər Ernst Renan və İppolit Tenlə yaxından tanış olub, onların rəğbətini qazanıb. Azərbaycanlı neft sahibkarlarının tapşırığı ilə Peterburqda iki dəfə rus çarı II Nikolayla görüşüb, danışıqlar aparıb və bu danışıqlar uğurla nəticələnib. İstanbulda Mustafa Kamal Paşa Atatürklə tanış olub və uzun illər onun məsləkdaşına çevrilib. Türkiyə və türk dünyasının məşhur xadimləri Ziya Göyalp, Yusif Akçura, Həmdulla Sübhi, Mehmet Emin Yurdaqulla əməkdaşlıq edib. Bakıda öz dövrünün ən tanınmış, ən qüdrətli azərbaycanlıları ilə dostlaşıb: Üzeyir Hacıbəyli, Əlibəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov, Məmməd Əmin Rəsulzadə,Firudin bəy Köçərli və başqaları bu qəbildəndir. Şuşada kitabxana-qiraətxana açıb (o dövrü təsəvvür et: mollaxanaları nəzərdə tutmasaq, nə məktəb var, nə də oxuyanlar. Əksəriyyət nəinki savadsızdır, hətta savadlı olmaq istəmir). Bakıda "Difai" (Müdafiə) partiyasının yaradıcılarından biri olub. "Həyat", "İrşad" , "Tərəqqi" və "Proqress" (rus dilində) qəzetlərinin açılmasında iştirak edib (maraqlansan, bu qəzetlərin nüsxələrini kitabxanada tapa bilərsən. Gör o zamanla bizim zamanın, o dövrün qəzetləri ilə indiki qəzetlərin hansı oxşarlığı və hansı fərqi var). "Cəmiyyəti-xeyriyyə", "Nicat" , "Nəşri-maarif" , "Səadət" , "İttihad" cəmiyyətlərinin təşkilinə qoşulub. Türkiyədə Demokratik Cümhuriyyətin yaradılmasında fəaliyyət göstərib. Anadolu agentliyini yaradıb. "Hakimiyyəti-milliyə" qəzetinin yaradıcılarından biriolub. "Sərbəst firqə"nin (partiya) yaradılmasında iştirak edib. Parisdə, Bakıda, İstanbulda minlərlə (!) məqalə çap etdirib (bu miqdarı aydın təsəvvür etsən, heyrətə gələrsən). Onlarca kitab yazıb, bəzisi ölümündən sonra çap olunub. Yazıları siyasət, iqtisadiyyat, tarix, fəlsəfə, etika, etnoqrafiya və başqa sahələri əhatə edib.*

*Əhməd bəyin gözəl ailəsi varmış. Yeddi övlad atası olub. Bunlardan ikisi - Vəzir və Bəşir adlı oğulları kiçik yaşlarında dünyalarını dəyişiblər. Qalan beş nəfəri - Sürəyya, Tezer (Təzəxanım), Əbdürrəhman, Səməd və Gültəkin mükəmməl təhsil alaraq Türkiyədə ad qazanıblar.*

*Bu stenoqrama bənzər siyahı azmı şey deyir? Bu qədər iş görmək üçün nə qədər zəhmətkeş olmalısan, necə iradən olmalıdır. Bu zəhmətkeşliyin, bu iradənin arxasında isə böyük amal, böyük məqsəd və bu məqsədə yetişmək üçün böyük ehtiras olmalı idi. Müdriklərdən biri demişkən, bu dünyada böyük ehtirassız böyük işlər görmək alınmır. Əhməd bəy tükənməz ehtiraslı insanlardan olub. Əhməd bəyin həyatı barədə fikir yürüdərkən o dövrü, o dövrün ab-havasını da təsəvvür etmək vacibdir. Onda anlayarıq ki, niyə öz məqsədləri uğrunda daim vuruşub döyüşməli olub, niyə bilavasitə və ya məcazi mənada "yumruqlara, qapazlara, təpiklərə" dözməli olub. Başa düşməliyik ki, kimə qarşı vuruşub, kimlər onu hədələyib, hansı çətinliklərlə, hansı maneələrlə üzləşib.*

*Əhməd bəyin sonralar yazdığı kimi, zərbələr ilk məktəb illərində başlayıb. Əhməd bəyi rus gimnaziyasına veriblər (Şuşada o zaman yalnız rus gimnaziyası vardı). Orada vur-tut, dörd azərbaycanlı*

*balası oxuyurmuş. Balaca Əhməd beşinci olub. Bu beş nəfər nələr çəkirmiş: "tənəffüslərdə biz-- beş türk çocuğu, cəld tərpənib arxamızı divara dirəməyi qənimət bilərdik. Yüzlərlə çocuq qəflətən üstümüzə hücum edər və biri başımızdan papağı alıb atardı. Qalanları dörd- beş altun qiyməti olan Buxara dərisindən tikilmiş papaqları təpiklə kos kimi ora-bura vurardı. Bəziləri əksərən dəvə yunundan toxunmuş bahalı pencəklərimizin ətəklərindən yapışar, o yan - bu yana çəkib parçalayar, dartıb tikişlərini sökərdi. Müqavimət göstərmək fikrinə düşəndə yumruq, qapaz, təpik altında bizi əzərdilər. Bəzən gizlində, sözü bir yerə qoyub, üzərimizə böhtan atar, üzümüzə durar, bizə haqsız yerə cəza verdirərdilər. Dostlarımızın çoxu dözə bilməyib, məktəbi tərk etdilər.Türklərdən yalnız mən son sinfə qədər tab gətirə bildim".*

*Həmin məktəb indi oxuduğunuz məktəbdən fərqlənir, deyilmi? O dörd nəfəri də qınamayaq, belə şəraitdə oxumaqmı olar? O biri tərəfdən gənc Əhmədin iradəsinə, dözümünə, hövsələsinə heyran qalmamaq mümkün deyil.*

*Ədalət naminə onu da deyək ki, Əhməd bəy o gimnaziyada işıqlı və nəcib müəllimlərin olduğunu da xatırlayır: "bu təvazökar, vəzifələrini diqqətlə yerinə yetirən, qəlbi məslək eşqi ilə dolu insanları xatırlarkən, indi də dərin minnətdarlıq və təşəkkür hissi keçirməkdən özümü saxlaya bilmirəm. Onlar məndə və mənim bütün yoldaşlarımda elmə, irfana, haqqa, həqiqətə dərin inam və məhəbbət doğuraraq bizim üçün həyat yolunu işıqlandıran nurlu məşələ çevrildilər".*

*Məktəb illəri geridə qalandan sonra bu təqiblər sona çatdımı? Özgələrdən Əhməd bəyin yaxası qurtardımı? Əfsuslar olsun ki, özgələr əl çəkmədi. Heç özümüzünkülər də onlardan geri qalmadı.*

*Bu hadisə 1908-ci ildə Bakıda baş vermişdi. Artıq Əhməd bəy tanınmış ədib və ictimai xadim idi. Düşmənləri də çoxalmışdı. Həm əqidəsinə görə, həm də xasiyyətinin tündlüyünə görə. Bunların nəticəsi kimi, 1908-ci ildə Bakının ictimai yığıncaqlar salonunda (indiki filarmoniya binasında) "dərs vermək" üçün Əhməd bəyi muzdla tutulmuş qoçulara döydürmüşdülər. Özümüzünkü sayılan qoçular məktəb illərindəki özgələrdən də dəhşətli idilər. Axı onlar - o "özgələri" heç olmasa "çocuq" sayılırdılar.*

*Əhməd bəy o illəri xatırlarkən yazırdı: "Şiddətli təqib edilənlər arasında idim. İş belə bir dərəcəyə çatmışdı ki, artıq daha izzəti-nəfsimin deyil, ailəmin də sakitliyi və salamatlığı təhlükə altına düşmüşdü".*

*Sual verə bilərsən: "bəs necə olur ki, uşaq vaxtı balaca Əhmədi özgələr döyürdü, tanınandan sonra - özümüzünkülər? Təqiblər həm kənardan gəlirdi, həm içəridən? Bəyəm Əhməd bəy millət uğrunda vuruşmur, millət uğrunda maneələrlə rastlaşmır, millət uğrunda əziyyətlərə qatlaşmırdı? Bəyəm millətimizin düşmənləri Əhməd bəyin düşmənləri olmayıb?".*

*Əvvəla, onu deyək ki, Əhməd bəy millət uğrunda mübarizə aparsa da, heç vaxt "özgələri" millətin düşmənlərinə və millətin dostlarına bölmürdü. "Düşmənə" gəlincə, artıq dedik ki, başqa*

*görkəmli Azərbaycan xadimləri kimi, Əhməd bəyin də bircə düşməni vardı - xalqın nadanlığı. Axı insan, yaxud xalq, nadan oldusa, deməli, aciz olacaq, aciz oldusa, deməli, kölə olacaq, kölə oldusa, deməli, istibdad (tiraniya) hökm sürəcək, deməli, insanlar dolğun, faydalı həyatdan kənarlaşacaq, deməli, inkişaf olmayacaq, xalq, millət başqa xalqlardan, millətlərdən geri qalacaq, kasıblığa, dilənçiliyə məhkum olacaq.*

*Bunları başa düşən Əhməd bəy acı təbəssümlə etiraf edirdi ki: "...qonşularımız yanı - başımızda günü-gündən tərəqqi və təali edir, ermənilərin, gürcülərin, musəvilərin (yəhudilərin), baxüsus rusların təmimi-maarifə himmət-güzar olan cəmiyyətləri sayəsində ziyayi-maarif köylərdəki gülbənişin köylülərin pəncərələrindən içəri girdiyi ruzi-rövşəndə, bizim köylülərimiz də, şəhərnişinlərimiz də məsəlli bir zülməti-əbədiyi-cəhl aləmində məhv olub gedirdi".*

*Bu mətnin bir çox sözlərini başa düşməsən də ( müəllimin kömək edə bilər), çox güman ki, mənası sənə aydındır. Yəni başqa millətlər inkişafda, maarifdə olduğu halda, bizləri cəhalət bürüyüb, zülmətdən xilas ola bilmirik.*

*Əhməd bəy Sabir kimi, Mirzə Cəlil kimi, başqa xadimlərimiz kimi "Oyanın, oyanın, ey qəflət yuxusunda uyuyanlar!" deyə xalqa üz tuturdu.*

*Bu, müraciət də deyildi, çağırış idi. Bu, çağırışdan da güclü idi. Bu, həyəcan təbili idi. Bu fəryad idi. Bu "zülməti-əbədiyi-cəhl"ə qarşı üsyan idi.*

*Əhməd bəy, elə bil, bizlərə deyirdi ki, daha bəsdir, yetər, daha barama kimi öz qınına qapanıb yaşamaq olmaz, daha letargiya yuxusuna qərq olmaq dəhşətlidir. Azərbaycanın o vaxtkı müdrikləri ("Sərbəst insanlar ölkəsində" bu müdriklərə pirlər deyilir) xalqı buna səsləyirdilər. Bu amallar uğrunda vuruşurdular.*

*Əhməd bəyin maneələri də bu idi, keçilməz görünən divarları da, yüzbaşlı divə bənzər "düşməni" də. Bütün həyatının məqsədi, amalı, mənası da həmin "divlə" mübarizə idi.*

*Bu məqsəd, bu amal olmasaydı, Əhməd bəy başqa cür yaşaya bilərdi. Daha sakit, daha firavan. Maneələrsiz, zərbələrsiz, hücumlarsız.*

*Parisdə olarkən, Fransa alimləri, fransız müdrikləri Əhməd bəyin hazırlıqlığını, biliyini görərək ona Parisdə qalmağı təklif etdilər. O zaman olduqca məşhur olan Ernst Renan Əhməd bəyə üz tutub söyləmişdi:*

*- Sən dünya miqyasında alim olacaq səviyyədə bir insansan, məmləkətinə getmə, Şərq səni udar.*

*Əhməd bəy isə cavabında demişdi ki:*

*- Şərqin də oxumuş insanlara ehtiyacı var, sizdən öyrəndiklərimi məmləkətimdəki vətəndaşlarıma öyrədəcəyəm. (Səncə haqlı idi Əhməd bəy, yoxsa Renanın təklifini qəbul etməli idi? İndinin özündə belə əhvalat mümkündürmü? Mümkünsə necə həll olunmalıdır? Doğrudanmı Şərq ağıllı adamları "uda bilər"? Bəlkə sinifdəki dostlarınla bu mövzuda diskussiya aparasan).*

*Əhməd bəy olduqca ağıllı və gözüaçıq adam idi. O, yaxşı bilirdi ki, tam olmasa da, Renanın sözlərində bir həqiqət var.*

*Artıq bəşəriyyət XVIII yüzildən başlayaraq Maarifçilik dövrünü yaşayırdı. Fransa İnqilabından sonra dünyada*

*"Azadlıq. Bərabərlik. Qardaşlıq" şüarı yayılmışdı, insanlar bərabərhüquqlu olduqlarını anlamışdılar. Amerika Birləşmiş Ştatlarında "İstiqlal Bəyannaməsi" elan edilmiş və demokratik inkişaf başlamışdı. Hollandiya və İngiltərədəki sənaye inqilabından sonra bəşəriyyət elmi-texniki tərəqqi dövrünü yaşayırdı. Başqa ölkələr, başqa xalqlar da bu yolu seçməkdə idilər. Əhməd bəyin, başqa müdriklərimizin, başqa pirlərimizin istəyi bu idi ki, Azərbaycan da, azərbaycanlılar da bu yolun yolçusu olsung*

*... Və Əhməd bəy onu da başa düşürdü ki, bu yolla getmək üçün "azadlıq" yolunu seçmək lazımdır. Axı insanlar "sərbəst" olmalıdırlar. Əhməd bəy ömrünün ilk çağlarında da bu inamla yaşadı, ömrünün son çağında da bu fikri təsdiqlədi və bu inamı gələcək nəsillərə aşılamağı özünə borc bildi.*

*Parisdə Əhməd bəy bir səhnənin şahidi olub: 1889-cu ildə Böyük Fransa İnqilabının 100-cü ildönümü qeyd edilirdi.*

*Qonaqlar arasında İran şahı Nəsrəddin Mirzə də var idi. Əhməd bəy, görün, o hadisəni sonralar necə təsvir edir:*

*"Şahın tacındakı brilyantlar göz qamaşdırırdı. Köksü də daş-qaşla dolu idi. İri gözləri, qalın, çatma qaşları, dik başı*

*təsviri mümkün olmayan bir qürur və özündənrazılıq ifadə edirdi. Sidi Karnakın (Fransanın baş naziri) sadə, qara redinqtonu (o vaxtın fraka bənzər geyimi), dik yaxalıqlı bəyaz köynəyi, təvazökar davranışı bu qürur və əda ilə tam ziddiyyət meydana gətirirdi. Mən ilk dəfə azad və sərbəst bir milləti təmsil edən baş nazirlə yersiz əzəmət və qürurlanmanı təmsil edən müstəbidi yan-yana gördüm.*

*... Gecə idi. Yenə xalqın iki səfi arasından keçirdilər. Şah nə səbəbdənsə çiynindəki kürkü çiyninin ani hərəkəti ilə yerə atdı və arxasınca gələn sədrəzəmə "Götür!" əmrini verdi. Zavallı sədrəzəm dərhal bütün qələbəliyin gözü önündə yerə qədər əyildi, kürkü qaldırdı və sanki uşağı götürürmüş kimi məhəbbətlə qolu üzərinə alaraq yürüdü. Şahın bu ədası və sədrəzəmin bu acizliyi Şərq istibdadının mahiyyətini göstərən aşkar nümunələrdəndir".*

*Əhməd bəy demokratiyanı, azadlığı, insanın sərbəstliyini seçdi. Bu məqsədlə ömrünün qürub çağında "Sərbəst insanlar ölkəsində" kitabını yazdı və yetmiş ildən sonra olsa da, bu kitab Azərbaycan gəncini tapdı. Əhməd bəy "Ön söz" də yazır ki, anlaşıqlı və çatımlı olması üçün bu kitabda hekayət üslubunu seçib: istibdaddan, şəxsi hakimiyyətdən qurtulmuş bir gənc azad və sərbəst ölkəyə düşür, bu ölkənin yaşayışı, düşüncələri, qanunlarıyla tanış olur və bunlara alışmağa çalışır...*

*Əslində, bu hekayət sənin üçün, sənin həmyaşıdların üçün bir düşüncə oyunu olmalıdır. Yaşlılar da bəzən bu oyun üslubundan istifadə edir, adını da elə "işgüzar oyun" qoyurlar. Bu teatra bənzər oyun ehtimal olunan şərtləri yoxlamağa kömək edir.*

*Sən də yoldaşlarınla birgə, Əhməd bəyin kitabını oxuya-oxuya, "düşüncə*

*oyununa" qatıla bilərsən. Yəni oyunun qaydalarını müəyyənləşdirərək, şərtləşə və "deyək ki" istibdad ölkəsindən gələ bilərsən. Əhməd bəyin sözləri ilə desək: o ölkədən ki "xalq- tək şəxsin şıltaq və həvəsinə tabe olduğundan, milyonlarca insan bu şıltaqlıq və həvəsə itaət edir".Başqa biriniz, yenə də Əhməd bəyin sözləri ilə desək, tutalım, elə bir ölkədən olar ki,bu ölkədə "əhalidən hər kəsin idarəçiliyə qatılmaq haqqı var və milyonlarca insan bu idarəçiliyə qatılır".*

*Bu "deyək ki" üsulu ilə iki qütbə bölüşərək bir-birinizə qulaq asa bilsəniz (yəni oyunun qaydalarına əməl etsəniz), yəni qeyri-ixtiyari yaranmış hay-küy müzakirəyə çevrilsə, ciddi diskussiya başlanacaq. Çox güman, biriniz deyəcəksiniz ki, bizdə istibdad yoxdur, o biriniz deyəcək - var, biriniz deyəcəksiniz ki, insanlar heç vaxt, heç bir ölkədə idarəçiliyə qatılmır, bu bir yalandır, bu bir xülyadır, o biriniz razılaşmayacaq ki, yox, bu mümkündür, sadəcə olaraq insanlar dilənçi kökündə yaşamamalıdır, insanların ləyaqəti olmalıdır, onda onlar idarəçiliyə qatılacaq. Biriniz deyəcəksiniz ki, insan heç vaxt azad olmur, sərbəst olmur, həmişə tabeçilikdə yaşayır, evdə də elədir, məktəbdə də. Digəriniz razı olmayıb deyəcək ki, azadlığın da, sərbəstliyin də hüdudları olur, amma əsas odur ki, azad, sərbəst olmaq fikrinə gələsən, kölə olmaq istəməyəsən.*

*Gümanlarımızı bitirək. Sənə və yoldaşlarına zorla öz fikrimizi yeritmək istəməzdik.. Ola bilsin ki, sizin müzakirə tamam başqa səmt alsın, amma bütün hallarda Əhməd bəyin istəyi o olub ki, siz bu "oyuna" qoşulasınız. Axı məhz bu "oyunda" tədricən sərbəst olmağa alışırsan.*

*İndi isə "Sərbəst insanlar ölkəsində"n Əhməd bəyin bir neçə kəlamını yada salmaq istəyirik. Bəlkə "düşüncə oyununda" sizə kömək etdi:*

*"Azadlıq doğruya və cəsarətə söykənir"...*

*"Azadlıq nədir? Sərbəst düşünmək və düşündüyünü sərbəst və səmimi söyləmək deyilmi?"..*
*"Biliksiz və səysiz azadlıq tam sayılmaz. Belə azadlıq şikəst azadlıqdır"...*

*"Azad insan ac qalmamalı, dilənçi olmamalıdır. Dilənçilik həm vətəndən, həm də vətəndaşlıqdan ötrü bir ləkədir"...*

*"Azad olmaqdan ötrü güclü, qoçaq, inadlı olmalısan".*
*"Xoşbəxt o yerlərdir ki, həm azaddır, həm də özü düşünüb yaradır"...*

*"Aman Tanrım, bu azadlıq deyilən dirilik suyu nə qədər bərəkətli və hərəkətlidir"...*

*"Yalan sərbəst insanlar ölkəsində tam yasaqdır"...*

*"Yalan zəiflərin, zəlillərin, qorxaqların işidir"...*

*"İnsanlar qorxaq doğulmazlar. Ailə və məktəbdə verdiyimiz tərbiyə, hökumətdə istifadə etdiyimiz üsullar vətəndaşı qorxağa çevirir"...*
*"Uşaqlıqdan öz-özünü idarə etməyə, düşünməyə və mühakiməyə alışdırılan vətəndaşlar həyatda heç kimdən və heç nədən qorxub hürkməzlər"...*

*"Başqalarının kölgəsində yaşayanlar, ya da başqalarının yaxşılığı hesabına*

*sərvət toplayanlar yaxşılıq edənlərə möhtac olur, onların arzularına, istəklərinə boyun əymək, haqlı-haqsız fikirlərinin önündə əyilmək məcburiyyətində qalırlar"...*

*"Mənəvi vasitələrlə dəyər və nüfuzlarını saxlaya bilməyən rəhbərlər maddi vasitələrə, zorakı idarəçiliyə əl ataraq, haqlı tənqidləri susdurmaq üçün, istər-istəməz, hədə-qorxu yolunu tuturlar"...*

*"Sərbəst ölkənin fərdləri arasında həmrəylik göstərmək, birgə dəstək nümayiş etdirmək əsasdır"...*

*"Sərbəst insanlar ölkəsində bircə adam tapılmaz ki, heç olmasa 5-6 ictimai tellə bağlanmış olmasın"...*

*Bəlkə də Əhməd bəyin başqa deyimlərini seçəcəksən, amma hər halda Əhməd bəyin sözləri səni sərbəst olmaqla bərabər, "birgəyaşayış" barədə düşünməyə vadar edə bilər. Məsələn, düşün görək, şagird dostlarınla sinifdə "birgəyaşayışı" təmin edə bilərsənmi? Sinfiniz məktəbin həyatı ilə hansı "ictimai tellərlə" bağlıdır? Məktəbdən kənardakı cəmiyyətlə "ictimai bağlarınız" varmı?*

*İnanırıq ki, bu "düşüncə oyunu" nəticəsiz qalmayacaq, axı Əhməd bəy uşaqlı- böyüklü hamımıza anladır ki, sərbəst və azad yaşamağa qəti qərar vermisinizsə, özünüz də dəyişməlisiniz.*

*Sərbəst olmaq elə dəyişmək qərarı və dəyişmək hünəridir. Bu, Əhməd bəyin bəlkə də əsas və son hökmüdür.*

***Rəhman Bədəlov***

## Müəllifin ön sözü

**İstanbul, 1930**

Monteskyö "Qanunların ruhu" adlı əsərində hakimiyyət biçimlərindən bəhs edərkən, deyir ki: "İstibdad (despotiya) - qorxuya, monarxiya – şərəfə, respublika isə fəzilətə (virtue-ing.) dayanır".

Bu bölgü hələ də məna və əhəmiyyətini itirməyib. Şəxsi hakimiyyət zamanı xalq - tək şəxsin şıltaq və həvəsinə tabe olduğundan, milyonlarca insanın bu şıltaqlıq və həvəsə itaət etməsi üçün yeganə çarə xalqı qorxutmaq və xof içində saxlamaqdır. Bax, buna görə də, istibdad, tərbiyə və təlimdən başlayaraq, idarə üsullarınadək, hər şeydə qorxu aşılamağa söykənir.

Konstitusiyalı monarxiya zamanı hakimiyyət hökmdarla imtiyazlı bir sinfin əlindədir. Bu ortaq hakimiyyətin yaşaya bilməsi üçün bəllidir ki, hər iki tərəf bir-birinə sədaqət göstərməli və bağlı olmalıdır. Yəni şərəf şərt sayılır.

Respublikaya gəlincə, orada hakimiyyət bütövlüklə xalqın əlindədir və xalqa aiddir: əhalidən hər kəsin idarəçiliyə qatılmaq haqqı vardır. Aydındır ki, milyonlarca insanın qatıldığı idarəçiliyin öz varlığını sürdürməsi və bəyənilməsiüçün bu insanlar yüksək vəzifə və məsuliyyət duyğularına, üstün əxlaqi dəyərlərə yiyələnməlidirlər; yəni respublika zamanı vətəndaşların ləyaqətli olmaları şərtdir.

Bu ləyaqət nədən ibarətdir? Özünü necə göstərir? Oxucuların diqqətinə yetirdiyim bu əsəri, bax, həmin suallara cavab verməkdən ötrü yazmışam.

Türk milləti, dahi rəhbərinin aparıcılığı ilə (Mustafa Kamal Paşa Atatürk nəzərdə tutulur - tərc.) Respublika kimi ən mükəmməl bir idarə biçiminin doğru olduğunu ortaya çıxarıb; ancaq bu çox incə, çox zərif və buna görə də çox mürəkkəb olan dövlət idarə biçiminin inkişaf və sağlamlığı üçün Respublika bizdən, yəni türk millətinin fərdlərindən bəzi mənəvi özəlliklər tələb edir.

Millətin bir fərdi olduğuma görə, mən aciz də həmin özəllikləri necə anlayıb-qavradığımı bu naciz əsərdə (yəni əhəmiyyətsiz əsərdə. Müəllif təvazökarlıq edir və öz əsərini sadəcə təşəbbüs kimi qiymətləndirir - tərc.) yazmaq istədim, yəni Respublikanın mənəvi cəbhədən ideologiyasını özümə görə qurmaq cürəti göstərdim.

Əsərimə hansı biçim verməklə bağlı xeyli tərəddüd keçirdim; nəhayət, onu bir hekayə şəklində yazmağa qərar verdim. Əsarətdən qurtulmuş bir Türk fərdini azad və sərbəst bir ölkəyə apardım; bu ölkənin rəhbərləri Türk Cümhuriyyətini quran dahinin əməl və arzularının gerçəkləşməsi üçün çalışmaqdadırlar ("dahi" deyərkən, yenə Atatürk nəzərdə tutulur
- tərc.). Türk fərdi mənim Pir dediyim bu rəhbərlərlə görüşür, onların bir Respublikada azad və sərbəst vətəndaşların necə olmaları haqqında fikirlərini öyrənir; eyni zamanda sərbəst ölkədə gördüyü elm və mədəniyyət ocaqlarını təsvir etməklə məmləkətimizin Azadlıq və Ləyaqət sayəsində necə inkişaf edərək gələcəkdə nur və mədəniyyət mənbəyi olacağını da göstərir.

Bax, bu umacaqsız əsərimin biçimi, hədəfi və amacı budur. Bu əsər əvvəlcə hissə-hissə "Cümhuriyyət" qəzetində nəşr olundu. Xalqımızın göstərdiyi rəğbət və aldığım bir çox çağırış məktubları bu dəfə onu bir kitab şəklində diqqətinizə yetirmək cürətini verdi.

* * *

## SƏRBƏST İNSANLAR ÖLKƏSİNDƏ

Mən bir əsir idim; azad olmaq istədim. Zəncirlərimi qırdım, qala divarını deşdim və açıqlığa çıxaraq dərindən nəfəs aldım. Önümdə geniş bir çöl vardı. Hara gedəcəyimi, necə davranacağımı bilmirdim. Çaşqın-çaşqın bir neçə addım atdım. Bir də gördüm ki, iki yolun ayrıcındayam və yerə basdırılmış bir dirəyin üstündəki bu yazını oxuyuram: Sol tərəfə gedən yol Azadlıq yoludur. Sağ tərəfə gedən yol köləlik yoludur.
Sol tərəfi tutdum, səhərə qədər getdim. Dan yeri ağaranda gördüm ki, bir qalanın önündəyəm. Qala qapısının üzərinə qızıl hərflərlə yazılmış bu lövhəni oxudum:

Sərbəst insanlar ölkəsi
"Əsl mən istəyən yerdir" deyib qapıdan içəri girmək istədim. Keşikçilər yolumu kəsdilər:

- Sən kimsən? Hardan gəlib haraya gedirsən? - deyə soruşdular.

- Mən bir əsir idim, zəncirimi qırıb buraya gəldim. İndi azad olmaq istəyirəm, - dedim.

Keşikçilər diqqətlə baxdılar. Boynumda zəncirin, qollarımda buxovların izləri bəlli idi.

- Hə, görürük. Əsarətin görünən bağlarını qırmısan. Ancaq iç zəncirlərini də söküb atmısanmı? - deyə soruşdular.

- Anlamadım.

- Elə isə bu suallara cavab ver:

1. Tamahına yiyə durursanmı?

2. Doğrunu sevirsənmi?

3. Həqiqətə dözümün varmı?

4. Ləyaqət sahibisənmi?

Anladım ki, yol verməkdən ötrü məni imtahana çəkirlər. Sualların hamısına "hə" cavabını verdim. Keşikçilər önümdə hörmətlə əyildilər. Qalanın qapısını açdılar və onlardan biri məni şəhərə apardı.

Şəhər artıq oyanmışdı. Dükan, bazar açılmışdı. Hər kəs öz iş-gücü ilə məşğul idi. Bu qədər gözəl və abad bir şəhəri mən ilk dəfə görürdüm. Xalqın xoşbəxt və firavan yaşadığı hallarından bəlli idi. Rastlaşdığımız adamlar bizi gülərüz və xoş davranışla salamlayırdılar.

Nəhayət, böyük bir evin qapısı önündə ayaq saxladıq. Keşikçi qapını döydü. İçəridən yaşlı bir adam çıxdı. Keşikçi:

- Yeni bir vətəndaş... - deyərək məni göstərdi.

Yaşlı kişi məni məhəbbətlə salamlayıb içəri çağırdı. Sonra geniş bir otağa aparıb dedi:- Bu otaq və buradakı hər şey sizindir. Mən heyrətləndim. Yaşlı kişi əlavə etdi:

- Bir az sonra pirlərimiz (burada "yaşlı müəllimlər" mənasında - red.) gəlib sizinlə görüşər. Hələlik dincəlin.

Yaşlı kişi getdi. Bir gənc adam gəlib mənə yemək-içmək gətirdi.

Bir müddət sonra pirlər gəldilər, məni bir başqa otağa aparıb, kim olduğumu, haradan və nə üçün gəldiyimi soruşdular.
Mən onlara belə cavab verdim:

- Əsilli-nəsilli soyum, nəcib elim, təmiz qanım var. Əvvəllər yurdum Orta Asiyanın yüksək yaylaları idi. Sonra qaynar qanımız güc gəldi, babalarım Şərqə, Qərbə, Şimala və Cənuba doğru yayıldılar. Məmləkətlər basdılar, dövlətlər qurdular, mədəniyyətlər doğurdular. Ulularımız əvvəl-əvvəl sadə yaşayar, el-elatla oturub-durar, qanuna baxar, doğruya və qurultaya tapınardılar. El ağaları, oba böyükləri, ölkə tərxanları haqqı qorumaqdan, doğrunu söyləməkdən, azğınlara hədlərini bildirməkdən və zorakılığa qarşı dayanmaqdan çəkinməzdilər. Nə qədər ki belə idi, elim qüvvətli və ellər arasında sayılan ellərdən idi. Ancaq sonralar qanımız qarışdı, kölə ellərin adətlərinə, mərasimlərinə qapıldıq, qurultaydan qaçdıq. Beləcə, qanun pozuldu, zorakılıq qələbə çaldı və bəy millətim qul oldu. O zamandan ocağımız söndü, adımız-sanımız batdı. Günün birində alçaq xaqanımız bizi yadellilərə satası oldu.

Artıq buna dayana bilmədik, aramızdan sarı saçlı, mərd üzlü, aslan baxışlı biri çıxdı: - "Yəni elindən əl çəkən, yurdunu əsirgəyən Tanrının elçisi sayılar?" Sözlər söylədi ki, donmuş qəlblərə istilik, ölmüş damarlara can verdi. İşlər gördü ki, bütün dünyanı heyrət bürüdü.

Yadelliləri yurddan qovdu, xaqanı başıaşağı etdi. İndi o, millətini azadlığın işığına toplayır. Mən həmin vaxtlar zindanda xaqanın əsiri idim. Ümidsizlik içində qıvrılarkən Tanrı elçisinin səsini mən də eşitdim, birdən-birə canlandım, zəncirlərimi qırdım, divarı dəldim və azadlıq araya-araya, bu diyara gəldim.

Pirlər məni artan bir diqqət və maraqla dinlədilər. Nəhayət, onlardan biri:

- Bəli! Bəli! Biz də o qəhrəmanımızı tanıyırıq, biz də onu sevirik. Burada onun idealı uğrunda hərəkət edirik - dedi və əlavə etdi, - Deməli, siz azad yaşamağa qərar verdiniz?

- Bəli!
- Ətraflı düşündünüzmü? Qərarınız qətidirmi? Azad yaşamağın nə qədər çətin olduğunu bilirsinizmi?

- Bəli, bilirəm. Qərarım da qətidir.

- O halda bilməyiniz və əməl etməyiniz lazım gələn bəzi şərtlər var. Həmin şərtlər bu risalədə yazılıb. Oxuyub düşünün. Bir neçə gündən sonra yenə gəlib görüşərik.

Yaşlı adamlar getdilər. SƏRBƏST İNSANLARIN ƏSAS YASASI (QANUNU) Mən o dəqiqə risaləyə sarılıb, üzərindəki bu başlığı oxudum: "Sərbəst insanlar ölkəsinin əsas qaydaları"
İlk səhifəni çevirdim. Gözüm bu başlığa sataşdı:

Ümumi əsaslar

Bunun altında aşağıdakı maddələr yazılmışdı:

1. Azadlıq dəyərli bir vergidir. Azad olmaq üçün çox dəyərli olmalısan. Fikir təmizliyi, söz təmizliyi və əməl təmizliyi azadlığın əsaslarıdır.

2. Tamahlarına yiyə durmayanlar azad ola bilməzlər.

3. Söz sadəliyi və yaşayış sadəliyi azadlığın şərtləridir.

Çox qəribə görünən bu maddələri oxuyandan sonra gözüm ikinci başlığa sataşdı: "Sərbəst insanlar ölkəsinin əsas yasası (qanunu)" Yasada aşağıdakı maddələr qeyd olunmuşdu:

1. Azadlıq doğruya və cəsarətə söykənir;
2. Yalan, sərbəst insanlar ölkəsində tam yasaqdır.

Bu azara tutulan ölkə xaricinə çıxarılır;
3. İkiüzlülük və yaltaqlıq ən ağır günahdır. Bu günaha batanlar hamılıqca daşa tutulurlar;

4. Çuğulluq edənlər sərbəst insanlar ölkəsinin vətəndaşlığından çıxarılırlar;
5. Qorxaqlıqla sərbəst ölkə vətəndaşlığı bir araya sığmaz;
6. Sözlə və işlə başqasına qəsd edənlər ölkədən çıxarılır;
7. Hiylə işlədənlər və araqarışdıranlar vətəndaşlıqlarını itirməklə cəzalandırılırlar;

8. Haqqı qorumaq vəzifədir. Bu vəzifəni gerçəkləşdirməyənlər ölkəni tərk edirlər;
9. Çalışmaq vəzifədir. Çalışmadan yaşamaq istəyənlər ölkənin xeyrinə pulsuz çalışmağa məcbur olunurlar;
10. Dözüm və yardım göstərmək vəzifədir. Bu vəzifəni yerinə yetirməyənlər ölkə vətəndaşlığını itirirlər;

11. Ölkə işlərini görmək yalnız təcrübə və ixtisas sahiblərinin haqqıdır;
12. Hər bir vətəndaş ölkə məmurlarının fəaliyyətini yoxlaya bilər;
13. Hər bir məmur və hər hansı vətəndaş gördüyü işlər və əlindəki sərvət haqqında hər an hesab verməyə hazır olmalıdır. Hesabatdan qaçanlar ağır cəzaya və vətəndaşlıq haqqını itirməyə məhkum olunurlar;
14. Yuxarıdakı maddələri əzbərləmək və onlara əməl etmək hər bir vətəndaşın borcudur.

Maddələri oxudum və düşündüm: Adamı mat qoyan bir ölkədir! İndiyə qədər bunun tam tərsini görmüşəm və tam tərsini eşidib, tam tərsinə alışmışam!.. Görəsən, öyrəşə biləcəyəmmi? İçimi şübhə və tərəddüdlər bürüdü. Xəyalıma bir an buradan qaçmaq gəldi. Ancaq qürurum, şərəf duyğum mane oldu. Öz-özümə dedim ki:

"Bura gəlmişəmsə, sərbəst insanlar ölkəsinin vətəndaşı olmaq istəmişəmsə, alışmağa çalışmalıyam. Bu, bir şərəf məsələsidir. Bəli, bilirəm ki, hələ çox qorxub çəkinəcəyəm, dədə-babalarımdan və tarixdən gələn xasiyyətlərim var. Onlardan ayrılmaq çətindir. Ancaq hər necə olsa, çalışıb qeyrət göstərmək də mənim vəzifəmdir".

Beləcə, qanunu öyrənməyə, yasalar üzərində düşünməyə qərar verdim. Bir neçə gün ötdü. Maddələri əzbərlədim. Üzərlərində düşündüm, bəzilərinin hikmətini anlaya bilmədim, bəziləri haqqında tərəddüd etdim və yaşlı adamlardan izahat istəməyə qərar verdim.

Bu arada ətrafıma boylandım. Olduğum evi, gördüyüm adamları öyrənməyə başladım. Oxuduqlarımdan da çox gördüklərim məni heyrətə saldı. Anladım ki, qaldığım ev bir qonaq eviymiş və şəhərdə bunun kimi daha bir neçə bina varmış. Sərbəst insanlar ölkəsinə sığınanlar bu evlərdə qalırmış. Evdə mənimlə bərabər 20-yə qədər qonaq vardı. Aralarında bir neçə qadının da olduğu gözümdən qaçmadı.

Burada sadəlik və təmizlik yaşayışın təməliydi. Bol yaşıllıq və bol günəş sizə sağlam və güvənli bir yaşayışdan xəbəri verirdi.

Məni qonaq evinə gətirən yaşlı kişi ertəsi gün məni ümumi yeməkxanaya aparıb, oraya toplaşan qonaqlara tanıtdı:

"Yeni vətəndaşdır" - dedi. Hamı məni gülərüzlə, sevinc dolu baxışlarla qarşıladı və "Qutlu olsun!" - dedi.

Yemək bol və sadə idi. Yeməkdən sonra salona keçdik. Burada xanımlardan biri piano önünə oturub nəsə çalmağa başladı. Qonaqlar ayağa qalxaraq duaya bənzər bir türkü oxudular. Türkünün həzin havası içimə doldu.

Yaşlı kişi mənə üz tutub:
- Bu türkünü öyrənməlisiniz, - dedi və əlimə yazılı bir vərəq uzatdı.

Oxudum:

### "AZAD OLMAQ NƏ QƏDƏR ÇƏTİN İMİŞ!"

O türkünün sözlərini indi unutmuşam, ancaq mənası beləydi:

"İnsan kainatın şüurudur, Ona tapınıb, onu müqəddəs sayırıq. Azadlıq şüurun müqəddəs cövhəridir,
Onu sevib, ona bağlanmışıq.

Sərbəst insanlar ölkəsi şüurun və azadlığın məbədidir,
Ona sığınıb, ona güvənirik".

Bu sözlərin və bu türkünün məndə yaratdığı təsiri indi sizə anlada bilmərəm. Bir neçə dəqiqə bayğın bir halda qaldım. Özümə gəldiyim zaman gördüm ki, qonaqlar üçbir-beşbir ayrılaraq öz aralarında söhbətləşirlər. Tezcə mənim yanıma gəldilər və çoxdanın tanışları kimi, təklifsiz-filansız danışmağa başladılar. Başa düşdüm ki, onlar da mənim kimi azadlıq axtara-axtara bu diyara gəlib çıxıblar.

Az sonra binanın başqa yerlərini gəzməyə başladım. Sadə bəzənsə də, təmizlikdən par-par işıldayan otaq və salonların divarlarına neçə-neçə nəfis şəkil, qiymətli lövhə asılmışdı. Bir çox lövhəyə sərbəst insanlar ölkəsi nizamnaməsinin maddələri incə xətlə yazılmışdı. Ancaq başqa yazılar da vardı. Bunlardan bəziləri diqqətimi çəkdi. Oxudum:

"Ac...öz öz tamahının oduna yanar və ətrafını yandırıb-yaxar";

"Kəlam (ilk dini kitab nəzərdə tutulur-red.) kainatın duyduğu ilk ilahi səsdir";

"Hökm edib zor işlətmək, heyvanlar zamanından qalma bir pislikdir"; "Ədalət - mələklərin insanlarda qibtə etdikləri bir iç duyğusudur"; "Fədakarlıq yanğısı bəşərin ən yüksək bir təsəllisidir";
"Könlütoxluq və sadəlik yüksək ruhlara məxsus sifətdir";
"Lovğalıq və təkəbbür bəsit ruhun dəlilidir".

Evin bir tərəfində uzun və geniş bir salon vardı. Bura kitabxana idi. Salonun bu başından o başınacan uzanan masanın üstündə qəzetlər, toplular və kitablar qalaqlanmışdı. Rəflərə minlərcə cild kitab düzülmüşdü. Qonaqların bir çoxu burada kitab oxuyurdu.

Mən də masaya yanaşdım. Gözümə bir kitab dəydi. Kitabın üzərindəki
"Sərbəst insanlar ölkəsinin tarixçəsi"
başlığı marağımı çəkdi. O dəqiqə oxumağa başladım. Bu bir tarix deyil, faciə idi. İndi içərisində yaşadığım bu ölkənin
başına gör nələr gəlibmiş...

Yüzillərcə azadlıq uğrunda çarpışıbmış! Bu gün bu qədər rahat və sakit olan küçələrdə bir vaxtlar insan qanı aşıb-daşıbmış. Gah əhali bir-birinin üstünə qalxmış, bir-birini öldürmüş, oda atmış, başına iş açmış, gah birlikdə qaniçənlərə qarşı mübarizə aparmış, gah yenilmiş, gah da qalib gəlmişlər! Və nəhayət, azadlıq tamam yerbəyer olmuşdur. Xalq əsrdən bəri artıq xoşbəxt şəhərdə dinclik və sakitlik içində sevinc dolu bir həyat keçirməkdəymiş!
Kitabı qapayarkən içimdən ixtiyarsız bu sözlər qopdu: "Azad olmaq nə qədər çətin imiş!"

***

## AZADLIQ BİR ÇİÇƏKDİR

İki gün sonra pirlər yenə gəldilər. Onlardan biri məndən soruşdu:

- Yasanı oxuyub əzbərlədinizmi?

- Həm oxudum, həm əzbərlədim. Ancaq bəzi maddələrini anlaya bilmədiyimdən, o maddələri açıqlamanızı xahiş edəcəyəm. Bir şərtlə ki, əvvəlcə bu yasanın ümumi hikmətini anladasınız. O nə üçündür, hansı məqsədlə yazılıb?

- Məmnuniyyətlə! Bilməlisiniz ki, azadlıq bir kültür, bir mədəniyyət məsələsidir!
- Anlamadım. Bir az da açıqlayın.

- Açıq söyləyək. Heç bağçada çalışmısınız?

- Çalışmışam.

- O halda izahatım da asanlaşır. Yəqin bağçada çalışarkən bir ağacın, bir gül və ya çiçəyin tutub yetişməsi üçün, onların təbiətindən doğan şərtlərlə hesablaşmaq lazım gəldiyini bilmirsiniz. Azadlıq da o ağac, o gül, o çiçək kimidir. Onun da tutması və yetişməsi üçün təbiətindən doğan şərtlər ödənməlidir.

- Hansı şərtlərdən söhbət gedir?
- Ölkəmizin türküsünü öyrənib yadda saxladınızmı?

- Öyrənib yadda saxladım.

- Orada deyilir ki: "Azadlıq şüurun cövhəridir, şüur da insandır". Ona görə, bu cövhəri cilalayarkən, insandan göz-qulaq olmalısan. İnsana baxmasan, cövhər tutmaz. Uzun-uzun zamanlar istibdada alışmış insana azadlıq aşılamaq heç də asan bir şey deyil. Axı istibdadın hökm sürdüyü yer insanın ruhu və qəlbidir. İstibdad burada yerləşir, burada taxtını qurur, burada tacını başına taxır. Bəzən sizə elə gələ bilər ki, istibdad yıxılıb. Və doğrudan da istibdadın gözə görünən əlamətləri yox ola bilər. Ancaq həqiqətə qalanda, onun hər tərəfdə və hər kəsdə hələ də yaşadığını görəcəksiniz.

Tutalım, görəcəksiniz ki, ağzı köpüklənə-köpüklənə "azadlıq" bağıranlar, qonşusunun azadlığına dözmürlər. Özləri başqalarının azadlığı ilə toqquşan kimi, qəzəblənib, qarşısındakı adamı məhv etmək istəyirlər! Axı hələ istibdadın taxtı doğrudan da sınmayıb, ruhlardan, könüllərdən sökülüb çıxarılmayıb.

Bax, o üzdən elə yerlərdə çox vaxt azadlıq özbaşınalığa çevrilir. Çünki əvvəlcə bir adamın şəxsindəki istibdad artıq özünü hər kəsdə göstərməyə başlayır və adamları bir-birinin üstünə salışdırır. Axırı da o olur ki, adamlar azadlıq adı ilə bir-birlərinə qarşı zorakılığa yol verirlər. Ancaq bu vəziyyətin uzun müddət davam etməsi mümkün olmadığından, yenə məhz azadlıq naminə hər kəsi susdurmaq və hər kəsə öz yerini göstərmək ehtiyacı yaranır.

Bax, beləcə, istibdadın mənəvi köklərini və izlərini öz içlərindən söküb atmayan mühitlər özbaşınalıqla azadlıqsızlıq arasında dolaşmaq məcburiyyətində qalırlar. Belə vəziyyət camaatı sonu bilinməyən faciəli bir sərsəmliyə yoluxdurur. Ancaq azad ölkənin qanunu camaatı bu faciəli sərsəmlikdən qorumaq üçün yol göstərir. Bu qanunun hədəfi istibdadın ruh və qəlblərdəki taxt-tacını yıxmaq və yerinə azadlığın taxt-tacını qurmaqdır.
- Anladım, ustad. Qanunun bütün qiymətini qavradım. İndi isə, icazənizlə, maddələrə keçək.

## "YALAN", "İKİÜZLÜLÜK" VƏ "YALTAQLIQ"

- Qanunun ikinci maddəsində yalanın yasaq olduğundan bəhs edilir. Bu günaha qanunda ayrıca önəm verilir.

- Niyə? İnsan olan kəs necə ola bilər ki, heç yalan söyləməsin?

- Azad insan yalan söyləməz. Yalan zəiflərin, zəlillərin, qorxaqların işidir. Axı azad ola bilməkdən ötrü güclü, qoçaq, inadlı olmalısan. Yalan həqiqəti gizlətmək və üzə çıxarmağa qoymamaq üçün bir vasitədir. Həqiqət gizlədilən yerdə yalançı inanclar hakim olur. Yalançı inanclar hakim olduğu yerdə xeyir-bərəkət qalmaz. Ağlı başında olan camaat buna, əlbəttə ki, yol verməz. Bax, bu üzdən sərbəst insanlar ölkəsi yalan söyləmək suçuna ayrıca önəm verir.

- Anladım, ustad. Keçmişin bir çox qaranlıq tərəfləri gözümdə dərhal aydınlaşdı. Amma o boyda əhalinin arasında yalanın kökünü necə kəsmək olar?

- Bu bir tərbiyə məsələsidir ki, ailədən və məktəbdən başlayıb, əhaliyə də aşılamalısan. Ailə və məktəbdə uşaqların ilk ruhi təməlləri yaranır. Uşaq ki var, ata-anasını və müəllimini yamsılayan bir varlıqdır. Yalançı ata-ananın və yalançı müəllimin yetişdirdikləri uşaqlar da mütləq yalançı olurlar. Buna görə də ata-ana və müəllimlərin borcu uşaqların yalana alışmamalarına daim diqqət yetirməkdir. İlk və ən təsirli vasitə onların özlərinin yalandan çəkinmələridir. Onlar uşaqların yalan söyləməsinə heç cür icazə verməməlidirlər. Ən xırda və ən günahsız bir yalana da, dözüm göstərmək olmaz. Bir sözlə, uşaq ailə və məktəbdən çıxıb cəmiyyətə qovuşduğu zaman yalanın iyrənc bir azar olduğunu duyub anlamalıdır.

Cəmiyyətə, yəni topluma gəlincə, o da yalana qarşı güclü əngəllər qoyarsa, tutalım, sərbəst insanlar ölkəsində olduğu kimi, yalançını içindən atarsa, adamlar yalan danışmaz. Amma bunun tam tərsinə olaraq, məharətlə söylənmiş bir yalanı ağıl nümunəsi sayan və ya yalançılıqla qazanılmış bir uğuru bəyənib alqışlayan və yalançı olduqlarını bildiyi insanlara hörmət-izzət göstərən toplum yalançılıq azarının bütün acılarına və bütün qorxunc sonuclarına boyun əymək məcburiyyətində qalır.

O cəmiyyətdə heç kəs heç kimə inanmaz, özünə arxa saymaz. Buna görə də birgə fəaliyyətdən və birgə təşəbbüsdən söz belə getməz. Nəticədə inkişaf və yüksəlişin bütün yolları kəsilər və yavaş-yavaş soysuzlaşma gedər, olub-qalan yaxşı keyfiyyətlər də itirilər, heçliyə sürüklənmə başlar!

- Ah, ustad! Mən də bu hala düşmüşdüm. Mən də bu halları yaşayıb görmüşdüm. Ancaq səbəbini indi anladım.

Mümkünsə, üçüncü maddənin də hikmətini anladın.

- Böyük həvəslə!

- Bu maddəyə görə, ikiüzlülük və yaltaqlıq edənlərə daşlanmaq kimi dəhşətli bir cəza verilirmiş. Doğrusu, niyə belə şiddətli cəza verildiyini başa düşmədim. Vəzifə və güc sahibi olan adamları öymək, onlara sitayiş etmək olmazmı? Ədəbiyyatdan bildiyimiz neçə-neçə parlaq qəsidənin, yəni heç qiyməti yoxdu? Axı bu da gerçəkdir ki, min cür nemət və səadət bu güc və yüksək vəzifə sahiblərinin əllərindədir. Bəzən kiminsə taleyi, müqəddəratı həmin adamların bircə baxışından asılı olur. Belə isə, onların qürurunu oxşamaq təbii sayılmazmı?

- Anlayıram ki, bu sənədin qaydaları sizin kimi istibdad adətinə alışmış insanlara qəribə görünür. Bir şey soruşum: Sən azad və sərbəst olmağa qəti qərar vermisən?

- Söz yox.

- Bu halda özün dəyişməlisən. Axı bütün o saydığın şeylər sənin kölə və əsir olduğun zamanlara aiddir. İndi ki zəncirlərini qırmısan, sərbəst olmağa qərar vermisən, bilməlisən ki, yaltaqlıq kölələrin, əsirlərin işidir, ruhun alçaqlığına, zəlil və miskin olduğuna dəlildir. Yaltaq adamda şərəf və sayqı-sevgi olmaz. Bu cür adam söz dediyi insanı da pozar, onda qürur, təkəbbür, həqiqətə, haqqa dözümsüzlük kimi pis sifətlərin oyanmasına səbəb olar.

İndiyədək Şərq cəmiyyətlərini içindən yeyib gəmirən xəstəliklər arasında bu öygü və yaltaqlıq ən qorxuncu və ən pozucusudur. İlan zəhəri kimi beynin və qəlbin lap dərinliyinəcən işləyir, bədəni çürüdüb iflic edir.

Şərq qəsidəxanları - öygü şairləri bilməyib fərqinə varmamaqdan millətlərinə ən çox pislik etmiş insanlardır. Yazdıqları parlaq olsa da, o biri yandan mənəvi pozuntulara yol açıblar. Onlar həm də cazibəli olduqlarından, təqlidçilər və ardıcıllar doğurublar.

Qəribədir ki, bu qəsidələr azad olmaq istəyən eynidurumlu cəmiyyətlərin məktəblərində hələ də ədəbi örnək sayılaraq oxutdurulur. Yəni bunların törətdikləri eybəcərliyin fərqində deyillər? Yəni bilmirlər ki, gənclərin qəlbinə, gənclərin beyninə şerin, musiqinin təsiri böyükdür?
Nə olur-olsun, azad olmaq istəyən bir cəmiyyətin bu hərəkəti, əkini əkib üzərinə kükürd səpən bir əkinçinin hərəkətindən fərqli sayılmaz. İngilis qanunu hələ XV əsrdə kralın öyülməsini onun qınanması qədər yasaq hesab edib. Bax budur azad olmaq istəyən bir millətin hərəkəti!!!...

## AZADLIQ VƏ ÇUĞULÇULUQ!

- Amma ustad, böyük adamlara sayqı göstərmək haqq və hüquqları tanıyanların vəzifəsi deyilmi?

- Şübhəsiz! Ancaq gerçək sayqı göstərməklə, baş əyməklə yarınmaq və yaltaqlıq tam başqa-başqa şeylərdir.

- Necə yəni başqadır?

- Çünki gerçək sayqı və sevgi doğruçuluq və səmimiyyət istəyir. Doğruçuluq və səmimiyyətin şərti də düşünülən fikri, duyulan hissi olduğu kimi söyləməkdir. Ürəkdən sevdiyiniz bir adamın, tutalım, oğlunuzun, qardaşınızın, əziz bir dostunuzun çatışmazlıqlarını söyləməyi, yalnışlıqlarını düzəltmələri üçün öyüd verməyi özünüzə borc bilməzsiniz yəni? Millətin yetişdirdiyi böyük adamlar oğuldan, qardaşdan daha əziz, daha qiymətlidir axı.

Axı bunlar ümumi və ortaq səadət və bəxtiyarlığın qaynağıdırlar. Deməli, onlara qarşı daha səmimi, daha doğrucul olmaq daha əsaslı bir borc sayılmalıdır. İkiüzlü və yaltaq adamlarsa bunun tam tərsini edirlər.

Böyük adamlara daşımadıqları sifət və qabiliyyətləri də verir, çatışmazlıq və yanlışlıqlarını üstünlük kimi göstərirlər. Doğrunu, həqiqəti onlardan gizləyir, onları daim əyri yollara çəkirlər. Bütün bunlar sırf şəxsi mənfəətləri üçün edilir.

Əsasən öz xeyrini güdən və yaltaq adam doğru sözdən qaçar və dost olmaz. Doğruculluq və dostluq kimi yüksək sifətlər ruhca kasıb adamların işi deyil. Tale üzünü böyük adamlardan çevirincə, ruhən yoxsullar da həmin adamlara

arxalarını çevirirlər: yəni onları ələ salır, söyür, onlara hücum çəkir və yenə də qüvvətli tərəfin - yüksək vəzifə əldə etmiş yeni adamın yan-yörəsində yer tuturlar.

- Çox haqlısınız, ustad! Belə faciəli xəyanətlərin acı mənzərələrinə neçə dəfə şahid olmuşam. O zamanlar vətəndən usanmamaq və vətəndaşlardan iyrənməmək üçün özüm-özümlə nə qədər mübarizə aparmışam.

- Elədir! Öz xeyrini güdmək və yaltaqlıq hər hansı cəmiyyəti alçaldan ən qorxunc yollardır.

- Elə isə, ustad, insanlar bundan niyə xoşlanırlar?

- Zəifliklərinə görə! Ancaq bu zaman ən böyük suçu cəmiyyət işlədir. Axı cəmiyyət pis sifətlərin yayılmasına meydan
verməməlidir. Çünki sonda ən çox zərəri də cəmiyyət görəcək.
- Anlamadım, ustad...

- İndi anladaram. Bir ağac üçün çiçək və meyvə nədirsə, bir cəmiyyət üçün də böyük adamlar odur. Məlumdur ki, ağacın cinsini yaşadan, onun varlığını göstərən həmin ağacın çiçək və meyvələridir. Cəmiyyətləri də yetişdirdikləri böyük adamlar yaşadır, varlığını qoruyur və bu cəmiyyətlərin yüksəlişi üçün yol göstərir.

Doğrudan da, hər hansı cəmiyyətin varlıq qüvvəsi fikir, sənət, elm, hərb və sair sahələrdə yetişdirdiyi böyük adamların alışqanlıq və qiymətləri ilə ölçülə bilər. Bu baxımdan böyük adamların yetişdirilməsi, onların qorunması cəmiyyət üçün ölüm-qalım məsələsidir. Böyük adamların yetişdiyi zamanlarda ağlı başında olan bir cəmiyyət onlardan bacardıqca çox faydalanmağa çalışar, həyatlarının hər dəqiqəsindən bəhrələnməyi özünə məqsəd bilər, onların əməyinin boşa
çıxmasına və pozulmalarına isə heç dözməz. Axı böyük adamlar hər gün və hər zaman yetişmir. Bəzən bir millət əsrlərcə hamilə olduqdan sonra onlardan birini həyata yetirir. Bəzən də bu doğuş əməliyyatı çox çətin və qorxunc olur. O səbəbdən ağlı başında olan cəmiyyət elə övladını göz bəbəyi kimi qoruyur və onlardan bacardıqca çox faydalanmağa çalışır! Bax, buna görə azad ölkədə öz xeyrini güdüb yarınmaq və yaltaqlanmaq daşlanmaq kimi ağır bir cəza ilə cəzalanır. Axı o cür pis sifətlər pozucu amillər arasında ən qorxuncudur!
- Anladım, ustad! Bu açıqlamanız keçmişin bir çox qaranlıq və acı tərəflərini aydınlaşdırdı. İndi də, lütfən, Nizamnamənin dördüncü maddəsini izah edin.
- Böyük həvəslə. Həmin maddədə deyilir ki: "Xəbərçilik edənlər sərbəst ölkənin vətəndaşı ola bilməzlər". Bilməlisən ki, azadlıq və çuğulçuluğun yan-yana yaşaması mümkün deyil. Çuğulçuluq olan yerdə azadlıq olmaz,
azadlıq olan yerdə də ondan-bundan çuğulluq etmək. Təsadüfi deyil ki, istibdadın istifadə etdiyi ən təsirli vasitə
çuğulçuluqdur. İstibdadın ilkin istəyi odur ki, vətəndaşlar arasında tərəddüd və şübhə toxumları səpsin, onların bir-birinə inam və arxayınçılığına yol verməsin. Bu səbəbdən istibdad quruluşları çuğullamalara böyük önəm verir, gizli xəbərçiliyi ən qüdrətli vasitə sayır.

Çuğulçuluğun çiçəkləndiyi yerdə kimsə kimsəyə inanmaz. Hər kəs hər kəsdən hürkər. Doğruçuluq və açıqlıq aradan qalxar. Yalan və ikiüzlülük onların

yerinə keçər. Birlikdə iş görmək mümkün olmaz. Bu hala düşən cəmiyyətlər sapı çürüyüb sökülmüş parçaya bənzəyir, hər cür müqavimət qabiliyyətini itirər və nə zorakılığa qarşı dayanar, nə də elm, sənət, ticarət və s. sahələrdə birgə irəliləyə bilər.

Təbii ki, azad ölkə bu qədər zərərli bir şeyə dözməz. Biz vətəndaşlarımızın ruhunda ta uşaqlıqdan bu qorxunc bəlaya qarşı nifrət və iyrənmə duyğusu tərbiyə edirik.

Uşaqlarımızın bir-birindən gileylənməsinə pis baxırıq. Bir-birinə böhtan yağdıranlara və bütün günahları bir-birinin boynuna atanlara şiddətli cəza veririk. Başqalarına ibrət olmaq üçün yoldaşının hər hansı bir işini xəbər verən uşağı hər kəsə göstərir, pis əmələ qurşandığını hamıya bildiririk. Qısası, çuğulçuluğun iyrənc bir bəla olduğunu işimiz və sözümüzlə uşaqlara aşılayırıq ki, böyüdükdən sonra onlar qanunu güdsün. Beləcə, ölkədə çuğulçuluq aradan qalxır.

- Ustad! Verdiyiniz izahat bütün varlığımı alt-üst etdi. Bir az tək qalmaq, düşünmək istəyirəm. Etiraz etmirsinizsə, bu günlük bu qədərlə kifayətlənək. - Lap yaxşı! İki gündən sonra yenə gələrik, - deyər əlimi sıxıb otaqdan çıxdılar. BİR MİTİNQ: NATİQLƏRİN SÖZLƏRİ

Ah, bu necə ölkədir?! Sərbəst olmaq nə qədər çətin bir iş imiş!.. Görəsən, alışa biləcəyəmmi? Görəsən, azad ola biləcəyəmmi? Əvvəlcə bu iş necə asan gəlirdi! Sən demə, əsl çətinliklər sonra olacaqmış. İnsan ruhu tarixin elə izlərini yaşadır ki, adamı da məhz onlar əsirə çevirir. İndi bu izləri bircə-bircə silib-itirmək gərəkdir. Yalan söyləməmək, yalnız öz xeyrini güdməmək, qoçaq olmaq, haqqı qorumaq, qorxmamaq, doğru danışmaq... Nə ağır şərtlərdir!

Vəzifə və güc sahibi olan şəxsin yanında necə qorxmayasan, necə doğru danışasan, nə cür yaltaqlıq etməyəsən axı.

Həmin şəxsi görən kimi, adam öz ödünü udur, başı əsir, boynu öz-özünə əyilir və dili başlayır tərif yağdırmağa!..

Heç yadımdan çıxmaz: bir tanışım vardı. Telefonla danışdığı zaman deyərdin, nazir onun yanındadır - rəngi qaçar, pencəyinin düymələrini bağlamağa başlar, sağ əlini, aşağı salar və üzünə gülümsər bir ifadə verərək əlaqəsiz sözlər kəkələyərdi: "Bəli, ağa! Sizin kimi böyüyün sayəsində... Günah kiçiklərdən, əfv böyüklərdən"... Sonra telefonu hiddətlə yerə atar, kürsüyə yayılar və nəfəs alaraq deyərdi: "Ah! Az qala öləcəkdim! Bu nə qəzəb, nə hiddət?! Dünən şəxsən onun özünə yazılı məlumat vermişdim. Həmin məlumatda onun tabeliyində olanların pis əməllərindən bəhs etmişdim. Yaman qəzəbləndi. Çox qəzəbləndi! Ancaq qədrimi bilsin, yatırdım hirsini! Oh, nə yatırdım!".

Həmin tanışımızı o vaxt dolayardıq. Amma gerçəyə qalınca hamımız onun kimiydik. İndi iliyimizəcən işləmiş bu bəlaları necə qoparıb atacağıq? Ürək döyüntüsündən, həyəcandan yata bilmədim. Bütün gecəni otağımda gəzişdim. Səhərə yaxın yorğunluqdan halsız düşüb özümdən gedibmişəm. Gözümü açdığım zaman günəş xeyli yüksəlmişdi. Başımda ağrı vardı. Hava almağa ehtiyac duydum. Küçəyə çıxdım. Qaldığım evin qonşuluğunda böyük bir park var idi, oraya getdim. Bağbanlar ağacları sulayırdılar. Bir az o yanda yekə bir heykəl gördüm. Yanına yaxınlaşanda üzərində bu yazını oxudum:

"Sərbəst ölkənin ilk azad qəhrəmanı" Bağbanlardan birinə yanaşıb parkın adını, qəhrəmanın kim olduğunu soruşdum.

- Başqa yerdən gəlmisiniz?

- Bəli, təzə gəlmişəm!
- Buraya Azadlıq parkı deyirlər. O heykəl də istibdada qarşı Azadlıq bayrağını qaldıran ilk vətəndaşın şərəfinə ucaldılıb. Ölkəmiz bu qəhrəmanın adını əziz tutur.

Bu arada parka dəstə-dəstə adamlar gəlməyə başladı. Az sonra parkın müxtəlif yerlərində mitinqlər quruldu. Mitinqlərdən birinə qulaq verdim: Gənc bir kişi həyəcanla hökuməti tənqidə tuturdu. Hökumətin partiya proqramına sadiq qalmadığını, işsiz vətəndaşların hələ də küçələrdə dolaşdığını, statistik məlumatlardan ölkə əhalisinin 0,02-nin oxumaq-yazmaq bilmədiyi anlaşıldığını və bunun ölkədən ötrü bir ayıb, başıaşağılıq olduğunu hərarətli bir dillə izah edirdi.

İkinci bir qrupa yaxınlaşdım: Burada isə orta yaşlı, arıq bir adam gənc nəsldə gördüyü çatışmazlıqları sadalayırdı. Onun dediklərindən belə çıxırdı ki, gənclər daha çox pula qaçır, işadamı olmaq həvəsilə yüksək bəşəri duyğulardan və yurdsevərlik keyfiyyətlərindən uzaqlaşırlar. Bütün bunların nəticəsində yaratdıqları cılız və cansız, xəyal gücləri boş və çürükdür. Xasiyyətcə də get-gedə iradəsiz olurlar.

Natiq bu əlamətləri gələcək üçün qorxunc sayır və bunun əsini maarif sisteminin dəyişdirilməsində görürdü.

Üçüncü mitinqdə gözəl və gənc bir xanım qadınların siyasi haqlarından söz açırdı. Bu xanımın sözlərindən anladım ki, sərbəst insanların şəhərində qadınların bütün hüquqları kişilərlə eyni imiş. Yalnız şəhər başçısı ancaq kişi ola bilərmiş. Tənqidin hədəfi də bu idi.

Natiq xanım görün nə deyirdi: "Axı necə ola bilər ki, qadının doğub, bəslədiyi oğul bu vəzifəni tuta bilər, amma qadının özü yox? Bizə fizioloji özəlliklərdən söz açırlar! Sanki kişilərin hamısı sapsağlamdırlar, heç birinin fizioloji əskiyi yoxdur! Dəlixanalara, həbsxanalara gedin, cinayət statistikasını oxuyun. Güman etmirəm ki, nəticə kişilərin xeyrinədir. Deməli, kişilərə nisbətən fiziki zəifliyimizi söyləyib, guya qayğımıza qalmaq sırf bəhanədir. Kişilərin zorakılığını davam etdirmək üçün qədimdən bəri faydalandıqları silahların son qırıq-quruğudur. Ancaq davamlı şəkildə savaşan qadın o biri silahları qırdığı kimi, bu son tör-töküntünü də süpürüb atacaq və nəhayət, kişilər anlayacaqlar ki, sonuncu sığınaqlarını da qadınların üzünə açmaq lazımdır. Kişilik şərəfi, kişilik ləyaqəti bunu tələb edir. Sərbəst insanlar ölkəsində bir tək adamın da başqalarından hüquqca aşağı olması azadlıq üçün bir ləkədir. Bu ayıbı, bu ləkəni qadın silib təmizləyəcək".

Bir az aralıda başqa qruplar da vardı. Ancaq mən artıq yorulmuşdum. Bir skamyaya oturub, indiyədək görmədiyim,
duymadığım bütün bu yeni mənzərələr haqqında düşünməyə başladım.

**"BURADA VƏTƏNDAŞLIQ BİR TORDUR Kİ, İÇİNƏ GİRƏN İNSANLAR BİR-BİRİNƏ BİTİŞİK HALQALARA BƏNZƏYİRLƏR "**

Məni ən çox heyrətləndirən şey natiqlərin əda və üslubları idi. Gördüm

ki, bunlar tənqid və gümanlarını yalnız olmuş və ola biləcək hadisələr üzərində qururlar. Ayrıca diqqət yetirirlər ki, sözlərində şübhə və tərəddüd doğuracaq qarışıq bir nöqtə qalmasın. Eyni zamanda söylədikləri təmiz və sayqılı idi. Tənqidə tutduqları adamların ləyaqətinə toxunacaq tək kəlmə də işlətməkdən çəkinirdilər. Onlara hörmətlə yanaşırdılar. Dinləyənlərin gözlərindəki ifadədən, üzlərindəki ciddilikdən anladım ki, tənqidin bu tərzi daha çox təsir göstərir və daha faydalıdır. Bu yeni qənaətim istər-istəməz öz ölkəmdə gördüyüm tənqidləri yadıma saldı.

Aman Tanrım, o nə iyrənc mənzərə idi! Necə söyüşlər səslənər, necə suçlar sadalanardı?! Necə qarışıq sözlər, qapalı eyhamlar, örtülü və iyrənc açıqlamalar söylənərdi! Bəzən elə olurdu ki, dinləyənlər və oxuyanlar nifrətlə qulaqlarını tıxayar, gözlərini yumar və hər yandan tələb edərdilər ki, bu boğucu çirkab və üfunətə qarşı bir sədd çəkilsin. Bax o zaman bir qüvvə ortaya çıxar, söyləyənlərin ağzını, dinləyənlərin qulağını qapayar və insanlar yenə sükutdan, səssizlikdən boğulmağa başlayardılar!

Doğrudan da fəlakət idi: gah dağ seli kimi coşub-daşar, hər yanı dağıdar, gah da susuz çaylar kimi qupquru quruyardıq!

Kəsəsi, davranışımızın həddi bilinməzdi!..

Bax, indi anladım ki, azad olmaq yalnız istəyə, arzuya bağlı deyilmiş! İnsanın özünü tərbiyə edib, kübar olması lazım imiş!

- Bəli, bəli, kübar olmaq lazımdır!
- Kimlə danışırsan, əzizim?

Dönüb baxdım. Sən demə, göz önünə gətirdiklərimlə danışan zaman qonaq evində qalan tanışlarımdan biri yanımda oturaraq, mənim səsimi eşitməyindən heyrətlənibmiş. Dedim:

- Xəyala dalmışdım. İndi gördüklərimlə keçmişdə yaşadıqlarımı xəyalımda tutuşdurub, ixtiyarsız olaraq o sözləri söylədim!

Tanışım gülümsədi:

- Eyni halı yaşadıq, - dedi.

- Belə çıxır ki, siz çoxdan buradasınız və ölkənin bütün əhvalını bilirsiniz?

- Elədir!
- O halda xahiş edirəm söyləyin. Bu mitinqlər hər gün olur?

- Hər gün olur. Bir növ məktəbdir. Ölkənin hər bir adamı bağlı olduğu məsələlər haqqında burada məlumat alır.

- Nə gözəl adətmiş!

***

Ertəsi gün pirlər yenə gəldilər. Onlardan birinə üz tutub soruşdum:

- Onuncu maddədə deyilir ki, birgə dəstək göstərmək borcudur. Bu nə deməkdir?

- Bəli! Sərbəst ölkənin fərdləri arasında həmrəylik göstərmək, birgə dəstək nümayiş etdirmək əsasdır. Azad olmayan yerlərə baxın; o yerlərdə fərdlər və ailələr ayrıca yaşayar, aralarında bağlılıq və münasibət də az olar. Niyə? Çünki başlarının üstündə dayanan istibdad öz yumruğunu işlədib bunların bir-birinə yaxınlaşmasına, birlik

qurmasına imkan vermir. İstibdad quruluşu ayrılıq, eqoizm, yəni mənbazlıq aşılayır. Vətəndaşlar bir-birinə yad qalır, hər kəs hər kəsə qarşı diqqətsiz olur. Belə bir cəmiyyətin fərdlərini əzmək asandır. Cəmiyyətin özü də cansız, qansız bir oyuncaq kimi atılıb tutulur, doğrudan da oyuncağa çevrilir.

Sərbəst şəhərdə isə birlik, bir-birinə dəstək vermək əsas sayılır. Burada hər kəsin hər kəslə əlaqədar olması, bir-birinin taleyinə qatılması qaydaya çevrilib. Burada vətəndaşlıq bir tordur ki, içinə girən insanlar bir-birinə bitişik halqalara bənzəyirlər. Halqalardan hər hansı birinə yoluxan bəla dərhal digərlərinə də keçər, onlara da acı çəkdirər, onların da rahatlığını pozar və o bəla aradan qalxmayınca bu ümumi və ortaq rahatsızlıq bitmək bilməz.

Burada hər kəs hər kəsin haqq, şərəf, ləyaqət borcunu üstünə götürüb. "Mənə nə?", "Gör, özünü görməzliyə vur", "Bu sürüyə intizam dərsi vermək sənəmi qalıb?" kimi ötkəm qaydaların bu şəhərdə kökü kəsilib.

- Ah, ustad! Sizi ləzzətlə, həyəcanla dinləyirəm. Amma nə yazıq ki, indiyədək bütün bu adət-ənənələrin tam tərsinə alışmışam. Mən özümü necə dəyişdirməliyəm?! Doğrudan da, azad olmaq necə çətinmiş!

- Elədir, oğlum. Azad olmaq asan deyil. Köləlik daha asandır. Kölə özünü başqasının iradəsinə tapşırar, bununla da iş bitər. Azad adam isə, əksinə, başqasını düşünməklə üstünə yük götürər. Yadındamı, qala keşikçilərinin ilk sualı - "Başqalarını sevirsənmi?" oldu. Başqasını sevmək onun yolunda rahatsızlığa, əzab-əziyyətə qatlaşmaq deməkdir. Vətəndaş həm özünü, həm də başqasını zülmdən qurtarmaq istəyirsə, yalnız bu yola üz tutmalıdır.

Sən isə indiyə qədər başqa yola alışdın. Öz rahatlığını və qurtuluşunu cəmiyyətdən qıraqda aradın. Təkcə öz ləyaqətini düşündün. Bu üzdən həmişə geriyə qaldın, həmişə alçaldın, həmişə rahatsızlıq içində yaşadın. İndi sən azad olmağa qərar vermisən. Deməli, özünü tərbiyə etməyə və sərbəst ölkənin qaydalarına alışmağa çalışmalısan.

İçində yaşadığın cəmiyyətin taleyinə biganə qalmamalısan, onun haqqını, hüququnu, çıxarını, şərəf və ləyaqətini qorumalısan, onun yoxsullarını, uşaqlarını, avamlarını düşünməlisən. Bundan ötrü qurulmuş yardım, qoruma, oxutma və sair qurumlara yazılmalısan. Bu şəhərdə bircə adam da tapılmaz ki, heç olmasa 5-6 ictimai bağla bağlanmış olmasın! O üzdən, bu bağların bircəciyinə toxununca, o birilərinin də hamısı tərpənir və bütün cəmiyyət bir tək adam kimi hərəkətə başlayır. - Necə xoşbəxt cəmiyyətdir! XALQIN YÖNƏLTDİYİ DÖVLƏT!

- İndi mümkünsə, 11-ci maddənin mənasını açıqlayın. Bu maddədə deyilir ki, "Şəhər işləri ilə məşğul olmaq üçün yetkin olmaq, yetki qazanmaq şərtdir".

- Oğlum! Bu üsul şəhərin xoşbəxtliyi üçün əsasdır. Azad olmayan ölkələri tək bir şəxs idarə edir. Hökmdar deyilən bu adamın iradəsi hakimdir. Hamı ona baş əyməyə borcludur. Belə ölkələrdə vətəndaşların dolanışıq və səadətindən çox, həmin şəxsin şıltaqlarının yerinə yetirilməsinə diqqət yetirilir. Buna görə də o adam, səlahiyyəti - yetkisi oldu-olmadı, istədiyi şəxsi işə götürə, yaxud işdən azad edə bilər. Belə yerlər işbilməzlər üçün daha sərfəlidir. Axı

səriştəyə yox, özünü hakim şəxsə bəyəndirə bilmək keyfiyyətinə dəyər verilir. Ara qızışdırmaq, öz xeyrini güdərək ona-buna yarınmaq, gözə girmək, hiylə və yalan həmin keyfiyyətin tərkib hissələridir. Beləcə, təkcə ölkənin işləri səriştəsizlərin əlində qalmır, həm də hamının əxlaqı pozulur. Gənc nəsil uğur yolunu axtararkən, bilik və ləyaqət örnəyi görmədiyindən, elmə, texnikaya, ciddiliyə, çalışqanlığa, doğruçuluğa qiymət verə bilmir və tanışlıqla iş aşırmağa, öz xeyri üçün ona-buna yarınmağa, kələkbazlığa, hiylə və yalana meyl salır. İstər adamlar, istərsə dövlət get-gedə alçalır və axırda tamam pozulur. İstibdadın idarə etdiyi bütün ölkələrin sonu bu deyilmi? Belə yerlərdə ölkəni uçuruma aparan amil əslində istibdadın özü yox, istibdad quruluşunun işıqlı adamları mənən əzib korlamasıdır.

Amma o yerdə ki hakimiyyət xalqın əlindədir, ölkəni xalqın öz arasından seçdiyi adamlar idarə edir. Seçki, təbiəti baxımından əxlaqa, ləyaqətə, səriştə və ixtisasa söykənir. Bununla yanaşı bilməlisən ki, istibdad hökm sürən zaman dövlət elə də çox işlərə qarışmır, əsgərlik, xarici dövlətlərlə münasibətlər, ölkə içində inzibatçılıqla məşğul olur. Axı belə işlər həm məşhurluq gətirir, həm də hakimi əzəmətli göstərir. Ölkənin digər işlərinə ya heç baxılmır, ya da bunlar ikinci dərəcəli sayılır. Tutalım, maariflə, ticarətlə, kənd təsərrüfatı ilə, yol çəkilməsi ilə, sənaye ilə istibdad özünü çox da yormur. Hamının sağlamlığını və sosial ödənc kimi işləri isə əsla düşünmür. Halbuki millətlər öz talelərini öz
əllərinə aldıqları zamandan başlayaraq məhz bu işlər dövlət fəaliyyətinin başlıca sahələri olur. Məhz həmin işlər birbaşa millətin həyatı ilə bağlıdır. Ancaq sadalanan işləri görmək asan deyil. Səriştəsiz adam onların altından çıxa bilməz. Çünki çıxmağa baş istəyir, bilik istəyir. Eyni zamanda dövlət fəaliyyətinin bu cür artması hər bir ölkədə vergiləri çoxaldır, ağırlaşdırır, büdcələri şişirdir. Əhalidən yığılan milyonlarca para həmin işlərə xərclənməkdən ötrü beş-on adama tapşırılır. Deməli, həmin adamların özünə inamlı və bacarıqlı olmaları təməl şərt olur. Xalq dişindən-
dırnağından kəsib, millət işinə sərf edilmək üçün verdiyi xeyli pulun etibarlı əllərdə olduğuna və səmərə verəcək bir tərzdə xərclənəcəyinə inanmalıdır!

Bax, buna görə də xalqın yönəltdiyi dövlət istibdad quruluşunda olduğu kimi, səriştəsizlərin əlində təcrübə taxtası ola bilməz. Elə xalq idarəsi ilə istibdad arasındakı əsas fərqlərdən biri də budur ki, istibdadda dövlət adamlarının və məmurların arxalandıqları güc hökmdarın yaxşılıq və qayğısıdır. Halbuki xalqın yönəltdiyi dövlətdə həmin adamlar yalnız xalqın inamına söykənə bilərlər. Bu inam tükənən kimi hökumət və idarəçilik lap təməlindən yıxılmış sayılır. Aydın məsələdir ki, xalqın inamını yalnız gözəl əxlaqla, səriştə və ləyaqətlə qazanmaq mümkündür. Yəqin görürsən ki, idarə əxlaqı yerində olan, təcrübə və ixtisas sahibi sayılan adamların etdiyi sərbəst ölkələr gündən-günə yüksəlir və bunun tərsini edən - tək bir şəxsin yönəltdiyi ölkələr hər gün bir az da geriləyir.

- Anladım, ustad! Bu, dəfələrlə sınaqdan keçmiş və təsdiqlənmiş həqiqətdir. Bəs belə olan halda qanunun II maddəsinə gərək qalırmı?

- Sualınızı anlamadım.

- Demək istəyirəm ki, idarəedənlər bu qədər ehtiyatla seçiləndən sonra onları sınamağa ehtiyac qalırmı ki, bir də II maddədə hər vətəndaşın üzərinə bu məmurları nəzarət borcu yüklənir?

- İndi anladım. Bilməlisən ki, sərbəst şəhərdə nəzarət əsasdır. Elə başqa üsullarla sərbəst idarə üsulu arasındakı ən açıq
və ən köklü fərq də budur.

Azadlıq nəzarətlə varlığını qoruyur. Azadlıq demək - nəzarət deməkdir. Nəzarət olmayan yerdə azadlıq olmaz və ola bilməz! Bax buna görə də sərbəst ölkədə nəzarətdən keçirmək vətəndaşların həm haqqıdır, həm borcu. Bu üzdən haqqdır ki, onların həyatlarına, müqəddəratlarına aid bir işdir. Ona görə borcdur ki, bu işi görməmək vətəndaşın təməl haqqından vaz keçməkdir.

Sərbəst ölkəyə gəlincə, düzdür, ölkədə məmurlar diqqətlə, ciddi şəkildə seçilirlər. Ancaq unutmaq lazım deyil ki, hökumət və güc pozucu amillərdir. Budda öz ləyaqətini hamıya göstərmək istədiyi zaman ilk işi o oldu ki, hökumətdən çıxdı. İnsanlara hökm etmək ən sayqılı və ən seçmə ruhlarda da hakimlik həvəsi oyadır. Hökumət sürənlər qıraqdan baxan, görən və lazım olduğu zaman tənqidə tutub qınayan gözlərin olduğunu bilməzlərsə, özləri fərqində olmasalar belə, bu həvəslərini artırar və axırda zorakılıq yoluna düşərlər. O səbəbdən idarə edənlərin öz şərəfləri üçün də
nəzarətin olması lazımdır. Məhz nəzarət onlara daim borclarını xatırladar, bəlli hüdudları aşmamağa çağırar. Nəzarətsiz ölkələrdə məmur istərsə çalışar, istərsə çalışmaz, kefinə düşərsə qanuna baxar, düşməzsə baxmaz. Başlıcası odur ki, hökmdar ondan razı qalsın! Bax o üzdən belə ölkələrdə məmurların çoxu çalışmaz, qanuna baxmaz, həddini aşar və nəticədə dövlət fəaliyyətinin faydası heçə enər. Nəzarət olan ölkələrdə isə vəziyyət bambaşqadır!

## SƏRBƏST ÖLKƏDƏ NƏZARƏT İŞİ

...Ancaq bunu da unutma ki, nəzarət etmək azad olmaq qədər çətindir. Nəzarət heç də hər kəsin ağzına gələni söyləməsi və haqlı-haqsız başqalarını pisləməsi demək deyil. Belə nəzarət nəzarətsizlik qədər iyrənc və zərərlidir. Şəxsiyyəti alçaldan böhtan və şayiədən ibarət olan nəzarətə bizdə əsla yol verilmir və buna cəsarət edən hər bir vətəndaş dərhal şəhərdən çıxarılır.

Bu şəhərdə nəzarət şərəfli və şərəfin qiymətini bilən insanlara layiq şəkildə, kübarcasına aparılır. Danışığında nəzakət gözləmək, tənqid və qınaqlarında şəxsiyyəti alçaltmamaq və əsas məsələdən yayınmamaq burada bir qaydadır. Bu qaydadan çıxmamaq şərti ilə sərbəst şəhərdə nəzarət vətəndaşların həm haqqı, həm də borcudur. Bu haqq və borcu söylənən kimi ödəməyən bir vətəndaş, yəni hər hansı məmurun işə baxmadığını və ya işindən sui-istifadə etdiyini bilsə də ona qarşı tədbir görməyən vətəndaş, həmin məmur kimi cəzalandırılır.

- Ustad, çox ağır cəza deyilmi? Özünüz öncə söylədiniz ki, çuğulçuluq suç bilindiyindən cəzalandırılır. Burada isə, onu ləyaqət sayırsınız.

- Oğlum! İki şeyi qarışdırırsan. Çuğulçuluq başqa, nəzarət başqa anlayışdır. Çuğulçuluq özünü qoruyaraq iftira və dedi- qoduya söykənməklə

başqasını ləkələməkdir. Nəzarət isə məsələni öyrənərək bəlli qənaətə gələndən sonra mərd və açıq şəkildə meydana atılmaqdır; çuğulçunun məqsədi vətəndaşı ləkələmək, faydalandığı vasitə - iftira və şayiədir. Nəzarətçinin amacı hamının haqqını qorumaq, faydalandığı vasitə həqiqətdir.

- Fərqi anladım, ustad! Sizi yorduğuma görə üzr istəyirəm. Mümkünsə, 13-cü maddəni də açıqlayın.

- Bu bizim vəzifəmizdir, oğlum. Sərbəst şəhərin sakinləri bizi bundan ötrü, yəni yeni vətəndaşlara bu şəhərin nizamnaməsini öyrətmək üçün seçiblər.

- 13-cü maddədə deyilir ki: "Hər bir məmur, hər bir cəmiyyət və dövlət adamı hər an həyatı haqqında hesabat verməyə
borcludur"...

- Bu da şəhərin təməl qaydalarındandır. Məmura verilən əməkhaqqı və dolanışığa əvəz olaraq, cəmiyyətin, dövlətin o cür adamlarına göstərilən hörmətin, inamın və onlara tapşırılan vəzifənin, bu vəzifədən irəli gələn nüfuzun qarşılığında şəhər nə istəməlidir? Şəhər də istəməlidir ki, həmin şəxslər həyat və fəaliyyətlərini ona həsr etsinlər. Axı şəhər elə vətəndaşların mümkün qədər çox fayda verməsində maraqlıdır. Üstəlik, həmin şəxslərin dürüst və doğru olmaları da şəhərdən ötrü bir həyat məsələsidir.

Bir sualıma cavab ver: əxlaqsız və yaxud çalışmayan bir adama şəxsi işlərini tapşırarsan?

- Yox, əlbəttə!

- O halda şəhər necə tapşıra bilər ki?

- Bunu anladım. Ancaq məni o çaşdırır ki, həmin şəxslər öz həyatları haqqında hər an hesabat verməlidir. Şəxsi və özəl həyata müdaxilə etmək olarmı? Yad gözlərin sənin özəl yaşamına baxması nə dərəcədə düzdür?

- Bax, yenə qarışdırırsan. İstibdad çağından qalma aldadıcı bir havaya oynayırsan. Dövlət adamları və məmurlar özünü şəhər işlərinə həsr edən, cəmiyyətlə nəfəs alan vətəndaşlardır. Onları bu işə heç kim zorlamır. Bu işi öz istək və arzuları ilə boyunlarına götürürlər. Və öhdələndikləri gündən başlayaraq başqa vətəndaşlardan fərqli sayılırlar. Beləcə, həmin vətəndaşlardan ayrılmış hesab olunurlar.

Ümumvətəndaşlıq qaydalarının bəzi maddələri belə şəxslərə şamil edilmir. Bu şəxslər dövlət hesabına yaşadıqlarından dövlətin onlardan hesabat istəmək haqqı var. Hesabat verməyi xoşlamırsansa, hesabat tələb edən vəzifəni üzərinə götürməməlisən. Axı başqa vətəndaşlardan heç kəsin hesabat istəmək yetkisi yoxdur. Ancaq məmur və dövlət adamı vəzifəsini üstünə götürmüsənsə, gərək olan işi görmək artıq sənin borcun sayılır.

- Yəni məmurun və dövlət adamının özəl və şəxsi həyatı yoxdur?

- Bax, yenə köhnə havanı çalırsan! Mümkünsə özəl həyatın hüdudlarını cız. Haradan başlayıb harada bitir o hüdudlar? Tutalım, qumar oynamaq özəl həyat sayılır, ya yox?

- Özəl həyat sayılır.

- Alış-veriş, yəni ticarət necə? Qəzet müxbiri olmaq necə?

- Cavab verməyəcəyəm!

- Çünki alışdığın düşüncə qumar oynamağı özəl həyat kimi qəbul edir, ticarət və müxbirliyi isə yox. Halbuki dözüm göstərib azacıq düşünəsən, ticarət və müxbirliyin qumar və bədxərclikdən qat-qat yaxşı olduğunu anlayarsan. Qumarbazlar, bədxərclər istər ayrı-ayrı adamlara, istərsə cəmiyyətə saysız zərər vurur. Bu azara tutulmuş məmur diqqətini, sağlamlığını, gözəlliyini, bacarığını şəhər işlərinə yox, başqa yerlərə xərcləyir, cəmiyyətin işlərinə lazım olan qədər diqqət və saygı göstərmir. Sonra da vəzifəsini gözdən salır, faydalı və ciddi çalışqanlıq yerinə tənbəllik edir, başçısını və xalqı aldatmağa qurşanır.

## AYRICA BİR EVDƏ KEÇİRİLƏN TƏDBİR

Bu da nəzarətsiz və özəl dediyiniz həyatın nəticələri! İşlərini belə adamlara tapşıran və onları nəzarətsiz buraxan bir şəhər xoşbəxt ola bilərmi? Elə istibdad zorakılığına alışqan olan yerlərdə məmurlar özəl həyatı bəhanə gətirərək nəzarətdən azad olur və həmin səbəbdən vəzifələrini yerinə yetirmir, qanunu saymır, mövqeyindən sui-istifadə edir və ölkələrini fəlakətə sürükləyirlər.

**(Davamı gələn sayımızda)**
**Azərbaycan türkcəsinə çevirənlər:**

**Sevda İsmayılova, Zeynal Məmmədli**

# ƏDƏBİYYAT TARİXİMİZİN AYIB YERİ

## KONTRREVOLÜSIONER, KONTRABANTÇI, OĞRU...

**Məmməd Rahimin Mikayıl Müşfiq haqda məqaləsi**

Ədəbi sahə ideologiya cəbhəsində sinfi mübarizənin ən kəskin və mürəkkəb sahəsi olduğundan düşmən buraya soxulmağa və öz fikirlərini yeritməyə çalışır.




M.Müşfiq belələrindən biri idi. Zahirən “səmimi”, “məzlum” görünən əsas mahiyyəti etibarilə isə hiləkar olan Mikayıl Müşfiq çox zaman ifşa olunmaq ərəfəsində “Sovet əsəri” yazaraq özünü gözdən yayındırmışdır. Onun zahirən Sovet, lakin bütün daxili quruluşu etibarilə qəddar kontrrevolüsioner ruh ilə dolu olan bir sıra əsərləri vardır. “Səməndər” əsərində revolüsion rus xalqının Azərbaycan xalqına olan yardım əli, onun səadəti, çiçəklənməsi üçün olan köməyi inkar olunmuşdur.Burada müsavatçıların dediyi od yurdu vardır

ki, o, özünü yalnız bu od yurdunun "Səməndər"i sayır. İki üzlü Mikayıl Müşfiq uzun zaman öz-özünü sədaqət nümayəndəsi kimi tanıtdırmağa can atmışdır.Halbuki, gördüyü işin mahiyyəti etibarilə o, fəlakət carçısından başqa bir şey deyil. O, Azərbaycanın döyüşkən əməkçi xalqını aciz, üzü qara vermişdir. Tarix qabağında isə bu xalq heç də üzüqara olmamışdır. O, əsirlərcə döyüşmüş, isyan etmiş və nəhayət şanlı Aprel revolüsiasını yaradaraq öz həqiqi azadlığını əldə etmişdir. Müşfiq bunu görməyə kordur.



Müşfiq ilk qidasını Türkiyənin aristokrat şairi Hamid və kontrrevlosioner Hüseyn Caviddən almışdır. Onun "Küləklər" kitabçası hər cür meşşan, anarxist və yaramaz qara anti-sovet kontrrevolüsion fikirlər ilə doludur. O, kitabının düşmən əsəri olduğunu gizlətmək üçün "etiraf" yazdı. Bəzi prinsipsiz, liberal, averbaxçı tənqidçilər bu etirafı həqiqi etiraf kimi qələmə verdilər. (Mehdi Hüseyn) tənqid düşməninin bu pərdələməsini görmədi, onu yırtmadı.

Mikayıl Müşfiq maskalanmaq üçün bəzən çox gurultulu məsələdən yapışıb revolüsion temalar arasında gizlənməyə çalışırdı.

O, Leninin obrazını vermək iddiasında bulunurdu, lakin sözdə xalq səadətindən danışan, işdə isə xalq azadlığını satan bu sənət dəllalı ulu Lenini qaniçən cahangir, peyğəmbər Məhəmməd ilə, Budda ilə müqayisə etmişdir. O, dahi Lenin obrazını qəsdən təhrif edir, alçaqcasına öz ideyasını yürüdərək sinfi mübarizəni nifrətlə qarşılayır. İlk baxışda "müsbət" görünən misraların arasında əsas kontrrevolüsion fikrini yürüdür, düşmən ilə aparılan mübarizədə tökülən qanı qardaş və sevgili qanı adlandırır. Lenini düşmənçilliyi yaratmış kimi göstərir.

Böyük Sovet xalqının və dünya proletarlarının ulu rəhbərini, ancaq türkün dastanında gurladığı üçün qəbul edir.

"Küləklər"də Sovet Gürcüstanı "Zagesi"nə qarşı olduqca reaksiyon kontrrevolüsion fikirlər vardır. O, üzərində "Zages" qurulan Kür çayına müraciət edib kim tərəfindən kilidləndiyini, sinəsinə dağ çəkildiyini soruşur. Tbilisi nura boyayan "Zages"-dəki çarxları Kür çayının başına bəla kəsilmiş bir xəncər kimi verir. Kənddə sosializmin simvolu olan traktoru "torpağın köksünü bıçaqlayan", "ulayan nər", "təzə cəllad" kimi göstərir. Öz zəhərli müsavatçı nasionalist kisəsini Türkiyənin hər cür reaksion, mühafizəkar, millətçi şairlərindən dolduran bu reaksioner təbiət qoynunda çəkilən dəmir yollarına amansız fikirlər bəsləyir. O, təzə çəkilən dəmir yollarını "dağların qəddini bükən", "çəlik bağrını sökən", "sinəsinə ayrılıq dağı çəkən" bir

amil kimi göstərir. Halbuki, tənqid belə vicdansızlığa qarşı öz sözünü deməli, onu bolşevik atəşinə tutmalı idi.

Xalq səadətinə düşmən olan bu əclaf, "İnqilab" şeirində proletar revolüsiasını yandırıb yaxan lava, bir vulkan stixiyası kimi təsvir edir. Əcaba bu bir şanlı Oktyabr revolüsiasının xüsusiyyətlərini inkar demək deyilmi? Əcaba bu əməkçi xalqları səadətə çıxaran işçi kəndli revolüsiasına böhtan deyilmi? Əlbəttə böhtandır, əlbəttə söz yox ki, bu əməkçi xalqların azadlıqlarını təmin edən işçi revolüsiasını inkardır.

Müşfiq "Tərtərges nəğmələri" və "Mingəçevir həsrəti" kimi son şeirlərində öz kontrrevolüsion fikirlərini yürütmüşdür. Müşfiqin hayasızlığı oraya gəlib çatmışdır ki, o, Sovet Azərbaycanında heç bir yenilik görməyirdi. "Mingəçevir həsrəti"ndə xəstə canımızın asta-asta öldüyündən bəhs edib cəfəngiyyat söyləyib sovet quruluşuna kontrrevolüsion böhtanlar atır. O, Azərbaycanın azadlığını danmaq üçün Mingəçeviri bir vasitə kimi götürürdü. O, guya Mingəçeviri həsrətlə gözləyirdi. Halbuki bu, hiyləkarcasına olan bir metoddur. Şeirdəki ruh isə Azərbaycanın asta-asta öldüyünü iddiadan başqa bir şey deyildir. Bizə yabancı Müşfiq "Duyğu yarpaqları" şeirində "Bir üzüm qaradır, bir üzüm sarı" deməklə özünün ikiüzlülüyünü yaxşı göstərir.

Həmid kimi qatı pantürkistin şeirlərindən ilham alan düşmən, bəxtiyar ölkəsi üçü fədakarlıq göstərən mübariz neft işçilərini "Canavar" obrazı ilə təsvir edir. Onun doğma dilini bir yana qoyaraq ona böhtan atır. Neft qəhrəmanına saxta bir dil, pantürkistlərin dilini verir. İşçini Türkiyə saraylarının dili ilə danışdırır, "Canavar" şeirində Bakı işçisi danışırkən "məqsəd" əvəzinə "maqsad" deyir. O beləliklə, öz çirkin hiyləsini yürütmək üçün döyüşçü işçi əvəzinə saxta bir obraz yaradaraq oxuculara təhvil verir. Ümumiyyətlə, dildə osmanizmə oryentasiya hiləkar Müşfiqin apardığı siyasətin bir qolu idi.

Pantürkist Müşfiq dildə osmanizmi təbliğ edirdi. O, müstəqil Sovet Azərbaycanının dilini tanımayırdı. O, pantürkist, panislamist bir dil ilə Azərbaycan xalqı dili arasında büllurlaşmağa doğru gedən doğma sovet ədəbiyyatı dili arasında heç bir fərq görməyirdi. O, öz fikirlərini yürütmək üçün "gəliyor", "gediyor"-u rayonlarımızdakı "aleyir", "gəleyir" ilə qarşılaşdıraraq Sovet Azərbaycanı ilə Türkiyə dili arasında heç bir fərq olmadığını iddia edirdi. Onun dildə pantürkist bir siyasət yürütdüyünü göstərmək üçün leksikonundan gətirəcəyimiz bir neçə misal kifayətdir. O, "vətən" deyil, "vatan", "həftə" əvəzinə "hafta", "şəfəq" deyil, "şafaq" işlədirdi.

Müşfiq dili və şeirlərindəki qandrabanda yolu ilə gətirdiyi fikirləri etibarilə bü günə, proletariata sadiq bir şair olmamışdır. O, proletar revölüsiasında əsərləri ilə aktiv iştirak edən Mayakovskiyə nifrət bəslədiyi halda "Mingəçevir həsrəti" və "Şən Tiflis" şeirlərində onun Sergey Yeseninin ölümünə yazdığı şeirindən açıq-aydın oğurluq etməkdən çəkinməyirdi. Mayakovskinin "Yüz əlli milyon" adlı poemasından açıq oğurluq edərək "Zəfər səsləri"ni yazdığı bir faktdır. Mikayıl Müşfiq şeirləri üçün oğurluq ta ilk günlərdən bu günə kimi xarakter bir hal olmuşdur. Aleksandr Zarovun "Qarl Libknext", Utkinin "Veter" şeirlərini oğurlayıb "Qonağım" və "Qarl Libknext" adı ilə çap etdirən bu şeir oğrusu Vasili Qazinin, "Ruçnoy lebed"-ini dəxi "Əl ördəyi" deyə vaxtilə

təb etdirmişdir. Müşfiq sinfi qardaşı Çobanzadədən də oğurlayardı. Onun qatı millətçi "şeirlər" kitabından "Bulutlar"ı oğurlayaraq "Küləklər" kitabçasına köçürmüşdür. Nə üçün o belə edirdi? Çünki o, quruluşumuza sadiq deyildi. Ona görə də sovet tematikasından müstəqil olaraq yaza bilməyirdi. Odur ki, o yandan, bu yandan rus, erməni sovet yazıçılarından, Nəsimidən, Məmməd Akifdən, Baba Tahirdən, Hamiddən və başqalarından çırpışdırırdı. O, əclaf ideyası üçün hər cür qandrabandçılıqdan istifadə etmişdir. Vaxtilə yazdığı kontrrevolüsion "Banditlər" poeması ifşa edilmişdir. O, həmin "Banditlər"i "Dağlar macərası" adı ilə yaxınlarda "Ədəbiyyat qəzeti"ndə çap etdirmişdi. O, bu kimi hərəkətləri ilə Azərbaycanın kulturunu, səadətini əlindən almaq, onu eyni kaloniya salmaq kimi çirkin bir ideyaya xidmət edirdi. Mikayıl Müşfiq kimi satqınlar sinifsiz dünya qurmaq uğrunda mübarizə aparan sovet ədəbiyyatına az əngəl olmamışlar. Artıq onlar ifşa olunmuş, maskaları tamamilə yırtılmışdır. Düşməni amansızcasına ifşa etməkdə prinsipial tənqid hələ çox işlər görməlidir. Tənqid hər cür ziyalı əhvali-ruhiyyəyə atəş açmalı, namuslu sovet yazıçılarının yaradıcılığını yüksək səviyyəyə qaldırmalıdır.

***"Ədəbiyyat" qəzeti, 1 iyul 1937-ci il***

***(Mətn Fatimə Kərimlinin bloqundan alınmışdır.)***

# "YAZI" DƏRGİSİNİN 5 YAŞI TAMAM OLUR: *TƏBRİKLƏR, ARZULAR, TƏKLİFLƏR*

Biləndə ki, "Yazı"nın beş yaşı tamam olur, xəyalım məni həm zaman, həm də məsafə baxımından illərin boğanağında xeyli əvvələ qaytardı və qeyri-ixtiyarı yadıma yel qanadlı illər ifadəsini saldı. Bir bilən ola, biz hara uçuruq? Niyə uçuruq? Allah qoysa nə yazıb-yaratdıq ki, illər dəli ayğırlar kimi beləcə baş alıb gedir? Tanınmış tənqidçi Rəhim Əliyevin Dübəndidəki bağında rəhmətlik Rafik Tağı, Eyvaz Zeynalov, Aslan Quliyev, Azad Qaradərəli, bir də mənim iştirakımla o vaxt, bir yeni jurnal ideyasının təzə-təzə araya-ərsəyə gəldiyi o qeyri-rəsmi görüşlərdə kim zəmanət verə bilərdi ki, "Yazı"nın gələcək taleyi necə olacaq? Xüsusən də indiki xaotik çəkisizlik şəraitində qələmdən kim yarıyıb ki, bir rüblük ədəbiyyat dərgisinin həyat və yaradıcılığımıza da ayrıca bir rəng qata biləcəyinə də əlahiddə bir inamın olaydı? Səhv-düz buna nə o vaxt inanmışdım, tərslikdən nə də indi inanıram. Amma fakt göz qarşısındadı: müxtəlif səbəblərdən yavaş-yavaş hərə bir işin dalınca getdi, yerinə yeniləri gəldi, zəif, ortabab yazılarla bahəm, yurnalda yaxşı yazılar da az olmadı. Əsas odu ki, "Yazı" iməkləyə-iməkləyə ayaq üstə durmağı bacardı, indi yeriyib-yüyürən bir uşaq yaşındadı, bu gün-səhər, inşallah, məktəb yaşına çatır. Məktəb dedim... Bu məktəb o

məktəbdən deyil. Bütün umu-küsülərlə bahəm stədiyim odu ki, "Yazı" bir ədəbi məktəbə dönsün, hamı, bütün ədəbi və elmi ictimaiyyət yalnız ondan danışsın, jurnal ətrafında birləşən qələm dostlarımızın səfi-sırası daha da sıx olsun. Günün birində də eşidək ki, kimsə deyir, "Yazı"da bir roman çıxıb, başqa söz tapmıram deməyə, sadəcə şedevr!...



**Əlabbas**

"Yazı" jurnalını 5 yaşının tamam olması münasibəti ilə təbrik edirəm. Arzu edirəm ki, pozulmaz alın yazısı kimi ömrü əbədi və qətiyyətli olsun. Muğana gəlib yaradıcılığıyla tənha qalan rəssamın əsərlərini işıqlandırdığı kimi, tənhalıqda qalan yazıları, Azərbaycan tarixi üçün yeni səhifə açacaq qədim daş abidələrimizin də işıqlandırılmasını xahiş edirəm.



**Sürəyya Muğanlı**
rəssam

# YADDAŞ

## TOFİQ QƏHRƏMANOV - 70



***"TOFİQ QƏHRƏMANOV ZAMANININ YAZIÇISI İDİ, SÖZÜ DƏ ZAMANINDA DEMİŞDİ"***

*(Yazıçı Tofiq Qəhrəmanovun 70 illiyi münasibəti ilə söhbətdə onun qələm dostları Rahid Ulusel, Tehran Əlişanoğlu və Azad Qaradərəli iştirak ediblər)*

**Azad** – Bu görüşü köhnə dostların görüşü də adlandıra bilərik. Adətən, ən azı dörd, bəzən beş olardıq. İndi seyrəlmişik. Əsas bizi başına toplayası adam – Tofiq Qəhrəmanov vəfat edib. Allah rəhmət eləsin. Bu günkü söhbətimizin mövzusu da elə odur – bizim görkəmli yazıçımız, gözəl dostumuz, üçümüzün də müəllimiz olan Tofiq Qəhrəmanov. Bu il onun 70 yaşı tamam oldu. Nə yazıq ki, bu gün cəmi üç nəfər yığışa bildik... Borxesin esselərini vərəqləyəndə belə bir sözə rast gəldim:"Ölüm mənim üçün böyük ümiddir." Nədi bu? Davam edir Borxes ki, ola bilər öləndən sonra mən görmək istədiyim adamlarla görüşüm və yaxud o fikirdən belə nəticə çıxırdı ki, mən öləndən sonra əsərlərim vasitəsilə görməli admalrala yenidən görüşəcəm...

Borxesin bu sözündən yola çıxsaq, Tofiq Qəhrəmanovun ölümünə ÜMİD kimi baxmaq olarmı? Yəni siz Tofiqi ilk dəfə necə gördünüz və bu gün o Tofiq o ümidin içində varmı?

Tehran – Azad, sən bayaq sıralama saydın, 4, 5, 6 nəfər və sair. Əslində, Tofiqin ətrafında o sayda adamlar həmişə olmuşdu. Həyatda olan ömrüynən hesablasaq, o ölçü ilə 70 yaşı olur. Tofiqin fiziki yoxluğu öz yerində, amma 70 yaş olursa, bu ciddi məsələdir. Mən ilk monoqrafiyamı 60-cılara və bu nəsli mənə tanıtmış Tofiq Qəhrəmanova ithaf etmişəm.

Onunla mən daha erkən tanış olmuşam, yəni orta məktəb illərində Bakıvanov qəsəbəsində Adil İskəndərov adına sarayda ədəbiyyat dərnəyi vardı və o dərnəyə Tofiq Qəhrəmanov rəhbərlik edirdi. Mən də orda öz həqiqi ədəbi müəllimimi tapdım. Bu gün gələndə mən o möhtəşəm sarayın yerində olmadığını gördüm, zaman onu da saxlamadı...

**Azad** – Tehran sənin sözünə qüvvət, bu günlərdə mən köhnə Yuxarı Dağlı küçəsinə getdim, yəni Sovetskinin söküntülərinə baxmaq istəyirdim və Tofiqgilin evinə də baxdım – Yuxarı Dağlı – 87! Pilləkənin alt hissəsi tamam sökülmüşdü, bəlkə indi ev də yoxdur. Yadınızdadırsa, sonralar Yuxarı Dağlını Abdulla Şaiqlə əvəz etdilər, bu addəyişməyə Tofiq dözə bilmirdi. Amma indi Yuxarı Dağlı tamam yer üzündən silinir...

**Tehran** – Hə, o zaman danışırdılar ki, Sovetskini köçürəcəklər, Tofiqi dərd götürmüşdü ki, mən burdan hara gedəcəyəm, necə gedəcəyəm?

**Azad** – Rahid, ilk təmasdan çox şey asılıdır. Deyə bilərəm ki, mənim yazıçı kimi formalaşmağımda bir neçə qələm adamının rolu olub. Birincisi Sabir Əhmədlidirsə, ikincisi Tofiq Qəhrəmanovdur. Bu adam yazıçılığın bütün sirlərini, türklər demiş bütün özətləri ilə xırdalaya bilirdi. Tehranda da bu belədir, yəni onu ədəbiyyata gətirən Tofiqdir. Bəs səndə necə oldu ilk təmas? Yəni Tofiqlə ilk görüşün yadındadır?

**Rahid** – Azad, deyəsən, məni Tofiqlə sən görüşdürmüşdün. Onu bilirəm ki, bizlər o amansız illərdə yollar ayrıcındaydıq. Hara üz tutacağımızı, nə edəcəyimizi bilmirdik. Belə bir vaxtda Tofiqlə bizim görüşümüz taleyin qisməti idi. Mən baxıram sən də, mən də 60-ı ötmüşük. Amma ikimiz də uşaqlıq məsumluğunu qoruya bilmişik. İnan ki, bunda da Tofiqin rolu var – o bizə təmizliyi də aşılaya bildi.

**Azad** – Bu dediyin böyük məsələdir. Yəni bizim üçümüzdə də bu hissin – uşaqlıq hissinin qalmasında daha böyük amillərin təsiri də var: ailə gələnəkləri, kitablar, müxtəlif mədəniyyətlərlə tanışlıq və təbii ki, Tofiqin də təsiri...

**Rahid** – Mədəniyyət demişkən, Tofiq böyük mədəniyyət adamıydı. Biz axtarış mərhləsində olanda, Tofiq bu axtarışın finişində idi və bəxtimiz onda gətirdi ki, o axtarıb tapdığı bir çox bilgiləri, yenilikləri bizimlə xəsislik etmədən bölüşdü. Mən Tofiqlə münasibətimizi iki mərhələyə bölərdim: birinci, şəxsi görüşlərimiz ki, biz əsasən onun evində görüşürdük, ikincisi, onun məktubları. Daha doğrusu, məktublaşmalarımız. Deyim sənə, Tehran, o zaman bizim Azadla, Fərzuqla və elə Tofiqlə məktublaşmalarımız mühüm bir dövrdür. Mən sağlıq olsun, onlara qayıdacam, toplayıb, qaydaya salıb nəşr etdirəcəyəm.

**Azad** – "Yazı"ya göndər, hökmən çap edərik.

**Rahid** – Mən Tofiq haqda bunu hökmən deməliyəm: onun insan kimi də

yeri ayrıydı. Mən rayondan gələndə hökmən qabağıma çay-çörək qoydurardı. Nəyə gücü çatsa, təbii.

**Tehran** – O darısqal otaqda, hər yan kitablar. Vallar... Və Tofiq yemək süfrəsi də açardı...

**Rahid** – Tofiq yazıçı kimi də bizdən öndəydi: nümunə ola bilirdi. Öz məhəlləsinin balaca adamlarının böyük iddialarını maraqlı obrazlarla ədəbiyyata gətirməyi bacarırdı... O mənim klassik musiqiyə marağımı görüb bunu istiqamətləndirməyi bacardı. Tutalım bir bəstəkarın əsərindən danışacaq, valını səsləndirəcək, onu elə izah edərdi ki! Bir söz vardı e...

**Tehran** - Hə, onun dəqiq müşahidəsi vardı...

**Azad** - Çox həssas idi, çox...

**Rahid** – Rimski-Korsakovun bir əsər var, düzü eşitmişdim adını: "İspan kapiriççosu"... Tofiq bir gün soruşdu ki, dinləmisən onu? Dedim yox. Dedi, alə, nə danışırsan, fısqırıqdur, e! Bax, dostlar, həmin o FISQIRIĞA mən bu gün də ləzzətlə qulaq asıram.

**Azad** – Rahid, bayaq sən Tofiqin evinə gələn qonağa qarşı necə qayğıkeşlik elədiyini dedin. Mənimçün çətin də olsa, bunu xatırlayım. Demək, rayonumuz işğal olunandan sonra biz Bakıya gələsi olduq. Bir təhər ailəni yerbəyer edəndən sonra ilk görüşdüyüm adamlar ədəbiyyat adamları oldu: Eldar baxış, Sabir Əhmədli, İsa İsmayılzadə və təbii ki, Tofiq. Mən hər dəfə rayondan gələndə Tofiqgilə bir az meyvə, yaxud bir tut arağı-filan gətirərdim. Amma bu dəfə əliboş



gəlmişdim. Əliboş da deyildim: ürəyimin ağrılarını gətirmişdim onsuz da əzablar içində çabalayan dostuma. Tofiqə çox pis təsir etmişdi rayonumuzun işğalı. O bizim rayonda olmuşdu, Rahidlə, Fərzuqla mənim toyuma gəlmişdi . İndi o yerlərin

**Rahid** - Fısqırıqdı deyərdi...

**Azad** - Alə, fısqırıdur e!..

(gülüşürük)

**Tehran** - Belə bir sözü də vardı: mültəfit oldun?

**Azad** - Mən onun bu ifadələrindən Bakılı adamın obrazını yaradanda yetərincə yararlanıram. Hər iki sözə mənim nəsr yazılarımda rast gələ bilərsiniz.

ermənilər tərəfindən işğal olunmağı ona da ağır təsir edirdi. Amma Tofiqdə bir vəziyyətdən çıxmağı bacarmaq da vardı. Dedi, Azad yadındamı? Sən üç il əvvəl gələndə bir tut arağı gətirmişdin? Bax, o araq durur. Gəl onu içək. İnanmazsınız, məni ağlamaq tutdu və biz iki dost o arağı içdik. Sonra bir val səsləndirdi, Oqinskinin "Polenez" əsərini. Mən bu haqda yazmışam, hardasa, daha təkrarçılıq etmək istəmirəm. İş ondadır ki, Oginski də o əsəri ölkəsindən sürgün olunanda yazmışdı...

**Tehran** – Yadımdadır. Onda mən Tofiqin yanına gəlmişdim, dedi Azadın rayonu işğal olunub, gəlib Bakıya, kömək də edə bilmirəm. Bu darısaqllıqda mən ona necə kömək edim? Rahid də xəstədir, Minskə gedib müalicəyə... Vəziyyət çox pisdir...

Bilirsiniz, bu elə mərhələydi ki, Tofiqin özünün köməyə ciddi ehtiyacı vardı: artıq bilirsiniz gözləri tamam görmürdü. Amma dostlarını düşünürdü... Həm də namizədlik işi yazırdı və mən də artıq universitet tələbəsi nkimi onunla həftədə bir dəfə evlərində görüşürdüm və ona lazimi kitabları oxuyurdum ki, o bunları sistemləşdirib yoldaşına makinada yazmaqçün diktə edə bilsin. O vəziyyətdə o, namizədlik işini də müdafiə etdi, povestlərini də yazdı... Yəni yaradıcılıqdan qalmadı... Həmin günün axşamı biz Tofiqlə hökmən bir mədəni tədbirə gedirdik: ya teatra, ya simfonik konsertə. Ya da adi gəzintiyə... Azad, sən bilirsən ki, Tofiqin zəngin kitabxanası vardı, üstəgəl böyük musiqi vallarından ibarət kolleksiyası vardı. Orda kimlər yoxdu: Çaykovski, Bethoven, Rimski-Korsakov, Bax, Motsart...

**Azad** – Burda bir şeyi hökmən deməliyəm: biz bu danışdıqlarımızı mütləq yazmalıyıq. Özü də oturub gözləməməliyik ki, qocalaq-filan. Mətbu orqan var – "Yazı"nı deyirəm, otur yaz isti-isti. Sonra gec olacaq... Hə, deyirəm, gəlin Tofiqin yaradıcılığına dönək. Axı o hər şeydən əvvəl yazıçı idi.

**Rahid** – Nə yazıq ki, Tofiqin əsərləri ədəbi təhlilə cəlb olunmayıb. Üstəgəl, o həm də usta bir tənqidçi idi. Onun çoxlu sayda tənqidi məqalələri var... Mən kənddə müəllim işləyəndə Bakıdakı nəşrlərdə məqalələrim çıxırdı. O onda mənə məktublar yazır və üsyan edirdi: gözünün tutulmağına dözə bilmirdi.

**Azad** – Hətta o özünün gözdən əlil olmağını heç vaxt qabartmazdı və istəmirdi ki, buna görə ona kiminsə yazığı gəlsin, onun yazılarını buna görə çap eləsinlər və ona qonarar yazsınlar. O qəti bunu qəbul etmirdi. Brodskinin bir misrası var: "Məni unudanlardan bir şəhər salmaq olar." Elə Tofiqi də unudanlardan da bir şəhər salmaq olardı. İlk dəfə tələbəykən Brodskinin, Axmatovanın, Mandelştamın, Pasternakın adını ondan eçitmişəm. Qara Qarayev haqqında onun söhbətlərini, Şostakoviç haqqında əsl həqiqətləri ondan eşitmişəm. Yəni bu dahilər Sovet hökümətini qəbul etmirdilər.

**Rahid** - Ay zalım dost, ay Azad, Tofiqin intiharı, xarakirisi də (bunu mənə sən xəbər verdin!) bir etiraz idi – cəmiyyətə, dövlətə...

**Tehran** - Biz o vaxt "Pres-fakt" qəzetində elə belə də bir esse verdik:"Xarakiri". Tofiqin ölümü həqiqətən bir etiraz idi.

**Azad** - Mən sizinlə söhbətə gələndə Tofiqin əsərlərini bir də vərəqlədim. Bəzi hekayələrində, ilk povestlərində bəlkə də indi zəif görünən yerlər var, amma onun "Qonşular", "Qulbeçə" əsərlərində qoyulan problem, həmin əsərlərindəki ədəbi-bədii gəzişmələr,

xüsusən "Qulbeçə"dəki dekonstruksiyalar müasir nəsrimizin ən uğurlu nümunələridir. Tofiq sanki o yazılarında bir posmodernist kimi çıxış edir...

**Tehran** - Tofiqin özü bütöv həyata və ədəbiyyata tənqidi yanaşardı. O ədəbi prosesi o qədər dərindən bilirdi ki, bəzən bu onun yazmağına mane olurdu. Axı o estet idi və onun yazdıqlarını bilmək üçün onun fərqli yazıçı olduğunu bilmək lazımdır. Bu konteksdən yanaşanda, Tofiqin yazılarında çatışmayan şeylər ola bilər. Bir də, doğru deyirsən, Tofiq "Qulbeçə"də Yuxarı Dağlı ilə "Dədə Qorqud"u çox uğrla dekonstruksiya edə bilmişdi.

**Azad** - "Qonşular"da Bakının stixiyasını yarada bilmişdi.

Tehran - Maqsud İbrahimbəyovda da, Rüstəm İbrahimbəyovda da vardı bunlar. Amma o, obların yazdıqları ilə barışmırdı. Yəni, bu, rusdilli ədəbiyyat idi əslində.

**Rahid** - Şəhər kolariti güclüydü onda.

Azad- Mənim Tofiqə həsr elədiyim bir hekayə var. Amma inanıram ki, bununla bitməyəcək. Mənim iri proza yazıalrımda gah Eldar baxış peyda olur ("Yuxarıda kim var?"), gah Sabir Əhmədov əsərə gəlir obraz kimi ("Kma-Manıç çökəkliyi"), Rafiq Tağı ("Cülyettanın sağ döşünə toxunmaq") obraza çevrilir. İnanıram ki, hansısa bir yazımda Tofiq gələcək romanıma, biz onu obraz kimi görünəcək... Tofiq həm yazıçı kimi, həm ədəbiyyatşünas kimi, həm bir mədəniyyət adamı kimi, həm də cəmiyyətə etiraz edən bir intiharçı yazıçı kimi daxil olacaq ədəbiyyata. Kamyunun bir söz var:"Cəmi bir fəlsəfi anlam var: intihar." Məncə Tofiq Yuxarı Dağlıdakı balaca otağında öz qanı ilə yazdı Yuxarı Dağlı epopeyasının son notlarını.



Tofiq gənclərə əl tutduğu, kömək etdiyi kimi ağır vaxtlarında ona kömək edən iki adamın adını qeyd etməliyəm: bir ustad yazıçımız Əkrəm Əylisli onun əsərlərini "Azərbaycan"da çap elədi, bir də İsmayıl Vəliyev onun kitablarını təmənnasız nəşr elədi.

Mən burdan "Yazı"nın oxucuları adından imkanlı adamlara üz tuturam: bir görkəmli yazıçımızın əsərlərini çap etmək, oxuculara qaytarmaq lazımdır.

Biz Tofiq Qəhrəmanov haqqında danışmağa ilk cəhd etdik. Bu söhbət heç bitməz, tükənməz.

Tofiqin 70 yaşı mübarək olsun

**Rahid**- Tofiq 20-ci əsrin yazıçısı idi, əsərləri 21-ci əsrə də gedəcək. 70 yaşın mübarək, əziz dost!

**Tehran** - Tofiq zamanının yazıçısı idi. Sözünü də zamanında dedi. 70 yaşı mübarək olsun.

**Redaksiyadan:** Dostlar söhbəti bitirdikdən sonra Tofiq Qəhrəmanovun Bülbülə qəbiristanlığındakı məzarını da ziyarət ediblər.

# "YAZI" DƏRGİSİNİN 5 YAŞI TAMAM OLUR: TƏBRİKLƏR, ARZULAR, TƏKLİFLƏR

Bir siyasi quruluşda müstəqil ədəbiyyat dərgiləri nə qədər nəfəs alır, yaşaya bilirsə demək o siyasi quruluşda demokratiyanın dərəcəsi də o qədərdir. Bir zamanlar müstəqil ədəbiyyat dərgilərinin sayı 10-un üzərində idi, indi isə yalnız "Yazı" dərgisi qalıb. Lakin bu dərginin yaşamağı demokratiyanın gücündən deyil, baş redaktorun fədakarlığından qaynaqlanır. "Alatoran"ın yalnız 18 sayı işıq üzü görə bildi, "Yazı" dərgisinin bu cizgini keçməsini arzulayıram.



***Rasim Qaraca***

---

"Yazı" dərgisi ilə 2014-cü ildə tanış olmuşam. Sonradan "Yazı"nın internet sayıtından əvvəlki nömrələri yükləyib oxumuşm. 2014 - cü ilin həmin sayında bir kitab şeir bölməsində Qismətin, nəsr bölməsində bir çox gənc yazarların, həmçinin Əkrəm Əylislinin uzun hekayəsi çap olunmuşdu. Bundan əlavə "Yazı"da xarici ədəbiyyatdan tərcümələr, yerli unudulmuş yazarların və klassiklərin əsərləri də çap olunur. "Yazı"nı digər dərgilərdən, saytlardan fərqləndirən əsas cəhət orjinallığıdır və pafosdan, göz yorucu yazılardan uzaq olmasıdır. İstedadlı gənclərin əsərlərini çap edib oxuculara çatdırmaq da "Yazı" ya xasdır. Elə mən özüm də ilk addımımı burda atmışam.

"Yazı"nın baş redaktoru Azad müəllimin dərginin hazırlanıb çap edilməsində böyük əziyyətləri danılmazdır. Belə bir ədəbiyyat dərgisi analoqsuzdur. "Yazı"ya, yazının baş redaktoru Azad Qaradərəliyə uğurlar arzu edirəm...



***Ruzbeh Məmməd***



# ESSEİSTİKA

## Aldo Pellegrini
## (Argenyina)
## (1903-1973)



## ŞEİR VƏ AXMAQLAR

Şeirin axmaqlar üçün bərk-bərk qıfıllanmış qapısı var, amma di gəl ki, məsumların üzünə axıra qədər açıqdır o qapı. Açarı yaxud qıfılı yoxdur bu qapının, amma ele yaradılıb ki, axmaq ha əlləşsə içəri girə bilməz; məsumunsa kölgəsi görünsə bəsdir, dərhal taybatay üzünə açılacaq. Axmaqlıqla məsumiyyət qədər əks cəbhələrdə dayanan ikinci bir şey yoxdur. Axmağın xarakterik xüsusiyyəti, oturuşmuş avtoritar mühitində yerini tutub mütəmadi öz nüfuzunu göstərməkdir. Məsum isə, ondan fərqli olaraq, belə bir nüfuzdan imtina edir, çünki o güc hər kəsə aiddir.Əlbəttə ən ali poetik sima olan məsumiyyətin ünvanı xalqdır. Xalqın içərisində isə iqtidarın təzyiqinin əzabı altında inləyənlərdir. Məsum, özü xəbərdar olsa da, olmasa da dəyərlər dünyasında (əsas da sevgiylə) hərəkət edir; axmağın isə yeganə dəyəri nüfuzundan istafadə edərək özünə qurduğu bir dünyadır.Axmaqlar gücü hakimiyyətin hər hansı bir sütunanda axtarırlar: əvvəlcə pulda, sonra hökumətin ən yuxarı eşalonundakı bürokratlardan ən xırda, amma çürümüş və iyrənclərin nüfuzuna qədər, kilisənin nüfuzundan, mətbuatın nüfuzuna qədər, bankirlərin nüfuzundan qanunvericilərin nüfuzuna qədər bütün dövlət qurumlarında axtararlar. İqtidarın bu böyük ordusu təbədən-dırnağa şeirə qarşı silahlanıb.Şeir azadlıq deməkdir, həqiqi insanın, özünü ifadə etmək istəyən insanın fəaliyyət növü deməkdir, bunun üçün də heç şübhəsiz axmaqların gözündə böyük görünür. Öz qurduqları bu süni və saxta dəyərlərin hökm etdiyi dünyada axmaqlar göz oxşayan şeylərə ehtiyac duyurlar: bəzək-düzəkli paketlərə, cürbəcür göz qamaşdırıcı əşyalara, ləl-cəvahirata və bunlara bənzətdikləri şeirə. Onların istifadə etdiyi bu şeirdə, söz və obraz dekorativ şeylərə çevrilir və bu halda şeirin özünəməxsus ahəngindən gələn gücü qırılır. Beləcə qarşımıza "rejim şeiri" deyilən şey çıxır; bəzədilmiş şeir, toxunanda cing-cing cingildəyən şeir.Şeirin insanı hərəkətə gətirən qüvvə olduğu açıqca etiraf edilməlidir. O iradəsi qırılıb, kölələşdirilmiş kütlələrə rəhbərlik etmək çağırışına qarşı çıxır, nüfuzunu istifadə edib həyatda mövqe tutanların yanında olmaq çağırışına qarşı çıxar.

Axmaqlar süni və saxta bir dünyada yaşayırlar: digərləri üzərində tətbiq edə bildikləri bir nüfuza söykənərək, içi boş şablonlarla oturtduqları insanca şeylərə əsaslanan həqiqətləri rədd edərlər. Onların dünyası, mənası boşaldılmış, gerçəkliyin xaricinə düşmüş bir dünyadır. Şair sözdə özünü ifadə etməyin yolunu axtarmır, gerçəkliyə qoşulmağın bir yolunu axtarır ancaq. Sözə müraciət edir, amma onda sözün kökündəki o ilk dəyəri axtarır; kəlmənin yaradıldığı andakı, kəlmənin bir məna

ifadəsi deyil, bir başa gerçəkliyin bir parçası olduğu andakı o sehiri axtarır. Şair söz vasitəsiylə gerçəkliyi ifadə etmir, gerçəkliyə qoşulur, onun bir parçası olur.
Şeir qapısının açarı ya da qıfılı yoxdur. O özünü sirli-sehirli ahənginin köməyilə qoruyur. Sadəcə saflaşdırıcı ocağa öyrəşənlər, barmaqları alova toxunan kimi alışanlar, yəni məsumlar bu qapını açıb həqiqətə qoşula bilərlər.
Şeir bu dünyanın sadəcə axmaqların yaşadığı bir yer olmaması üçün mübarizə aparır, şeirin tək məqsədi budur.

# AZAD QARADƏRƏLİ

## BOYUMUZ, HOYUMUZ VƏ AZADLIĞIMIZ

***(Yazıçılarımızın mövqe müharibələri tarixindən 2-ci yazı)***

*Azadlıq üçün səmanı almağa ehtiyac yoxdur. Ruhunuzu satmayın, yetər.`*

***Nelson Mandela***

Mən uzaq bir əyalətdə, indi işğalda olan torpaqda doğulmuşam. Oranın sərt qanunları vardı: keçmişdə olanları nəzərə almasaq, müasir adamlar kiçiyi incidəni, ahıla toxunanı, qadın malına və namusuna tamah salanı, oğrunu, əyrini, söz dəllallarını, söz verib əməl etmiyənləri... ictimai qınağa tutardılar. Bizim kəndə milis son illərdə, ölkənin dağılhadağılında ayaq açmışdı.

Bunları niyə sadaladım? Şəhərə oxumağa gələndə, daha sonra rayonumuz işğal olunan zaman birdəfəlik bu meqapolisə üz tutanda yaşamaq çox çətin oldu mənə. Çünki sadaladığım hallar burda çoxdan aşınmışdı. Hətta bu mənfiliklərlə çörək qazanmaq norma idi. Təbii ki, qələm adamı olduğumdan AYB üzvü olan yazıçılarla oturub-dururdum və gördüklərimdən dəhşətə gəlirdim. Çoxdan burda yaşasalar da, hələ də bu həyat tərzinə alışa bilməyən yazıçılar vardı ki, indiki 80-ni keçənlər kimi üzlərinə sala bilmədilər. Tez, abırlı köçdülər bu abırını çoxdan itirmiş həyatdan. Eldar Baxış, Ağamalı Sadiq Əfəndi, Fərman Kərimzadə, İsa İsmayılzadə, Hüseyn Əfəndi...




Bu yaxınlarda “Qapı” adlı hekayə yazmışdım. Bir neçə saytda yayımlandı. (http://kulis.lent.az/news/15801) Mövzu beləydi ki, boyu qısa olduğu üçün oğlanı inzibati orqanlara, hətta yanğınsöndürmə işinə də almırlar. Nəsillikcə boyları qısa olduğu üçün atası oğluna tikdiyi evin qapısını da qısa eləyir, düşünmür ki, onların da boyu haçansa çıxa bilər. Evin həyət qapısını isə ensiz edir – gümanı yoxdur ki, bu həyətə haçansa maşın girər...

Bunlar niyə xatırladım? Biz özümüzdə hələ rüşeyim halında olandan bir məsələni inandırmışıq: bizə demokratiya yaddır (“Kimsə ideal demokratiya istəyir, mən ideal

demokratiyanın bir Şərq ölkəsində arzuolunmaz fəsadlar verəcəyinə əminəm.” - Salam Sarvan), ədibsəsnsə, müxalif düşncənin deyil, hökümətin yanında olmalısan, Nobel və digər ödüllər deyil, Prezident təqaüdçüsü olmalısan, dünyada tanınan deyil, xalq şairi olmalısan. (“Mənə deyənlər var ki, sən YAP-a keçib “xalq şairi” olacaqsan, vəzifə alacaqsan ...” - Salam Sarvan)

Niyə sitatları Salam Sarvandan gətirdim? İş ondadır ki, çox az kontaktda olduğum, bəlkə də olmadığım bu qələm adamı Azərbaycanda ümidlə baxdığımız şairlərdəndir və Salamın potensialı imkan verirdi ki, bir az da cəhd eləsə Azərbaycanı dünyada təmsil edə bilər. Nə yazıq ki, dünya bizdən əlini çoxdan üzüb. Amma biz hələ də ümidlə yaşayırıq. Di gəl ki, Salamlar o az-maz ümidi də dəfn-kəfənlə məşquldurlar və adamın az-maz işaran o ümidə də yazığı gəlir.

Salamı mən 15-16 il əvvəl bir neçə dostun əhatəsində görmüşdüm və yuxarıda dediyim o kənd xasiyyətindən qopa bilməyərək ona sual vermişdim dostların içərisində:”Sən bir istedadlı adamsan, zərif poeziyan var, bəs o partiyada necə duruş gətirirsən, hətta müavin olursan?” Salam onda mənə bir söz deməyib qeyzlə üzünü çevirib getmişdi. Hətta məkan da yadımdadır: Sahil bağının yanları, YAP-ın binasının həndəvəriydi...

İkinci rəsmi qarşılaşmamız Bakı Slavyan Universitetindəki Yaradıcılıq Fakültəsində olub. Bu haqda bir dəfə yazmışam. Təkrarçılıq etməyəcəm. Sadəcə Salam bəy orada özünü çox mərdanə aparmışdı. (O, həmin fakültənin dekanı idi və məndə olan məlumata görə kimlərsə ona məlumat vermişdi ki, mən burada dərs deyəndə çox məsələlərdən danışıram, çox özünü böyük sayan yazıçıların kiçik tərflərindən söz açıram və həkaza. O da gəldi bizim dərsə və mənimlə dost kimi öpüşüb-görüşüb uğur arzulayıb çıxıb getdi.)

Üçüncü görüşümüzü gələcək memuar yazılarıma saxlamışdım. Amma daha memuardan keçib, yeri gəldi, gərək yazam. Gənc və istedadlı yazıçı Kəramətin toyu idi. Biz Əkrəm Əylisli ilə bir tərəfdə oturmuşduq. Başqa bir tərəfdə isə Kamal Abdulla ilə başqa dəstə və Salam Sarvan oturmuşdu. Salam bizə heç gözü ilə də salam vermədi və yaxşı da elədi. Orada bizimlə görüşməmək üçün məclisdən yarımçıq qaçanlar da oldu və yaxşı da etdilər. Sonra biz bayırda əyləşib pivə içəndə Əkrəm Əylisli dedi ki, mən Salamı görmək istəyirəm. Mən dedim, lazım deyil, içmişik, o da içkilidir, çıxaq gedək. Olmadı, çağırtdırdı, insafən, o da gəlib bizimlə səmimi görüşdü. Amma Əkrəm müəllimin ona nə deyəcəyinə hazırmış kimi Salam kişini alıb getdi. (Söhbət AYB-dan, Kamal Abdulladan və bunları hər ikisinin Salam kimi çox istedadlı bir adamın yaradıcılığına vuracağı zərbədən gedirdi.) Hətta olmayan sözlər də danışdı. Bəlkə də indi onları xatırlamaz. Hətta beləcə dedi:”Kamal müəllim mənə çörək verir, mənə iş verir, arxa, dayaq olur. Siz mənə nə verirsiniz?!” Və ağır sözlər...

O hadisədən heç üç-dörd ay keçməmiş bilirsiniz nələr oldu? Salam Sarvan AYB-dan istefa verdi. Daha nələr? Salam Sarvan BSU-dan getdi. Kamal Abdullaya facebookda cavabsız suallar ünvanladı. Məsələn, o suallardan bir neçəsi beləydi: “Kamal Abdulla onu sevənləri daxilən anlamırsa, daxili quruluşu sevgiyə hesablanmayıbsa, necə deyərlər, mütəhərrik problemi varsa, nə tədbir görərdin? Təsəvvür elə, Kamal Abdullanı qorumaq naminə hətta

işlədiyin saytda ona yönəlik tənqidi kəsib tökəndən, camaatnan üz-göz olandan sonra adamda bir sifət cizgisi qədərində dəyişiklik olmursa, vicdan əzabının qalıqlarıynan nə edərdin?.. Birdən bilsən ki, xəncəri köksündən sancıblar, nə edərdin?

Birdən bilsən ki, bu böyük sənətkar sənin üstünə qorxu və mənafe üstündə qurulimiş "ordusunu" da göndərməkdən çəkinməz, geri çəkilərdinmi?.."

Bu gün Salam Sarvan deyir ki, YAP-a keçmək istəyir. Şəxsən mən təəccüblənmədim. Niyə? Ona görə ki, adamın niyəti siftədən bəlliydi. Özü demişkən, Ana vətən partiyasında olmaq, YAP-da olmağın eyni deyilmi?

Salam Sarvandan neçə vaxt idi "Yazı" dərgisi üçün şeirlərini verməsini istəyirdim. Vermirdi. Bu dəfə 50 illiyi ərəfəsində isə yazmışdı ki, Azad müəllim, göndərəcəyəm. Yenə göndərmədi. Qarşısına azad ədəbiyyat yaratmaq əhdi qoyan bir dərgidə azad olmayan adamın imzası necə görünsün ki?

Amma səhv eləmirəmsə, Salamın boy problemi olmamalıdır. İstədiyi yerdə boy göstərə bilir. Bu BOY o boydan deyilsə də. Boy haqqında xalqımızın gözəl kəlamları var...

S.A.(Söz ardı)

Məncə məsələ aydınlaşdı: Adam Ora özünə sipər yaratmaq üçün gedir. Üstünə göndərilən "ordu"nu önləmək üçün gedir. "Xalq şairi", təqaüd, deputatlıq özü gələcək sonra.

Birinci yazımda demişdim: yazıçılarımızın mövqe döyüşləri davam edir.

Məşhur romanımızda deyildiyi kimi: şairi şairin başını istəyən ölkəinin vətəndaşlarıyıq biz. Qazavatınız qutlu olsun!

# Niyazi Mehdi



Bu yazı aspirantura illərindən indiyənəcən yazdığım kitab və məqalələrin yaklaşıq 70-80%-dən seçmələrdir. Hər yazının ana ideyası olur. Mən də belə ideyaları seçmişəm. Ona görə də sanki yaradıcılıq hesabatıdır.

Sayğılı oxucu, ideyaların tarixinə baxmağı unutmayın, bunun da önəmi var. Düzdür, bəzi tarixlər dəqiq deyil, təxminən yadıma düşənlərdir. Ancaq təxminən yadıma saldıqlarımın çoxu güman daha əvvəllər yazılıb.

## Boyatımamış düşüncələr

**(Yeni nəslə demədiklərimdən)**

***1. Metfizika və bilimlə bağlı***
***2. Mədəniyyət və antropologiya ilə bağlı***
***3. Demokratiya və toplum***
***4. Estetika və sənətlə bağlı.***
***5. Dil və sözlərlə bağlı***
***6. Dinlə bağlı***

## 1. Metfizika və bilimlə bağlı

### Düşünmənin düsturu (1980-ci il)

Bilmək, yəni idrak nədir? Nəzəriyyə, fərziyyə qurmaq nədir? Geniş götürsək, düşünmək nədir? Düşünmək, - bunu A.F. Losev Aristotelə söykənərək demişdi, - nələrisə ayırmaq, nələrisə birləşdirməkdir. Beləcə, düşünmək eyniliyi və ya fərqi tapmaqdır. Örnəyin, sən Humbolda söykənib deyirsən ki, dil erqon (eyləmin məhsulu) deyil. Deməli, dili erqondan ayırırsan, uzaqlaşdırırsan. Sonra bildirirsən ki, dil enerjidir, deməli, onu bu axırıncı ilə birləşdirirsən. Bütün bunları tapanda səndən dişarıda duran bilgi sənin içinə düşür, yəni öncə səndə olmayan dilin energetikliyi haqqında bilgi sənin bilincinin (şüurunun) içinə düşür («başına düşmək» deyimindən törəmiş «başa düşmək» dedisi bundandır).

Mənim Losevə əlavəm: əgər sən hamının eyniləşdirdiyini birləşdirirsənsə , bu, heç kimə ilginc olmur. Çünki informativ olmur, yəni yenilik gətirmir. Əgər tapdığın ağlagəlməz eynilik və ya fərqdirsə, onda tapdığın «tapıntı» olur. Məcnunun dünyası belə tapıntılarla doluydu. Örnəyin, o, yarının xalını Kəbə ilə eyniləşdirəndə tapıntı etmişdi. Qeys ona görə ağlagəlməz idi, ona görə də məcnun sayılırdı.

### Cəmiyyətlə bağlımatrialist baxışlara bire tiraz (1986-ci il)

Məşhur marksist materialist ideya bu idiki, toplumun maddi əsası, maddi münasibətləri və bütünlükdə, bazisi üst qurum hadisələrinin (sənətin, əxlaqın, hüququn, fəlsəfənin) xarakterini təyin edir. Məncə,bu müddəa yoxsul toplumlarda işləyir. Bolluq cəmiyyətində bazisin təyinedici gücü xeyli zəifləyir.
Eyni halı insanla bağıl görməkolar. Kasıb adamı maddi tələbatları vasitəsiilə idarəetmək xeyli asandır. İnsan maddit gərəklərin məngənəsindən qurtulanda, yən iazadlaşanda onu maddi stimullarlai darəetmək, səbəb/nəticə "ssenarisinə" salmaq xeyli çətinləşir.

### Spekulyativ düşünüşün əyri strukturlarla gedişi (1986-cu il)

Fəlsəfi düşünüşdə spekulyativliyin artması nəsnələr, olaylar arasında qavrayışa bilinən birbaşa yollardan yayınıb ruh-düşüncə alanında dörd yana səyahətə çıxmaqdır. Spekylyativ metodun tapıntı yapmaq effekti ondadır ki, davamlı olaraq düz yoldan azmağı, əyrilərə düşüb uzaqlarda dolaşmağı yamsılamaqla özəl bir psixoloji, mental durum yaradır. Sonra isə qəfildən empirik fakta həmlə edib qayıtmaqla azmasının aldanış (illüzyor) olduğunu göstərir. Bu, spekulyativ fəlsəfəni qavrayanda baş verən estetik effektdir. Gözlənilmədən alınmanın, qəfildən aydınlaşlaşmanın, qaranlıqdan nurun təcəlli etməsinin estetikasıdır. Koqnitiv planda isə spekulyativ düşunüş hər empirik faktın birbaşa bəllilyi arxasında əyri cizgilərdə dünyaya səyahətin oluşmasını göstərir. Gerçekliyin hər olayı mürəkkəb əyrilərdə oluşmanın sonucudur, əyri yollardan gələn axarların qovşağıdır. Spekulyativ düşünüş o axarlardan fakta qayıdır. Orada-burada gəzişib yığa-yığa və qəfildən yığdıqlarını fakta yükləməklə empiriyaya qayıdır.

Fəlsəfə azmış fikri gəzintiyə çıxmış fikrə çevirməkdir.

Gündəlik bilinc (şüur) daha çox düz cızıq prinsipinin bələdçilyi ilə gedir. Düz cızızqdaə isə ritm, dəyişgənlik minimumdur. Ona görə də, darıxqanlığın meydanı gündəlik bilinclərdir. Darıxqanlıqdan qurtulmaq üçünsə gündəlik şüur faktların fakturasına özünü buraxır. Yeməyi necə bişirməsindən, xəstələnəndə harasının necə ağrımasından danışa-danışa faktların ritmi ilə ritmsizliyindən qurtulmağa çalışır».

## Fəlsəfə dərsliklərinin eyibi (1989-cu il)

Fəlsəfənin ən böyük faydalarından biri düşüncə parıltıları yaratmaqdır, insanı gözlənməz düşüncələr qarşısında mat qoymaqdır. Fəlsəfə ilginc düşüncələr dünyası və mühiti yaratmalıdır. Fəlsəfə dərsliklərinin ən böyük çatışmazlığı bunu pis göstərmələridir.

## İdeyalar üçün işlənmənin qorxusu və faydası (1989-cu il)

Mədəniyyət hər an özünü əmələ gətirməli, təkrarlamalıdır. Bu isə təkcə yeni nəsnələr tapmaq deyil, həm də öncələr tapılmışları indiyə çağırmaqdır.

İdeyalar var ki, işləndikcə aşınır. Daha doğrusu, hansısa ideya birmənalı ciddiliklə, yeni imkanları açmadan işlənirsə, bürokratik dövriyyədə olursa, aşınır, bayağılaşır, gücünü itirib-ölür. İdeya işlənməmiş yatıb qalanda da canını itirir (hərçənd sonra onu diriltmək olur). İdeya mədəniyyətdə bəzəksiz-düzəksiz gerçək həyatla yaşayıb işlədiləndə məzmunca azalmır, artıb-çoxalır. Çünki min başqa ideya və məsələlərlə onun əlaqəsi tapılır, hər əlaqə isə onun məzmununa bir toxuma vurur. Mənim bu dediyim Nəsirddin Tusiyə bir əlavədir. O isə söyləmişdi: maddi dəyərlər işləndikcə azalır. Mənəvi dəyərlərsə artır (deyəsən, oxşar deyim Avropada da olub)

## Axmaqlığın positivləri (1989-cu il)

Çin filosofu Lao-szı söyləmişdi ki, ən böyük natiqlik pəltəkliyə, ən böyük müdriklik axmaqlığa bənzəyir. Özünü axmaqlığa qoyan bilgələr (müdriklər) Batıda da olub, Doğuda da. Sokratda, çəlləkdə yaşayan Diogendə axmaqlıqla oynayan xeyli deyimlər var. Roterdamlı Erazmın «Axmaqlığa öygü» əsəri Avropanın Ortaçağdan qopmasına öz payını vermişdi. Molla Nərəddinin xeyli lətifəsi axmaqlıq fəlsəfəsinin üstündə qurulub. Eləcə də bektaşi əhvalatları.

## Ölüm düşüncələri (1989-cu il)

«Ölüm» sözünün bildirdikləri onun mənalarıdırsa, bu mənaların «matryoşka» biçimində bildirdikləri var və beləcə, «ölüm» semantik budaqlar verə bilir. Bolluq da bundandır.

Ölümün xofudur, ölümdən qorxudur, ölmək istəməmkdir insanı təhükələr qarşısında cılız edən. Eləcə də ölümdən qorxudur insanı qorxaq edən, çünki bütün qorxduqlarında ya qəfil ölümün, ya da qırnıq-qırnıq ölümün hədəsi var. Uyğun olaraq bütün yaramazlıqlar da, örnəyin, xəyanət, satqınlıq, ikiüzlülük qorxaq olanda sənə yol tapır. Bir çox yaramazlıqları, bir çox alçaqlıqları biz ləzzət əldə etmək üçün, örnəyin, yaxşı yemək, yaxşı geyim üçün edirik. Ləzzətə, hedonizmə belə bayğın olmağımızınsa kökündə o durur ki, biz bilincsiz olaraq ləzzəti ölümün alternativi və ya ölümə əngəl, ölümdən əlac sayırıq: ləzzət alıramsa, deməli, yaşayıram!

Yaşamaq nədir? Duyğulara tutulmaqdır. Özü də yaxşı olar ki,bu duyğular gözəl qoxuların, dadların oyatdıqları olsunlar. Yaşamaq başqa nədir? Yaşantılarda bulunmaqdır, özü də yaxşı olar ki, onlar sevincdə, rahatlıqda, həvəsdə, təpərdə bulunmaq olsun. Psixi və fiziki durumu normallıq oxunun çevrəsində fırlanan insanlarda yaşamaları yaşamağın bu göstəricilərinə tez-tez cavab verir, ancaq onlarda da qorxu, kədər, bədbəxt olayların doğurduğu hallar yaşam sürəsini punktirləşdirir. Yaşamaq, yaşayış və yaşam öz anlamına görə sürüb getməklə ekizləşir. Əslində isə aramsızlıq, kontinuallıq prinsipində yaşam olmur. Yaşam həmişə ölümün türlü transformasiyaları ilə punktirləşir, diskretləşir. Bu durumda ölümə qalib gəlmək və onun yaşamı punktirləşdirməsindən doğan mənasızlıqları qovmaq üçün insan türlü deyimlər ixtira edir: «həyatın qara üzü də var», «gecədən sonra gündüz gəlir» və s. Bütün bu siklik fırlantı diskursları ölümün yaşama gətirdiyi mənasızlıqları aradan götürmək üçündür.

İnsanlar hərəsi öz bacarığına, bulunduğu mədəniyyətin verdiyi araclara, kimlərlə dostluq etməsinə və daha min nəyəsə görə yaşamı diskretləşməyə, punktirləşməyə qoymamağa çalışırlar. Biri böhrana, ümidsizliyə düşəndə bu durumu sabahkı canlanmağa hazırlıq pilləsinə çevirib mənalandırır. O birisi başını qatmaq üçün futbola baxır.

«Pirlərə ölmək bayramdır» («Oğuznamə»). Bu sufisayağı deyim «ölüm»ə elə anlamlar verir ki, onlar bütün dərdlərə əlac olsunlar: pirlər ölümdən qorxmurlarsa, dünyada heç nədən qorxmurlar. Pirlər ölümdən nəinki qorxmurlar, hətta irəlicədən bilirlərsə ki, ölüm ayağı onlar üçün bayram olacaq, bütün başqa sevinclərdən, ləzzətlərdən ölümü daha üstün bayram etməklə ucaya qalxırlar. Deməli, İslam aşiqləri bu eşqlərinin gücü ilə ölümün doğurduğu mənasızlıqlara qalib gəlirlər.

### Allahın varlığına sübut axtarışlarından (1989-cu il)

Dünyada hər nəsnəni etmək olar. Möcüzənin özülü dünyada var. Örnəyin, nəzəri olaraq insanı uzaqlara şəkil kimi yollamaq olar. Sadəcə, bunun üçün insanı elektron siqnallarına çevirib sonra özünə qaytarmağın bütün keçidləri mənimsənilməlidir. Eləcə də «Allah var» cümləsini doğrultmaq olar: əgər Allahı Allah edən özəlliklərin hamısı varlıqda mümkündürsə, Allah da var.

### Allah haqqında anti-eynilik düsturu (1989-cu il)

Allah hər yerdədir, sadəcə, hər yerdə bir cür deyil, hər yerdə bircürlüyü verir.

### Bizimlə ilgili metafizik soru (1989-cu il)

Bəlkə biz Tanrının düşüncələri, xəyallarıyıq?

(Sonradan Kafkanın deyimini oxudum: Biz Tanrının nihilist düşüncələriyik).

### Bizim və fərdi dünyamızın monada olması (2006-cı il)

Bu dünyada hər nəsnə dolayılığa məhkumdur. Bütün çağlarda ilkin, düzünə, yəni düzünəqulu heç nə yoxdur. Hər nəsnə dolayıdır,

dolayılıqdadır. Biz, örnəyin, nəyisə görürüksə, onunla bizim aramızda gözümüzdəki sinirlərin siqnalları durur. Eləcə də eşitdiklərimiz ən azı havanın titrəntiləri ilə dolayılaşıb. Hətta dilimizdəki dad da birbaşa deyil. Bu baxımdan dünyada heç bir nəsnə o birisinə birbaşa verilməyib, birbaşa çıxmır. Arada siqnallar, molekullalar, dalğalar var, deməli, dolayılığa gətirən körpülər var. Yalnız Tanrıdır dolayılığa məhkum olmayan. Bəsirət, əslində, Tanrı ilə bağlı onu bildirir ki, bütün başqa varlıqlardan fərqli olaraq O birbaşa görür, birbaşa bilir.

Mənim bu dediklərimdən Laybnitsin monada öyrətisinin hikməti açılır. Alman filosofu, yanılmıramsa, hər nəsnənin monada büküyündə olmasını dolayılığa məhkumluğundan çıxartmırdı. Ancaq indi biz Laybnitsin hər nəsnənin monada olması haqqında qəribə öyrətisinin hikmətini aça bilərik. Hər nəsnə ona görə monadadır ki, başqası ilə onun arasında dolayılığın körpüləri var, ona görə də başqasına birbaşa pəncərəsi, qapısı yoxdur.

Beləliklə, bizim hər birimiz monadayıq. Hərçənd görməyimizin, duymağımızın, bilməyimizin dolayılığını unutduğumuz üçün aldanışda yaşayırıq ki, dörd yana açığıq və dörd yandan içimizə birbaşa soraqlar, bilgilər axır.

Burdan mədəniyyətlərin bir-birinə qapalı olması ideyasına da çıxmaq olar: onlar bir-birinə dolayı bilinirlər, ona görə də birbaşa açıq deyillər.

## Dində Allah və fəlsəfədə Tanrı (2006-cı il)

A.F.Losevin monoteist dinlərdə Tanrının şəxsiyyət biçimində verilməsi düşüncəsini axır ki, anladım. Tək Tanrı ideyası Platonda da vardı (Yaxşı kimi), Plotin də (Təkcə kimi). Ancaq onlarda bu, sırf fəlsəfi anlayışlar idi, duyğusallaşmamışdı və insanın psixolojisinə doğmalaşdırılmamışdı. Dünya və Tanrı ilişgisi fəlsəfi dildə açılan ilişgilərdə verilirdi. İudaizmdə isə Tanrı başlayır insanın anladığı duyğusallıqda və metaforalarda özünü anlatmağa. Tanrı belə danışanda qaçılmaz olaraq personlaşır.

Tanrı əgər Qurani-kərimi insana nazil etmək düşüncəsinə gəlirsə, personlaşmalıdır ki, insanın qandığı düşüncələr və duyğular dilində danışsın ki, bu kitabın müəllifi ola bilsin.

Bu baxımdan Xristianlıq həmin personlaşmanın aşırı variantıdır.

## Yaş artdıqca...(2006-cı il)

Yaşım artdıqca dörd yanımın gözümdən düşməsi ilə bağlı düşündüm: kim sənə deyib ki, Allah yaşın artdıqca sənin psixologiyanı asanlaşdırmalıdır və ya dünyanı sənin üçün asanlaşdırmalıdır?!

## Sonsuzluq üzrə bir aforizm (2006-cı il)

Hər nəsnənin dərinliyi onun içində yox, qıraqdakı uzaqlarda gizlənib. Beləcə, hər nəsnənin içi qıraqda gizlənib.

## Qutun özəlliyi (2007-ci il)

Mexanikanın prinsipini və qutun, ruhun prinsipini tutuşduraq. Sürət mexanikanın prinsipidir. Ancaq əgər bizim bilincimiz də sürətdən dişarıda deyilsə, deməli, mexanikanın prinsipinə tabedir (ona görə də Froyd kimiləri

bilinci qutun döyənəkdən kobudlaşmış qabığına bənzədirlər). Yaxınlaşdırmaq/uzaqlaşdırmaq, asanlıq/çətinlik və s., hamısı mexanikanın prinsipləridir və onlar şüurda da iştirak edirlər.

Bəs, qutun prinsipləri hansılardır? Birin bölünmədən çoxlu nöqtədə bulunması: ruhumuz «bizim maddi və mənəvi genişliyimizdə» kəlağayı, kilim kimi kəsimləri ilə yayılmayıb. Bizim hər nöqtəmizdə qutumuz bir olaraq, bölünmədən bulunur. Əslində, Tanrı da maddi varlığın hər nöqtəsində belə bulunur.

Qutunprinsipihaqqındabəssonranədemə kolar? Qutdakıheçnədəarxanın, önün, yanınolmaması. Şüurdapeydaolanlarınnəsnələrkimiarxası, yanı, önüvar – biznəyisədüşünəndəonundüşündüyümüztərəfiönkimi «bizə» çevrilir. Ancaqşürumuzunadakimibulunduğuruh ümmanındaheçbirüz, yan, arxayoxdur, onagörədəoradaheçbirnəsnənöqtə, fraqmentkimiseçilmir.

## Dialektikanı necə qaytarmalı (2008-ci il)

Mən leninizmə görə dialektikadan eymənmişəm, halbuki dialektika öz paradoksları ilə mənə daha yaxındır. Bəs, necə dialektikanı yenidən özümə qaytarım? Düşündüm ki, hegelçi-marksist dialektikadan total gəlişmə ideyasını çıxandan sonra, onu Tanrı sonsuzluğunun paradoksları kontekstinə salıb non-liniarlıqla bağlayanda mənə uyğun dialektika alınar.

## Tanrı və heçnə (2010-cu il)

Allah cürbəcürlük olmayan durumda heçnədir, o anlamda ki, Onda heç nə yoxdur. Bu yerdə nə gözəldi «Oğuznamə»dən söz: - «Yoqdan Tanrı da bezər».

Tanrı heç nə olmamaq üçün nəsə olmalıdır. Nəsə olmaq üçün içində cürbəcürlüklər yaratmalıdır. Cürbəcürlüksə elədir ki, konfliktlər baş verir, olaylar arasında uzlaşmamazlıq və ya uzlaşma yaranır. Bizim dünya ilə bağlı ədalətsizliyə hiddət də bundandır.

Bəs o biri dünyada cürbəcürlük məsələsi necə çözülür? Cürbəcürlük bir qutun, -bədənsiz qutun içində olanda, bədənsiz qutlar arasında olanda bizim dünyamızdakı konfliktlərə xas olan qrammatikaya, yəni düzümə gətirib çıxarmır. Bəs bədəndə nə var ki, cürbəcürlüyü başqa cür, yəni savaşlı, nifrətli, dalaşqan edir?

Bəs qutda cürbəcürlük elədirsə, Allah niyə Aristotelin Nus-u prinsipində Özündə cürbəcürlük yaradıb bununla heçlikdən çıxmaqla yetərlənməmişdi?

## Tanrı və yeni elmi paradiqmalar (2012-ci il)

Mənim imanımı o üzür ki, Tanrı problemini Evklid həndəsəsi, Nyuton fizikası məntiqi ilə düşünürük. Hərçənd təsəvvüf sinergetikaya, Eynşteyn fizikasına oxşar ideyalar ortaya atıb. Sözsüz, Tanrı hər variantlardadırsa, antropomorfik variantlarda da var. Ancaq bu variantlardan o biri modellərə çox çətindir çıxmaq, çıxanda da imana şübhələr səpələnir.

İndi astranomiyada dartışdırılan qara materiya, qara enerji din üçün nə deməkdir? Bəlkə İblislə Allahın birgəliyini açmağa kömək edər, bəlkə,

Tanrının necə qara enerji biçimində etgisini, yapmasını göstərə bilər?

## Tanrının sözə qulaq tutub düşünülməsinə örnək (2012-ci il)

Tanrını «yerləşmək» sözünün əsasında düşündüm. Tanrı hər nəsnənin, bütünlükdə varlığın substansiyasıdırsa, - panteizm bunu başqa cür deyir, - sual çıxır: biz Tanrıda substansiyada yerləşmək kimi yerləşirik, yoxsa, necə?Yəni biz Tanrıda yerləşiriksə, bizdə Onda yerləşməyən nəsə var? Varsa, nədir? Bəlkə, bizim başqalığımız? Bu başqalıq bəlkə Tanrının əbədiyyatından zaman kimi qopmağımızdır? Qopmaqdakı durumumuz illüzordur, ya nədir? Qopmağımız bir də nəsə Tanrı olmayana doğru olmalıdır. Bu mümkündürmü? Tanrı əbədiyyata bir anın içinə yığılmış gələcək, indi, keçmiş kimidirsə və bu Anın zaman strukturunda təsəvvürü illüziyalar yaradırsa, bu illüziyalar kimin üçündür, illüziya olan bizlərin illüziyasıdır (lap yuxuda yuxu görmək kimi)? Bütün bu hal Tanrının nəyinə lazımdır? Yoxsa, Qurandan da göründüyü kimi, Tanrı eyləmdədirsə, bütün bu anlaşmazlıqlar, paradokslar yaranmalıdır? Yəni O öz içində xırdalıqların strukturlaşmasından doğan Tanrı-olmayanlar qaynaşmasında bulunmalıdır?

Tanrı ilə lgili təhlükəli soru (2012-ci il)

Səhər bir teoloji düşüncə məni sarsıtdı. Bəyəm ola bilməz ki, Allah var, ancaq insanlar öləndə izsiz-tozsuz yoxluğa çevrilirlər? Axı, dünyanı yaratmamışdan qabaq bu insan yoxluğu vardı. Allahın rəhman olmasının hikməti bu qorxunc ideyaya qarşıdır. İdeya isə ona görə qorxuncdur ki, Allahı quruca tanımaqdan, varlığını qəbul etməkdən başqa yerdə heç nə qoymur. Bir düşünün, Cənnət, o biri dünyada varlığı davam etdirmək yoxdursa, özü də bu yoxluq Allahın varlığı ilə heç bir uyğunsuzluq yaratmırsa, dindən nə qədər önəmli düşüncələr və duyğular gedir.

Düzdür, bir soru qalır: onda nədən Allah bu dünyaya və insanın müvəqqəti varlığına razı olub?

## Hermenevtika və Stanislavski (2014-cü il)

Bir mistik traktatda «hermenevtika» «hermetik» (tam qapalı) sözü ilə bağladılır. Ancaq bunu dananlar çoxdur. Göydən soraq gətirən Hermesin adı ilə bağlamaq daha ağlabatandır. Axı, o həm də yazı gətirmiş Tanrıdır. Hermenevtikanın normal açımı yozmaq, təfsir etməkdir. Yəni nəyinsə gizli mənalarını açmaqdır. 18-ci yüzildən indiyənəcən Şleyermaher, Diltey, Qadamer öyrənməyi anlamaqdan ayırmışdılar: tarixi olayları bilmək üçün özündən çıxıb o olayları yapanların cildinə girməlisən ki, içəridən başa düşəsən. Bu yerdə heç kimin bilmədiyi bir nəsnəni deyim: Stanislavskinin «aktyor tam personajın cildinə girməlidir» ideyası hermenevtik fəlsəfə və estetikanın davamıdır.

İndi isə Azərbaycan dünyasının hermenevtikası ilə ilgili başlıca ifşa və ittiham: 2000-ci ildən bu yana Sovet keçmişinin Rəsul Rza, Səməd Vurğun, Anar, Vaqif Səmədoğlu, Ramiz Rövşən kimi yazarlarının əsərlərinə ironik, mərhəmətsiz yanaşma milli post-

modernizmin esteikasına çevrildi. Hərçənd əsl post-modernist estetika həmin yazarların dünyası və yazıları ilə estetik oyuna girməliydi. Bizə və bizdən gənc olanlara hermenevtik baxış çatışmır ki, bilək: özüm Anarın, Vaqif Səmədoğlunun, Rmiz Rövşənin dövründə və yerinldə olsaydvm nə və necə yazardım?!

## 2. Mədəniyyət və antropologiya ilə bağlı.

### İnsan xarakteri (1974-cü il)

İnsanı biz xarakter, xasiyyət kateqoriyalarının etgisi altında çox dəyişməz portretdə görürük və belə də düşünüb pastualşdırırıq. Əslində isə o, düşdüyü situasiyanın koordinatlarında müvəqəti portret cizgilərini alır.

### Azərbaycan mədəniyyətində daş arxetipi (1984-cü il)

Fransız filosofu Başlayar Yunqun arxetiplərindən itələnərək mədəniyyətdə Daşı da arxetip qatına qaldırmışdı. Bu arxetip (və onun Qaya, Qranit kimi çevrimləri) folklorda, incəsənətdə möhkəmlik, güc, dayanıqlıq, dözüm əlamətlərini daşıyan bütün insan görklərinin (surətlərinin) qurulmasında iştirak edir. O biri yandan, görünür, həmin görkləri bizim güclü duyğunluqla qavramamızda psixikamızda olan Daş arxetipi az rol oynamır.

Folklorun bir çox epik qəhrəmanları Daş arxetipini türlü variasiyalarda görükdürürlər. Örnəyin, Koroğlunun qranitdən tökülübmüş kimi görünən iriliyi, möhkəmliyi, gücü… Onun zəhmli baxışları, nərəsi, qorxunc iştahı başqa variasiyada Daş-Qaya arxetipinin sonucudur. Eyni arxetip folklorun araçılığı ilə Şərqdə sufi ənənəsinə də təsir etmişdi: təsəvvüf qaynaqlarında daşı sıxıb suyunu çıxaran şeyxin kəraməti təsadüfi metafora deyil və bir daha göstərir ki, sufi simvollarının qaynaqlarından biri İslamdırsa, o birisi türlü etnik mədəniyyətlər, arxaik köklərdir.

### Ortacğ müsəlman mədəniyyətində sinonimləşdirmə və omonimləşdirmə (1985-ci il)

Ortyaçağda Müsəlman mədəniyyətində önəmli ideya iddiasında olan düşüncələr Quran ilə sinonimizasiya və omonimizasiya ilişgilərində qurulurdu. Hamı istəyirdi ki, ağıllı nəsə söyləyəndə onu hansısa ayənin sinonimi kimi sübut etsin. Ancaq paradoksdur ki, bu sinonimləşdirmə bolluğu omonimləşdirmə bolluğuna çevrilirdi. Omonim sözlər formaca eyni məzmunca başqa-başqadır. Quranın bir çox ayələri formaca eyni qalsalar da türlü sitatlarda tamam başqa anlamları özlərindən axıdırlar. Tutalım, sufilərin məşuq kimi sevdikləri “Allah” Quranın bəzi ayələrindəki “Allah” sözünə omonimdir.

### Ortacğ müsəlman mədəniyyətində konsentrik düzüm (1985-ci il)

İslam dünyasının dərinliklərindən konsentrik strukturlaşmanın «su yazısı» sezilir. Burada insanlar peyğəmbərin çevrəsinə düzülüb. Kim mərkəzə yaxındırsa, o üstündür. Şiələr üçün həzrət Əli və ailəsidir ən yaxın personoloji dairə. Deməli, Şiə-Sünni davasının bir səbəbi də konsentrik həndəsədir.

Söz qatında mərkəz Qurani-Kərimdir. Hansı kitablarda Qurandan ayələr və sözlər çoxdursa, onlar bu mərkəzə daha yaxın sayılırlar. Türk dillərindən ərəb sözlərinin çoxluğu öz sözlərimizin qıtlığından gəlmir. Müsəlamanlşanda öncə farslar, sonra isə türklər dillərinə ərəb sözlərini gətirirdilər ki, Qurani-Kərimə can atan dairəyə düşsünlər. Deməli, bizim indi dilimizdən arındırmaq istədiyimiz ərəb sözlərinin arxasında konsentrizm «həndəsəsi» durur.

Coğrafi dünyada mərkəz Kəbədir, ən yaxın çevrəsi Məkkə. Bütün varlıq qatında isə Allah-təaladır. Maarifçiliyin və Modernləşmənin islamçı düşmənləri konsentrrizmi dağıtdıqları üçün onları sevmirdilər.

## Müsəlman bilgəsi (1985-cı il)

Ortaçağ müsəlman müdrikinin öz tipolojisi var. 0 da heyranedici, misilsiz adam olmlıydı. Hər hadisə, problem vəziyyətlə bağlı haşiyəyə çıxıb şeir deməyi, ibrətamiz əhvalat söyləməyi baçarmalıydı. Ortaçağ müsəlman müdriki hikmət dalınca mədəniyyətin istənilən bölgəsinə səyahətə çıxmağı bacaran adam idi (ona görə də burada səyyah görkü çox sevimli, çox urvatlı idi). 0, hikmət dalınca fikrən Hində də, Sində də səyahət edirdi. Ortaçağ nağıllarına baxın. Əsas süjet qalır bir yanda, onun hər gedişi haşiyələrə qıvrılıb, naxışlanır. Bərbəzəkli, türlü boyalı parça gözəlliyi rəvayətlərdə yamsılanılır. Hər haşiyə, hər hikmət bir parçadır. «Alabəzək» sözünün indi mənası pisdir. Onda isə…onda isə, örnəyin, müsəlman üçün həm alabəzək həm parça idi, həm də türlü dillərdən olan fraqmentlərlə bəzənmiş şeir.

Ortaçağ müdriki bütün bunları yaradan idi. Belənçi bacarığına görə də misilsiz idi. Misilsizlik, heyrətamizlik möcüzə parametrlərinə malikdir. Möcüzəli misilsizlik Ortaçağda əsl tekstlərdən (şeir, memarlıq tikilisi, fəlsəfi-dini traktat) umulan göstərici idi. Ortaçağ bilgəsi "ordan-burdan" danışmaq prinsipi ilə işləyirdi. Ancaq «ordan-burdan" danışmaq yöndəmsizliklə nə gəldi bir-birinə yapışdırmaq deyildi. İki ayrıca olay, deyim arasında incə, ornamental bağlantını, səsləşməni tapıb onları birləşdirmək idi. Bir nəsnədən o birisinə rəssamın fırçası kimi nəcibliklə, qayğısızcasına süzüb keçmək idi.

## Ciç-çi və memarlıq (1985-ci il)

Balaca uşaqların «ciç-ci» oyunundan sevincləri göstərir ki, «heçdən var olma» («görünməzlikdən görünərliyə çıxma») psxolojidə və mədəniyyətdə nəsə köklü strukturları oynadır. Nizamidə hər fəsil gecədən gündüzün, qaranlıqdan günəşin peyda olmasından başlayır. Klassik poeziyada gözəlin ay üzü zülflərinin arasından peyda olur. Bir baş dəbərtməsi ilə, bir qanrılıb baxma ilə afətin «işıq saçması» Ortaçağ müsəlman mətnlərinin bayıldığı haldır. Bu prinsipdə, yəni «nəyinsə arxasından nəyinsə peyda olması» prinsipində təkcə gözəlliyin verilməsi yox, çox nəsnələrin düzümü qurulub. Minarələrin, günbəzlərin o biri evlərin arxasından peyda olması, miniatur şəkillərində qayanın arxasından pusan üz, qəzərllərin axırıncı və ən parlaq beyti – hamısı qəfil peyda olmağın estetikasında qurulub. Qəfil peyda olanlar təəccüb doğuranlardır. Təəccüblənən müsəlman barmağını dişləyir– mətnlərdə elə belə də yazılır. Bütün səyahətnamələr, bütün naxışlar, bütün şeirlər və şəkillər müsəlman

dünyasında «barmağı dişləmək» üçündür.

## Müsəlman afəti və Şəriət (1986-cı il)

Al ilə ala gözlərin aldadı aldı könlümü,
Alını gör nə al edər, kimsə irişməz alinə.

Nəsimidən gətirdiyim bu beytdə gözəlin ala gözləri hiylə (al) bildirərək aşiqdə güclü duyğular oyadır. Maraqlıdır ki, Klassik poeziyada belə mənaları özündən yağdıran afətlər, nigarlar Şəriətin ismətli, həyalı, başıaşağı qadın «konsepsiyasına» qarşı dururdu. Gözləri ilə ovsunlayan, baxışlarından hiylə, oynaqlıq, şuxluq yağan gözəl qız Quranın, Şəriətin dediyi qadın olmasa da, şairi özünə möhkəmcə bağlayırdı. Hansı Ortaçağ şairi ismətli qadına şeir həsr etmişdi?! Əğyara (düşmənə) könül verən qadın Şəriətin qoyduğu cızıqdan çıxıb Şəriətlə düzgünləşdirilmiş ictimai ilişgilərin içində deyil də dışında dururdu. Ona görə də bu qadının aşiqi hər an davranış normalarından düşüb normasızlıq pərakəndəliyində qala bilən və Şəriət əhli üçün etibarsız sayılan adam idi. Belə qadındannəlahiddə varlığa (yəni Tanrıya) keçməyə bir addım qalırdı və sonralar, doğrudan da, sufi poeziyasında Allah məşuqə (və ya məşuq), dost əlamətlərində, bildiricilərində peyda oldu. Sufinin Allaha vurğunluğu isə gözlərindən naz, qəmzə yağan məşuqəyə aşiq olanın sevgisi şiddətində anladıldı.

## Ortaçağda bədən və jest (1986-cı il)

Orta yüzillər mədəniyyətində poza tiplərini öyrənməklə o çağ adamının «rahatlıq-rahatsızlıq» təsəvvürlərini müəyyən məkanda yer tutmaqla ilişgidə götürüb anlamaq olar. Ortaçağ paltarı ilə jesti arasındakı ilişginin aydınlaşdırılması isə paltarın hansı jestlərə və pozalara imkan verməsinə, hansını çətinləşdirməsinə düşüncəni yönəldər. Bununla bağlı nəzərə alınmalıdır ki, insan bədəninin ala biləcəyi dayanıqlı vəziyyətlərin sayı minəcəndir. Hər hansı bir dil mümkün səslərdən özü üçün yalnız məhdud qrupu seçib onlardan sözlər düzəltdiyi kimi, hər hansı bir ulusda da poza və jestlər düzəldə biləcək çoxlu bədən, qol, ayaq, baş hərəkətlərindən yalnız bəziləri seçilir. Bu seçməni daraldan göstərişlər kimi türlü yasaqlar işləyir. Örnəyin, Nəsirəddin Tusi davranış qaydalarından danışanda əxlaqi sistemdən çıxış edərək «eyibdir» və ya «sayğısızlıqdır» yasaqları ilə aşağıdakı poza və jestləri yaramaz sayırdı: camaatın qabağında uzanmağı, danışanda əl-qol ölçməyi, barmaqları və bədən üzvlərini şaqqıldatmağı.

## Sosial məkan və semiotik həssaslıq (1986-cı il)

Ortaçağ toplumunun elə çevrələri vardı ki, orada davranışın bildirici (işarə) kimi qavranılması minimuma enirdi. Örnəyin, ev içərisində, arvad-uşaq arasında durum elə idi. Ancaq bununla yanaşı, davranışa yüksək bildirici duyğunluğu, həssaslığı ilə baxılan yerlər də vardı. Belənçi yerlərdə insan özünü yığışdırırdı, həndəvərdəkilərdə davranış bildiricilərinə həssaslığın güclü olduğunu bildiyi üçün çalışırdı ki, gözlənilməyən və ya pis sayılan eyləmlər yapmasın. Saraylar, qonaq otaqları, məscidlər bu cür yerlərdən idi. Ona görə də belə yerlərdə gözlənməz davranış bildiricisi «qışqırtı» effekti

yaradırdı. Sarayda təlxəyin hərəkətləri bir də bu effektə görə gülməli olurdu.

## Məclisin semiotikası (1986-cı il)

Məclis Ortaçağ adamının bilincində çox önəmli yer tuturdu və bunun sonucudur ki, o dövrün poemalarına dəfən-dəfən təkrarlanan səhnələr verirdi. Məclis, meyxana, şərab simvolları qəzəllərdə də tez-tez təzahür edirdi. Məclis içkinin və s.-nin təsiri ilə insanlar arasında formal, rəsmi ilişgiləri zəiflədirdi. Məclis şənliyə, zarafata əngəl törətməklə Ortaçağ qeyri-rəsmi mədəniyyətinin önəmli amili olan gülüşə şərait yaratmayan yasaqları aradan götürürdü. Kef məclisləri başqaları üçün ilginc olmaq, başqasını əyləndirə bilmək və başqasının etdiklərindən əylənmək əsasında mümkün idi. Bura incə mətləbləri anlamaq bacarığının sınaqdan keçirildiyi yer idi, insanın yemək, içki bolluğu içində sözə, düşüncəyə yerli-yerində macal tapa bilməsinə dəlalət edirdi. Və nəhayət, məclis sufisayağı olmasa da, kollektiv coşğunluğa gətirən vasitə idi. Ona görə də bu ekstatik halla bağlı saqi Orta yüzillər poeziyasında önəmli yer tuturdu. Füzuli «Leyli və Məcnun» poemasının bəzi fəsillərini saqiyə müraciətlə başlayır («Saqi, kərəm eylə, cam gəzdir. Tutma, qədəhi-müdam gəzdir» və s.).

Ortaçağ məclisində, görünür, davranış simvolikası çox anlamlar bildirmirdi: incəlik, şuxluq, oynaqlıq, elliklə gülüşə batmaq, musiqiyə qapılmaq və bu kimi mənaları məclisdəkilərin hamısına çatdıran davranışları yapmaq…adamın eyləmlərindən belənçi mənalar və cizgilər bilindikcə o kollektiv şənliyin iştirakçısına çevrilirdi.

## Fəxriyyənin sonrakı təzahürləri (1986-cı il)

Fəxriyyə Ortaçağdan sonra da hansısa imkanlarını saxlayır. Romantizmdə “dahi - kütlə” antitezi fəxriyyə tipologiyasına uyğun idi. Ancaq ən qabarıq örnəyi Niççe vermişdi. Onun «Avtobioqrafiya» əsəri başdan-ayağa fəxriyyə pafosundadır. Kitabdakı fəsillərin adlarına baxın: «Mən niyə belə müdrikəm?», «Mən niyə belə ağıllıyam?». XIX əsrin zirvəsindən baxanda Niççe təkəbbürlü duruşun gülünc olduğunu yaxşı bilirdi, ancaq paradoks ondadır ki, Niççe «mən»ini mərkəzdə saxlamaq üçün elə deyiş tərzindən, kredo formasından istifadə edirdi ki, sonucda başqalarının alçalmış, təhqiramiz görünüşləri qarşısında onun təkəbbürlü duruşu, amiranə jesti peyda olurdu.

## Molla Nəsrəddin lətifəsində kod uyğunsuzluğu(1986-cı il)

«Molla Nəsirəddin və alim» lətifəsində gülüşü kod, dil uyğunsuzluğu doğurur. Alim nücum (əski türkcə «ulduzçuluq») simvollarının dilində Mollaya suallar verir. Örnəyin, Yeri bildirən çevrəni çəkir. …Molla isə alimin nədən danışdığını yanlış anlayıb suallara cavab vermək üçün qastranomik, yemək-süfrə obrazlarından ayrıca kod-dil etalonları kimi istifadə edir. Çəkilmiş çevrəni içində qayğanaq olan tava ilə eyniləşdirir və deməli, tava kimi də başa düşür. Cavab üçün onu ikiyə bölür, yəni yarısı sənin, yarısı mənim.

Beləliklə, alim və Molla özləri də bilmədən ayrı-ayrı (omonimik) dillərdə danışırlar. Hərçənd onlara elə gəlir ki, eyni koda-dilə söykənirlər. Alimə görə, Molla ona nücum simvolikasında cavab

verir, Mollaya görə isə alimin sualları qastronomik simvollara söykənir.

## Mədəniyyətdə əyri strukturlar (1986-cı il)

Düz cızıq iki nöqtə arasında ən yaxın məsafənin cızığıdır. Əyri cızıq bu yaxın məsafədən qıraq keçənlərdir. Düz cızıq birbaşalıqdır, əyri dolayılıq. Mədəniyyətin özülündə əyri cızıq, əyri strukturlar durur. Ürəyim istəyir, basıb yeyirəm – bu, düz cızıq prinsipidir. Ürəyim istəyir, ancaq özümü görməmiş kimi göstərməmək üçün süfrəyə dəvəti gözləyirəm – bu, əyri cızıq prinsipidir. Mədəniyyətin dabanında "düz xətti dolayılaşdıran, sındıran" çoxlu yemək, geyim və seks yasaqları durur. Froyd deyirdi ki, əxlaq insan biolojisi üzərində zorakılıqdan doğub. Bax, həmin zorakılıqdır düz cızıq strukturlarını sındıran, qıvrıldan və bununla mədəniyyəti yaradan. Bu anlamda mədəniyyətin fundamentində əyriliklər durur. Güləş əypi strukturlarla əlləşməkdir. Gözəlin nazı, telinin qıvırcıqları əyri strukturlardır. İngilis rəssamı Hoqart dalğalı cızığı gözəlliyin həndəsi formulası sayırdı. Ortaçağ şairi türkün ahəng qanununa söykənən «başıma» sözünü farsın diftonq əyrisi ilə «başimə» çevirəndə intonativ qıvrım yapırdı və beləcə, şeirə əyri strukturların estetikasını gətirirdi.

## Mədəniyətdə "yol" arxetipi (1990-cı il)

"Yol" dünya mədəniyyətinin ən güclü arxetiplərindəndir. Onun simvollarını sayaq: «yola düşmək» («səyahətə çıxmaq») «bir məkanın sınırlarından çıxmaq», «başqa (və ya yad) məkanın sınırlarından adlayıb içəri girmək», «yolu azmaq», «kəsə yolu tapmaq», «təhlükələrə düçar olmaq», «tanış olmayan aləmə düşmək», «qəribə olaylarla rastlaşmaq», «gecəyə düşmək», «başlanğıc və son nöqtə», «gözləmək», «keçib getmək və ya keçib gedəndə tamaşa etmək».

Düşünək. Azmı olur ki, mədəniyyət olayları yol simvolikasında dərk olunur, duyulur və ya biçilir? Elə birinci yadıma düşəni deyim: Heqelin fəlsəfəsində İdeya öz içində bükülü olanları aça-aça «yola çıxır». Hər özündən tapdığı anlayış, qanun təbiətdə onlara uyğun nəsnələri (Örnəyin, mineralları) yaradır. Beləcə, İdeya gəlib çıxır toplum anlayışına və bunun sonucundacəmiyyət yaranır. İdeya bu səyahətində ordan-burdan keçə-keçə tamaşa etməklə məşğul olur. Təbiətdə yaratdıqlarına baxıb nəyi bacardığını gerçəkdən seyr edir və bu özünü anlamaqdan zənginləşir. Toplum yaranandan sonra İdeya insanların (filosofların, sənətçilərinn, dinçilərin) düşüncəsi, seçdiyi ulusların ruhu vasitəsi ilə gerçəkliyi düşünüb anlayır. Gerçəklik başdan-ayağa onun düşüncəsindən və «əlindən» çıxır. Deməli, gerçəkliyi düşünəndə «əlindən» çıxanları, düşüncəsindən çıxanları düşündüyü üçün həm də Özünü düşünür. Ən nəhayət Ruh fəlsəfənin «əli» ilə tapır ki, bütün başqa olan nəsnələrin hamısının kökündə, özülündə o Özü durub, çünki hər nəsnədə Ruh iştirak edir. Deməli, İdeya hər nəsnədə Özünü biləndən sonra Özünə qayıdır. Yola düşmüşdü başqa yana, gəlir çıxır Özünə. Ancaq bu səyahətin bir xeyri olur. Səyahətin sonundakı İdeyanın «Öz»ü başlanğıcdakından qat-qat konkret, zəngin olur.

Təxminən eyni motivlər vaxtı ilə güclü şəkildə Əttar tərəfindən işlənmişdi: Məhəmməd peyğəmbər merac zamanı Allaha doğru səyahətə çıxır. Tanrı qatında Ona baxmağı gözləyəndə qeybdən səs gəlir ki, Məni özündən qıraqda axtarma, Mən elə sənəm. Özündə axtar məni.

**Yol və yemək oxşartıları (1990-ci il)**

Belə bir soru: əgər yeməklər haçansa kosmonavtlardakı kimi həblərlə, tübikdəki pastalarla əvəz olunsa, bu, dədə-baba bozbaşının, küftəsinin mədəniyyətdəki əvəzini verəcəkmi?
Həblərlə yemək kəsə yolla getməyin oxşartısıdır və sanki «Okkam ülgücünün», yəni bütün mürəkkəbliyi çərtib sadəlik yaratmağın mətbəxə uyğulanmasıdır. Ancaq yol üçün petrolu, vaxtı qənaət etmək baxımından kəsəlik nə qədər yaxşıdırsa, gəzinti, tamaşa edib düşünə-düşünə getmək üçün dolayı gəlmək o qədər önəmlidir. Dədə-baba qaydasında süfrəyə toplaşıb yemək yemək çeynəyə-çeynəyə ağzının dadını, burnunun qoxusunu uzatmaq və deməli, ləzzətiçoxaltmaqdır. Yeməyi prosesə çevirmək gəzintiyə taydır və mədəniyyətdən yox olsa, gəzintisiz dünya kimi üzüntü yaradacaq.
Tarixə baxın, bir çox şeirlər, gözəl zarafatlar məclisdə ortaya çıxıb. Məclisin verdiyi çağırışlara cavab olaraq nə qədər gözəl istəklər bədii əsərlərə çevrilib! Bu anlamda yol arxetipi yeməklərin, süfrə mədəniyyətinin də əsaında durur.

**Milli kompeksimiz haqqında (1992-ci il)**

Qorxaqlığımız haqqında (türkün igidliyi haqqında məddah sözlərlə yan-yana deyilir). Bir ara Prezident aparatı ictimaiyyətlə "intim" söhbətdə aşılayırdı ki, igidlikdən dəm vururlar, am¬ma döyüşə getmək üçün adam tapmırıq. Bu,köməksizliyimizi aşılamaq üçün fəndgirlik idi.Ancaq cavabında məndə sual doğur: hansı millətin oğulları çoxluğuna görə igiddir? Döyüşkənlik, ölümdən qorxmamaq (və ya az qorxmaq) genetikdir və ya döyüş təcrübəsində yaranır. Hər millətdə, eləcə də ermənilərdə, gürcülərdə belə gənclər azlıqda olur və dava yaranan kimi bu azlıq könüllü döyüşə gedir. Yerdə qalan gəncliyi Dövlət səfərbərlik və hərbi tribunal vasitəsi ilə "igid olmağa" məcbur edir.

Satqınlığımız haqqında. Biz qabaqça millətimizi ailə terminlərində modelləşdiririk. Sonra isə eşidəndə ki, filan bələdçi ermənilərə satılıb, dəhşətə gəlirik: gör nə qədər satqın var aramızda! Ancaq hansı millətdə satqın yoxdur? Azərbaycan pul ayır¬sın, görün, ermənilər arasından neçə nəfəri özümüz üçün işlədə bilərik.

Biz millət anlayışına yaman romantik və patetik baxırıq. Sonra uyğunsuzluğu görəndə eyni patetika ilə özümüzü lənətləyirik. Halbuki realist olmalıyıq. Realist olub bilməliyik ki, kasıblıq və müharibə durumunda pis instinktlərin qabağını kəsən divarlar sökülür... bütün millətlərdə belədir.

Bir sözlə, bəylər, xanımlar, gəlin özümüz haqqında realist olaq. Biz nə alçağıq, nə də çox uca. Biz filan qədər çox normal millətdən biriyik.

## Azəri şiəliyində su simvolu (1992-ci il)

Kərbala faciəsi Azərbaycan türklərinə güclu su simvolu vermişdir. Susuza su verə bilməyn azəri "Şümür" adlandırılmasından elə qorxur ki, bu qorxunu "milli fobiya" adlandırmaq olar.

Kərbəla faciəsinin sayəsində bir içim su Azərbaycanda qızmar ərəb səhralarında olduqu qədər zəngin anlamlar qazanmışdır. Azəri qadın, yolçunun görünüşü nə qədər iyrənc olsa belə, ona su verməkdən özünü saxlaya bilməz. Ən ərincək vəziyyətdə belə azərbaycanlı su istəyənə su vermak üçün durub yuxarı mərtəbəyə çıxar, quyuya vedrə sallar.

Kərbala faciəsi, düşməni olsa belə, su içəni sudan ayırıb (va buna oxşar olaraq çörək yeyəni çörəkdən ayırıb) haq-hesab çəkməyi azərbaycanlı qisasçısına, döyüşçüsünə, ərəninə haram qılıb.

Kərbala faciəsi, fəryadı, ağlamanı, kədəri Azərbaycan türkü üçün diniləşdirərək güclü mədəniyyət simvoluna çevirib. Faciə sınıq könül, şikəstə könül və bu könüldən doğan yanıqlı səsi azəri ruhunun bilindiyi formalardan biri edib. Muğamdakıyanıqlı səs, fəraq şeirlərindaki yanıqlı səs şiə dünyaduyumundan az şeylər götürməyib.

## Bizim qabalığımız (1992-ci il)

Azərbaycanlılarda türkün qabalığının taleyi çox maraqlıdır. Bu oğuz ulusunda neçə vaxtdan bəri qabalıq və incə nəciblik bir-birinə dirənərək durublar və heç biri o birisini elə üstələməyib ki, axırda oğuzların tam xarakterinə çevrilə bilsin.

Azəri eksiztensiyasında, yəni duyğu və düşüncə cərəyanında gedən yaşamında utancaqlıq, həya yasaqları ilə ürəyindəkiləri etmək istəyi arasında gərginlik güclüdür. Utancaqlıq qabalığınönünə "divarın" qoyulmasıdır. Qabalıq adamda istəklərin istənilən səs-küydə, jestdə, baxışlarda vurub püskürməsidir. Həya isə bütün bunları qadağan edib susduranda yaranır. Həya ilə insan özünü yığışdıranda nəciblik üçün yer açılır. Azərilərdə nəcib kişi sözü üzə deyən deyil, sözü "qırmızı-qırmızı" deməyəndir, qaba deməyəndir. Oğuzlarda nəcib kişi sözü üzə həya qaydalarını pozmadan deyir. Bu nəciblik türkün düzunəqulu səsindən, sözündən qurtulanda yaranır.

## Milli geriliyi düşünmək üçün metodoloji məsələ (2010)

Kosmosda yuxarı-aşağı, sağ-sol yoxdur. Deməli, hara üz tutub getsən, irəli olacaq. Yer üzündə və yer üzünə yazılmış mədəniyyətlərdə isə irəliləmək məsələsini qoyanda sağa və ya sola doğru irəliləmək sorusu ortaya çıxır. Milli ideya nədir? Odur ki, məqsəd kimi, tutalım, qənaətcillik götürülür. Belə olanda qənaət məqsədinə, hədəfinə doğru getmək irəliləyiş olur, yavaş getmək isə gecikmək sayılır.

Deməli, biz geriliyimizi söyləyəndə aydınca deməliyik hansı amaclara doğru getmədiyimizə görə geriyik. Örnəyin, amac ailə institutu, çoxuşaqlıqdırsa, biz geri deyilik, irəliyik. Hədəf texnoloji gəlişmə, sənət yenilikləridirsə, geriyik.

## Ölüm xofu səni basanda (2010-cu il)

İndi ölməklə gələcək fəlakətləri görməyəcksən.

## Niyə öpürük,niyə dişləyirik? (2013-cü il)

Niyə adamın (təkcə ata-ananın yox) körpəyə sevgisi aşıb-daşanda onu dişlək-dişlək etmək istəyir? Niyə sıxcalayıb əzmək istəyir? Bəs, öpüş? Öpüş, əslində, sovurmaq eyləminin mədəniləşmiş variantı deyilmi?!. Məncə, öpüş qanını, şirəsini sovurmaq kimi əski kannibal («hannibal» düz deyil) hərəkətinin tormozlaşmış, əylədilmiş variantıdır.
Froydda seksuallıqla bağlı «inhibit» termini var, hansısa saldırqan, dağıdıcı, zorlayıcı eyləmin yarımçıq saxladılmasını, axıracan edilməməsini bildirir. Psixoanalizin yaradıcısı sayırdı ki, bizim gözəlliyə heyranlığımız inhibitləşmiş seksuallıqdan doğur. İndi buna biz əlavə edə bilərik: "öpüb-bir dişləməyimiz" inhibitləşmiş yemək-parçalamaq eyləmindəndir.

## İkiüzlülüyünyaşdan-yaşa dəyişməsi (2014-cü il)

İnsanlar bir çox nədənlərdən səmimi olmurlar. Pul qazanmağın ancaq yalan yolunu biləndə, «yaxşı adam» adını çıxarmağın fırıldaq üsulunu biləndə. Adamlardan utancaqlığı tələb edən mədəniyyətlərdə də ikiüzlülük çox olur. Adətən, yaşlı adamda utancaqlıq azalır, deməli, səmimilik artır. Kişilərə baxanda qadınlar daha utancaq olurlar, deməli, az səmimi olurlar.

Ən əsas məsələ odur ki, toplumda səmimi olmaq sərfəli olanda, yəni mükafatlananda səmimiyyətartır. Deməli, Azərbaycan dövlətində, yarızarafat söyləsək, səmimi olmağı sərfəli edən «proqram» olmalıdır.

## Mədəniyyətdə bir birini korlayan tərəflər (2014-cü il)

Belə bir soru: azəri qızları nədə oğlanlarımızı korlayırlar? Bəs, oğlanlarımız nədə qızları korlayırlar?

Örnəyin, oğlan ölümdən qorxmayıb zəifi qorumaq üçün yumruq davasına çıxanda, əliaçıqlıq edəndə qızlar romantik bir heyranlıq keçirirlər. Burdan isə sevgiyə bir addım qalır. Ancaq elə ki, bu oğlana nişanlı olurlar. «nə işinə var» işə düşür.

Bəs oğlanlar nədə qızlarımızı korlayırlar? Bəlkə onları ismətli görünmək üçün ikiüzlülüyük etməyə öyrəşdirirlər?!

Azərbaycanın başı üstündə duran iki pozucu cümlə (2014-cü il)

Onlardan biri budur: «bir mənlə nə olacaq?!». Hamı rüşvət alanda, yağmalayanda bir başqası "mənim belə düz olmağımın nə anlamı var? (bir mənlə nə olacaq?) düşünüb yaxasını qırağa çəkir.

O biri korlayıcı cümlə budur:«birdən mən hərif yerində qalaram». Mən növbə tutsam və pəzəvənglərözlərini qabağa soxub axırıncı çörəyi aparsalar, hərif yerində qalmarammı?! Hamı sağdan-soldan bir-birinə kələk gələndə mən belə olmasam, hərif yerində qalmarammı?!

«Mədəniyyət nə üçündür» sorusunun cavabında çox düdüləmə sözlər deyirlər. Nə bilim
mədəniyyət mənəvi zənginlik üçündür, mədəniyyət incəsənəti, əxlaqı insanla birləşdirmək üçündür. Ancaq bu sırada sadə nəsnələri də demək gərəkdir: mədəniyyətinsanı korlayan «bir mənlə nə olacaq», «hərif yerində qalmaram ki?» deyimlərinin korlayıcı gücünü azaltmaq üçündür.

Mənim gətirdiyim deyimlər hamımızı içəridən yeyir. Görürsən, adam gəncliyində görəndə ki, birisi müstəqilliyin əleyhinə səs vermişdi, ancaq indi müstəqilliyin açdığı imkanlarda milyonlar qazanır, «hərif yerində qalmamaq» fəlsəfəsinin əsirinə çevrilir.

Əgər bir məmləkətdə «bir mənlə nə olacaq?!», «sonra hərif yerinə qalmarammı?!» deyimləri yeni-yeni dəstələri, yeni-yeni sosial alanları fəth edirsə, deməli, orada din də aşağıdır, əxlaq da aşağıdır, incəsənət də aşağıdır, dövlətdə aşağıdır.

Ancaq niyə uşaqları ağır xəstə olanlar hətta ümidsiz vəziyyətdə də bu fəlsəfəni yaxın buraxmadan evlərini satıb pullarını həkimə verirlər? Deməli, insan özü, doğmaları ilə bağlı o korlayıcı cümlələri yaxın buraxmaya bilər. Bəs niyə ləyaqətli yaşamaq, kişi qalmaq məsələsi ilə bağlı o deyimləri yaxın buraxmayanlar belə azdır?

Gəlin, diaqnozumuzu bilək: Azərbaycan insanı «bir mənlə nə olacaq», «birdən hərif yerinə qalaram» «ağılındadır».

## 3. Demokratiya və toplum

### Şpionomaniya sindrom (1991-ci il)

Hər bir toplumda xainlər olub, xəyanət olub və olacaq. Ancaq xəyanətlər haqqında cəmiyyətdə səs-küy çoxdursa, bu, artıq, şpionomaniya, "KQB" sindromudur. 88-ci ildən bu yana biz "KQB" sindromuna tutulmuşuq. Sovet dövründə "KQB" sindromu, görünür, "KQB"nin özünə əlverişli idi, çünki onun pusan gözləri, xəlvətcə qulaq asan qulaqları hər güncdə-bucaqda ola bilməzdi ki, nəzarət etsin. Buna ən azı çoxlu maliyyə lazım idi. Ancaq həmin sindromun, qorxu, şübhə xəstəliyinin təsiri altında nə qədər olurdu ki, yabançı ölkənin adamı ilə söhbət edəndə xəlvətdə gizlənmiş qulağa danışırmış kimi danışırdıq və deməli, özümüz-özümüzə nəzarət edirdik. 85-dən sonra bütün bunlar getdi öz işinə..,

### Dedi-qoduların qaynaqlarından (1991-ci il)

Dedi-qodulala bağlı önəmli soru: biz adamların psixolojisində nələr var ki, dedi-qoduya həvəsləndirir, dedi-qodunu alıb ötürməkdən xoşnud edir?

Psixoloji səbəblərdən biri kimi vualizmi göstərərdim. Froydin psixoanalizinə əsasən, elmdə belə bir tapıntı əldə edilib ki, insanlar açar deşiyindən, pərdə arasında xəlvətcə tamaşa etməkdən bərk ləzzət alırlar. Bax, buna vualizm deyilir. Vualizmə görə insan eyni səhnəyə açıq-açığına tamaşa edəndə daha az ləzzət alır, nəinki həmin səhnəni açar deşiyindən, pərdə arasındanpusanda. Xəlvətcə qulaq asmaq xəlvətcə baxmağın bir tayıdır, çevirimidir. Dedi-qodularda isə həmişə xəlvətcə qulaq asmaqla əldə edilmiş bilgi damğası var.

Deməli, biz şayiə gəzdirməkdən vualizm effektinə görə həzz alırıq. Yəni eyni soraq açıq-saçıq soraq kimi veriləndə az ləzzət verir, dedi-qodu kimi gəzəndə isə vualizm effektinə əsasən onun "ləzzəti" artır.

İnsan psixolojisində başqalarının bilmədiyi sirrə, gizliyə sahib olmaqdan və bu sirri açan adam kimi önəm qazanmaqdan məmnun qalmaq şakəri var. Bununla bağlı İsgəndərin buynuzu olduğunu gizlədə bilməyən o dəlləyi də, biz azərbaycanlıların "bilirsən noolub" deyəndə sir-sifətimizin düşdüyü vəziyyəti də göz qabağına gətirmək olar.

Dedi-qodu adamı gizli sorağa, gizli bilgi qaynaqlarına sahib olan adamın ləzzətini keçirir.

Və nəhayət, dedi-qodularnın psixolojisi ilə bağlı başqa nəsnələr də var. Örnəyin, insan psixolojisində saldırqan (aqressiv) çağırışlar gizlənir. Mən buna murdarlamaq istəyini də aid edərdim. İnsanlar (və ya onların çoxu) özündən qıraqdakı nəyisə (kimisə) murdarlamaqla içindəki murdarlıqdan qurtulmaq istəyir (hərcənd çox vaxt dişarını murdar¬lamaq icərini arındırmağa gətirib çıxarmır).

Dedi-qodularda murdarla¬maq, ucalmışı yıxmaq istəyi də gizlənir.

Mənə sual: rəğbət bəslədiyiniz siyasi pşrtiya hansıdır? (1992-ci il)

Cavabıında ağlıma bir aforizm gəlmişdi: hansı partiya Azarbaycanı maraqlı edəcəksə, mən onun üzvü olacam.

## Yerlibazlığımız haqqında (1992-ci il).

Biri ilə tanış olanda sənin öz yerindən, öz məhləndən olduğunu biləndə ona qanının qaynaması çox təbiidir. Amerikada da belədir, İngiltərədə də, Fransada da. Bu anlamda biz onlardan elə də fərqlənmirik. Və onlar kimi biz də bir az sonra görəndə ki, yerlimiz "yönlü" adam deyil, ilkin doğmalıq duyğusunu unuduruq. Ancaq Azərbaycanda təbii yerliçilik duyğusunu sosializmdən qalmış iqtisadi-siyasi sis¬tem eybəcərləşdirir.

Bunu konkret göstərim. Birinə uğurlu iqtisadi əməliyyatlar aparmağı bacaran biznes¬men sərfəlidirsə, o yerlisini çıxarıb, bacarıqlını qoyacaq. Ancaq sistem elədirsə ki, müavini, sadəcə, kabinetdə oturub, axan rüşvətləri yığmaqla məşğul olmalıdır, onda etibarlı adam kimi yerlisinə, qohumuna ustünlük verəcək. Amma yenə də! Hətta vəziyyət belə olsa ki, rüşvət toplamaq ayrıca bacarıq tələb edir, onda"kadrın seçilməsi"ndə yer yox, bacarıq ön plana keçəcək.

Sovet sosialist sistemi və onun bizdə indiki davamı elədir ki, işdə tez-tez yerliçilik, dostbazlıq, qohumluq əsasında birləşmək sərfəli olur. Sistem dəyişəndə yerliçilik, dostbazlıq, qohumçuluq da eybəcər sistemin eybəcər aləti olmaqdan çıxıb təbii halına qayıdacaq.

## Suverenlik hərəkatını aparanlar – “filoloji gənclik” (1993-cü il)

Əzəldən Sovet marksizmininsevmədiyi üç düşünər vardı: Şopenhauer, Niççe, Froyd. Ancaq bu marksizmin acığına 60-80-ci illərdə Azərbaycandakı

«filoloji» gənclər onların adını eşidəndə bu adlarda çevrələrindəki ehrama bənzər ideoloji tikintini partladacaq dinamiti duyub, vəcdə gəlirdilər. Bu «filoloji» gənclər Nazim Hikməti, Rəsul Rzanı sevirdilər. Anarın, Elçinin, Əkrəm Əylislinin və daha bir çox şairin, yazıçının toplum məkanına göndərdikləri gənc personajların psixolojisində, düşüncə-duyğularında və azərbaycanca danışmaq yönтəmində tərbiyə almışdılar. Onla¬rın çayxanalarda, redaksiyalarda, Ali məktəblərdə gedən anti-marksist söhbətlərinin mərkəzində ədəbiyyat dururdu. Ədəbiyyatdan ifşaçı arqumәntlər alırdılar, ədəbiyyatın verdiyi görklərlə ifşa edirdilər. Ona görə də onları «filoloji» gənclik adlandırıram.

«Filoloji» gənclər Şopenhauerdən, Froyddan, Niççedən, demək olar ki, heç nə bilmirdilər. Froydun adını eşidəndə nəsə seks yadlarına düşürdü. Şopenhauerin, Niççenin adı gələndə isə gözlərinin qabağına yumruq kimi bərk, gözəl apartamentlərdə rahatlanmış adamların bəyənmədiyi, ancaq həmin adamlardan güclü olan dağıdıcı yaradıcılar gəlirdi.

Çox qəribədir! «Filoloji» gənclər Şopenhaueri, Niççeni, Froydu bilməsələr də, onların adından onlara çatan soraq elə də yanlış deyildi.

Azərbaycanda «filoloji» gənclər çağı, artıq 80-ci illərin axırında sona yetmiş oldu. Ancaq sona yetməmişdən qabaq məhz filoloji gənclik bağımsızlıq uğrunda hərəkatı başlayıb onu uğurla sona çatdırdı.

## Azərbaycan mənzərəsi (1993-cü il)

Nədir bu Azərbaycan? Ucamanlığı görünməz edən sir-sifətdir, joxca alçaqlığı, rəzilliyi güzgü kimi göstərən görünüşdür?

O qədar adam var ki, bütün üzü, bütün səsi, bütün davranışı elə bil qışqırır: "Biz Azərbaycanı sevmirik, bura gəlməyin" (Bir italyan filmində Alberto Sordibeləcə nalə çəkmişdi: İtaliyaya gəlməyin).

Və"Biz Azərbaycanı sevmrik, bura gəlməyin! "deyirmiş kimi görünən üzlərin əks arqumenti kimi səslənən ikinci qütbün "xalqımın qeyrətinə qurban» oldurt-dur-dur-mağın...- adam cümləni də qura bilmir, - bezikdirmiş sevgisi.

Dapdayazlığı ilə bezdirən nifrət, qəzəb və dapdayazlığı ilə bayağılaşmış sevgi. Və bunların arasında qalıb döyükən elə bir vicdanlı adam ki, doğrudan da, nəyin pis, nəyin yaxşı olduğunu bilmək istəyir.

Azərbaycan elə bir vağzala dönüb ki, hərə bir xəbərlə buradan vurub ordan çıxır. Hər kəs siyasətlə, iqtisadiyyatla hərblə bağlı şah fikrinə belə başlayır: "Sən bir eşşəkliyə bax ki…» «Sən bir qanmazlığa bax ki…», «bir gör neyləyirlər?!». Hamı suçlamaq, doğrunu göstərmək üçün özündə məlumat, bilik, həqiqət bolluğunu duyaraq danışır. Dövlətsə bir anlatmır nəyə görə filan şeyi filan şey hesab etmək düz deyil. Dövlətdən xəbər gəlmir ki, ala bu məlumatı, gör sənə görünən mənzərə necə başqa şəklə düşəcək.

Budur Azərbaycan deyilən yurdun burum-burum cizgili, dolambaclı, dəyişən, kəsişən, icəşən cızıqlarla şəkillənmiş mənzərəsi. Və by mənzərədə siyasəti yapanların türlü rolları, türlü fürsətləri və nəhajət, türlü vicdanlı və ya vicdansız axtarışları...

Hakimiyyəti kimə, pulu hansı hakimiyyətə yaraşdırırlar? (1999-cu il)

Moskvada Kommunizm ideologiyası ilə bağlı keçirilən bir konfransda demişdim ki, AXChakimiyyətinin çökməsinin bir nədəni o idi ki, camaatın gözündə cəbhəçi nazirdə, müdirdə hakimiyyət aurası yox idi (bir az təəccüblüsü o oldu ki, Estoniyada demokratik hərəkat dalğasında nazirəcən yükslmiş bir qadın söylədi ki, onlarda da belə olub).

### Yaşamaq haqqına bir arqument (2003-cü il)

«Nəyə görə Demokratiyada Yaşamaq haqqına belə önəm verilir?» sorusu indi də igidlik, şəhidlik ideolojisi ilə yaraqlanmaq istəyən və ya ölüm cəzası ilə qətllərin qarşısını almaq istəyən dövlətlərdə heç də zəif olmayan tənqid arqumentlərini doğurur. Halbuki Yaşamaq haqqı hüququn özülüdür, çünki bütün hüquq, bütün qanunvericilik ilk öncə yaşama qulluq göstərdiyi, yaşamı qorumağa çağrıldığı üçün məna və mahiyyət daşıyır. Qanunların birinci vəzifəsi qorumaqdır. Onlar nəyi qoruyurlarsa, qorusunlar, dərinə gedəndə aydın olacaq ki, ya birbaşa həyatı qoruyurlar, ya da dolayısı yaşama, diriliyə həyan dururlar, yaşamın çevrimlərini (transformasiyalarını) müdafiə edirlər. Deməli, Yaşamaq haqqını tanımayan dövlət ya gərək qanunların mənasızlaşması ilə razılaşsın, ya da Ölümə söykənən qanunlar sistemini götürdüyünü boynuna alsın.

## 4. Estetika və sənətlə bağlı.

### Aktyor üzü(1984-cü il)

Hər bir adamın üzünə ən uyğun gələn, bu üzdən güclü açılan ifadəsi olur. Aktyor bacarığı bu ifadəni tapıb, onu mərkəzi bildiriciyə çevirib ətrafında öz oyununu qurmaqdır. Ona görə də maska tipində üzdən istifadə edən aktyorlar üzlərini başqa mimikalara salanda belə, bunu onun üçün edirlər ki, “taxıb çıxardıqları” mimik maskalarının mənaları güclənsin. Örnəyin, Çelentanonun aktyor oyununda «üzündən zəhrimar yağan adam» maskası tez-tez təkrarlanır. Hərçənd yenilik ondadır ki, süjet xəttlərinin təsiri altında, personajların filmlərdə tutduğu mövqelər, davranışlar sayəsində Çelentanonun bu maskası «bütün qadınların ürəyini alan» üzə çevrilir.

### Sənətdə uzaqlaşma /yaxınlaşma(1984-cü il)

Teatrda ayrı-ayrı bildiricilər, görükdürücülər dəyərcə, ritmcə, mənaca uzaqlaşanda, nə qədər paradoksal görünsə də, bu, sapı qırılmış muncuqlar kimi dağılmağa gətirib çıxarmır. Tərsinə, uzaqlaşma yeni mənaların, yeni görklərin yığılmasına gətirib çıxarır. Belə işarələr uzaqlaşırlar ki, birləşsinlər, çevrədə bir-birindən uzaqlaşan iki nöqtənin sonucda bir-birinə rast gəlməsi kimi. Ona görə də Heraklit söyləyərdi ki, bir-birindən uzaqlaşanlar rastlaşırlar, tam ayrı olanlardan ən gözəl uyarlıq yaranır.

Sözlə plastikanın yaxınlaşması aktyor jestlərində, üz ifadələrində sözün

mənasının, ruhunun birbaşa təkrar olunması kimi daha geniş yayılmışdır. Qeyzli sözlərin qəzəbli sifətlə deyilməsi buna ən adi örnəkdir. Sözlə bədənin bu simmetrikliyi 20-30-cu illər Azərbaycan aktyorlarının romantik oyununda özünü gur şəkildə göstərirdi. Bu çağın teatr sənətində güclü, ehtiraslı, çılğın monoloqlar iri, pafoslu, çılğın jestlərdə əks-səda verirdi.

## Memarlıqda peyda olma effekti(1985-ci il)

Memarlıqda arxasından, yanından (hamısı örtük, pərdə simvoluna uyğun gəlir) çıxmaq mühim rol oynayır. Dağ yerlərində dağ arxasından dağın ucalmasının necə görklü, təsirli olduğunu hamımız bilirik. İndi tutuşdurun. Təxminən eyni təsiri gümbəzin arxasından peyda olan minarət bağışlayır. O elə bil ki, məscidin içində (bətnində) olan istəklərin, gözlərin yönəldiyi istiqaməti qrafik cizgi aydınlığı ilə göstərmiş olur. Şəbəkəli pəncərələr, bəzəkli fasad Ortaçağ memarlığında «nəcib üz» simvolunu andıraraq içəri ilə mənalı ilişgilərə girir.

«Nəyinsə arxasından çıxmaq, ucalmaq» effektli çağdaş şəhərlərin strukturunda önəmli rol oynayır. Küçələrdən keçən maşınların yeyinliyində şəhərə tamaşa zamanı bu «zahir olma» effekti ritmik cürbəcürlük qazanır.

## Dünyamızın dəyişən tutumu (1985-ci il)

XX yüzilin qəribə filosofu Lüdviq Vitqenşteyn deyirdi ki, bizim dünyamız dilimizin sınırlarınacan uzanır, dilimizin civarları dünyamızın civarlarıdır. Yəni gerçəkliyin o nəsnələrinə, olaylarına ki biz söz və söz birləşmələri ilə ad verməmişik, onları düşünə bilmərik, onlardan danışa da bilmərik, deməli, onlar bizim dünyamızın sərhədlərindən o taydadır. Başqa cür desək, onlar bizim üçün mövcud olmadıqları üçün də ad kimi urvatlı əlamət qazanmayıblar.

Əslində isə mədəniyyət həm sözlə, həm də başqa vasitələrlə dünyadan danışır. Bütün bu dəqiqləşdirmədən sonra deyə bilərik ki, mədəniyyət «adlarla» adlandırıb tapır, ya da praktiki yolla tapdığını adlarla daha dərindən mənimsəyir, aydınlışdırır. Bir az da aydın deyək. Praktika ya nəsnələri ortaya çıxarır, ya da bunun üçün gərəyi törədir və həmin an da mədəniyyət, ya musiqi parçası ilə, ya şəkillə, ya metafora ilə, ya da terminlərlə, formulalarla, nəzəriyyələrlə onları «adlandırır». Norbert Viner deyirdi ki, istedadlı riyaziyyatçıyabir şey də gərəkdir. O, fantaziyasında peyda olan ideyaları, heç olmazsa, hələlik simvollarla adlandırıb, bildirib bu simvollarla əməliyyat aparmağı bacarmalıdır.

Əgər biz bir şeyi adlandıra bilmiriksə, ya da adını anmırıqsa, bundan necə əzab çəkdiyimizi bilirsiniz. Yada lazımı sözü tapa bilməyən natiqlərin hıqqanağı düşür. Mədəniyyət də belədir. Hər hansı bir nəsnəni, olayı mədəniyyət özündə bu və ya başqa növ ada bağlaya, ya da, heç olmazsa, ilişdirə bilməyəndə onları özündə heç cürə saxlayammır. Mədəniyyətdə adlandırmanın gücü böyükdür, bəzən adlandırmaqla indi olmayan nəsnənin guya olması haqqında aldanış yaradılır: deyirlər, aşığın sözü qurtaranda daley-daley edir. Bu yerinə düşəndə bizə elə gəlir ki, aşıq hələ də nədənsə danışır.

## Rəqs haqqında (1985-ci il)

İçimizdəki bilinməzlikləri özümüzə bilinər edən ən güclü araclardan biri musiqidir. O çox vaxt bizə qıraqdan yeni duyğular daşımır, sonsuz duyğu imkanlarımızdan öz düzümünə, ritminə uyğun olanları canlandıraraq çəkib salır dünyamıza. Musiqi «əl-kimyası» (yəni maddələri reaksiyaya salması) birbaşa duyğularımızda əməliyyat aparır: səslər düzümü, oynaşması duyğularımıza toxunan kimi, burada isti, soyuq, sərin, sarı, ağ, yumşaq, cod səslərə çevrilir.

Rəqsdə də istənilən qədər əl-kimya arxetiplərini görmək olar. Şərqin göbək rəqsləri od-alov əlamətlərini həm görünüşcə, həm də mənacan təkrar edir. Qafqazın ismətli qadın rəqsləri ehtirasların oduna qarşı süzə-süzə gəzən qamətlə mehin, fəzanın, havanın sərinliyini qoyur.

## Kişi rəqsinin arxetipləri(1985-ci il)

Kişi rəqslərimizdə «igidlik» anlamını təsirli bildirmək üçün odun, daşın, ağacın, havanın «əl-kimyası» işə düşür. Mövlud Süleymanlının «Köç» romanında oynayanda qollarını yüz yerdən sındıran igidlər alov titrəşməsini bədənlərində təkrar edirlər. Açılmış qollar həm yırtıcı quş qanadlarını, həm də nəhəng ağacın budaqlarını andırır. Gərilmiş sinədə, donmuş pozalarda isə daşın parametrləri duyulmağa başlayır.

## Saçın müsəlman üçün qorxularından (1986-cı il)

Ortaçağ müsəlman mədəniyyətində zülf (saç, tel, tük) küfrün metaforasına çevrilmişdi. Təsəvvüfün ezoterik dilində o qəlibləşmiş söz idi. Niyə qadın gözəlliyində belə önəmli olan saç belə mənfi anlam qazanmışdı? Siz baxın, görün, qadını telin qıvırcıqları, sıxlığı, çiyinə tökülməsi necə canları alan edir. Ortaçağda qadında görünən bircə şey saç ola bilərdi, o da belə yoldan çıxaran. Zülfün qıvrımları, əyriləri əyriliklə anışmaya girərək ondan ehtiyatlananlara əlavə arqument verirdi. Təsəvvüfün ilginc qolu olan qələndərlikdə hamının başı, hətta qaşları qırxıq olmalıydı. Görünür, bu qırxıqlıq küfrdən arınmışlığı bildirirdi.

Çağımızda İran kimi ölkələrdə zülfünü göstərən qadınları cəzalandırırlar. Uzun sürə təəccüb edirdim ki, qadın bədəninə baxanda zülfündə nə seksual təhlükə var ki, hicabla onu gizlətməyi tələb edirlər?! Bu sətirləri yazanda anladım: birincisi, qadın öz zülfünü müxtəlif şirnikdirici formalara salmaqla vəl-vələ sala bilər («afət» sözü burdandır). İkincisi isə, zülf həm də küfrdür, axı.

## Azərbaycan dünyasında bağ-bağat kodu (1986-cı il)

Gül-çiçək, bağ-bağat, isti fəsil simvolları Ortaçağ Azərbaycan incəsənətinin hər növündə ən təkrarlanan bildiriciləri verirdi. Bu simvollar bədii tekstləri gur, parlaq boyalarla təmin edirdi. Onların özəlliklərindən sonuc çıxarıb deyə bilərik ki, Ortaçağ azərbaycanlısı üçün gözəl nəsnənin və bədii tekstin ala-bəzək boyalar sıxlığında olması müsbət estetikliyin başlıca göstəricilərindəndi.

***Davamı olacaq***

# "YAZI" DƏRGİSİNİN 5 YAŞI TAMAM OLUR: TƏBRİKLƏR, ARZULAR, TƏKLİFLƏR

"Yazı"nın ilk sayı gözlərimin önündədir. Mən onu bir tutiya kimi qəbul etmişdim. Gənclərlə bərabər, unudulanları da yad etmişdi bu yeni dərgi. O unudulanlardan biri də mən idim. Yazıçı dostum, qardaşım Azad öz məsləkdaşları ilə "Yazı"nı düz beş ildir ki, ədəbiyyatın içərisindən çox ustalıqla keçirib aparır. İçərisindən deyirəm. Ona görə ki, ədəbiyyatımızın içinə bələddir Azad Qaradərəli. Özü fərqli bir yazıçı olmaqla bərabər, fərqli qələm sahiblərini də toplaya bilib jurnalın ətrafına. Demək olar ki, bütün saylarını oxuduğum bu dərgiyə 50-ci yaşını qeyd etməyi arzu edirəm. Niyə 50? Ona görə ki, mən inanıram ki, yeni qüvvələr - yeni "Yazı"çılar bu böyük ədəbi hadisənin gələcəkdə də yaşaması üçün lazım olanı edəcəklər. Çünki azad ədəbiyyata hər zaman ehtiyac olacaq. Axı "Yazı" azad ədəbiyyatın mayakıdır.



***Məmməd Elli***

---

Azad Qaradərəli həm dostum, həm də qohumumdur. Mən həm də onun kitablarının oxucusuyam. Təkcə kitablarının deyil, elə redaktoru olduğu "Yazı" ədəbiyyat jurnalının da! Bəli, bu jurnalı ilk dəfə Azad müəllimin 60 illik yubileyində görmüşdüm. Elə o vaxtdan, mümkün qədər yeni nömrələrini əldə etməyə çalışıram. Gənclik illərindən kitaba, jurnala olan marağımda son illərdə elə bil boşluq yaranmışdı. İndi "Yazı"nın vasitəsi ilə o boşluğu doldururam. Bu jurnala və onun kollektivinə, yorulmaz rəhbərinə uğurlar arzulayıram. 5 yaşınız mübarək!



***Hacı Dadaş***

---

Zamanın çox dar çağında
Əl uzatdı "Yazı" bizə.
Küsmüşdü könül dəmimiz
O yazdırdı yazı bizə.
İndi 5 yaşı tamamdır
Deyəcək "söz bazı" bizə
Hər sözü könlü ilməsi
Xoş gəlir avazı bizə.
Təbrik edək yubileyini
Dost edib Azadı bizə



**İsfəndiyar Əhmədli**

# Bloq yazıları

## FATİMƏ KƏRİMLİ



### Yaralar

Ürəyimin düz ortasında ağrı hiss edəndə həkim olmağa qərar vermişdim.Onda cəmi 20 yaşım var idi. Səhv addımların ən çox atıldığı yeniyetmə dövrü geridə qalmışdı, amma səhv addım mənim ayaqlarımın həyatımın bütün yaşlarında ən yaxşı bacardığı iş olub. Ağrılarım 20 yaşımdan çox-çox əvvəl başlamışdı. Nəyə görə isə ağlıma batmışdı ki, insanlara ağrının səbəbini yox, onun şiddətini göstərmək istəyirəm. Çox gənc idim və içimi heç kimə göstərə bilməmək mənə dəhşətli əzab verirdi. Belə qət etmişdim ki, bütün bunların tək səbəbi onların heç nəyi görməməyidir. Gözlərini açsam, ikiqat əzabdan xilas olacam, rahat nəfəs alacam.

Dilənçi

İyirmi ildən çoxdur ki, biz Onla bir evdə yaşayırıq. Onun hər hərəkətinin səbəbini hər sözünün arxasındakı mənanı, hər baxışının əslində nə demək olduğunu, nəyi bəyənib, nəyi bəyənmədiyini hamısını əzblərləmişəm. Çünki ömrümün bu iyirmi illik qismi onu müşahidə eləməyə, onun varlığını düşünməyə sərf olunub. Bu illəri mən sərf etmişəm, yoxsa o mənim əlimdən alıb, bilmirəm.

### Ölümlərdən ölüm bəyənmək

İndiyə qədər neçə dəfə ölmək istəmişəm? Bəs indiyə qədər neçə dəfə ölmək istəməmişəm? Neçə dəfə ölümdən qorxmuşam? O biriləri bilmirəm, amma birinci dediyim çox olub. Heç vaxt onun bu qədər çətin olacağını düşünməmişdim. Ən azından ölümlər arasında seçim edəcəyim ağlıma gəlmirdi. Dünyada neçə nəfər adam belə “azad seçki” ilə ölür ki? Neçə ölü son anının necə olacağını özü müəyyən edib?5, 15, 20, 30, 40.. hər neçəsə o cərgədə mən də varam artıq. Yanğının içində oturub gözləmək, yavaş-yavaş alovlanmaq… Tüstüdən boğulub ölmüsənsə, bunlara dözmək daha asan olur. Amma hissə-hissə yanmağa başladığını seyr etmək…

### Qazıntı

Uzun dırnaqlarım ömrümdə ilk dəfə bir işə yaramışdı. İlk dəfə idi ki, dırnaqlarımın dərimi cızmağından məmnun idim.İstəmirdim ki, bu işi hansısa yardımçı vasitə, yaxud da nə isə alətlə edim. Hər şeyi özüm etməli idim. Bu qədər ciddi işi adi bıçağa, ya da başqa vasitəyə həvalə edə bilməzdim.Tək yaşadığım iki mərtəbəli, balkonlu evin arxa balkonuna çıxdım. Pilləkənlə aşağı enib ən aşağıdakı pillədə oturdum. Buna ayaq üstə dözmək olmazdı, hiss edirdim. Çox ağır olacağını, bəzi şeylərə dözməyin çətin

olacağını bilirdim. Buna hazır idim? Onu dəqiq bilmirəm. Ağrıya necə hazır olmaq olar axı? Ağrı hər dəfə ilk dəfə imiş kimi gəlmir? Hər dəfə eyni şiddətlə didmir içini? Ömründə neçə dəfə və nə qədər tez-tez bunu yaşamaq lazımdır ki, ağrını vecsiz qarşılaya biləsən, buna gücün çata? Bilmirəm. Mənim təcrübəmdə belə şey yox idi.

## Musiqiçi

Musiqi başlayanda zal hələ tam dolmamışdı. Dostumun konserti olduğundan vaxtından tez gəlmişdim. Zalda bir küncdə yer tapıb oturdum. Onu yaxşı tanıyırdım, ona yanında kimləsə oturub qulaq asmaq olmazdı, qadağan idi elə bil. Nə çaldığını, ifa etdikcə nə qışqırdığını eşitmək üçün büsbütün tək olmaq, onun ifasına köklənmək lazım idi.



# HƏRCAYİ

## *MİSKİN ƏZGİN*



Məni doyuzduramaz pivə, içki,
Nə olacaq, olacaq, cəhənnəmə ki!
Könül deputat olmaq istər, bilin,
Nəyimə lazım dərd-səri elin?!

Böyük qonorar, təqaüd! Qaz-qazan,
Saray şairiyəm, yalaq bir ozan!
"Xalq şairi" lap boyuma biçilib!
Kim deyir ki, istedadım kiçilib?!

Adı batsın azad söz istəyənin,
Alsınlar qoy onun yəhər-yüyənin!
Məni doyuzduramaz pivə, içki,
Nə olacaq olsun, cəhənnəmə ki!

# PALİTRA

## ABİDİN DİNO



23 Mart 1913 günü İstanbulda doğulan Abidin Dino uşaqlıq illərini ailəsiylə bərabər Cenevrədə keçirdi. Daha sonra ailəliklə Fransaya getdilər. 1925-ci ildə Cümhuriyyətin qurulması zamanı ailə İstanbula döndü. Abidin Dino burda rəsm, karikatura və yazı sənətini inkişaf etdirir. “Artist” dərgisində əsərləri 1930-cu illərdə yayımlanır. Nazim Hikmətin kitablarına qapaq və içlik şəkilləri çəkdi. Az sonra əsərləri ölkə sərhədlərini aşdı.1933-cü ildə D Grubu adlı sənət axınının qurucuları arasında yer aldı.Məqsəd məmləkətdə sənətin inkişafına nail olmaq, modern, qərb təfəkkürü ilə yeni uğurlara imza atmaq idi.



1934-cü ildə SSRİ-yə getdi. Ssenari, rejissorluq üzrə kurslarına qatıldı.1941-ci ildə əsərləri sərgidə yayımlanır. Siyasi görüşlərinə görə Adanaya sürgün edildi. 1951-ci ildən Parisdə yaşamağa başladı. Rəsmləri Türkiyədə və xaricdəki sərgilərdə - Fransa, Əlcəzair, Amerikada nümayiş olundu.



Rəssamlığı ilə bərabər, o, bir film yaradıcısı, həm də yazar kimi də mışhurdur. Parisdə və Londonda yaşadığı zamanlar Gertrude Stein, Tristan Tzara, Eisentein, Andre





Gözəl əlləri varmış Abidin Dinonun. Özü yaraşıqlı olmasa da çəkici bir xarakterlə qadınları ovsunlayarmış.



Malrauxve, Pablo Picasso ilə dostluq qurdu.

Abidin Dino, 7 dekabr 1993-cü ildə Parisdə vəfat etdi. Cənazəsi İstanbula gətirilərək Aşiyanda torpağa verildi.

Nazim Hikmətlə böyük dostluq telləri bağlayırdı onu. "Mənə mutluluğun rəsmini çəkə bilərsənmi, Abidin?" deyə soruşmuşdu böyük Nazim. Rəssam cavab vermişdi:

"Gedəbilsəydik Messeret qəhvəxanasına, ilk qarşılaşdığımız yerə və bir acı qəhvəmi içsəydin, danışsaydıq o günlərdən, gələcəkdən… Necə gecələr…Bütün acılar səninlə dinərdi. Bir yuxu olardı ayrılığımız – xatirələırdə qalan. Və dolaşsaydıq Türkiyəni bu başdan o başa. Yatdığımız yerlər muzey olmuş, sürgün şəhərləri cənnət. Bax, o zaman Nazim,çəkərdim mutluluq rəsmini. Buna da nə fırça yetərdi, nə boya." Rəsm yerinə bax, bu şeiri yazmışdı …

Üç dildə rahat danışan və yazan Dino xarici qəzet və jurnallarçün xüsusi məqalələr, yorumlar yazardı. O, həm də bir film uzmanı və esseist idi.

Xərçəngdən əziyyət çəkəndə "aslant kimiyəm, yaxşıyam" deyib ətrafa işıq saçarmış.



# YENİ NƏŞRLƏR































